


Heydər Əliyevin abidəsi. İsmayıllı şəhəri

***Biz öz tarixi köklərimizlə, maddi və mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik. Fəxr edə bilərik ki, bizim mədəniyyətimiz qədim zamanlarda da çox zəngin və yüksək olmuşdur.***

***Heydər Əliyev***

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində nəşr olunmuşdur.

TOFİQ BABAYEV
TAHİR ŞAHBAZOV

# Başqal

## TARİXİ-ETNOQRAFİK TƏDQİQAT

BAKI – ELMİN İNKİŞAFI FONDU – 2017

*Elmi redaktor*:
**Qafar CƏBİYEV**
*tarix üzrə elmlər doktoru, professor*

*Rəyçilər*:
**Nərgiz QULİYEVA**
*AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi,*
*tarix üzrə elmlər doktoru, professor*
**Əsəd ƏLİYEV**
*AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi,*
*tarix üzrə fəlsəfə doktoru*

**T.A.Babayev, T.S.Şahbazov. BASQAL.** ***Tarixi-etnoqrafik tədqiqat.***
– Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondu, 2017. – 344 səh.

Kitab müasir İsmayıllı rayonunun inzibati-ərazi vahidliyinə daxil olan, Böyük Qafqaz sıra dağlarının cənub yamacında – Niyaldağ silsiləsinin ətəklərində yerləşən Basqal qəsəbəsinin tarixi-arxeoloji və etnoqrafik tədqiqinə həsr olunmuşdur. 1989-cu ildə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Dövlət Tarix və Mədəniyyət Qoruğu elan edilmiş Basqal özünün plan-məkan quruluşu, memarlıq xüsusiyyətləri, tarixi abidələri, sənətkarlıq ənənələri və s. ilə Orta əsrlər şəhər mədəniyyətinin elementlərini günümüzə qədər çatdıran unikal yaşayış məskənlərimizdən biridir. Basqal tarixən ipək məmulatı istehsalı, xüsusilə də kəlağayıçılıq sənəti ilə daha çox şöhrət tapmışdır. Basqallı ustaların nəfis şəkildə hazırladıqları kəlağayılara hələ uzaq keçmişdə Şərq və Avropa ölkələrində böyük maraq olmuş və bu nadir sənət inciləri Azərbaycanın iqtisadi və ticarət əlaqələrində mühüm rol oynamışdır. Onlar zaman-zaman müxtəlif beynəlxalq sərgilərin mükafatçısı olmuş və bu günə qədər dünyanın ən məşhur muzeylərinin dəyərli eksponatları kimi çıxış etməkdədirlər. Təsadüfi deyil ki, Basqal kəlağayısının simasında Azərbaycan kəlağayısı 2014-cü ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Mənbə, ədəbiyyat və informatorların məlumatları əsasında yazılmış “Basqal (tarixi-etnoqrafik tədqiqat)” əsəri elmi ictimaiyyət və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Başqa sözlə, yurdumuzun bu dilbər guşəsini daha yaxından tanımaq istəyən hər kəs bu kitabdan faydalana bilər.

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində çap olunmuşdur:**
**Qrant № EİF -2013-9(15)-46/38/5**

**Bu əsər 13 mart 2014-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 7982 nömrəli Şəhadətnamə (qeydiyyat nömrəsi: 04/C -7467-14) verilmişdir.**

**ISBN: 978-9952-516-04-3**

© Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondu, 2017
© T.A.Babayev, T.S.Şahbazov, 2017

**QƏDİM DİYAR**
**HAQQINDA**
**YENİ ƏSƏR**

Müasir Azərbaycan mədəniyyəti ümumbəşəri dəyərlər sisteminin tərkib hissəsi olmaqla, özünün keşməkəşli inkişaf tarixi, zənginliyi və rəngarəngliyi ilə bu sistemdə özünəməxsus yer tutur. Belə ki, ölkəmizin ərazisinin tarixən Qərb və Şərq sivilizasiyalarının qovşağında yerləşməsi, aktiv inteqrasiya proseslərinin mərkəzində olması onun mədəniyyətində də əksini tapmış və bu mədəniyyəti daha cazibədar, daha rəngarəng və daha unikal etmişdir. Məhz buna görə də bu gün Azərbaycan xalqı tarixən yaratdığı maddi və mənəvi mədəniyyət nümunələri – memarlıq abidələri, musiqisi, xalçası, ədəbiyyatı, teatrı və s. ilə haqlı olaraq fəxr edir. Təsadüfi deyil ki, həmin maddi və mənəvi dəyərlərin bir çoxu UNESKO-nun maddi və qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir.

Azərbaycan ərazisi həm də dünya şəhər mədəniyyətinin yaranıb formalaşdığı və yayıldığı məkanlardan sayılır. Bakı, Naxçıvan, Gəncə, Qəbələ, Beyləqan, Şamaxı və başqa şəhərlərimiz qədimliyi, Şərq sivilizasiyasının şəhərsalma ənənələrinə uyğunluğu, memarlıq üslubu, infrastruktur və s. baxımından dünya şəhərləri sırasında özünəməxsus yer tutur. Lakin həmin şəhərlərlə bərabər elə yaşayış məntəqələrimiz – kənd və qəsəbələrimiz var ki, onlar da orta əsr şəhər mədəniyyəti elementlərini bu günə qədər yaşatmaqdadırlar. Özünün orijinallığı və identikliyi ilə seçilən bu kənd və qəsəbələr zaman-zaman baş vermiş təbii-coğrafi, sosial-iqtisadi və siyasi proseslərin hər cür təsirlərinə rəğmən spesifik elementlərini, tarixi küçə və məhəllə strukturlarını, klassik ev nümunələrini, məscidləri, ibadətgahları və s. qoruyub saxlamış, xalqımızın ənənəvi təsərrüfat və mədəni-məişət xüsusiyyətləri-

ni günümüzə çatdıra bilmişlər. Lahıc (İsmayıllı rayonu), İlisu və Sarıbaş (Qax rayonu), Xınalıq (Quba) və Qala (Abşeron) kəndləri məhz belələrindəndir. Təqdirəlayiq haldır ki, onlar qədim və zəngin tarixi-mədəni irs nümunələri olaraq dövlətin mühafizəsinə götürülmüş və əraziləri qoruq elan edilmişdir.

Azərbaycan tarixiliyi, özünəməxsusluğu və təbii gözəllikləri ilə seçilən belə yaşayış məntəqələrindən biri də Basqaldır. 1932-1933-cü illərdə indiki İsmayıllı rayonunun mərkəzi olmuş Basqal öz unikal təbii-coğrafi mövqeyi, abidələri, sənətkarlıq ənənələri, əhalisinin keçmişə, milli yaddaşa və milli-mənəvi dəyərlərə bağlılığı, bütün bunlarla yanaşı həm də, müasirliyi ilə sözün tam mənasında açıq səma altında etnoqrafik muzeydir.

Əslində Basqalın tarixən kənd, qəsəbə və ya şəhər olması ilə bağlı elmdə vahid fikir yoxdur və bu barədə mübahisələr hələ də davam edir. Alimlər məsələ ilə bağlı konkret bir fikir söyləməkdən çəkinirlər. Amma, "görünən kəndə nə bələdçi" – deyib, müdriklərimiz. Basqalda canlı olaraq gördüklərimiz, o cümlədən bizə gəlib çatan bəzi tarixi məlumatlar vaxtilə buranın şəhər, ən azından isə şəhər tipli yaşayış məntəqəsi olduğuna dəlalət edir. Bundan başqa, bəzi yazılı mənbələrdə də Basqalın adı məhz şəhər olaraq qeyd olunur. Məsələn, XIX əsr müəllifi V.Lebedov-Konstrometes "Qafqaz" qəzetinin 1882-ci il, 310-cu sayında dərc olunmuş qeydlərində Basqalı məhz şəhər kimi təqdim edir: "... Basqal şəhərinə qəza mərkəzi Şamaxıdan Rusiya atlarından kiçik, lakin zərif və iti yerişli kəhər atla gəldik. ... Basqal şəhərinə axşam vaxtı yetişdik...".

Fikrimizcə, bu məsələ ətrafında düşünməyə dəyər. Əvvəla, ona görə ki, orta əsrlərdən başlayaraq tarixi ədəbiyyatda adı çəkilən Basqal ərazisinə və əhalisinin sayına görə, Azərbaycanın iri yaşayış məntəqələrindən biri olmuşdur. İkincisi, məntəqə orta əsr şəhərlərinin strukturuna uyğun olan bir sıra parametrlərə malikdir. İlk növbədə

Basqal bir zamanlar qala divarları ilə əhatə olunubmuş ki, bu fakt da hal-hazırda Qalabaşı məhəlləsindəki qalınlığı bir neçə metrə çatan qala divarlarının qalıqları ilə sübut olunur. Lakin həmin qala divarlarının hansı dövrə aid olması dəqiq müəyyənləşdirilməmişdir. Bəzi tədqiqatçılar onu XIV əsrə aid etsələr də, ortada konkret bir sübut yoxdur. Yəni, qala divarlarının tarixinin daha qədim dövrə aid olması istisna deyildir. Və təbiidir ki, ərazidə arxeoloji qazıntılar aparılmadan bu barədə son və qəti söz demək çətindir. Üçüncüsü, Basqalın memarlıq quruluşu – daş döşənmiş küçə və meydanları, cərgə ilə düzülmüş emalatxana və dükanları, çox mükəmməl su və kanalizasiya şəbəkəsi onun şəhər mədəniyyəti elementləri ilə zənginliyini və bəlkə də orta əsr şəhərlərindən biri olduğunu təsdiqləyən çox ciddi arqumentlərdir. Dördüncüsü və bəlkə də ən başlıcası Basqal orta əsr şəhərləri kimi, yüzilliklər boyu mühüm sənətkarlıq mərkəzi, Qafqazda ipək istehsalı və ticarətinin cəm olduğu çox mühüm yaşayış məntəqələrindən biri olmuşdur. Basqal ustalarının istehsal etdikləri ipək məmulatı (kəlağayı, qanovuz, mov, darayı, yorğanüzü və s.) Azərbaycanın sərhədlərini aşaraq Şərqdə Hindistana, Qərbdə isə Fransaya qədər gedib çıxmışdır. Basqal sənətkarları xam ipəyi əsasən Şəki, Qaraməryəm, Bığır, Vəndam, Qəbələ, İsmayıllı, Ordubad, Kutaisi və Səmərqənddən alırdılar ki, bu da öz növbəsində Basqalın dünyanın müxtəlif ölkələri və şəhərləri ilə geniş iqtisadi və ticarət əlaqələrindən xəbər verir. Bundan başqa basqallılar bir çox ölkələrdə və şəhərlərdə bu qədim xalq sənətini təbliğ və inkişaf etdirmiş, icma şəklində yaşayaraq öz doğma yurdlarının adını da yaşatmağa çalışmışlar.

Bütün bu məsələlər AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları Tofiq Babayev və Tahir Şahbazovun birlikdə qələmə aldıqları "Basqal (tarixi-etnoqrafik tədqiqat)" adlı monoqrafiyada öz geniş təhlilini tapmışdır. Lakin bu monoqrafiyada ən başlıca cəhət sənət istehsalı tarixinin bilavasitə şəhərlərin yaranması və inkişafı ilə

üzvü surətdə bağlılığının ön plana çıxarılmasıdır ki, bu da Basqalın şəhər ənənələrinin daşıyıcısı olması fikrini bir daha möhkəmləndirir.

Bundan başqa, şəhərçilik ənənələri basqallıların məişətində, psixologiyasında, etik və davranış normalarında həmişə mövcud olmuş və nəsildən-nəsilə ötürülərək indinin özündə də yaşamaqda davam edir. Monoqrafiya müəllifləri də faktiki materiallar əsasında əsas diqqəti məhz həmin vacib məsələlərə yönəldərək Basqalın tarixi etnoqrafiyası ilə bağlı açıq qalan bir çox problemlərin həllinə cəhd göstərmişlər.

Etiraf edək ki, Basqal haqqında çoxlu sayda məqalə və bir neçə kitabların yazılmasına baxmayaraq, bu qədim yurdun tarixi, etnoqrafiyası, məişət və mədəniyyəti kompleks şəkildə və elmi əsaslarla ilk dəfə olaraq məhz bu monoqrafiyada öz əksini tapmışdır. Müəlliflər zəngin ədəbiyyat və aylarla Basqalda və ətraf kəndlərdə topladıqları çöl-etnoqrafik materiallarını elmi dövriyyəyə daxil etməklə ipək məmulatı istehsalının, xüsusilə də kəlağayıçılığın tarixi, inkişafı, kəlağayı sənətinin texnoloji əsasları, kəlağayıçılıq ənənələri və bu qədim sənətin indiki vəziyyəti barədə dolğun təsəvvür yarada bilmişlər. Bütün bunlar da nəticə etibarilə Basqalda ipək istehsalı tarixinin etnoqrafik aspektlərini yüksək elmi-nəzəri səviyyədə həll etməyə imkan vermişdir.

Monoqrafiyada kəlağayıçılıqdan başqa, bir zamanlar Basqalda geniş intişar tapmış qanovuz, mov, yorğanüzü, darayı və digər növlərdən olan ipək parça istehsalından və ticarətindən də bəhs edilir, yeri gəldikcə bu sənət sahələrinin tanınmış nümayəndələri barədə məlumat verilir.

Basqalın məşhur Bazar meydanındakı ticarət cərgələrində qəsəbə sakinlərinin dəmirçilik, dulusçuluq və başqa sənətkarlıq məhsulları satılan dükanlarının fəaliyyət göstərməsi, ətraf rayon sakinlərinin də bura alış-verişə gəlməsi, qəsəbədə daşişləmə, ağacişləmə, kömürbasma və s. sənət-peşə sahələrinin mövcud olması haqda məlumatlar da ki-

tabda öz geniş əksini tapmışdır.

Artıq qeyd etdiyimiz kimi, Basqal həm də öz tarixi abidələri ilə diqqət çəkir. Burada dövlətin mühafizəsində olan 20-dən artıq tarixi-arxeoloji və mədəniyyət abidəsi qeydə alınmışdır. Elə buna görə də, qəsəbə 28 iyul 1989-cu il tarixində Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə "Dövlət Tarix və Mədəniyyət Qoruğu" elan olunmuşdur.

Basqal abidələrinin sırasında yaşı yüzillərlə ölçülən Düzən qəbiristanlığını, XVI əsrin yadigarı olan Şeyx Məhəmməd məscidini, XIX əsrdə tikilmiş Hacı Bədəl məscidini, yenə də XVI əsrin memarlıq incilərindən sayılan Basqal hamamını, 500 ildən artıq yaşı olan çinar ağacını, göz oxşayan bulaqları və s. göstərə bilərik. Amma elə buradaca onların bir çoxunun əsaslı təmirə və bərpaya ehtiyacı olduğunu da qeyd etməyi özümüzə borc bilirik. Monoqrafiya müəllifləri də bunu qeyd etmiş və həmin abidələrlə bağlı tədqiqata cəlb etdikləri yazılı və çöl-etnoqrafik materialları üzərində müvafiq ümumiləşdirmələr aparmışlar.

Basqalın olduqca əlverişli strateji mövqedə – tarixi Şamaxı-Qəbələ tranzit yolu üzərində yerləşməsi, ətraf ərazinin qədim tarixə malik arxeoloji abidələrlə (Kürdüvan, Uzunboylar, Nüydü, Lahıc, Qırlartəpə və s.) zənginliyi, ona bitişik ərazidə Xankəndi, Fit və Niyal abidələrinin mövcudluğu özü-özlüyündə buranın bir yaşayış məntəqəsi olmaq etibarilə qədimliyi barədə düşünməyə məntiqi əsas verir.

Təbiidir ki, yüksək inkişaf yolu keçən ənənəvi sənət sahələri, özünəməxsus arxitekturası və s. spesifiklikləri ilə tanınan Basqal kimi iri yaşayış məntəqəsi birdən-birə yarana bilməzdi. Yəni, Basqal uzun bir tarixi dövrün – yüzillərin, bəlkə də minilliklərin yadigarıdır. Bütün bu məsələlər də monoqrafiyada öz geniş təhlilini və həllini tapmışdır.

Müasir Basqalın indiki ərazisi xeyli genişlənərək Basqal çayının o biri tayına adlamışdır. Qəsəbənin el arasında "o tay" adlanan hissəsi müasir üslubda tikilən evlərdən ibarət olsa da, "bu tay" adlanan qə-

dim hissədə Bakının İçərişəhərində olduğu kimi, evlər çox sıx tikilmiş, bir evin divarı digər evin divarı ilə, bir evin damı digəri ilə az qala birləşmişdir. Torpaq azlığı üzündən burada həyətlər də həddindən artıq kiçik, küçələr dar və sərt döngəlidir. Çoxunda müasir nəqliyyat vasitələri hərəkət edə bilmir. Lakin burada görünməmiş səliqə-sahman, abadlıq və təmizlik hökm sürür. Küçələr, həyətlər, meydanlar başdan-başa çay daşları ilə döşənmişdir. Burada qüsursuz işləyən qədim su və kanalizasiya şəbəkəsi də Basqalın şəhər mədəniyyətindən xəbər verir.

Lakin Basqalı şəhər kimi təqdim edən təkcə onun memarlıq quruluşu, sənətkarlığı və maddi mədəniyyət elementləri deyildir. Müəlliflərin də qeyd etdiyi kimi, Basqal öz maarifçilik ənənələri, yetişdirdiyi dəyərli ziyalıları və şəxsiyyətləri ilə də haqlı olaraq öyünür. Burada başqa yerlərdən fərqli olaraq, hər zaman uşaqların maariflənməsinə, elm və təhsil almasına böyük önəm vermişlər. Təsadüfi deyil ki, Basqaldan yüksək mədrəsə təhsili görmüş, xalq arasında böyük nüfuz qazanmış Axund Dadaş, Molla Məhəmmədkərim, Məşədi Ağakərim, Axund Əli, Axund Əhməd, Molla Abdulsalam, Hacı Həsən, Molla Məhəmməd, Məşədi Əlibala və başqaları kimi hörmət-izzət sahibi olan insanlar çıxmışdır. Bu müdriklər bütün həyatları boyu insanları doğru yola səsləmiş, təhsili, oxuyub-öyrənməyi təbliğ etmişlər.

Azərbaycanda qadın təhsili uğrunda mübarizədə basqallı qadınlar da iştirak edirdi. Onlar bu sahədə görülən işlərin ən fəallarından və öncüllərindən idilər. Bəlkə də buna görə XX əsrin əvvəllərində Basqalda təhsillilərin sayı Şamaxıdakından çox olmuşdur. Bu baxımdan Basqalda məktəb və maarifçiliyin tarixi ilə bağlı məsələlərə monoqrafiyada ayrıca bölmənin həsr edilməsi təqdirəlayiqdir. Təkcə onu yada salaq ki, 1887-ci ilin 25 avqustunda Basqalda müəllim kadrları hazırlayan məktəb kimi fəaliyyətə başlayan indiki Basqal məktəbinin sinif otaqlarından yüzlərlə elm, mədəniyyət və dövlət xadimləri çıxmışdır.

Vaxtilə bu məktəbdə Məmmədəli Nəsibzadə, Şamaxıdakı "Üsuli-cədid" məktəbinin yetirməsi olan Xaliq Fətəlizadə kimi tanınmış müəllimlər dərs demişlər. Ağarəzi xan Qasımxanlı, Rəfi Əliyev, İsgəndər bəy Səfərəliyev, Növrəstə xanım Kərimzadə, Dəmir Hacıyev, Törə Hüseynova, Yavər Hüseynov, Ağaələkbər Ələkbərov, Saleh Mustafayev və onlarla başqaları əsil təhsil fədailəri olmuşlar. Adı çəkilən ziyalılar Basqalın yaşlı adamları tərəfindən indi də hörmətlə yad edilirlər. Ümumiyyətlə, Basqal məktəbi bütün dövrlərdə ən qabaqcıl təhsil ocaqlarından olmuş və bu ocaq təkcə Basqalın deyil, bütövlükdə Azərbaycanın, keçmişdə isə SSRİ-nin ictimai-mədəni həyatında mühüm rol oynamış böyük şəxsiyyətlər yetirmişdir.

Monoqrafiyada Basqal əhalisinin ailə-məişət münasibətləri, nikah-toy adətləri, xalq təbabəti və Basqala həsr olunmuş folklor nümunələri də etnoqrafik təhlilə cəlb edilmişdir ki, bunlar da öz növbəsində buranın insanlarının mənəvi dünyası ilə bağlı çoxlu sayda maraqlı məqamların ortaya çıxmasına səbəb olmuşdur. Xüsusilə, monoqrafiya müəlliflərinin Basqaldan topladıqları və bu yurdun insanlarının Basqala sonsuz məhəbbətini, sevgisini əks etdirən, bu yurdun təbiətinə, dağına-daşına, qışına-yazına həsr olunmuş bayatıları könül oxşayır:

Əzizinəm dolmuşam,
Kədəri bol olmuşam.
Qürbət canımı sıxıb,
Basqala yol almışam.

və yaxud;

Əzizinəm tas qaldı,
Su calandı, tas qaldı.
Yad eldə cənnət gəzmə,
Cənnət-məkan Basqaldı.

Monoqrafiya müəllifləri bir sıra təkliflərlə də çıxış edirlər ki, bu təkliflərin reallaşması Basqalın yaxın perspektivdə daha geniş miqyasda tanınmasına, onun sosial-iqtisadi və mədəni tərəqqisinə imkan verəcəkdir. İlk növbədə, Basqalın arxeoloji tədqiqi mühüm bir məsələ kimi ortaya qoyulur və göstərilir ki, qəsəbə ərazisinin arxeoloji araşdırılması və əldə ediləcək elmi nəticələr təkcə regionun deyil, bütövlükdə Şirvan və Azərbaycan tarixi üçün əhəmiyyətli olan yeni materiallar verə bilər.

Əsərdə Basqalın turizmin inkişafı baxımından olduqca əlverişli imkanlara malik olduğu vurğulanır və göstərilir ki, bu işin həyata keçirilməsi Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın ruhuna və tələblərinə tam uyğundur. Belə ki, iqtisadiyyatın diversifikasiyasının, qeyri-neft sektorunun və regionların inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması məqsədi daşıyan həmin Proqramda əksini tapmış bir çox müddəalar Basqalın təbii və sosial-iqtisadi imkanlarına tam şəkildə cavab verir. Yəni, burada qədim sənətkarlıq sahələrini, xüsusilə ipəkçiliyi və kəlağayıçılığı bərpa və inkişaf etdirməklə, beynəlxalq tələblərə cavab verən turizm infrastrukturu yaratmaqla, tarixi abidələri bərpa və konservasiya etmək, muzey işini təkmilləşdirmək, otel-iaşə xidmətini yüksək səviyyədə təşkil etməklə bölgəyə geniş turizm axınına nail olmaq mümkündür ki, bu da nəticədə yeni iş yerlərinin açılmasına, əhalinin maddi durumunun yaxşılaşmasına, bununla da sosial-iqtisadi tərəqqiyə gətirib çıxaracaqdır. Bu sahədə təcrübəli və ixtisaslı kadrların olduğu, Basqal mətbəxinin zənginlikləri, ərazinin təbii-coğrafi rəngarənglikləri və s. mütləq şəkildə nəzərə alınmalıdır.

Bir sözlə, görkəmli etnoqraf-alimlər Tofiq Babayev və Tahir Şahbazovun gərgin və səmərəli axtarışlarının məhsulu olan "Basqal (tarixi-etnoqrafik tədqiqat)" adlı monoqrafiya istər elmi, istərsə də praktiki

baxımından böyük əhəmiyyət kəsb edir. Əvvəla ona görə ki, monoqrafiya Basqalın tarixi-etnoqrafik yöndə öyrənilməsinə həsr olunmuş ilk əsər kimi tədqiqatçılar üçün zəngin mənbə ola bilər. İkincisi, belə bir əsərin yazılması elmimizin regionşünaslıq sahəsinin daha da inkişaf etdirilməsinə, son zamanlaradək diqqətdən kənarda qalmış digər kənd və qəsəbələrimizin də tarixi-etnoqrafik baxımdan araşdırılmasına stimul verəcəkdir.

Sonda müəlliflərə bir tarixçi alim, ondan daha ümdəsi bir İsmayıllı ziyalısı olaraq dərin təşəkkürümü bildirir və inanıram ki, onların Basqala və basqallılara sonsuz sevgi-məhəbbətlə yazdıqları bu kitab öz əhəmiyyətinə və elmi səviyyəsinə görə təkcə basqallıların deyil, hər bir Azərbaycan oxucusunun stolüstü kitabına çevriləcəkdir.

***Qafar Cəbiyev***
*Tarix üzrə elmlər doktoru, professor,*
*Azərbaycan Respublikasının*
*Əməkdar jurnalisti*

# GİRİŞ

Bəşər sivilizasiyasının ilkin ocaqlarından olan Azərbaycan torpağı yaşı minillərlə ölçülən şəhər və yaşayış məntəqələri, xalq ustalarının böyük sənətkarlıqla inşa etdikləri tarixi-memarlıq abidələri – qalalar, körpülər, yaşayış evləri, müxtəlif təyinatlı dini-ictimai binalar və s.-lə olduqca zəngindir. Şərəfli keçmişimizin silinməz yaddaşı, xalqımızın milli qürur və iftixar mənbəyi olan bu abidələrin sırasına mənəvi mədəniyyət yadigarlarını – ulu dastanlarımızı, nağıllarımızı, rəvayətlərimizi, bal kimi süzülən bayatı və nəğmələrimizi, elm, ədəbiyyat, şeir-sənət, musiqi və s. nümunələri də əlavə etsək, böyük bir siyahı alınar. Onları qorumaq, yaşatmaq və sonrakı nəsillərə ötürmək hər kəsin vəzifəsi, eyni zamanda vətəndaşlıq borcudur.

Müstəqil Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyev cənabları ölkəyə rəhbərliyinin bütün dövrlərində xalqın mədəni-mənəvi irsinə məhz bu prinsipdən yanaşılmasını tövsiyə etmişdir: "... Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir... Müstəqil dövlət kimi xalqımızın milli köklərini, tarixini, qədim mədəniyyətini, böyüklüyünü öz vətəndaşlarımıza da, bütün dünyaya da göstərməliyik, təbliğ etməliyik".

Azərbaycan xalqının gələcəyi, daha işıqlı sabahı haqqında düşü-

nən ümummilli liderin milli mənəvi dəyərlərimizə sevgisi, tarixi keçmişimizə hörməti və ehtiramı bu gün möhtərəm prezidentimiz İlham Əliyev cənabları tərəfindən yaşadılır və inamla, qətiyyətlə davam etdirilir. Ölkə prezidentimiz bu məsələ ilə bağlı bir neçə sərəncam imzalamış və onların yerinə yetirilməsi haqqında müvafiq strukturlara və icra orqanlarına tapşırıqlar vermişdir. Cənab prezident çıxışlarının birində demişdir: "... Uzun illərdən bəri Azərbaycanın nadir tarixi-memarlıq abidələri lazımınca qorunmamış, onlardan bir çoxu baxımsızlıq üzündən yararsız hala düşmüş, səriştəsizlik nəticəsində bəzilərinin bərpası tikililərin heyrətamiz tarixi görünüşünə və çoxəsrlik memarlıq irsi ənənələrinə ciddi xələl gətirilərək aparılmışdır. Təmir-bərpa işləri görülərkən ümumi prinsiplərə riayət olunmadığı kimi, binaların divarlarına vurulan zövqsüz reklam lövhələri, çəkilən elektrik xətləri, habelə digər kommunikasiya şəbəkələri və razılaşdırılmadan edilən dəyişikliklər tarixi tikililəri eybəcərləşdirilmişdir. Bir sıra hallarda isə nadir gözəlliyə və tarixi əhəmiyyətə malik abidələr ümumiyyətlə, diqqətdən kənarda qalmışdır...".

Bunun nəticəsidir ki, qısa zaman kəsiyində ölkə ərazisində "Yanardağ" dövlət tarix-mədəniyyət və təbiət qoruğu, "Atəşgah məbədi", "Keşikçidağ" və "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya qoruqları yaradılmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 18 mart tarixli Qərarı ilə "Abidə qoruqlarının nümunəvi Əsasnaməsi" təsdiq edilmişdir. Bundan başqa, Azərbaycan dövlətinin mədəni irsin qorunması və təbliği istiqamətində gördüyü məqsədyönlü işlərin nəticəsi olaraq, 2000-ci ildə "İçərişəhər" dövlət tarix-memarlıq qoruğu, o cümlədən Şirvanşahlar sarayı kompleksi və Qız qalası, 2007-ci ildə isə "Qobustan" dövlət tarixi-bədii qoruğu UNESCO-nun

Dünya Mədəni İrs Siyahısına daxil edilmiş, Respublika Nazirlər Kabinetinin 2007-ci il 6 noyabr tarixli qərarı ilə ona "Milli qoruq" statusu verilmişdir. 2008-ci ildə isə "Qala" tarix-etnoqrafiya qoruğunun ərazisində Heydər Əliyev Fondunun təşəbbüsü və rəhbərliyi ilə açıq səma altında "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksi yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanan "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" da milli mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamlı olaraq həyata keçirilməsinə hesablanmışdır. Xüsusilə qloballaşma proseslərinin böyük vüsət aldığı, mədəniyyətlərarası inteqrasiyanın sürətləndiyi, qərb dəyərlərinin milli dəyərlərə nüfuz etməyə başladığı müasir dövrümüzdə bu məsələ daha çox aktuallıq kəsb edir.

Məlum olduğu kimi, bu məsələlərin nizamlanmasında və həllində dövlət strukturları ilə yanaşı, Heydər Əliyev Fondunun rəhbəri UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri vardır. Belə ki, 1995-ci ildə "Azərbaycan Mədəniyyətinin Dostları" Fondunu yaratmış Mehriban xanım Əliyeva o dövrdən məhz bu nəcib missiyanı həyata keçirməyi qarşıya məqsəd qoymuş, yüksək təşəbbüskarlığı, ictimai fəallığı və idarəçilik keyfiyyətləri ilə milli mədəniyyətimizin böhrandan qurtulmasına və inkişafına öz töhfəsini vermişdir. Qədim ənənələrə malik Azərbaycan xalqının maddi və mənəvi mədəniyyət nümunələrinin, incəsənətinin, folklorunun, musiqisinin qorunması və dünya miqyasında təbliğ olunması məqsədilə 1996-cı ildən nəşrə başlamış "Azərbaycan-İrs" jurnalının fəaliyyəti də təqdirəlayiqdir.

İnamla deyə bilərik ki, mühafizəyə, xüsusi diqqət və qayğıya ehtiyacı olan yaşayış məntəqələrimizdən biri də Basqaldır. Lakin Azərbaycanın dilbər guşələrindən olan, özünün təbii gözəllikləri, tarixi plan-məkan quruluşu, memarlıq abidələri və sənətkarlıq ənənələri ilə seçilən Basqal qəsəbəsi Azərbaycan hökumətinin 28 iyul 1989-cu il tarixli qərarı ilə Dövlət Tarix və Mədəniyyət Qoruğu elan olunmasına baxmayaraq, uzun illər ərzində bu qərarın yerinə yetirilməsi istiqamətində heç bir iş görülməmişdir. Bundan başqa, Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarında Azərbaycan ərazisində dövlət mühafizəsinə götürülmüş tarix və mədəniyyət abidələrinin siyahısına Basqaldan cəmi iki abidə (XVI əsrə aid məscid və hamam) daxil edilmişdi. Halbuki, 2011-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirliyi tərəfindən burada 20-dən artıq arxeoloji, tarixi-memarlıq və təbiət abidəsi qeydə alınmışdır. Lakin illərin-əsrlərin, zamanın-gərdişin sınaqlarından çıxan, təbii hadisələrin və xarici müdaxilələrin təsirlərinə sinə gərərək dövrümüzədək gəlib çatan, babalarımızın bu torpaqda yadigar qoyub getdiyi tarixi izləri yaşadan, mahir sənətkarların, memar və ustaların əlinin və əqlinin məhsulu olan mövcud abidələrin bərpaya ciddi ehtiyacı vardır.

Məlumat üçün qeyd edək ki, indiki İsmayıllı rayonunun ərazisində – Baş Qafqaz dağlarının cənubundakı Niyaldağ silsiləsinin ətəyində qərarlaşmış Basqal tarixən Azərbaycanın tanınmış sənətkarlıq mərkəzlərindən biri olmuşdur. Buranın əhalisi çox qədimlərdən elliklə toxuculuqla, xüsusilə də ipək toxuculuğu ilə məşğul olmuşdur. Belə ki, hələ XII-XIII əsrlərdən başlayaraq Basqalda da digər Şirvan şəhərləri ilə bərabər, çoxçeşidli ipək məmulatı toxunmuşdur. Bu fakt çoxsaylı mənbələr və səyahətçilərin məlumatları ilə də təsdiqlənir. Həmin mə-

lumatlarda burada çoxlu şəhər və qalaların olduğu, gözəlliyinə görə heç yerdə rast gəlinməyən ipək və zərxara parçaların toxunduğu qeyd olunur. Doğrudur, burada Basqalın adı çəkilməsə də, söhbətin məhz bu məkandan getdiyi heç bir şübhə doğurmur. Çünki tarixən Şirvanda Şamaxı şəhəri ilə bərabər Basqal da toxuculuğun mühüm mərkəzlərindən biri kimi tanınmışdır. Bütün orta əsrlər boyu inkişaf edən sənətkarlığın bu sahəsi XVIII əsrdə özünün intibah dövrünü yaşamışdır. XIX yüzilliyin ortalarından başlayaraq Rusiya və Qərbi Avropa ölkələrində keçirilən beynəlxalq sərgilərdə iştirak etmiş basqallı toxuculardan Əliabbas Cəbrayıl oğlu, Məşədi Həbibulla Hacı Abbas oğlu, Hacıbağır Mirzə oğlu, Hacıələkbər Hacıseyid oğlu və b. təqdim etdikləri əl işlərinə görə yüksək mükafatlara layiq görülmüşlər. 1862-ci ildə Londonda keçirilən ümumdünya sərgisində isə basqallı toxucu Nəsir Əbdüləziz oğlu kəlağayı və qanovuz parçaya görə sərginin medalı və xüsusi diplomu ilə təltif edilmişdir.

Basqalın, tarixən Şirvanın, bütövlükdə Azərbaycanın ipək parça istehsalında və ticarətində mühüm yer tutması, həmçinin bu sahənin tərəqqisi və tənəzzülü barədə zaman-zaman orta əsr Avropa səyyahları, görkəmli tarixçilər və başqaları məlumat vermişlər. Bu baxımdan İ.Şildbergerin, A.Cenkinsonun, A.Olearinin və başqalarının verdiyi bəzi məlumatlar diqqət çəkir. XVIII-XIX əsr müəlliflərindən S.Q.Qmelin, İ.Lerx, V.Lekqobıtov, N.A.Abelov, A.P.Fituni, N.Şavrov, A.S.Piralov, K.Xatisov, S.Qulişambarov, V.N.Leviatov və digərlərinin araşdırmalarında da Basqalın kustar sənayesinin, ipək istehsalı tarixinin bəzi məqamları əksini tapmışdır. XIX əsr Azərbaycan sənayesi və kənd təsərrüfatının vəziyyətini sənədlər, habelə arxiv materialları əsasında geniş tədqiq etmiş Ə.Sumbatzadənin Basqalda ipək və kəlağayı istehsalı və ticarəti ilə bağlı verdiyi məlumatlar da dəyərlidir.

Basqalın uzaq keçmişindən bəhs edərkən, arxeoloji materialların rolunu unutmaq olmaz. Bu baxımdan "İsmayıllı" arxeoloji ekspedisiyasının apardığı elmi araşdırmalar xüsusilə diqqətəlayiqdir. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun qocaman arxeoloqu Fazil Osmanovun (Allah rəhmət etsin) rəhbərlik etdiyi həmin ekspedisiya İsmayıllı rayonunda, o cümlədən Basqalətrafı ərazilərdə apardığı qazıntı-axtarış işlərinin yekunu olaraq belə bir nəticəyə gəlir ki, ərazidə çox qədim zamanlardan insanlar məskən salmışdır. İndiki Basqalın yerləşdiyi ərazi isə e.ə. IV yüzillikdən yaşayış məskəni olmuşdur.

İsmayıllının tarixi və arxeoloji abidələrinin öyrənilməsi sahəsində tarixçi-arxeoloq, professor Qafar Cəbiyevin də mühüm xidmətləri vardır. Onun çoxsaylı araşdırmalarında, kitab və məqalələrində İsmayıllı rayonu və ona qonşu rayonların ərazilərindəki yaşayış yerləri, qala və müdafiə istehkamları, məbədlər və qəbir abidələri, Basqalın, Lahıcın və digər yaşayış məntəqələrinin keçmişi haqqında dolğun məlumat verilir.

Basqalın maddi mədəniyyətini, sənətkarlıq məsələlərini və s. öyrənmək baxımından tarixçi-etnoqraf, professor A.Mustafayevin "Şirvanın maddi mədəniyyəti", "Azərbaycanda şərbaflıq sənəti (tarixi-etnoqrafik tədqiqat), "Azərbaycanın maddi-mədəniyyət tarixi", etnoqraf V.Çıraqzadənin "Qədim ipəkçilik diyarı" monoqrafiyaları və məqalələri də olduqca dəyərlidir. Bu əsərlər Basqalın da yaşayış məskənləri və evləri, geyim və bəzəkləri, mətbəx mədəniyyəti, onların müxtəlif sənət sahələri ilə bağlı inanc və etiqadları barədə müəyyən təsəvvür yaradır.

Tarixçi F.R.Ağamalının "XVIII əsrin II yarısı-XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti", C.Mustafa-

yevin "Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq", N.Bayramova-nın "Şamaxı xanlığı" və digər müəlliflərin əsərlərində də tarixi qaynaqlar və arxiv materiallarına əsaslanmaqla, Basqalın sənətkarlığı və ipək ticarəti haqqında bilgilər verilir.

Tarixən Basqalda Azərbaycan xalqının qədim toxuculuq sənəti ilə bağlı olan bədii parça istehsalı da inkişaf etmişdi. Xalq ustalarının bədii fikir və təfəkkürünün məhsulu olan bədii parça istehsalı ilə bağlı məsələlər – parçaların adları, ornamental və süjetli kompozisiyalar və s. sənətşünas-alim Gülsüm Əliyevanın tədqiqatlarında ("Azərbaycanın bədii parça və tikmələri. XIX-XX əsrlər") öz dolğun təhlilini tapmışdır. Bu əsərdə bədii parça istehsalı üzrə ixtisaslaşmış yaşayış məntəqələri sırasında Basqalın da adı çəkilir.

Basqalın tarixi-etnoqrafik tədqiqindən danışarkən, bu yurdun tanınmış ziyalısı, müəllim və yazıçı-publisist, el ağsaqqalı Miryavər Hüseynovun əməyi xüsusi olaraq qeyd olunmalıdır. Basqalın tarixi, məişət və mədəniyyəti, basqallıların həyat tərzi, adət-ənənələri, xüsusilə də buranın tanınmış ziyalıları və s. haqqında çoxsaylı araşdırma yazıların müəllifi Miryavər Hüseynov doğma diyara həsr olunmuş bir neçə elmi-kütləvi monoqrafiyanın ("Basqal əcdadlarımızın əks-sədasıdır" və "Basqal və Basqallılar") müəllifidir.

Bu diyarın tarixinin, orada intişar tapan sənətkarlığın, basqallıların həyat və məişətinin öyrənilməsində bu yurdun yetirməsi, professor Tahir Cəfərlinin xidmətləri də danılmazdır. Onun çoxcildli "Bir əsr, bir nəsil" əsərində əksini tapan məlumatlar nəinki basqallıları, ümumiyyətlə, hər bir Azərbaycan oxucusunu düşündürən, maraqlandıran çoxlu sayda suallara cavab tapmağa  imkan veriri.

Basqalın tarixi, mədəni-mənəvi həyatı bu və digər dərəcədə bir sıra bədii əsərlərdə, tarixi romanlarda da əksini tapmışdır. Bu baxımdan Basqal yurdunun böyük oğlu, xalq yazıçısı Əbülhəsən Ələkbərzadənin "Dünya qopur" romanı xüsusi qeyd olunmalıdır. Romanın əsas süjet xəttini XX əsrin əvvəllərində ölkədə baş verən inqilabi hadisələr, qəsəbənin siyasi-ictimai həyatı, onların Basqalda əks-sədası, zəhmətkeş kəndlilərin həyat tərzi təşkil etsə də, etnoqrafik səciyyəli məlumatlar da vardır.

Basqal haqqında danışarkən, heç şübhəsiz ki, bu diyarda ulu babalarımızın əsrlər boyu yaşatdığı kəlağayıçılıq sənətini yenidən dirçəldən, kəlağayı sənətkarlığı ilə əlaqədar geniş elmi-praktiki araşdırmalar aparan iki şəxsin adını da qeyd etmək vacibdir: Cəlil Tanrıverdiyev və Rəna İbrahimbəyova. Bu iki ziyalının Azərbaycan kəlağayı sənətkarlığının yaşamasında danılmaz xidmətləri vardır və bu barədə biz sonrakı bölmələrdə daha geniş bəhs edəcəyik. Bu ziyalılar kəlağayı istehsalının texnoloji əsasları, kəlağayının Azərbaycan xalqının məişət və mədəniyyətində yeri və rolu, kəlağayı ilə bağlı xalq arasında mövcud inam və etiqadlarla əlaqədar bir sıra araşdırmaların müəllifləridir. Onlar bu qədim sənətin təbliğində və yayılmasında da mühüm işlər görməkdədirlər.

Beləliklə, bütün bu araşdırmalar Basqalla bağlı müəyyən material versə də, qəsəbənin tarixi-etnoqrafik tədqiqinə kəskin ehtiyacın olması aydın görünürdü. Bunu nəzərə alaraq biz mövcud boşluğu qismən də olsa doldurmağa, qeyd olunan problemləri araşdırmağa çalışdıq və

Basqalın çoxəsrlik tarixi, məişət və mədəniyyəti, o cümlədən, sənətkarlığı ilə bağlı bir sıra məqalələr çap etdirdik[1].

"Basqal (tarixi-etnoqrafik tədqiqat)" adlı əsər bu qədim diyara, onun tarixinə, etnoqrafiyasına, abidələrinə həsr olunmuş ilk ümumiləşdirici əsərdir. Mənbə, ədəbiyyat və Basqalın ağsaqqal-ağbirçəklərindən, tanınmış ziyalılarından, müxtəlif sənət-peşə adamlarından toplanmış məlumatlara, etnoqrafik materiallara əsaslanaraq yazılan bu əsərdə İsmayıllı rayonunun, o cümlədən Basqalın qısa təbii-coğrafi şəraiti, çoxəsrlik tarixi abidələri, basqallıların məşğuliyyəti, maddi və mənəvi mədəniyyəti, sənətkarlıq ənənələri, ailə və ictimai məişət məsələləri, adət-ənənələri, müasir durumları və bir çox digər problemlər də araşdırmaya cəlb olunmuşdur.

---

[1] Bax: Basqalda ənənəvi ipəkçiliyin bəzi məsələlərinə dair // Azərbaycan MEA-nın Xəbərləri (İctimai elmlər seriyası), 2015, №2. s. 157-170; Basqalda bəzi ənənəvi sənətkarlıq sahələri haqqında // Azərbaycan MEA-nın Xəbərləri (İctimai elmlər seriyası), 2015, №3. s. 160-169; Basqal: arxeoloji və tarixi-etnoqrafik xarakteristika // Sivilizasiya (elmi-nəzəri jurnal). 2016, №1. s. 158-166; Azərbaycanda kəlağayı sənətkarlığının tarixi və etnoqrafik xüsusiyyətləri haqqında (Basqal materialları əsasında) // Tarix və onun problemləri. 2016, №1, s. 249-257; Basqal: tarix, mədəniyyət və müasirlik // Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal). 2016, №2 (98), s. 301-309.

## I fəsil

# İSMAYILLI:

# COĞRAFİ,
# TARİXİ-ARXEOLOJİ
# VƏ
# İQTİSADİ OÇERK

Qoca Şirvanın və müasir İsmayıllı rayonunun qədim yaşayış yerlərindən olan Basqal qəsəbəsi Böyük Qafqaz sıra dağlarının cənub yamacında – Niyaldağ silsiləsinin ətəyində yerləşir. Baş-başa verib, çiyin-çiyinə dayanaraq sanki Basqala keşik çəkən və hündürlüyü 2100 metrə çatan dağlar bu yerlərin əzəmətinin, qüdrətinin rəmzidir. Təbiət vurğunu olan alimlər Basqalı coğrafi landşaftı, təmiz ab-havası, bumbuz, büllur kimi bulaqları, müalicə və şəfa qaynaqları, yamyaşıl bağları, sıx meşələri və səfalı seyrangahlarına görə cənnət-məkan, muzey-şəhər adlandırırlar. Elə bu əsrarəngiz gözəlliklərinə, sağlamlıq ocaqlarına görə də Basqal əsrlər boyu Şirvanşahların gəzinti və istirahət yeri olub.

Lakin Basqalı təkcə Azərbaycanda deyil, bütün dünyada şöhrətləndirən, tanıdan yalnız onun təbii gözəllikləri deyil, həm də bənzərsiz ipək məmulatı, xüsusilə də kəlağayısı olmuşdur. Tarixi mənbələrdən və ədəbiyyat materiallarından məlum olur ki, bu qədim diyar bütün Qafqazda kəlağayıçılığın ən iri mərkəzlərindən biri idi. Təsadüfi deyil ki, indinin özündə də kəlağayıdan, kəlağayı istehsalından bəhs edərkən, ilk növbədə Basqal yada düşür.

Bununla belə, Basqalın tarixindən, sənətkarlıq ənənələrindən, maddi və mənəvi həyatından bəhs etməzdən əvvəl, İsmayıllı rayonunun özü barədə qısa məlumat verməyi məqsədəuyğun hesab edirik.

**Təbii-coğrafi şərait**

İsmayıllı Azərbaycanın ən abad, iqtisadi və mədəni cəhətdən inkişaf etmiş rayonlarından biridir. Rayon 1931-ci ildə təşkil edilmişdir. Ərazisi 2064 kv. km, əhalisinin sayı isə 80 min nəfərə yaxındır. Ermənistanın Azərbaycan torpaqlarına hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və onun ətrafındakı rayonlardan məcburi köçkün düşmüş 871 ailə (3481 nəfər) də rayon ərazisində müvəqqəti olaraq məskunlaşmışdır. 1932-1933-cü illərdə rayonun mərkəzi Basqal qəsəbəsi olmuşdur.




İsmayıllı rayonunun xəritəsi

1934-cü ildən isə rayon mərkəzi statusunu İsmayıllı şəhəri yerinə yetirir. Rayonda 108 yaşayış məntəqəsi vardır ki, onlardan biri şəhər (İsmayıllı, 1959-1967-ci illərdə şəhər tipli qəsəbə idi. 1967-ci ildə şəhər statusu almışdır), ikisi şəhər tipli qəsəbə (Basqal, Lahıc), 105-i kənddir. Tədqiqatçılar "İsmayıllı" toponiminin eyniadlı yaşayış məntəqəsinin əsasını qoymuş "İsmayıllı" nəslinin adı ilə bağlı olduğunu qeyd edirlər.

İsmayıllı rayonunun ərazisi Baş Qafqaz dağ silsiləsinin cənub yamacı, yüksək və orta dağlıq qurşaq, Acınohur alçaq dağlığı və Alazan-Həftəran vadisini əhatə edir. Rayon şimaldan Baş Qafqaz sıra dağlarının cənub ətəkləri, o cümlədən Baba dağı (3632 m), cənubdan Şirvan düzü, qərbdən Göyçay, şərqdən isə Ağsu çayları ilə sərhədlənir. Ərazisi Kaynozoyda baş verən Alp qırışıqlığı zonasına aid olduğu üçün, seysmik cəhətdən çox fəaldır. Ayrı-ayrı vaxtlarda ərazidə hətta 8-9 bal gücündə zəlzələlər də müşahidə olunmuşdur. Təkcə bir faktı demək kifayətdir ki, 1667-ci il zəlzələsi zamanı Şamaxıda və bütövlükdə Şirvanda 80 mindən artıq insan həyatını itirmişdir. 1981-ci ilin oktyabrında baş vermiş zəlzələ isə ərazidə çox böyük dağıntılara səbəb olmuş və regionun mədəniyyətinə və iqtisadiyyatına külli miqdarda ziyan vurmuşdur. Bu səbəbdən də baş verə biləcək zəlzələləri müşahidə və tədqiq etmək üçün rayon mərkəzi yaxınlığında – Talıstan kəndi ərazısındə seysmoloji stansiya tikilib istifadəyə verilmişdir.

Təbii fəlakətlər şübhəsiz ki, Basqaldan da yan keçməmiş, bu qədim diyarın tarixi-memarlıq abidələrinə, iqtisadi və mədəni həyatına böyük ziyan vurmuşdur. Ona görə də Basqalın qədim abidələrinin bir qismi günümüzə qədər gəlib çatmamış, bəziləri ciddi zədələnmiş və hal-hazırda əsaslı təmirə və bərpaya ehtiyacı vardır. Güman etmək olar ki, dağılmış bir çox tarixi abidələrin qalıqları torpağın altında qalmaqda və hələ də açılmamış bir çox sirləri özündə yaşatmaqdadır.

İsmayıllı rayonunun ərazisi təbii xammal ehtiyatları ilə xeyli zən-

gindir və bu sırada əsas yeri tikinti materialları tutur. Çayların gətirmə konuslarında, alçaq dağlıq zonada zəngin çınqıl, qum, gil, gillicə və vulkan külü yataqları vardır. Bu təbii ehtiyatlardan tikintidə böyük tələbat duyulan dəmir-beton, kərpic, kirəmit, sement və digər inşaat materiallarının istehsalında geniş istifadə olunur. Bundan başqa, rayonun Diyallı kəndi yaxınlığında yanar şist yataqları və müalicə əhəmiyyətli gil, Tircan kəndi yaxınlığında (Qabandağ dərəsində) gilabi yataqları, Mədən dərəsi adlanan Təzəkənd kəndi ərazisində mişar daşı, Talıstan və Diyallı kəndləri arasında böyük həcmdə mərmər yataqları, Cülyan-Həftəsiyab kəndləri ətrafında isə təbii qaz yataqlarının olması ehtimal edilir. Rayon ərazisində bir neçə betonit gili yatağı da aşkar olunmuşdur.

İsmayıllı ərazisi müalicəvi əhəmiyyətli mineral su bulaqları ilə zəngindir. Böyük Qafqazın cənub yamaclarından süzülüb gələn bu sular Basqal yaxınlığındakı Bədo adlanan ərazidə, Həftəsiyab, Diyallı, Namazgah, Lahıc, Gəndov və s. kəndlərin ərazisində üzə çıxır. Həmin sular kimyəvi tərkibinə görə hidrokarbonatlı, sulfatlı, natriumlu, kalsiumlu və maqneziumlu sular tipinə mənsubdur. Bu baxımdan Bədo mineral suyunun tərkibi mütəxəssislər tərəfindən daha yüksək qiymətləndirilmişdir.

Rayonun ərazisi subtropik və qismən də mülayim iqlim qurşağına düşür. Subtropik zonanın şimal sərhədi rayonun təxminən 550-650 metr yüksəklikdə olan hissələrindən keçir. Düzənlik və dağətəyi hissədə mülayim-isti və qismən yarımsəhra-quruçöl, yüksək dağlıqda isə soyuq və dağ tundra iqlim tipləri formalaşır. Ümumi günəş radiasiyasının miqdarı düzənliklərdə, xüsusilə də Qanıx-Əyriçay vadisində 125 kkal/sm$^2$-dən yüksək dağlığa doğru 140-145 kkal/sm$^2$ arasında tərəddüd edir. Burada orta illik yağıntıların miqdarı 500-1000 mm arasında dəyişir. 2400-2800 m yüksəkliyə qalxdıqca yağıntıların miqdarı artaraq 1400-1500 mm-ə çatır. Düzənliklərdə isə nisbətən aşağı –

400-600 mm təşkil edir ki, bu da dağətəyi və yüksək dağlıq ərazilərdə dəmyə əkinçiliyinin inkişaf etdirilməsi üçün yaxşı imkan yaradır.

Baş Qafqaz suayırıcıdan, habelə Niyaldağ-Fitdağ silsiləsindən başlanğıcını götürən Göyçay, Girdimançay, Ağsuçay, Pirsaatçay və onların qolları olan Sulut, Haram, Ağsu, Mücü, Basqal çayları bu ərazini şimaldan cənuba doğru maili vəziyyətdə dərin dərələrə bölmüşdür. Bu çaylar başlıca olaraq yağış və yeraltı sulardan, qismən də çay sularından qidalanır və suvarmada istifadə olunur. Mütəxəssislər həmin dərələrin vadilərində əsrlər boyu həyat üçün əlverişli şəraitin olduğunu qeyd edirlər. Əldə olunan arxeoloji tapıntılarda da ərazidə, eyni zamanda Basqalda ilk orta əsrlərdən başlayaraq intensiv həyatın olduğu aydın görünür (24, 102)

İsmayıllı rayonunun ümumi torpaq sahəsi 217315 ha-dır. Burada adambaşına 3,6 ha (Azərbaycanda 0,2 ha) torpaq düşür. Kənd təsərrüfatı üçün yararlı torpaqların həcmi 98070 ha, o cümlədən, əkinçilik üçün 36460 ha (xüsusilə dəmyə əkinçilik) təşkil edir. Düzənlikdən başlamış dağlıq ərazilərə doğru müvafiq olaraq boz, şabalıdı, açıq və tünd şabalıdı, dağ-boz qəhvəyi, qəhvəyi, qonur dağ-meşə, talalarda qara, subalp və alp çəmənliklərində allüvial çəmən-meşə, çimli dağçəmən torpaqları yayılmışdır.

Rayonun florasında 500-dən artıq bitki növü yayılmışdır. Düzənlik və dağətəyi yerlərdə çoxillik otlar, kolluqlar, orta dağlıqda palıd, qaraağac və vələsin 4 növü, fıstıq, şabalıdyarpaq, qaraçöhrə, yabanı püstə (saqqız), yabanı qızılgül, lianlardan mərəfcə, mayaotu, güyəmə, cır üzüm, doqquzdon, kaprifol, qulançar və boyaqotu, dərman bitkilərinin bir neçə növü yayılmışdır. Böyük sahədə zoğal, əzgil, alça, gavalı, böyürtkən, itburnu, murdarça və s. kol bitkiləri müşahidə olunur. Meşə örtüyü rayon ərazisinin 70 min ha sahəsini tutur və burada Azərbaycan təbiətinin incilərindən sayılan palıd, fıstıq, göyrüş, ardıc, vələs və digər ağac növləri üstünlük təşkil edir.

İsmayıllı rayonunun faunasına isə sürünənlər, gəmiricilər və müxtəlif həşəratlarla yanaşı, 5 dəstəyə aid olan 35 növ məməli – qonur ayı, maral, cüyür, dağ keçisi, vəhşi qaban, canavar, tülkü, porsuq, kirpi, dovşan, vaşaq, Amerika yenotu, 90 növ quşdan isgəndər quşu (fır kəklik), buruqboyun ağacdələn, qırqovul, kəklik, turac, qartal, qızılquş, ley, qırğı, quzğun, arıquşu, toğlugötürən, qaratoyuq, zığ-zığ, cüllüt, vağ, bülbül və s. daxildir. Lakin zaman keçdikcə bəzi heyvanlar nəsli kəsilmək təhlükəsi ilə üzləşib. Belə ki, bir vaxtlar rayon ərazisində dağlara, əlçatmaz qayalı yamaclara yayılmış dağkeçilərinin tamaşasını heyranlıqla müşahidə etmək olurdu. Dağların, qayaların yaraşığı, bəzəyi idi onlar. İndi isə sayları xeyli azalıb. Ovçular təbiətin bu zərif, həssas canlılarının az qala axırına çıxıblar və onlara indi nadir hallarda təsadüf etmək olur. Bundan başqa, vaxt var idi meşələrdə ağac yarpaqları ilə yemlənən cüyürlər adamdan qorxmur, turaclar az



Girdimançay dərəsi

qala həyətlərdə dolaşırdı, onları əllə belə tutmaq olurdu. Sərt qış günlərində təbiətin sitəminə dözə bilməyən kəkliklər isə özlərinə kəndin damları qaralan evlərinin eyvanlarını sığınacaq seçirdilər. İndi isə o quşları günün gündüzündə əldə çıraqla da tapmaq olmur. Laqeydlik, diqqətsizlik və məsuliyyətsizlik təbiətin bu nadir sakinlərini də öz yurd-yuvalarından perik salıb.

Bütün bunları nəzərə alan hökumətin qərarı ilə vəziyyətin daha təhlükəli həddə çatmaması üçün 1969-cu ildə rayon ərazisində sahəsi 74 min ha olan *İsmayıllı yasaqlığı*, 1981-ci ildə isə yasaqlığın tərkibində təbii kompleksi (landşaftı) müşahidə etmək, fauna və flora növlərini qoruyub saxlamaq və artırmaq məqsədilə sahəsi 5780 ha olan *İsmayıllı qoruğu* yaradılmışdır. Qoruq iki hissədən – dağlıq (800-2250 m yüksəkliklər – 96.3%) və düzənlikdən (600-650 m yüksəkliklər – 3.7%) ibarətdir. Düzənlik hissənin 87%-ni meşələr təşkil edir. Qoruğun meşələri əsasən fıstıq, vələs, palıd ağaclarından ibarətdir. Burada həmçinin ağcaqayın, göyrüş meşəlikləri də vardır. Qaraçöhrə və şabalıdyarpaq palıd əsas qoruma rejimindədir. Bundan başqa, qoruqda məməli-



İsmayıllı yasaqlığı

lərin 40, sürünənlərin 17, amfiblərin 6, balıqların 4, quşların 104 növü yaşayır. Quşlardan Qafqaz tetrası, toğlugötürən, berkut, ilanyeyən, məməlilərdən isə qonur ayı, vaşaq, cüyür, Aralıq dənizi tısbağası, daraqlı triton və çay qızılxallı balığı "Qırmızı kitab"a daxil edilmişdir (67, 364-365).

**Tarixi-arxeoloji abidələri**

İsmayıllı rayonunun ərazisi qədim və orta əsr abidələri ilə zəngin olmaqla Azərbaycanın arxeoloji xəritəsində mühüm yer tutur. Təsadüfi deyil ki, Azərbaycan hökumətinin qərarı ilə rayonda Lahıc tarixi-mədəniyyət qoruğu (1982) və Basqal tarix-mədəniyyət qoruğu (1989) yaradılmışdır. Elə buna görə də rayonu nadir tarixi abidələr diyarı da adlandırırlar. İsmayıllı yurdunun yetirməsi, tarix elmləri doktoru, professor Qafar Cəbiyev doğma Azərbaycanımızın zəngin tarixə malik dilbər guşələrindən biri kimi tanınan İsmayıllı rayonu ərazisindəki çoxsaylı abidələrdən, yaşayış məntəqələrinin keçmişindən söhbət açaraq yazır: "İsmayıllı rayonunun ərazisi Azərbaycanın tarixi abidələrlə daha çox zəngin olan guşələrindən biridir. Burada insanların oturaq həyata keçməsinin tarixi ən azı 7000 ilə bərabərdir. Belə abidələrdən biri olan Qırlartəpədə aparılan arxeoloji qazıntılar bunu qəti şəkildə sübuta yetirdi. Burada abidələr dövrünə və xarakterinə görə çox müxtəlifdir... Cavanşir qalası da, Qız qalası da, Fit qalası da, Girdiman qalası da, Kürdüvan qalası da, Niyal qalası da (qalaların sayına və əzəmətinə bir baxın) bizdən çox-çox əsrlər əvvəl mövcud olub. Əcdadlarımız hələ bir neçə min il öncə bu ərazidə özlərinə məskən salıb, o vaxtdan bu günədək fasiləsiz və intensiv həyat sürüblər... Rayon ərazisində antik dövrə və orta əsrlərə aid çoxsaylı yaşayış məskənləri, qəbir abidələri və tarixi tikililər (qala, türbə, məscid, hamam və s.) vardır... Müxtəlif vaxtlarda həmin abi-

dələrdən tapılan zəngin və rəngarəng maddi mədəniyyət nümunələri – çoxsaylı qadın heykəlcikləri, əmək alətləri, məişət qabları, silahlar, pullar, qiymətli bəzək əşyaları və s. deməyə əsas verir ki, təqribən 2000-2400 il bundan əvvəl həmin ərazidə dövrünə görə yüksək dərəcədə inkişaf etmiş təsərrüfata, mədəniyyətə malik əhali yaşayıb" (24, 9-13).

Lakin biz burada İsmayıllı abidələrinin hamısı haqqında deyil, ra-



Qalagah kəndi yaxınlığında aşkar olunmuş gümüş nimçə
II-III əsrlər. Ermitaj. Sankt-Peterburq

yonun Basqal və Basqalətrafı ərazilərinin yaşayış yerləri, qala və istehkamları barədə qısaca məlumat verməyi nəzərdə tutmuşuq. Yeri gəlmişkən, kitabın bu bölməsini yazarkən İsmayıllı, Ağsu və Şamaxı rayonları ərazisində üzün müddət arxeoloji tədqiqatlar aparmış və bununla bağlı bir sıra əsərlərin müəllifi Fazil Osmanovun və Qafar Cəbiyevin əsərlərindən bəhrələndiyimizi minnətdarlıqla qeyd edirik (73; 74; 25).

Məlumat üçün bildirək ki, İsmayıllı rayonu ərazisində ilkin arxeoloji qazıntı işləri respublikanın ilk və görkəmli arxeoloqu Ə.K.Ələkbərov (1926), prof. Y.A.Paxomov (1936), Ö.S.İsmizadə (1941; 1952), T.İ.Qolubkina tərəfindən aparılmışdır. Lakin həmin qazıntı işləri, əsasən kəşfiyyat xarakteri daşımış və ərazinin arxeoloji abidələri haqqında dolğun təsəvvür yarada bilməmişdir. Əsaslı arxeoloji qazıntı və elmi-tədqiqat işlərinə gənc, lakin çox hazırlıqlı Fazil Osmanovun rəhbərlik etdiyi "Ağsu-İsmayıllı arxeoloji ekspedisiyası" tərəfindən ötən əsrin 60-cı illərindən başlanılmışdır. Ekspedisiya İsmayıllı və Ağsu rayonları ərazisində antik və ilk orta əsrlər tarixinə dair bir sıra mühüm abidələr aşkara çıxararaq tədqiq etmişdir. Belə ki, indiki Basqal inzibati ərazi vahidliyinə daxil olan Kürdüvan kəndinin cənub-şərqində, Basqal və Mücü çayları arasında – Şamaxı-Qəbələ yolunun üstündə geniş bir sahədə bizim eranın ilk əsrlərindən başlayaraq son orta əsrlərə qədər möhtəşəm qala və şəhər yeri olduğu müəyyənləşdirilmişdir.

Kürdüvan qədim yaşayış yerinin adına ilk dəfə X əsrə aid "Hüdud əl-aləm" adlı anonim mənbədə rast gəlinir. Arxeoloji qazıntılar zamanı buradan daş və bişmiş kərpicdən tikilmiş binaların, kürəxana və s. təsərrüfat tikililərinin qalıqları, müxtəlif saxsı parçaları, kaşı, seledon və şüşə qablar, bilərzik və s. tapılmışdır. Xarabalıqdan bir qədər aralıda qala divarları və son orta əsrlərə aid müxtəlif ictimai tikililərin qalıqları da diqqəti cəlb edir. Bundan başqa, yaşayış yerinin cənub-qərbində – Basqal çayının yuması nəticəsində əmələ gəlmiş yarğanda antik dövrə

aid 3-4 metr qalınlığında mədəni təbəqə və qəbir abidələri aşkar edilmişdir. Həmin təbəqədən və qəbirlərdən antik dövrə aid zəngin maddi mədəniyyət qalıqları və qırmızı rəngli saxsı küplər, gil su qabı, şüşə muncuqlar, dolça və s. tapılmış, mədəni təbəqə üstünün 2 m-ə yaxın qalınlığında çınqıl qarışıq torpaqla örtüldüyü və həmin ərazinin sel suları altında qalması müəyyənləşdirilmişdir. Beləliklə, eramızın V əsrinin sonlarında həmin ərazidə həyat dayanıb. Sakinlər isə yaxınlıqdakı su tutmayan, nisbətən hündür ərazilərə köçüb. Basqal və Xankəndi ətrafında ilkin yaşayış yerləri məhz bu zəmində meydana gəlmişdir (112, 22-24).

Basqal yaxınlığındakı Xankəndi ərazisində də orta əsrlərə aid çoxsaylı tikinti qalıqları mövcuddur. Kəndin mərkəzi hissəsində qala-saray kompleksinin – Şirvan hakimlərinin yay iqamətgahının və sığınacağının qalıqları bu gün də qalmaqdadır. Əldə edilən bəzi şirli saxsı qab hissələri Xan qalasının XII-XIII əsrlərdən gec olmayaraq tikildiyini söyləməyə imkan verir (24, 202-203). Bu cür tapıntılar Nüydü düzündə qeydə alınmış qədim yaşayış yerində və qəbiristanlıqda aparılan tədqiqatlar zamanı da aşkar edilmişdir. Həmin tapıntılara əsasən, hələ e.ə III-I əsrlərdə Nüydü düzü əhalisinin əkinçilik, maldarlıq, sənətkarlıq və digər istehsal sahələri ilə məşğul olduğu müəyyənləşdirilmişdir. Yaşayış yerindən çoxlu əmək alətləri, çay daşından hörülmüş ev bünövrəsi, müxtəlif məişət avadanlığı, qəbiristanlıqdan isə saxsı qablar, silah nümunələri (dəmir nizə, tunc dəbilqə) çapacaq, oraq, bıçaq, bəzək əşyaları (bilərzik, sırğa, sancaq, şüşə muncuqlar və s.), qırmızı və qara rəngli zərif saxsı məmulatı və s. aşkar olunmuşdur. Antik dövrə aid gümüş pul dəfinəsi isə burada inkişaf etmiş əmtəə təsərrüfatının mövcud olduğunu sübut edir. Yerli alban (Qafqaz) pulları olan bu sikkələr Makedoniyalı İsgəndərin pullarına bənzədilərək kəsilmişdir. Oxşar sikkələr bölgənin Xınıslı (Şamaxı), Qəbələ və Yaloylutəpə (Qəbələ rayonu) arxeoloji abidələrindən də məlumdur (75, 44).

Orta əsrlərdə Azərbaycanda, eləcə də Şirvanda cərəyan edən si-

yasi proseslər və qanlı müharibələr əhalini keçidlərdə müdafiə qalaları inşa etməyə, sədlər tikməyə vadar edirdi. Basqal və Lahıc qəsəbələri arasındakı Niyaldağ aşırımı (hündürlüyü 1920 metr) yaxınlığında qeydə alınan erkən orta əsrlərə və Şirvanşahlar dövrünə aid qala, müdafiə istehkamları və feodal qəsrləri də bu faktı təsdiqləyir. Bundan əlavə, Girdimançay hövzəsində Niyal qalası (Girdiman qalası), Haram qalası və Sədun şəhəri Qafqaz Albaniyasının (qədim Azərbaycan) tarixi Girdiman vilayətinin ərazisində yerləşmiş və burada baş verən tarixi proseslərlə, o cümlədən Girdiman hökmdarlarının və Şirvanşahlar dövlətinin tarixi ilə bağlı olmuşdur (70, 13).

Xatırladaq ki, Niyal qalası Girdiman çayının sol sahilində, strateji baxımdan olduqca əlverişli ərazidə ucaldılmışdır. Qalanın adına ilk dəfə "Hüdud əl-aləm" əsərində rast gəlinir. Əsərdə Azərbaycanın qədim və orta əsr şəhərləri, yaşayış məntəqələri, Xəzərsahili vilayətlər və s.-lə bərabər, Niyal qalası barədə də müəyyən məlumatlar əksini tapmışdır: "... Şirvan, Xursan və Layzan üç nahiyədir ki, padşahı birdir. Bu padşah Şirvanşah, Xursanşah və Layzanşah adlanır. O, Şamaxıdan bir fərsəx (6-7 km) aralı hərbi düşərgədə yaşayır. Onun Kürdüvanla həmsərhəd yüksək hissəsində zirvəsi geniş və hamar olan bir dağ vardır. Ona yalnız bir tərəfdən çətin və ağır keçilən yol çəkilmişdir. Burada dörd kənd (Basqal, Tircan, Mücü və Zərnava kəndləri – S.A.) vardır və padşahın bütün xəzinə və sərvətləri orada saxlanılır. Onun bütün əhalisi – kişili-arvadlı orada qalır. Onlar orada bir yerdə əkin əkir və (öz məhsullarını) yeyirlər. Bu qala Niyalqala adlanır" (9, 115-116; 81, 32.; 25, 185-186).

Ərəb coğrafiyaşünas-səyyahı əl-Məsudi (X əsr) Niyal adlanan qalanın "dünyada misli-bərabəri olmayan qala" olduğunu yazır (81, 115-116). Azərbaycanın orta əsrlər tarixi, mədəniyyəti, ədəbiyyatı, şəhər və yaşayış məntəqələri haqqında məlumat verən rus şərqşünası V.F.Minorski isə qeyd edir ki, Niyalqaladan bir fərsəx aralı, 7-8 km

şərqdə şahın zindanının yerləşdiyi daha bir möhkəm qala – Sulut qalası yerləşirdi (108, 50).

Sulut kəndində və onun ətraf ərazilərində də orta əsrlərə aid yaşayış yeri, ovdan, cümə məscidi, qala, məqbərə və s. mövcuddur. Bir



Uzunboylar (Sulut kəndi) antik dövr tapıntıları

qədər şimalda isə müdafiə sədlərinin qalıqları yerləşir. Arxeoloji qazıntılar zamanı buradan da zəngin maddi mədəniyyət nümunələri (müxtəlif sayda şirli saxsı qab qırıqları, XII-XV əsrlərə aid mis və gümüş sikkələr) tapılmışdır. Kəndin şimalında, Xirək adlı ərazidə (təqr. 1330 m yüksəklikdə) isə çay daşından hörülmüş qala divarları və dördkünc formalı bürc qalıqları aydın şəkildə izlənir. Bəzi yerlərdə istehkamlar ikiqat qala divarları ilə möhkəmləndirilib. Arxeoloji axtarışlar zamanı




Keramika nümunələri. 1-5 – Qalagah; 6-8 – Tircan

ərazidən ilk orta əsrlər üçün xarakterik olan maddi mədəniyyət nümunələri tapılmışdır. Mütəxəssislər həmin tapıntılara əsasən, buranın təqribən 1600-1700 il əvvəl yaşayış məskəni olduğunu, orta əsrlərdə, xüsusilə də son orta əsrlərdə şəhər səviyyəsinə qədər yüksəlmiş iri yaşayış məntəqəsi olduğunu qeyd edirlər (78, 235; 25, 194-195).

Maraqlıdır ki, XIV əsrin tarixçisi və coğrafiyaşünası Həmdullah Qəzvini 1340-cı ildə yazdığı "Nüzhət əl-Qülub" ("Qəlblərin əyləncəsi") əsərində Azərbaycan şəhərləri və yaşayış məntəqələrindən bəhs edərkən "Xirək" adlanan ərazinin də adını çəkir və onu Bərdənin yaylağı kimi göstərir: "...Bura bulaq suları, bol otlaqları, yaxşı ov yerləri olan gözəl bir məkandır. Bərdə əhalisi yayda oraya köçür, qış tərəfi şəhərə qayıdırlar" (121, 54).



Cavanşir qalası. VI-VII əsrlər

İsmayıllı-Basqal avtomobil yolunun kənarındakı Tircan kəndinin cənubunda – "Soğanlıq" adlanan ərazidə antik dövrə aid nekropol mövcuddur. Qədim albanlara (Qafqaz) məxsus bu abidədən də e.ə. I minilliyin son rübünə aid xeyli maddi mədəniyyət nümunələri (saxsı qablar, dəmir əmək alətləri, silahlar və s.) əldə olunmuşdur. Bundan əlavə, qəsəbənin 3-4 km cənub-şərqində – Şamdlan adlı orta əsr yaşayış yerində aparılan kəşfiyyat xarakterli axtarışlar zamanı əldə olunan tapıntılar da ərazinin VIII-XIII əsrlərə aid yaşayış yeri olduğunu düşünməyə imkan verir (8, 286).

Beləliklə, XX əsrin 60-70-ci illərində arxeoloq F.Osmanovun rəhbərliyi ilə fəaliyyət göstərmiş "Ağsu-İsmayıllı arxeoloji ekspedisiyası" tərəfindən istər İsmayıllı, istərsə də Ağsu və Şamaxı rayonları ərazi-



Girdiman qalası. VI-VII əsrlər

sində Azərbaycanın antik və orta əsrlər tarixinə dair çox mühüm abidələr aşkar edilərək tədqiq olunmuş və həmin abidələrdən əldə olunmuş zəngin maddi mədəniyyət nümunələrinin tarixi çox qədim zamanlardan burada intensiv yaşayışın olduğunu sübut etmişdir. Eyni zamanda antik dövrdə (e.ə. IV-III əsrlərdə) Azərbaycan ərazisində təşəkkül tapmış Qafqaz Albaniyası (paytaxtı Qəbələ şəhəri) dövlətinin təqribən mərkəzi hissəsinin İsmayıllı rayonu ərazisini əhatə etdiyi fikri irəli sürülmüş, həmin dövlətin tarixinin, iqtisadi, ictimai, siyasi və mədəni həyatının bir çox məqamlarının, onun yaxın və uzaq qonşuları ilə münasibətlərinin öyrənilməsi istiqamətində mühüm işlər görülmüşdür. Sübut olunmuşdur ki, xalqımızın dövlətçilik təcrübəsində, ictimai-iqtisadi, dini-ideoloji və mədəni həyatında böyük rol oynamış Qafqaz (Azərbaycan) Albaniyası uzun bir tarixi dövrün müstəqil siyasi gerçəkliyidir və dünya artıq bu faktı qəbul edir.

1980-90-cı illərdə tarixi Qafqaz Albaniyası ərazisində tədqiqatları davam etdirən "Ağsu-İsmayıllı arxeoloji ekspedisiyası"nın Ağsuçay-Girdimançay-Göyçay çayları hövzəsi, o sıradan Basqal ərazisində kəşfiyyat xarakterli axtarış işləri zamanı da bir çox arxeoloji abidələr aşkar edilmişdir. Həmin abidələrin böyük bir qrupu (yaşayış yerləri, qala və müdafiə tikililəri, müxtəlif tipli qəbir və zəngin mədəniyyət abidələri, məbədlər və s.) ilk dəfə tarixçi-arxeolq Qafar Cəbiyev tərəfindən tədqiq edilmiş, eyni zamanda, əvvəllər tədqiq olunmuş abidələrin də bir çoxunun dövrü və təyinatı ilə bağlı yeni mülahizələr irəli sürülmüşdür. Alim həmin abidələr və oradan əldə olunmuş arxeoloji materiallar əsasında Girdiman vilayətinin təsərrüfat həyatı, sənətkarlığı, ticarət əlaqələri, iqtisadi, siyasi, dini və mədəni həyatı, Girdiman dövlətinin Azərbaycanın dövlətçilik tarixində yeri və rolu, o cümlədən, alban hökmdarı, görkəmli sərkərdə Cavanşirin fəaliyyəti və xidmətləri barədə dolğun məlumat vermişdir.

Antik və orta əsr mənbələrinin məlumatına görə, Albaniyada möv-

cud olmuş inzibati-siyasi vahidlərdən biri Girdiman vilayəti idi. Lakin Azərbaycan tarixinə dair nəşr olunmuş kitablarda qədim Albaniyanın iqtisadi, siyasi, dini-ideoloji və mədəni həyatında aparıcı mövqe tutan Girdimanın tarixi, sərhədləri, tarixi-coğrafi şəraiti, şəhər və şəhər tipli yaşayış məntəqələri, abidələri, əhalisinin etnik və sosial tərkibi, dini baxışları və digər problemlər ətrafında ümumi fikir mövcud olmamışdır. Bir çox hallarda müəyyən prinsipial məsələlər bilərəkdən, hətta məqsədyönlü şəkildə təhrif edilmişdir. Məsələn, tədqiqatçıların bir qismi Girdiman dövlətinin Azərbaycanın indiki Tovuz və Qazax rayonları, digərləri isə müasir Şəmkir, Gədəbəy və Daşkəsən rayonları ərazisində mövcud olduğunu göstərmişlər. Professor Qafar Cəbiyev isə ilkin mənbələr, antik və orta əsr müəlliflərinin əsərləri, həmçinin arxeoloji, numizmatik, toponimik və etnoqrafik materiallar əsasında Girdimanın Şirvan ərazisində, konkret desək, Ağsuçay-Girdimançay-Göyçay çayları hövzəsində təşəkkül tapdığını və inkişaf etdiyini konkret faktlarla sübut etmişdir. Bu zaman o, Şəmkir, Daşkəsən, Gədəbəy, Tovuz, Qazax və Ağstafa rayonları ərazisində Girdimanla bağlı nə bir arxeoloji və memarlıq abidəsinə, nə də toponimə rast gəlinmədiyini qeyd edərək, Cənubi Qafqaz ərazisində Girdiman adı ilə bəlli olan yeganə çayın – Girdimançayın məhz Şirvan ərazisində olduğunu, bu çayın başlanğıcını Böyük Qafqazın Babadağ silsiləsindən götürərək İsmayıllı, Ağsu və Kürdəmir rayonları ərazisindən keçib Kür çayına qovuşduğu faktını ön plana çəkmişdir. Bundan əlavə, alimin qənaətinə görə, Girdimançay hövzəsi boyu bilavasitə Girdiman hökmdarlarına – Mehranilərə aid olan çoxsaylı abidə və toponimlər mövcuddur (25, 37-71).

Tarixi mənbələrdə, xüsusilə də alban tarixçisi M.Kalankatlunun "Albaniya tarixi" əsərində adı çəkilən *Mehrəvan* şəhərinin dəqiq yerinin müəyyənləşdirilməsi xüsusi olaraq qeyd edilməlidir. Uzun illər idi ki, həmin şəhər-qalanın yeri sirr olaraq qalırdı. Qafar Cəbiyev tərəfindən 2004-cü ildə başlanan və 2013-2015-ci illərdə davam etdirilən arxeo-

loji tədqiqatların nəticəsində Ağsu rayonunun Bəyimli kəndi yaxınlığında, Girdimançayın sol sahilində əzəmətli qala divarları ilə əhatələnmiş, 12 ha əraziyə malik şəhər yerinin məhz Mehrəvanın qalıqları olduğu müəyyənləşdirilmişdir. Xatırladaq ki, əsası VI əsrdə Mehranilər sülaləsinin banisi Mehran tərəfindən qoyulan şəhər təqribən VIII əsrin sonlarında süqut etmişdir.

Q.Cəbiyev ərazidə mövcud olan digər abidələrin, yaşayış yerlərinin və qalaların da Girdiman tarixi ilə bağlı olduğunu qeyd edir. Bundan əlavə, İsmayıllı rayonunun Talıstan kəndi yaxınlığında Alban hökmdarı Cavanşirin adını daşıyan yaşayış yeri və VII əsrə aid möhtəşəm qalanın məhz Şirvan ərazisində olması da müəllifin fikrincə, Girdiman vilayətinin lokalizəsi ilə bağlı son və qəti fikir söyləmək üçün kifayət qədər ciddi arqumentlər hesab olunmalıdır.

Xatırladaq ki, Girdiman ərazisi Sasanilər dövründən başlayaraq "*Şirvan*" istilahı altında inkişaf etmişdir. Azərbaycanın dahi, mütəfəkkir şairi və orta əsr Şərq intibahının "Zöhrə ulduzu" adlandırılan Xaqani Şirvani (1120-1199) bu doğma, müqəddəs torpağın təbii gözəlliklərinə və əzəmətinə, bol nemətlərinə, cazibədar mənzərəsinə məftun olmuş, Şirvanı "ülviyyətin anası", "əzəl təbiətli bir lətafət yurdu" kimi qələmə almışdır:

Şirvan ki var, hər cəhətdən
Ülviyyətin anasıdır.
Onun incə səhər yeli
Dərdlərimin davasıdır.
Mən vətənə qurban olum,
Qurulmuşdur əzəmətlə,
Bağdadı da dolandıran
Onun bollu qidasıdır.
Şirvan əhli alicənab
Yaranıbdır başdan-başa,
O yer "əzəl təbiətli",
Bir lətafət məvasıdır.

XIX əsrin görkəmli Azərbaycan tarixçisi A.A.Bakıxanov isə Şirvanı Qafqaz ölkəsinin ən gözəl və ən geniş vilayətlərindən biri kimi təqdim etmişdir.

Şirvan ərazisində Azərbaycanın ən mühüm dövlət qurumlarından biri – *Şirvanşahlar dövləti* (VI-XVI əsrlər) mövcud olmuşdur ki, bu dövlət də orta əsrlər Şərqinin ən uzunömürlü dövləti hesab olunur. Öz varlığı ilə dünya sivilizasiyasına, onun iqtisadi, siyasi, elmi və mədəni səviyyəsinin yüksəlişinə təsir göstərmiş Şirvanşahlar dövləti Azərbaycan tarixində, Azərbaycan xalqının taleyində böyük rol oynamışdır. Bu dövr elm və ədəbiyyatın da intibah dövrü sayılır. Xüsusilə də Şirvanşah III Məniçöhrün (1120-1149) zamanında tanınmış elm xadimləri və şairləri vaxtaşırı şah sarayına toplaşırdılar. Şirvanda – Şamaxı "Dar-ül-ədəb"ində Kafiəddin Ömər Osman oğlu kimi təbib və filosof, Fələki Şirvani, Xaqani Şirvani, İzzəddin Şirvani, Fəridəddin Şirvani kimi görkəmli şair, alim və mütəfəkkirlər yaşamış, dünyaca məşhur olan ölməz əsərlər yaratmışlar. III Məniçöhrün və onun oğlu Əxsitanın (1149-1203) hakimiyyəti illərində Şirvanşahlar dövləti öz müstəqilliyini möhkəmləndirmiş, siyasi və iqtisadi qüdrətini gücləndirmiş və xeyli tərəqqi etmişdi.

Şamaxı şəhəri isə əsrlər boyu Şirvanşahlar dövlətinin paytaxtı, bütün Şərqin ən mühüm iqtisadi və siyasi mərkəzlərindən biri olmuşdur. Arxeoloji qazıntılar zamanı burada aşkar olunmuş müxtəlif maddi mədəniyyət və sikkə nümunələri şəhərin Yaxın Şərq, Ön Asiya və Qafqaz şəhərləri ilə aparılan beynəlxalq ticarətdə əhəmiyyətli rol oynadığını sübut edir. Bu məsələdə yüksək keyfiyyətli Şirvan ipəyinin mühüm rolunu xüsusilə qeyd etmək lazımdır. Yeri gəlmişkən, Şamaxıdan Qəbələyə uzanan karvan ticarət yolunun üstündə yerləşən Basqal da bu

dövrdə bir çox ölkələrlə iqtisadi-mədəni əlaqələrin möhkəmləndirilməsində özünəməxsus rol oynamışdır.

I Təhmasibin hakimiyyəti dövründə (1524-1576) Şirvanşahlar dövlətinin varlığına son qoyuldu (1538-ci il) və onun ərazisi Azərbaycan Səfəvilər dövlətinin tərkibinə birləşdirildi, Şirvan bəylərbəyiliyi inzibati ərazi vahidliyi yarandı. Bu dövrdə Şirvanda təsərrüfat həyatı, ticarət, sənətkarlıq, xüsusilə ipəkçilik və toxuculuq xeyli inkişaf etdi. Səfəvi-Osmanlı müharibələri dövründə isə Şirvan Osmanlılar tərəfindən işğal edildi. Səfəvilər dövlətinin tənəzzülü ilə Şirvan bəylərbəyliyi inzibati ərazi vahidi kimi əvvəlki əhəmiyyətini itirdi və XVIII əsrdə burada bir neçə müstəqil xanlıq, o cümlədən Şamaxı xanlığı yarandı. Şimali Azərbaycan əraziləri Rusiya tərəfindən işğal edildikdən sonra (1813-1828-ci illər) isə Şirvan ayrı-ayrı vaxtlarda yaranmış Şirvan əyalətinin, Xəzər vilayətinin Şamaxı qəzasının, Şamaxı quberniyasının tərkibinə daxil edildi. Şamaxı, Qəbələ, Dərbənd, Bakı, Şəki, Şabran, Quba, Lahıc və Basqal tarixən Şirvanın mühüm sənətkarlıq, ticarət və mədəniyyət mərkəzləri olmuşlar.

Şirvanın tarixi, onun şəhərləri, əhalisi, təsərrüfat və mədəni həyatı haqqında məlumatlar yunan, Roma, ərəb, fars, türk, gürcü mənbələri ilə bərabər, bir sıra tarixçilərin, alimlərin, coğrafiyaşünas-səyyahların əsərlərində də öz əksini tapmışdır. Azərbaycan alimlərinin – tarixçilərin, arxeoloqların və etnoqrafların apardığı uzunmüddətli elmi araşdırmaları da unutmaq olmaz. Sara Aşurbəyli, Ziya Bünyadov, Məmməd Şərifli, Saleh Qazıyev, Hüseyn Ciddi, Nailə Vəlixanlı, Qafar Cəbiyev, Arif Mustafayev, Fazil Osmanov, Qara Əhmədov və onlarla başqaları Şirvan tarixinin qədim və orta əsrlər dövrü ilə bağlı bir çox sanballı monoqrafiyaların və elmi məqalələrin müəllifləridir.

## Müasir İsmayıllı: iqtisadi və mədəni həyat

İsmayıllı rayonu mühüm coğrafi mövqeyinə, təbii sərvətlərinə, çoxəsrlik zəngin tarixinə görə ölkəmizin ən səfalı və dilbər guşələrindən biridir. Rayonun yüksəlişi, sosial-iqtisadi inkişafı baxımından öncül bir rayona çevrilməsi ötən əsrin 70-ci illərindən, müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi dövründən başlanıb. İstər həmin illərdə, istərsə də müstəqillik dövründə Heydər Əliyevin həm İsmayıllıya, həm də ismayıllılara qayğı və diqqəti inkarolunmaz həqiqətdir. İsmayıllılar da bu diqqət və qayğıya həmişə öz işləri, əməlləri ilə cavab verməyə çalışıblar. Ümummilli liderin layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev də ulu öndərin bütün arzu və ideyalarını uğurla davam etdirir, müstəqil Azərbaycan Respublikasının inkişafı ilə bağlı yeni-yeni layihələr həyata keçirib, ardıcıl və məqsədyönlü islahatlar aparır. İsmayıllı rayonu da ölkəmizin sürətli iqtisadi, sosial və mədəni inkişafında fəal iştirak edir. Hazırda rayonda sənayenin, kənd təsərrüfatının, turizmin, sənətkarlıq sahələrinin davamlı inkişafı üçün fundamental baza yaradılır, sosial-iqtisadi inkişaf proq-



Heydər Əliyev Muzeyi. İsmayıllı şəhəri

ramları hazırlanır. 2015-ci ildə rayonda əvvəlki illərlə müqayisədə orta aylıq əmək haqqı 2,4 faiz artaraq 266 manata çatdırılmışdır. Kənd təsərrüfatı üzrə artım 10,6 faiz, nəqliyyatda 6 faiz, informasiya və rabitədə 7,1 faiz, ticarətdə 10,3 faiz təşkil etmişdir.



İsmayıllı Rayon İcra Hakimiyyətinin binası

Hazırda rayonda 2 şərab, 2 asfalt, 1 beton və 1 kərpic zavodu, 12 bank filialı və bank olmayan kredit təşkilatı mövcuddur. Bundan başqa, rayonda 46 tam orta, 22 əsas və 12 ibtidai məktəb, 10 məktəbəqədər təhsil müəssisəsi, 3 xəstəxana, 11 həkim məntəqəsi, 2 poliklinika, 24 tibb məntəqəsi, 1 gigiyena və epidemiologiya mərkəzi, 2 tarix-mədəniyyət qoruğu (Lahıc, Basqal), 5 qala, 233 mədəniyyət abidəsi, Heydər Əliyev Mərkəzi, 2 tarix-diyarşünaslıq muzeyi, 1 mədəniyyət mərkəzi, 7 mədəniyyət evi, 26 klub, 4 mədəniyyət və istirahət parkı, mərkəzi kitabxana sisteminin əhatə etdiyi 49 kitabxana filialı, 1 incəsənət məktəbi, 1 Peşə Tədris Mərkəzi və İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci fəaliyyət göstərir. Rayonda həmçinin 3 Qeyri Hökumət Təşkilatı (QHT), 14 dini icma, 8 ictimai təşkilat və birlik qeydiyyatdan keçmişdir.

“Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı” digər bölgələrdə olduğu kimi, İsmayıllı rayonunda da uğurla icra olunmaqdadır. Həmin Proqram çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində rayonda işsizlik probleminin aradan qaldırılması, sahibkarlığın, sosial məsələlərin inkişafı, yeni istehsal və emal müəssisələrinin yaradılması istiqamətində müsbət nəticələr əldə edilmişdir. Tikinti-quruculuq və abadlıq işləri, çoxmərtəbəli yaşayış və inzibati binaların tikintisi, yeni yolların çəkilişi istiqamətində mühüm işlər görülür. Həmin işlərin yekunu olaraq İsmayıllı şəhərinin siması tanınmaz dərəcədə dəyişmişdir: şəhər bu gün memarlıq-planlaşdırma baxımından tarixlə müasirliyin vəhdəti, ənənəviliklə yeniliyin qovuşduğu bir məkan təəssüratı yaradır. Yenidənqurma işləri hələ də davam edir. Hazırda şəhərin baş planının icrası ilə əlaqədar birmərtəbəli,



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Velosiped zavodunun açılış mərasimində. Diyallı kəndi

vaxtilə necə gəldi inşa olunmuş ticarət obyektləri küçənin daha uyğun hissəsinə köçürülür. Bundan əlavə, "Milli su təchizatı və kanalizasiya xidmətləri üzrə ikinci Layihə" çərçivəsində Dünya Bankının vəsaiti hesabına İsmayıllı şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması işləri davam etdirilir. Artıq 71 km kanalizasiya, 28 km uzunluğunda isə su xətti çəkilib başa çatdırılmış, Talıstan çayı üzərində yeni körpü inşa edilmişdir.

Şəhər bazarının yaxınlığında infrastrukturu yeniləşdirmək və nəqliyyatın hərəkətini nizama salmaq üçün 0,17 ha ərazidə "Saat meydanı"nın inşasına başlanılmışdır. Bazarın ətrafında isə yeni və müasir sənətkarlıq bazarının salınması planlaşdırılır. Bundan başqa, "Yaşıl market", Keyvəndi kəndindəki çoxprofilli heyvandarlıq kompleksi, Qalınçaq kəndində ildə min ton quş əti istehsal edəcək fabrikin tikintisi də sürətlə davam etdirilir.

İsmayıllı şəhəri ilə bərabər, rayonun bir sıra iri yaşayış məntəqələrində də sosial problemlərin həlli istiqamətində nəzərə çarpacaq dərəcədə irəliləyişlər əldə edilmiş, kəndlər xeyli abadlaşmışdır. Qalınçaq, Qoşakənd, Tubukənd, Yenikənd, Şükürçü, Sulut kəndlərinə gedən avtomobil yolları təmir edilmiş, İvanovka kəndində 34 min kv.metrdən çox asfalt örtük salınmış, mini futbol meydançası tikilərək istifadəyə verilmişdir. Rayonun 108 yaşayış məntəqəsindən rayon mərkəzi də daxil olmaqla 40-dan artıq yaşayış məntəqəsi qazlaşdırılmışdır. Son olaraq rayonun Basqal qəsəbəsinə, Xanagah, İstisu və Çayqovuşan kəndlərinə mavi yanacağın verilişi təmin edilmişdir.

Bazar iqtisadiyyatının, özəl sektorun, sahibkarlıq fəaliyyətinin inkişafı ölkədə iqtisadi siyasətin əsasını təşkil edir. Son bir neçə ildə sahibkarlar tərəfindən İsmayıllı rayonunda da çoxsaylı ticarət obyektləri, çörək zavodu, istirahət mərkəzləri, xalça və ayaqqabı emalatxanaları, fermer təsərrüfatları, arıçılıq təsərrüfatları və s. sahələr yaradılıb. Rayonda orta və kiçik ticarət yönümlü sahibkarlıq fəaliyyəti ilə məş-

ğul olanların sayı artıb. Kürdmaşı kəndində "İsmayıllı Şərab-1" ASC-nin şərab zavodu yenidən qurularaq istehsala başlayıb. Rayonda iki quşçuluq – "Quşçuluq" ASC və "İsmayıllı quşçuluq" müəssisələri fəaliyyət göstərir. Diyallı kəndi ərazisində tikilməkdə olan velosiped zavodunun istifadəyə verilməsi rayonda xeyli insanın işlə təmin edilməsi və istehsal təsərrüfatının inkişafı istiqamətində mühüm addım olmuşdur.

Rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar sahə 2 mühüm istiqamətdə – bitkiçilik və heyvandarlıq üzrə inkişaf etdirilir. "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün İnkişafı Dövlət Proqramı" ilə əlaqədar rayon ərazisində üzüm plantasiyalarının sahəsi 1048 hektara çatdırılmışdır. Rayon üzrə meyvə bağlarının sahəsi 1165 hektar təşkil edir. Yeni meyvə bağlarının salınması sahəsində də ardıcıl işlər aparılır.

Arıçılıq təsərrüfatının inkişafı istiqamətində də rayonda mühüm işlər görülməkdədir. Müxtəlif illərdə keçirilən respublika arıçılıq məhsullarının sərgi-satış yarmarkasında rayon arıçılarının iştirakı təmin edilmiş və laboratoriya yoxlamalarının nəticələrinə görə İsmayıllı arıçılarının məhsulu keyfiyyət tərkibi etibarilə daha yüksək qiymətə layiq görülmüşdür.

Rayonun iqtisadi inkişaf baxımından seçilən ən iri kəndlərindən biri İvanovka kəndidir. Kənd ölkəmizin rus icmasının birgə yaşadığı ən böyük yaşayış məntəqələrindən biridir. Vaxtilə İvanovka kəndinin rus icması ümummilli lider Heydər Əliyevə müraciət edərək 1996-cı ildən ölkədə başlanmış aqrar islahatlar fonunda Azərbaycanda kolxoz quruluşunun saxlanmasını xahiş etmişdilər. Ümummilli lider də icmanın müraciətini nəzərə alaraq kolxozun saxlanmasını və kolxoza həmin təsərrüfata 41 il rəhbərlik etmiş N.V.Nikitinin adının verilməsinə razılığını bildirmişdir. İvanovka yeganə kənddir ki, yaxın keçmişdə olduğu kimi, indi də bütün infrastruktur, sosial obyektlər kolxozun balansında

və idarəçiliyindədir. Bura həm də Azərbaycandakı milli və dini tolerantlığın bir nümunəsi kimi bütün dünyaya örnək olaraq göstərilir. Belə ki, iki əsrə yaxındır ki, İvanovkada müxtəlif millətlərin nümayəndələri mehriban qonşuluq və anlaşma şəraitində yaşamaqda davam edirlər.

Son illərdə İsmayıllıda Meşə Mühafizəsi və Bərpası Müəssisəsi tərəfindən 60 hektar sahədə bərpa işləri aparılıb ki, bunun da 37 hektarı meşə əkini və 23 hektarı isə meşə səpinindən ibarətdir. Müəssisə tərəfindən payız-yaz mövsümündə meşə dolaylarında 126 min ədəd, İsmayıllı-Muğanlı avtomobil yolunun ətrafının yaşıllaşdırılması məqsədilə 10 min, payızda isə 4 min ağac əkilmiş və bu iş hər il davam etdirilir.

İsmayıllının ümumtəhsil məktəblərində təhsilin səviyyəsinin yüksəldilməsinə, əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasına və mədəniyyət müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsinə də diqqət artırılıb. Talış, Sərdahar, Müdrü, Pirəbilqasım, Mücü və Yeniyol kəndlərində yeni məktəb binaları tikilib istifadəyə verilmiş, onların inventar-avadanlıqlarla təminatı yaxşılaşdırılmışdır.

Rayonda Mədəniyyət və Turizm şöbəsi tərəfindən mədəni-kütləvi tədbirlərin keçirilməsinə diqqət xeyli artırılmışdır. Artıq ənənə şəklini almış "İsmayıllı günü" tədbirləri əsl bayram təntənəsinə çevrilir. "İsmayıllı günləri" bir növ rayonun qədim tarixi, zəngin folkloru, xalq sənətkarlığı, müasir sosial-iqtisadi inkişafı, xüsusilə təhsil, mədəniyyət və turizm sahələrində qazandığı nailiyyətlərin təqdimatına çevrilir. 2015-ci ilin 2 iyununda Azərbaycan Gənc Tamaşaçılar Teatrında "İsmayıllı günü" keçirilmiş və bu tədbir rayonun mədəniyyətinin, tarixinin və bugünkü uğurlarının təbliği baxımından mühüm hadisə kimi yaddaşlara köçmüşdür. Bundan başqa, rayonda tarixi günlər, tanınmış ziyalıların, elm adamlarının, qəhrəmanların ad günləri, yubileyləri, bayramlar, anım və xatirə günləri də geniş miqyasda keçirilir.






İsmayıllı lövhələri

İsmayıllı şəhəri Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Azərbaycanın Sənətkarlıq paytaxtı-2011" elan olunmuşdur. 2015-ci ildə isə "Gənclər paytaxtı" seçilməsi də rayonun günü-gündən artan yüksəlişindən xəbər verir. Bu gün İsmayıllı dünyanın dörd ölkəsi – Belarus, Fransa, Latviya və Yaponiya ilə dostluq əlaqələri qurmuş, qarşılıqlı əməkdaşlıq münasibətləri yaratmışdır. 2015-ci ildə "İsmayıllı Yazarlar birliyi"nin təsis edilməsi də rayonun mədəni həyatında yaddaqalan hadisələrdən olmuşdur.

İsmayıllı Azərbaycanın qorunan memarlıq abidələrinin siyahısını tamamlayan neçə-neçə qiymətli tarixi memarlıq abidələri, maddi mə-



Basqal kəlağayısı

dəniyyət nümunələri ilə ölkəmizin aparıcı turizm məkanlarından sayılır və burada sözügedən sahənin inkişafı üçün böyük potensial vardır. Burada dağ, atçılıq, ekoturizm və digər sahələrin inkişafı üçün də münbit şərait mövcuddur. Bunlardan əlavə, rayonun milli-etnik zənginliyi də turizmin inkişafına şərait yaradır. Rayon ərazisində 23 istirahət mərkəzi fəaliyyət göstərir və onların xidmət səviyyəsi bütün tələblərə cavab verir. Eyni zamanda turizmin daha da inkişaf etdirilməsi məqsədilə rayonda müxtəlif layihələrin icrasına başlanılmış və artıq xeyli işlər görülmüşdür.

Xatırladaq ki, rayonun tarixi abidələr və sənətkarlıq ənənələri ilə zəngin olan Basqal qəsəbəsi turizm potensialı baxımından mühüm əhəmiyyət kəsb edir. Buradakı 20-dən artıq tarixi və memarlıq abidəsi, o cümlədən Basqal İpəkçilik Mərkəzi turistləri bölgəyə cəlb etmək baxımından böyük əhəmiyyət daşıyır. UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü il noyabrın 26-da



Turizm kompleksi “Qız qalası”



İsmayıllı Olimpiya İdman Kompleksi

keçirilən iclasında Azərbaycan kəlağayısı "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. Bakıda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında UNESCO-nun baş direktoru İrina Bokova Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya kəlağayının UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil olunması barədə sənədi təqdim etmişdir. Bu uğurun qazanılmasında əsrlərdən bəri Azərbaycan kəlağayısının şöhrətini bütün dünyaya yayan, qədim kəlağayıçılıq ənənələrini bu gün də davam etdirən İsmayıllının Basqal qəsəbəsinin və basqallı kəlağayı ustalarının əməyi də heç şübhəsiz ki, böyükdür.*



Lahıca gedən yol

2015-ci ildə isə "Lahıc misgərlik sənəti" UNESKO-nun Qeyri-Maddi Mədəni İrs siyahısına daxil edilmişdir. Belə ki, qədim dövrlərdən üzü bu yana Lahıc ustalarının misdən hazırladıqları, mürəkkəb və incə naxışlarla bəzədikləri dolça, satıl, sərnic, məcməyi, sərpuş, güyüm, aşsüzən, kəfgir, kasa, cam, qazan, çıraq və s. məmulatlar Orta Asiyada, Rusiyada, Gürcüstanda, İranda, Türkiyədə və bir çox başqa yerlərdə çox məşhurdur. Bundan başqa, qəsəbənin coğrafi mövqeyi, zəngin tarixi, ar-

* Basqal turizmi ilə bağlı ayrıca bölmə verilir.

xitekturası, memarlıq abidələri, sənətkarlıq sahələri və s. onu təkcə Azərbaycanda deyil, bir çox xarici ölkələrdə də tanıtdırmışdır.



Misgər məhəlləsi. Lahıc qəsəbəsi

Ümummilli lider Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, onun həyat və fəaliyyətini, xalqımız və dövlətimiz qarşısındakı xidmətlərini gələcək nəsillərə çatdırmaq məqsədilə rayondakı Heydər Əliyev Mərkəzinin fəaliyyəti də ildən ilə genişlənməkdədir. Mərkəz ölkə və ölkədən kənar idarə və təşkilatlarla, muzeylərlə, universitetlərlə əməkdaşlıq əlaqələri yaratmış, müxtəlif tədbirlərin təşkil edilməsi, sərgilərin keçirilməsi istiqamətində mühüm təcrübə qazanmışdır. Hal-hazırda Mərkəz Azərbaycan İstiqlal Muzeyi ilə sıx əməkdaşlıq etməklə, həmin muzeydə tarixi günlərə həsr edilmiş tədbirlərdə fəallıq göstərir. Mərkəzin rəsmi internet saytı (irhe-merkez.cf) və logosu da yaradılmışdır ki, bütün görülən işlər barəsində həmin saytdan mütəmadi olaraq məlumatlar almaq mümkündür.

Ümumiyyətlə, İsmayıllı rayonu bu gün sözün tam mənasında ictimai, iqtisadi, sosial və mədəni tərəqqi yolundadır. Bütün ölkə üzrə müşahidə olunan inkişaf, tərəqqi və yüksəliş bu diyarın yaxın gələcəkdə regionun ən gözəl şəhərlərindən və iqtisadi-mədəni mərkəzlərindən birinə çevriləcəyinə ümid verir.

## II fəsil

# QƏDİM YURD YERİ:
# BASQAL

Əsrlərin tükürpədici hadisələrinə, xoş və kədərli günlərinə, qanlı savaş və qovğalarına şahidlik edərək günümüzə qədər yaşayan qədim yurd yerlərimizdən biri olan *Basqal* qəsəbəsi Baş Qafqaz sıra dağlarının cənubunda yerləşir. Tarixən Şamaxı şəhəri və digər ətraf ərazilərlə sıx iqtisadi, siyasi və mədəni vəhdətdə inkişaf etmiş bu qədim yurd yeri əsrlər boyu regionda cərəyan edən proseslərin subyektlərindən biri kimi də çıxış etmişdir. Istər İsmayıllı, istərsə də Ağsu və Şamaxı rayonları ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunmuş zəngin maddi mədəniyyət nümunələrinin öyrənilməsi ərazidə çox qədim zamanlardan intensiv yaşayışın olduğunu sübut etmiş və bununla da Azərbaycanın qədim tarixinin, iqtisadi, ictimai, siyasi və mədəni həyatının bir çox məqamlarına, eyni zamanda, yaxın və uzaq qonşularla münasibətlərinə aydınlıq gətirməyə kömək etmişdir. Lakin təəssüflər olsun ki, Basqal qəsəbəsinin öz ərazisində bu günə qədər geniş arxeoloji qazıntı işlərinin aparılmaması səbəbindən, onun uzaq keçmişi, formalaşma və inkişaf tarixi barədə dəqiq məlumatlar yoxdur. Hələlik isə yalnız onu demək mümkündür ki, Basqalın Şamaxı ilə Qəbələni birləşdirən qədim karvan yolunun üstündə olması, ətraf ərazinin 2000-2400 illik, bəzi yer-



Basqala gedən yol

lərdə isə daha qədim tarixə malik abidələrlə (Kürdüvan, Uzunboylar, Lahıc, Qırlartəpə və s.) zənginliyi, bilavasitə ona bitişik ərazidə Xankəndi, Fit və Niyaldağ abidələrinin mövcudluğu, yerləşdiyi coğrafi ərazi özü-özlüyündə onun da bir yaşayış məntəqəsi olmaq etibarı ilə erkən çağları barədə düşünməyə məntiqi əsas verir (24, 191). Yaxın gələcəkdə burada aparılacaq arxeoloji qazıntı işləri isə qəsəbənin qədim və orta əsrlər tarixinə aid yeni və maraqlı faktların üzə çıxmasına, yerli əhalinin ənənəvi ictimai, iqtisadi və mədəni həyatı ilə bağlı daha geniş bəhs etməyə imkan verəcəkdir.



Basqalın daş döşənmiş küçələrindən biri

Basqal və onun tarixi barədə fikir söyləyərkən "Basqal" toponiminin etimologiyasının müəyyənləşdirilməsi, mənasının açılması heç şübhəsiz ki, ilk və əsas vəzifələrdəndir. Çünki yer-yurd adları uzaq keçmişin günümüzə gəlib çatan yadigarı, pozulmaz, silinməz möhürü, min-min, milyon-milyon hadisələrin canlı şahididir. Hər bir xalqın tarixini, dilini, soykökünü, məskunlaşma coğrafiyasını bu günə gətirib çatdırmaqla, yer-yurd adları əvəzsiz mənbə kimi çıxış edirlər. Hərəsinin bir mənası, məzmunu və yaranma tarixçəsi var bu adların. El-obada nahaqdan demirlər: "Yurdsuz insan, adsız yer yoxdur". "Basqal" toponimi də bu baxımdan istisnalıq təşkil etmir. Bu toponimlə bağlı Azərbaycan tarixşünaslığında, elmi ədəbiyyatda və



Daş kitabə. 1322-ci il

xalq arasında müxtəlif mülahizələr, fikirlər və yozumlar mövcuddur. Məsələn, görkəmli tarixçi, akademik Ziya Bünyadovun fikrincə, qədim türk sözü olan “Basqal” “bas” və ″qala” sözlərinin birləşməsindən əmələ gəlib, “qala bas”, “qala ucalt”, ″baş qala” və s. mənalarını ifadə edir. Bəzi araşdırıcılar isə “Basqal” toponiminin “Pəsqala” (yəni, “gizli qala”) sözündən əmələ gəldiyini yazırlar. Toponimin türk dilindəki “basqı” (mənbə və ya bulaq mənasında) və “yal” (yəni, “dağ yalı”) sözlərindən ibarət olmaqla “yaldakı bulaq” və ya “bulaq olan yal” mənalarını ifadə etdiyini söyləyənlər də var. Yeri gəlmişkən, bu yozum Basqalın təbii-coğrafi şəraitinə daha çox uyğun gəlir.

Başqa bir fikrə görə, “Basqal” adı qədim türkdilli “Barsil” tayfa birləşməsinin adından götürülüb. Barsillər isə hələ təqribən 2500 il bundan əvvəl Azərbaycanda da çox geniş ərazidə yayılmış və xalqımızın etnogenezində başqa türkdilli tayfalarla yanaşı yaxından iştirak etmişlər. Bu etnonimin qədim türk dillərindəki “bars”, “barsil” (“pələng”, ″bəbir”) sözündən yarandığı ehtimal olunur. Tarixin atası Herodot öz “Tarix” kitabında onları “buslar” kimi təqdim etmişdir. Bu barədə məlumat verən tədqiqatçı Sevda Qasımova qeyd edir ki, Basqal “Bars qalası” və ya “Bas qalası” bu etnosun ucaltdığı qala, saldığı yurdun adı ola bilər (49). Tarix elmləri doktoru Qafar Cəbiyev tarixi mənbələrə əsaslanaraq “Basqal” toponimini açarkən onun qədim türk mənşəli “Moğal”, “Baykal”, ″Ural”, ″Abdal”, “Niyal” sözlərilə zahiri oxşarlıqlarını da nəzərə almağı tövsiyə edir.

Bundan əlavə, “Basqal”ın oykonim olduğunu və “dağ yolu” kimi

izah edənlər, onun türk dillərində rast gəlinən ″baskı″ (mənbə) və ″yal″ komponentlərinin birləşməsindən əmələ gəldiyini yazanlar da var. Yeri gəlmişkən, Azərbaycan dilinin dialektlərində "basalax", ″basmax″, ″basna″ kimi sözlər ″nəsil″, "tayfa", ″çeşid″, ″növ″ mənalarında işlənməklə, "qal" /kal, /xal/ tərkibləri ilə ″kalın″ sözünün kökü kimi dilimizdə qədimdən ″sıx″, "yığış", ″cəmləşmiş″, "kütlə" mənalarını da ifadə edir. Həqiqətən də basqallılar tarixən indiki yurd yerlərində uzun illər kompakt şəkildə yaşayaraq bir növ öz kiçik cəmiyyətlərini yaratmışlar. Bununla belə, hesab edirik ki, bu yozumların hər hansı birinin son və qəti qənaət kimi qəbul olunması hələlik tezdir və görünür belə bir fikir müxtəlifliyi fonunda sözü gedən toponimin daha ciddi tarixi-etnoqrafik tədqiqata ehtiyacı var.

İsmayıllı rayonunun hər yerində olduğu kimi, Basqalda da yurdumuzun uzaq keçmişindən söz açan əzəmətli qala divarlarının qalıqlarına, tarixi-memarlıq incilərinə, məzarüstü xatirə abidələrinə, sənətkarlıq məhəllələrinə, ictimai binalara, tarixi tikililərə rast gəlmək mümkündür. Bu abidələrə, xüsusilə də bir-birinə bitişik evlərə, qovuşuq həyətlərə heyranlıqla tamaşa etdikcə, bu yurdun qədim tarixinin bir çox səhifələri göz önündə canlanır. İlk baxışda sanki minilliklərin o üzünə düşürsən. Çay daşları ilə döşənmiş əyri-üyrü dar küçələri, döngələri, məhəlləarası yolları və s. çox uzaq bir keçmişin yadigarlarıdır.

Basqalın tarixi ilə bağlı ən maraqlı abidə qəsəbənin cənub-qərbində, tarixi Şamaxı – Qəbələ ticarət yolunun üstündəki hündür təpədə aşkar edilmiş *"Qalalar"* (yerli əhalinin dediyinə görə ətrafı qala divarları ilə əhatə olunduğu üçün belə adlandırılmışdır) abidəsidir. Ərazinin yerli əhali tərəfindən "Qalalar" adlanması alimləri ciddi şəkildə maraqlandırmış və ötən əsrin 60-70-ci illərində burada arxeoloq Fazil Osmanov tərəfindən kəşfiyyat xarakterli arxeoloji axtarışlar aparılmışdır. Abidənin ətrafı diqqətlə nəzərdən keçirilərkən bizim eranın I-II əsrlərinə aid yaşayış izləri olduğu müəyyən edilmişdir. Bununla bağlı ərazi-

də aparılmış yoxlama qazıntıları "Qalalar" adlanan sahədə təqribən 1800-2000 il əvvəl qala və yaxud şəhər tipli yaşayış yeri – istehkam olduğu barədə ehtimalların meydana gəlməsi ilə nəticələnmişdir. Qala divarları olan ərazidə arxeoloji qazıntı işləri aparılmadığı üçün verilən məlumatlar şübhəsiz ki, tam deyildir və müdafiə divarlarının nə vaxt, hansı məqsədlə çəkildiyi tam aydınlaşdırılmamışdır (24, 192).



Qalabaşı m□h□ll□si.
Qala divarlarının qalıqları

Tədqiqatlar zamanı o da məlum olmuşdur ki, bölgədə tez-tez baş verən güclü zəlzələlər nəticəsində "Qalalar" yaşayış yerində bəzi tikililərin dağılmasına səbəb olmuşdur. Salamat qalan tikililər isə ətraf kəndlərin əhalisi tərəfindən dağıdılmış və buradakı daşlar inşaat materialı kimi şəxsi ehtiyaclar üçün istifadə edilmişdir. Eyni zamanda abidənin ərazisi zaman keçdikcə torpaqla dolduğundan, bir hissəsi torpaq və ya tikinti sahəsi kimi əhaliyə paylanmış, burada müasir evlər tikilmiş və bağlar salınmışdır. Sual doğur: Görəsən elin qüdrətindən və şöhrətindən xəbər verən qədim tikililərin və abidələrin daşlarını – ulu babaların qurduğu, yaratdığı tarixi yadigarları söküb dağıdanlar nə qədər böyük cinayət işlətdiklərinin fərqinə varmışlarmı?!

Orta əsr feodal pərakəndəliyi dövründə, xüsusilə də daxili siyasi çəkişmələrin və xarici işğalçıların basqınlarının gücləndiyi zamanda Şirvanın hər yerində olduğu kimi, Basqalda da etibarlı müdafiə istehkamları tikilmişdir. Bunlardan Basqalın cənub kənarında *"Qala yeri"* adlanan sahədə qalınlığı 1 metrə çatan qala divarlarının izləri qalmaqdadır. Təəssüf ki, qala divarları tamamilə uçub dağıldığından onun

formasını müəyyənləşdirmək mümkün olmamışdır. XI-XII əsrlərin yadigarı olan bu abidənin təbii-coğrafi xüsusiyyətlərinə və hərbi-strateji mövqeyinə görə müdafiə qalası və yaxud gözətçi məntəqəsi olduğunu düşünməyə əsas verir (72, 48-50). Qala divarı qalıqlarının hörgüsündə tətbiq olunan çay daşı, qaya daşı, gil və s. inşaat materialı onun möhkəmliyini göstərir. Tədqiqatçılar qala divarlarının mövcudluğunu sözügedən yaşayış yerinin şəhər tipli yaşayış məntəqəsi olmasını təsdiqləyən mühüm əlamət hesab edirlər (24, 189).



Numizmatik material – mis pul

“Qala yeri” ərazisində çaydaşı, əhəngdaşı, həmçinin digər tikinti qalıqlarına, şüşə, şirsiz və tək-tək şirli saxsı qalıqlarına təsadüf edilmişdir. Əldə olunan tapıntılar arasında dulusçuluq məmulatı (nehrə, küp, badya, eyni zamanda mətbəx üçün hazırlanan müxtəlif formada dulus qab qalıqları) çoxluq təşkil edir. Onların hamısı dulus çarxında hazırlanmışdır. Buradan həmçinin daş əmək alət-



Keramika qalıqları

ləri, müxtəlif peşə sahələrinə aid dəmir məmulatı və s. də tapılmışdır. Daş məmulatı arasında ev məişəti ilə bağlı müxtəlif ölçülü dən daşları (yarma daşları), həvəngdəstələr, sürtgəclər üstünlük təşkil edir. Bu və digər maddi mədəniyyət nümunələrinin qalıqları Basqalda ipəkçilikdən başqa digər sənət sahələrinin də inkişaf etdiyini göstərir. İlk baxışdan aydın olur ki, əldə edilən yerüstü materiallar, xüsusilə şirsiz qab qırıqları öz forma və xüsusiyyətlərinə görə, Azərbaycanın orta əsr şəhərlərində, o cümlədən Beyləqan, Bərdə, Şamaxı, Qəbələ, Gəncə, İsmayıllı və Ağsuda aparılan arxeoloji qazıntılar nəticəsində tapılmış maddi mədəniyyət nümunələri ilə uyğunluq təşkil edir. Aşkar olunan mis pullar – numizmatik materiallar isə sözügedən yaşayış yerinin, şəhərin iqtisadi, siyasi və mədəni həyatını öyrənmək, xüsusilə ticarət əlaqələrini aydınlaşdırmaq baxımından əhəmiyyətlidir. Lakin sikkə nümunələrinin digər materiallara nisbətən azlıq təşkil etməsi ilk növbədə ərazidə geniş miqyaslı arxeoloji qazıntı işlərinin aparılmaması ilə bağlıdır.

Müasir Basqal qəsəbəsinin bir ucu yaxınlıqdakı "Həsənxan bağı" adlanan əraziyə qədər gedib çıxır. Burada tikinti və təsərrüfat işləri görülərkən orta əsrlərə aid xeyli maddi mədəniyyət qalıqları tədqiqatçıları ciddi şəkildə maraqlandırmışdır. Arxeoloq Qafar Cəbiyev həmin tapıntılara və əldə edilən digər yerüstü arxeoloji




1 – Daş həvəng. 2, 3, 4 – Dən daşının hissələri

materiallara əsasən müəyyən etmişdir ki, ərazidə ilk orta əsrlərdən başlayaraq XIII-XIV əsrlərədək intensiv yaşayış mövcud olmuşdur (98, 55-57).

Azərbaycanın XVIII-XIX əsrlər tarixinə həsr olunmuş elmi-tədqiqat əsərləri də Basqalın bu dövrü haqqında müəyyən təsəvvür yaratmağa imkan verir. Məlum olur ki, Şamaxı xanı Mustafa xanın Basqalda mülkləri olmuşdur. Tarixçi Nailə Bayramovanın araşdırmaları sübut edir, 1824-cü ilin vergi sənədlərində Basqal inzibati cəhətdən Şirvan əyalətinin Houz mahalının, 1851-ci ilə aid sənədlərdə isə Şamaxı qəzasının Houz dairəsinin tərkibində olmuşdur. Mahalın əhalisi (33205 nəfər) əsas etibarilə əkinçilik və sənətkarlıqla məşğul olmuşdur. Houz mahalı Şamaxı xanı Mustafa xanın qohumları Xancan, Mərdan və Mehdi bəyə məxsus olmuş və onlar tərəfindən idarə edilmişdir (19, 44). Əsərdə XVIII yüzilliyin 90-cı illərindən etibarən Şamaxı xanlığının inzibati idarəetmə sistemi, mahalların siyasi quruluşu, ərazisi, əhalisi və təsərrüfat həyatı haqqında da kifayət qədər məlumat verilir. Mahallar mahal naibləri tərəfindən idarə olunurdu. Mahal hakimi vəzifəsini icra edən naiblər əsas etibarilə təsərrüfat və inzibati məsələlərlə məşğul olur, xanların sərəncamlarını icra edir, vergilərin vaxtı-vaxtında toplanılması işini ye-



Basqalın daş küçəsi

rinə yetirirdilər. Sənətkarlar üzərinə vergi qoyulması, vergilərin qaydaya salınması da naiblərin öhdəsinə düşürdü (15, 451). Buradan toplanan vergilər mahala, oradan isə Şamaxı xanlığına daxil olurdu.

Beləliklə, Basqalın eramızın əvvəllərindən yaşayış məskəni kimi mövcud olması, son orta əsrlərdə isə dövrünə görə hər bir şəraitə malik şəhər tipli bir məntəqəyə çevrilməsi tarixi-etnoqrafik faktlarla tam təsdiq olunur. Bu məsələdə Basqalın Şərq-Qərb ticarət magistralının üzərində yerləşməsi, əlverişli strateji coğrafi mövqeyi və digər amillər də mühüm rol oynamışdır. Təsadüfi deyil ki, bəzi mənbə və ədəbiyyatda Basqal məhz şəhər olaraq təqdim olunur. Məsələn, XIX əsr rus müəllifi M.N.Lebedev-Kostromsev "Qafqaz" qəzetinin 1822-ci il 310-cu sayında yazır: "... *Basqal şəhərinə* qəza mərkəzi kimi Şamaxıdan Rusiya atlarından kiçik, lakin zərif və iti yerişli kəhər atla gəldik. Atın sahibi yerlilərin "çarvadar" adlandırdığı orta yaşlı bir adam öz heyvanına elə bil dil öyrətmişdi. At öz sahibini mütiliklə dinləyir və iri daş topası ilə dolu olan maneələri, yoxuşları, gur dağ çayını dəf edirdi. *... Basqal şəhərinə* axşam vaxtı yetişdik. Neft lampaları evlərin eyvanını, həyətləri kifayət qədər işıqlandırırdı. Melodik səs ruhumuzu oxşadı. Çarvadar Məşədi Əzim kişi bu səsin məscid minarəsindən gəldiyini mənə başa saldı. Məscid işçisi şam əzanı verirdi..." (96).

XIX əsrdə el arasında "Nikolay yolu" adlanan "Şamaxı-Basqal yolu" böyük iqtisadi əhəmiyyət kəsb etmişdir. Basqalın sənaye həyatında müəyyən rol oynamasının gələcəkdə buranın böyümə perspektivinin, əlverişli kurort şəraitinə malik olmasının, əhalinin özünəməxsus fəallığının, nəhayət varlı, nüfuzlu adamlarının hakim dairələrə təsirinin nəticəsi olaraq bu sənətkar-ticarət məskəninə 3 yerdən – Şamaxıdan, Ağsudan və İsmayıllıdan araba-furqon yolu çəkilmişdir. Bu faktın özü də vaxtilə şəhər statusunda Basqalın Şirvanda mühüm ticarət və mədəni mərkəzlərdən biri olduğunu söyləməyə əsas verir.

Plan-məkan quruluşuna görə, Basqal dağın döşündə amfiteatrsa-

yağı elə salınmışdır ki, uzaqdan baxanda evlərin üst-üstə tikildiyini güman etmək olar. Küçələr darısqal, əyri-dolanbac olduğundan, onların xeyli hissəsində nəqliyyat hərəkət edə bilmir. Həyətyanı torpaq sahəsinin azlığı Lahıcda olduğu kimi, burada da evlərin sıx halda yerləşməsinə səbəb olmuşdur. Bununla belə, Bakının İçərişəhərini xatırladan Basqalın səliqəli, təmiz küçələrinə heyranlıqla tamaşa etməmək mümkün deyil. Onun baş küçəsi bazar meydanından başlayaraq çay qırağı ilə Kəlfərəc yolunadək uzanır və sakinlərinin əksəriyyəti tarixən toxucu və boyaqçı olub. Arxeoloq A.R.Fituni "Şirvanın son paytaxtının tarixi" məqaləsində yazır: "... 1795-ci ildə İran şahı Ağa Məhəmməd Şah Qacarın Gürcüstana, Muğana, Talış və Şirvana hücumu zamanı Mustafa xan öz yaxın qohumları ilə Fit dağındakı qalaya çəkilir. Onlar qaladan çox da uzaq olmayan Basqal adlı şairanə yerdə ipək əyirən fabrik açır (38, 8).

Məlum olduğu kimi, Şirvan – Şamaxı tarixən Azərbaycanın ən iri ipək istehsalı mərkəzlərindən biri olmuşdur. Lakin onu da unutmaq olmaz ki, orta əsrlərdən başlayaraq Şamaxıda və bütövlükdə Şirvanda istehsal edilən ipəyin mühüm bir hissəsi mübaliğəsiz olaraq Basqalın payına düşmüşdür. Başqa sözlə desək, Basqal qəsəbəsi tarixən Şirvanın ipək ticarətində çox mühüm rol oynamışdır. Buranın ipəyi, qanovuz və tafta parçaları, xüsusilə yüksək keyfiyyətli kəlağayıları təkcə yerli tələbatı ödəmir, Yaxın, Orta Şərq və Avropa ölkələrinə də ixrac olunurdu. Mənbələrin yazdığına görə, XVIII-XIX əsrlərdə Basqal kəlağayı istehsalı üzrə nəinki Azərbaycanda, eləcə də bütün Cənubi Qafqazda mərkəzi mövqelərdən birini tuturdu.

Bundan başqa, Basqalda XVI əsrdən indiyədək fəaliyyətdə olan müxtəlif mədəni-iqtisadi və dini ibadət abidələri, hamam, sənətkarlıq məhəllələri, qəbiristanlıq, bazar meydanı, 500 ilə yaxın yaşı olan çinar ağacı, daş döşəməli küçə və meydanlar, su və kanalizasiya şəbəkəsi mövcuddur. Tədqiqatçılar belə bir nəticəyə gəlmişlər ki, kürəbənd su

və kanalizasiya şəbəkəsinin 800 ildən 1000 ilədək yaşı var və o, Basqalın qədimlərdə şəhər mədəniyyətinə malik olduğunu sübut edən faktorlardan biridir.

Müasir Basqal Qoşabulaq, Dəmirçibazar, Qəlibgah, Dərəməhəllə, Qalabaşı, Kələküçə, Xarabiyan məhəllələrindən ibarətdir. Hər məhəllənin uzun qərinələrdən bəri suyunun ləzzəti ilə adnan tanınan şirin-şəkər bulağı var: Bədəl bulağı (XIV əsr), Qoşabulaq (XVI əsr), Xarabiyan bulağı (XVII əsr), Hacı Çələbi bulağı (XVIII əsr), Miğcöhün bulağı (XIX əsr), Dambulu bulağı (XIX əsr), Bədo bulağı (XIX əsr), Hüseyn bulağı (XIX əsr), Əmrəki bulağı (XIX əsr), Çömçəbulaq (XIX əsr) və s. Bu bulaqlar dumduru, buz kimi soyuq suyu ilə həm böyük bir qəsəbənin əhalisini, həm də meşələri, çəmənləri, quşları, ceyran-cüyür sürülərini yaşatmışdır.

Nəinki orta əsrlərdə, hətta son illərə qədər Basqal camaatının ən sevimli yeri ticarət dükanlarının və sənətkar emalatxanalarının cəmləşdiyi əsas mərkəz *Bazar meydanı* olmuşdur. Qəsəbənin bütün küçələri, yolları, evlərdən başlanan cığırları məhz bu meydanda birləşirdi. Məhəllədaxili hadisələr, ticarət sazişləri, ictimai və məişət həyatına aid olan bütün məsələlər burada Bazar meydanında (bu yerə "kimğə yeri" – adamların bir yerə yığışdığı yer deyirdilər) müzakirə olunurdu.

Bütün bunlarla yanaşı, onu da qeyd etməliyik ki, Basqal təkcə iqtisadi və sənətkarlıq tariximizin deyil, müxtəlif illərdə və əsrlərdə Azərbaycanın tarixində baş vermiş siyasi hadisələrin, müharibələrin, qanlı toqquşmaların, xalqımıza və dövlətimizə edilmiş xain təcavüzlərin də canlı şahididir. Xüsusilə XX əsrin əvvəllərində mənfur ermənilərin xalqımıza qarşı törətdiyi soyqırımı hələ də o günləri yaşamış bir çox basqallıların yaddaşından silinməmişdir. Məlum olduğu kimi, Azərbaycanın iyirmi faiz torpaqlarını işğal edib, əhalisini didərgin salmaqla "Böyük Ermənistan" yaratmaq kimi xülyasını həyata keçirmək üçün erməni-daşnaklar Rusiya imperiyasında, eləcə də Avropadakı

mürəkkəb siyasi şəraitdən istifadə etməyə çalışırdı. Bunun üçün onlar 1918-1920-ci illərdə bolşeviklərin havadarlığı, bilavasitə iştirakı ilə Bakıda və Azərbaycanın bir çox bölgələrində – Qubada, Lənkəranda, Neftçalada, Salyanda, Qarabağda, o cümlədən Şamaxı qəzasında qanlı qırğınlar törətdilər. Onlar müsəlman evlərinə od vurub yandırır, canını qurtarmaq istəyən sakinlərə – kişi, qadın və uşaqlara heç bir fərq qoymadan onları ən amansız üsullarla qətlə yetirirdilər. Şamaxı şəhərinin küçələrində diri-diri pazlara mıxlanmış uşaq meyitləri atılıb qalmışdı. Azərbaycanlıların evlərindən qarət və talan edilmiş əmlakları araba və furqonlarla erməni və molokan kəndlərinə daşınırdı (4). Şəhərdəki bütün məscidlər (on iki məhəllə məscidinin və 800 illik tarixi olan böyük memarlıq abidəsi "Cümə məscidi"), onların nəzdindəki müqəddəs yerlər yandırılırdı. Bu cür vəhşiliklər Şamaxı şəhəri ilə yanaşı, qəzanın Əngəxaran, Məlhəm, Bağırlı, Tircan, Ağsu, Kalva, Qubalı, Yəhyalı, Nəvahi, Güloğlan kəndlərində də həyata keçirilmişdi. 1919-cu il aprelin 3-də Şamaxı qəza rəisi Fövqəladə Təhqiqat Komissiyasına həmin qəzanın 3 polis sahəsi (Qəbiristan, Mədrəsə və Kaşun) üzrə ermənilər tərəfindən dağıdılmış kəndlərin siyahısını göndərmişdi. Həmin siyahıya Qəbiristan polis sahəsi üzrə 19, Mədrəsə polis sahəsi üzrə 41 və Kaşun polis sahəsi üzrə 26 kəndin (cəmi 86 kəndin) adı daxil edilmişdi (5). Qırğına məruz qalmış digər kəndlər üçün tərtib edilmiş aktlarda olan rəqəmlər üzrə Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 nəfər azərbaycanlını qətlə yetirmişlər ki, onlardan da 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdur. Hesablamalara görə bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,5 milyon manat olmuşdur (6). Ermənilərin azərbaycanlı əhaliyə, onların evlərinə, mal-qara, əkin sahələrinə münasibətdə törətdikləri vəhşiliklər sözün əsl mənasında soyqırımı nümunəsi idi.

O zaman Azərbaycanın köməyinə qardaş türk ordusu gəldi. 19 iyul 1918-ci il tarixində Nuru Paşanın komandanlığı altında 13-cü Qaf-

qaz alayı Şamaxı istiqamətində hücuma keçərək Alpaut yüksəkliklərini aşdı və səhər saatlarında Şamaxının cənubunda yerləşən Mədrəsə qəsəbəsinin ətrafındakı aşırım və təpələri ələ keçirdi. Mədrəsə ətrafında gedən qanlı döyüşlərdə Türk Qafqaz Islam Ordusu bir yüzbaşı və dörd sıravi şəhid verdi. Lakin get-gedə sıxışdırılan erməni Hamazasp və Kazarov məğlub olacaqlarını başa düşərək, qəti bir hərəkətlə Bakı istiqamətində qaçmağa başladılar.

Bu gün Şamaxı yaxınlığında Acıdərə adlanan yerdə xalq arasında "Tənha məzar" adlanan bir məzar və onun üzərində qurulmuş möhtəşəm abidə var. Məzar Qafqaz Islam Ordusu əsgərlərindən birinə aiddir. Həmin əsgər Qafqaz Islam Ordusu əsgərləri və generalları ilə bura azərbaycanlı qardaşlarına kömək məqsədilə gəlmişdi. Lakin şəhid oldu və öz istəyi ilə şəhid olduğu yerdə də dəfn edildi. Allah rəhmət eləsin!

Məlumatçılarımızın sözlərinə görə, ermənilərə qarşı mübarizə günlərində Nuru paşa Basqala da baş çəkmişdi. Belə ki, o zaman digər Azərbaycan kəndlərinin əhalisi kimi, basqallılar da silahlanıb öz doğma ev-eşiklərini, ocaqlarını erməni faşistlərindən qorumaq üçün meşələrə, dağlara çəkilmişdilər. Bu zaman Nuru paşa ətrafındakı əsgərlərlə bərabər Bədo yaxınlığında basqallılarla görüşür. Deyilənə görə, nə vaxtdan bəri dincliyin nə olduğunu bilməyən Nuru paşa Bədoda qərargah qurur və təbiətin bu gözəl guşəsində bir neçə gün dincəlmək qərarına gəlir. Təsadüfən o, burada İstanbuldan tanıdığı Məşədi Fazil adlı bir nəfərlə görüşür və onun təkidi ilə Basqala gedir. Basqalda böyük hörmət və ehtiramla qarşılanan Nuru paşa Basqal məscidində namaz da qılır...

Bundan başqa, 1939-1945-ci illərin İkinci Dünya Müharibəsi bütün azərbaycanlılar kimi, basqallıların xatirəsində də silinməz izlər buraxmışdır. O qanlı-qadalı illərdə 168 basqallı qəhrəmancasına həlak olmuş, onlarla cəbhəçi isə müxtəlif orden və medallarla qayıtmışdır.

Bədnam qonşularımızın bizi sürüklədiyi I Qarabağ müharibəsində – Vətən torpaqlarının azadlığı uğrunda gedən döyüşlərdə də neçə-neçə basqallı mənfur düşmənə qarşı qəhrəmancasına vuruşmuş, şəhid olmuşlar. Amma bütün Azərbaycan kimi, basqallı gənclər də işğal olunmuş torpaqlarımızın qaytarılması, ölkəmizin ərazi bütövlüyünün bərpası üçün müqəddəs savaşa hazırdırlar və bu haqda əmr gözləyirlər.

**Yaşayış evləri**

Azərbaycan xalqının qədim tarixini, təsərrüfat həyatını, dünyagörüşünü əks etdirən zəngin və özünəməxsus maddi mədəniyyət nümunələri tarixin bütün mərhələlərində ictimai həyatın əsas göstəricisi kimi çıxış etmişdir. Bu mədəniyyət nümunələri xalqın kimliyini, mədəni inkişaf səviyyəsini əks etdirən, onun tarix səhnəsində milli-mənəvi varlığını möhürləyən ilkin əlamətlərdəndir.

İnsan həyatı üçün zəruri hesab edilən, onun zəhmətinin və zəkasının məhsulu olan bütün maddi nemətlər, həmçinin istehsal ləvazimatları və əşyalar maddi mədəniyyəti təşkil edir. Azərbaycan ərazisinin əlverişli təbii-coğrafi şəraiti, yeraltı və yerüstü sərvətləri, zəngin flora və faunası, çoxşaxəli təsərrüfat fəaliyyəti, məhsuldar qüvvələrin inkişaf səviyyəsi, xalq sənətkarlığının geniş intişar tapması və s. amillər ənənəvi maddi və mənəvi mədəniyyətin də dinamik inkişafında və yayılmasında böyük rol oynamışdır. Xalqın fiziki əməyinin və fitri istedadının məhsulu olan tikililər (memarlıq abidələri, xalq yaşayış evləri, dini və ictimai binalar, müdafiə istehkamları, qalalar və s.), geyimlər və bəzəklər, yeməklər və içkilər maddi mədəniyyətin ən mühüm sahələri hesab olunur. Onların da bu və ya digər tipoloji növü bilavasitə həmin bölgənin yerli əhalisi tərəfindən çox böyük zaman kəsiyində yaradılmaqla, ümumazərbaycan xüsusiyyətlərilə bərabər, özündə bir

çox lokal cəhətləri də əks etdirir. Bu baxımdan qədim tarixi məkanlarımızdan olan Basqal qəsəbəsinin də maddi mədəniyyət örnəkləri ilə bərabər, mənəvi mədəniyyətin tarixi-arxeoloji və etnoqrafik tədqiqinin böyük əhəmiyyəti vardır. Azərbaycan xalqının ümummilli lideri, möhtərəm Heydər Əliyevin qeyd etdiyi kimi, "Biz öz tarixi köklərimizlə, maddi və mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik. Fəxr edə bilərik ki, bizim mədəniyyətimiz qədim zamanlarda da çox zəngin və yüksək olmuşdur".

Ulu öndərin bu tövsiyələrinin nəticəsidir ki, bu gün prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi, milli-mənəvi dəyərlərimizin tədqiqi və təbliği, tarixi-mədəni irsimizin dövlət səviyyəsində qorunması və dünya miqyasında tanıdılması istiqamətində çox böyük işlər görülür.

Həmin abidələrin sırası çox genişdir və bu sıraya tariximizin ecazkar yadigarlarından olan ənənəvi yaşayış evlərini də əlavə etmək olar. Çünki ənənəvi yaşayış evlərinin etnoqrafik tədqiqi ulu əcdadlarımızın həyat və məişəti, yaşam tərzi, ailə üzvlərinin qarşılıqlı münasibətləri, insanların təbiətlə əlaqəsi və təbii ehtiyatlardan istifadə bacarığı haqqında əyani təsəvvür yaratmaqla, əhalinin inkişaf səviyyəsinin müəyyənləşdirilməsində də böyük əhə-



Kətilli (antiseysmik) ev

miyyətə malikdir. Lokal xüsusiyyətləri ilə səciyyələnən ənənəvi yaşayış məskənlərinin bu və ya digər tipinin formalaşmasında təbii-coğrafi şərait (ərazinin topoqrafik quruluşu, inşaat materialı ehtiyatları) və sosial-iqtisadi amillər (əhalinin təsərrüfat məşğuliyyəti, maddi və mədəni-texniki həyat səviyyəsi, xalq memarlıq ənənələri və s.) mühüm rol oynamışdır. Azərbaycanın maddi mədəniyyətinin tanınmış tədqiqatçısı Məmməd Nəsirli evə insanların irqindən və yaşadıqları ərazinin təbii-coğrafi xüsusiyyətlərindən asılı olmayaraq, əsas yaşayış vasitələrindən biri, onların təbii-zəruri istirahətini, təsərrüfat, məişət və həyati tələblərini təmin edən mühüm maddi mədəniyyət abidəsi kimi tərif vermişdir (69, 90-98).

Şüurlu insan yaradıcılığının məhsulu olan evlər ibtidaidən aliyə - daş dövrü insanlarının primitiv mağaralarından müasir şəhər evlərinə qədər uzun bir inkişaf yolu keçmişdir. Bu da ilk növbədə məhsuldar qüvvələrin inkişaf səviyyəsi, ictimai münasibətlərin və iqtisadiyyatın xarakteri, evlərin salındığı ərazinin topoqrafik xüsusiyyətləri, coğrafi şərait, zəngin təbiət və mədəni-məişət ənənələri ilə sıx bağlı olmuşdur.

Ev tikintisi sahəsində Azərbaycan xalqının zəngin ənənələri vardır. Yazılı mənbələrin məlumatlarından və etnoqrafik materiallardan məlum olur ki, ulu əcdadlarımız yurd salıb ev tikərkən, ilk növbədə bu yerin ticarət-karvan yollarına yaxınlığını, relyef və iqlim göstəricilərini, ərazinin təsərrüfat fəaliyyəti üçün əlverişli olub-olmadığını və nəhayət, təhlükəsizliklə bağlı məsələləri – düşmən hücumları zamanı müdafiə olunmaq imkanlarını və s. mütləq nəzərə alırdılar. Ev tikilən yerin su mənbələrinə yaxınlığı, quru və günəvər olması da vacib şərtlərdən sayılırdı. Bundan başqa, vaxtilə köhnə qəbiristanlıq, pir, sonsuz

adamın ev yeri olmuş sahələrdə, o cümlədən adam öldürülmüş ərazidə el adətinə görə yurd salmazdılar. "Belə yerin düşər-düşməzi olar" deyərdilər. Eyni zamanda adətə görə, ev tikiləcək yerin halallığı alınmalı idi. Özgənin torpaq yerində, kiminsə gözü, nəzəri qalmış sahədə (belə yerə "haram yer" deyilir) binə salmaq məsləhət bilinməzdi.

Bu da maraqlıdır ki, "el ağzında, sel ağzında, yol ağzında ev tikməyi" ağsaqqallar, ağbirçəklər rəva bilməzdilər (83, 252). Başqa bir adətə görə isə tikinti sahəsinin yeri seçildikdən sonra din xadimlərinə müraciət olunur, "Quran ağzı açdırılaraq" istixarə edilirdi. Evin tikintisinə isə bir qayda olaraq uğurlu hesab olunan müqəddəs cümə günlərində başlanardı (58, 107).

Araşdırmalar göstərir ki, Azərbaycanın digər bölgələrində olduğu kimi, Basqalda da yaşayış məskəni salınması üçün vacib amillər – əlverişli relyef, münbit torpaq, ılıq iqlim, ən əsası isə şirin su mənbələrinə yaxınlıq nəzərə alınmışdır. Qəsəbənin dağətəyi ərazidə, güney sahədə, karvan yollarının üzərində yerləşməsi, eləcə də sosial-mədəni yaşamında əhalinin müxtəlif ev peşəsi və sənət sahələri ilə, o cümlədən ticarətlə məşğul olması bu qədim yurd yerinin memarlıq-planlaşdırma quruluşunun formalaşmasında mühüm rol oynamışdır. Tədqiqatçı-memarın təbirincə desək, "Basqal yüksək dağlıq ərazidə yerləşir və tarixən burada formalaşmış plan-məkan quruluşunu, özünəməxsus memarlıq tikililərini, yaşayış evlərinin amfiteatr şəklində düzülüşünü, daş döşənmiş məhəllə və küçə şəbəkəsini, landşaftını qoruyaraq zəmanəmizə çatdırmışlar (18, 68). Onu da xatırladaq ki, qədim zamanlardan günümüzə qədər gəlib çatmış ictimai və dini tikililər, tacir və sənətkarlara məxsus mülklər, zəngin yaşayış evləri əsasən Şirvan-Abşeron memarlıq məktəbinə mənsubdur.

Hazırda Basqal qəsəbəsi Basqal çayı ilə iki hissəyə bölünür: el arasında "o tay", "bu tay", yaxud "aşağı o tay" və "yuxarı bu tay" ayrılır. Bu hissələr bir-birilə çayın üzərindəki daş körpü ilə birləşir. Çayın sol sahilində, "bu tayda" qərarlaşan qədim Basqal dağın döşündə salınmışdır və uzaqdan baxanda evlərin sanki üst-üstə tikildiyini güman etmək olar. İlk baxışda plansız tikilən və pillə-pillə ucalan bu evlərə baxdıqca, kənardan elə təəssürat yaradır ki, onlar sanki tikilməyib, hörülüb, toxunub. Eyni zamanda Şirvan ərazisi güclü seysmik zonaya daxil olduğundan, Basqalda da inşa olunan evlərin dağıdıcı zəlzələlərə qarşı dayanıqlığı nəzərə alınmışdır. İnşaatçı usta bina ağırlığını bütün sahəyə bərabər şəkildə paylanılmasına çalışaraq binanın yüksəkliyini azaltmaqla ağırlıq mərkəzlərini yer səthinə daha yaxın yerləşdirərək, binanın seysmik müqavimətini artırmış olurdu. Seysmik bölgələrdə hörgü daha elastik olan gəc, bünövrələrin inşasında isə gil məhlulu ilə görülürdü. Divarların elastikliyini artırmaq üçün hər 4-5 sıra daş hörgüsündən sonra üfüqi, bəzən isə şaquli ağac elementlər yerləşdirilirdi (31, 536). Xalq bənna-ustaları gözlənilən zəlzələlərin verə biləcəyi zərəri azaltmaq məqsədilə divarların möhkəmliyinə xüsusi diqqət yetirirdilər. Onlar Ağsu və Girdiman çay-



Kətilli (antiseysmik) ev

larından tədarük olunub tikintidə istifadə edilən 5-6 daş hörgü cərgəsindən bu evlərin divarlarına dövrələmə ağac kətillər (taxta qurşaq) atmışlar. Memarlıq doktoru, professor Qəzənfər Əlizadə Şirvan memarlıq məktəbi üçün xarakterik olan, həm də binalara yaraşıq verən bu kətilləri (elementləri) çox ağılla düşünülmüş bir tədbir hesab etmiş və onu obrazlı şəkildə "seysmik kəmər", etnoqraf A.Mustafayev isə "dövrünün mükəmməl inşaat texnikası" adlandırmışlar (63, 155).

Qədim Basqalın baş küçəsi Bazar meydanından başlayaraq çay qırağı ilə Kəlfərəc yolunadək uzanır. İnformatorlardan aldığımız məlumata görə, tarixən bu küçə sakinlərinin əksəriyyəti toxucu və boyaqçı olub. Basqalın köhnə hissəsinin əksər küçələri çox darısqal, əyri-dolanbacdır və hətta o qədər darısqal və dolanbacdır ki, çox yerdə nəqliyyat hərəkət edə bilmir. Yeri gəlmişkən qeyd edək ki, keçmişdə Basqalın yol təsərrüfatı bütün ölkədə olduğu kimi, heç də yaxşı vəziyyətdə deyildi. Belə ki, istər kəndlərarası, istərsə də şəhərlərarası yollar əsasən torpaq yollardan ibarət olub, təkərli nəqliyyat vasitələrinin hərəkətinə imkan verirdi. Bu yollara el arasında "araba yolu" deyilirdi. Yazılı mənbələr və ədəbiyyatda Şirvanın hər yerində kəndlərarası araba yollarının mövcud olduğunu təsdiq edir. Basqala da üç yerdən – Şamaxıdan, Ağsudan və İsmayıllıdan araba yolu çəkilmişdi. Keçmiş zamanlarda qəsəbə daxili təsərrüfat və ev məişətində zəruri yüklərin daşınmasında bu yollarda rahat hərəkət edən at, öküz və ulaqdan istifadə edilir və bu işlə muzdla çalışan çarvadarlar məşğul olurdu.

Köhnə Basqalın ərazisində XVI əsrdə inşa edilmiş məscid, qədim hamam, bazar meydanı, bulaqlar, 100-dən artıq yaşı olan bir çox mülklər və abidələr salamat qalmışdır. Küçələri çay daşlarından səliqə ilə döşənmiş qəsəbənin bu hissəsi ilk baxışdan orta əsr Şərq şəhərlərini xatırladır və muzey-şəhər təsiri bağışlayır. Bu küçələr qədimlərdən bu günümüzə yadigardırlar, əyri-üyrü döngələrində, tinlərində neçə-neçə tarix yaşayır, nurani-pirani kişilərin ayaq izləri yaşayır. Mə-

lumatçılarımızın da söylədiyi kimi, burada zəhmət tələb edən işlərin çoxu bilavasitə qəsəbə sakinlərinin daxili imkanları hesabına və iməcilik yolu ilə görülmüşdür.

Basqalın "o tay" adlanan hissəsi isə təxminən ötən əsrin 30-50-ci illərində salınmış və orada bir neçə ipək emalı sexi fəaliyyət göstərirdi. Həmin sexlərdə toxunan Basqal kəlağayıları Yaxın və Orta Şərq ölkələrinə ixrac edilərdi (indi həmin sexlər mövcud deyil – red.). Hazırda bu ərazidə Basqalın memarlıq üslubuna xələl gətirən köhnə daxmaların, birmərtəbə evlərin yerində ağ daşdan yeni üslubda zövqlə tikilmiş binalar ucalır. Basqal çayının cənub sahəsində isə behişt kimi Əhmədli bağı, Pahpahqı bağı, İsitmə bağı həyətyanı sahə kimi bölünüb əhaliyə paylanıb. Bu bağlarda müxtəlif quruluşlu, bədii cəhətdən böyük zövqlə tikilmiş gözəl binalar meydana gəlib. Kərim bağında, Məmmədqasım bağında əsil kurort şəhərciyi salınıb. Nisbətən geniş küçələr və məhəllələr göz oxşayır.

Basqallılar təmizliyi, yaşıllığı, gülü-çiçəyi çox sevirlər. Burada elə bir ailə, elə bir ev tapa bilməzsən ki, orada səliqə-sahman olmasın, ağac, gül-çiçək yetişdirilməsin. Bir sözlə, bu qədim diyarın bağlı-bağatlı təbiətinə, yaşıllıqlarla dolu mənzərəsinə və təmizliyinə də heyranlıqla tamaşa etməmək mümkün deyil.

Təbiidir ki, XIX-XX əsrlərə aid Basqal evlərinin hamısı eyni səviyyədə və dəbdəbədə olmayıb. Daxili tərtibatına və fasadının görünüşünə, memarlıq elementləri ilə zənginliyinə və s. əlamətlərinə görə bu evləri şərti olaraq varlı və kasıb evlərinə bölmək olar. Hərçənd ki, Basqal camaatının sözlərinə görə, o zamanlar Basqalda kasıb yaşayan insanlar demək olar ki, olmayıb. Buranın əhalisi bütünlüklə ipəkçiliklə, xüsusilə kəlağayı istehsalı ilə məşğul olduğundan, demək olar ki, yaxşı güzəran keçirmişdir. Təsadüfi deyil ki, ipək bütün dövrlərdə bolluq, firavanlıq və zənginlik əlaməti sayılmışdır. Lakin istənilən halda sosial fərqlər mövcud olmuş və bu fərqlər evlərin timsalında da aydın nəzə-

rə çarpmışdır. Məsələn, varlı evlərindən birinin təsvirini vermiş yazıçı Əbülhəsən Ələkbərzadə "Dünya qopur" romanında yazır: "... Burada geniş həyətlərə çox az rast gəlmək mümkündür. Nisbətən az-çox vardırsa, bu da Həmzə kimilərdə idi. Həmzəgil dörd qardaş idi. Qardaşların hər biri üçün bu həyətin bir yanında ikimərtəbəli, dörd-beş otaqlı qəşəng aynabənd ev tikilmişdi. Evlər bir-biri ilə qabaq-qarşı idi, hamısının da üzü həyətə baxırdı. Dördkünc həyətin ortasında dördkünc bir bağça, baxçanın ortasında yenə də dördkünc kiçük hovuz vardı ki, çöldən gətirilən su novça ilə dəyişmək lazım olanda açılır, su saxsı boru vasitəsilə həyətdən çıxıb küçədəki bulağın ayağına qarışırdı...

Bütün bu mülkün üç darvazası var di. Əsas darvaza, baş qapı Həmzənin evi tərəfdən küçəyə açılırdı. Bütün ev sakinləri, ya qonaqlar bu darvazadan qəsəbəyə çıxardılar. İkinci darvaza qabaqlar, kiçik qardaşın evinin yanından çölə, toxucu karxanaları tərəfə açılırdı. Bu darvaza həmişə bağlı, açarı da Əminədə olardı. Haqq-hesab kontoru bu evin birinci mərtəbəsində idi. Sahibkarla haqq-hesabı olan muzdur şərbaflar bu darvazadan həyətə, buradakı qapıdan da bu kontora gəlirdilər. Həmzə ilə işi olan muzdur şərbaf darvazanın dəmir toxmağını döyəndə gələnin kim olduğunu, nə üçün gəldiyini xəbər verdikdən sonra Əminə darvazanı açardı. Üçüncü darvaza sağ yandan, Həmzənin böyük qardaşının evi tərəfdən mal-qara və bir neçə at saxlanan tövlələr tərəfə açılırdı. Kəndlə alver, hər cürə haqq-hesab bu tərəfdə olurdu. Kənddən gələn bu darvazaya gəlir, kəndə gedən olanda da bu darvazadan çıxır, atını minib lazım olan yerə gedərdi...".

Basqallılar və ətraf ərazilərin sakinləri zaman-zaman yaşayış evlərinin tikintisində, hörgü, abadlıq və quruculuq işlərində yerli inşaat materiallarından – çay daşından, kötürdaşdan və çınqıldan geniş istifadə etmişlər. Heç şübhəsiz ki, bu da Basqalın və ona yaxın digər ərazilərlə yanaşı orada Ağsu, Girdiman və digər çayların minilliklər ərzində selinti halında gətirdiyi böyük daş və çınqıl ehtiyatı, həmçinin əra-

zidə təbii daş yataqlarının çoxluğu ilə izah olunur. Təsadüfi deyil ki, bu gün də qonşu kəndlərin əhalisi kimi Basqal da Sulut kəndi yaxınlığındakı *"Daşçıxan"* yatağının ehtiyatlarından yararlanmaqdadır. Elə arxeoloji qazıntılar nəticəsində Şirvan ərazisindəki çoxsaylı tarixi-memarlıq abidələrinin araşdırılması da göstərir ki, uzaq keçmişdə tikinti işləri zamanı çaydaşı və kötürdaşdan geniş istifadə olunmuşdur. Bölgənin ilk orta əsr abidələrinin tədqiqi zamanı məlum olmuşdur ki, tikinti işləri zamanı bərkidici, birləşdirici material kimi əhəngdən geniş istifadə olunmuşdur. Belə ki, ərazi əhəngdaşı ehtiyatları ilə olduqca zəngindir (25, 299).



Daş döşənmiş küçə

Bundan başqa, Basqal və onun ətraf ərazilərinin sıx meşə massivləri ilə əhatə olunması yaşayış evlərinin tikintisində bu təbii sərvətdən inşaat materialı kimi geniş istifadəsinə imkan yaratmışdır. XIX əsr müəllifi N.A.Abelovun məlumatına görə, ağac materialı başlıca olaraq Pirəmeşin, Həftəran, Culyan, Altıağac, Basqal, Quşçu və Xızı meşələrindən əldə olunurdu. Yerli əhali ağac materialları pulsuz, kənar kəndlərin camaatı isə satınalma yolu ilə əsas etibarilə Göyçay və Şamaxı bazarlarından əldə edirdilər (85, 91-95). Meşə materialları həm evin dam örtüyünün qurulmasında, həm də döşəmə, qapı-pəncərə və divar konstruksiyalarının hazırlanmasında geniş tətbiq olunurdu. Bütünlüklə ağac materialından tikilən evlərə

də rast gəlinirdi ki, bu barədə bir qədər sonra bəhs edəcəyik. Ev inşaatında, əsasən, qarağac, palıd, fıstıq, göyrüş və s. ağac materialları işlədilirdi. Ağac əsas etibarilə payızda kəsilirdi, çünki ilin bu fəslində günəş şüaları ağacları bərabər vəziyyətdə qurudurdu.



Ev (XX əsrin əvvəlləri)

Əbülhəsən Ələkbərzadənin "Dünya qopur" romanında XIX-XX əsrin əvvəllərində basqallıların meşə ehtiyatlarından istifadəsi ilə bağlı məlumatlar da əksini tapmışdır. Romandan oxuyuruq: "... Çayqırağı məhəlləsində əsasən qəsəbənin yoxsulları, muzdur və şərbafları yaşayırdılar. Bura suya, daşa, oduna-yanacağa yaxın yerdi. Burada kiçik daxmalar salmaq da asandı. Ev tikməli olan yoxsul, qayalıq içində dörd divar yox, bir ya iki divar hörərdi, meşə isə çayın o tayından başlanan sıldırım dağda idi. Oradan meşəbəyiyə rast gəlmədən biletsiz lap gecə vaxtı ağac kəsib eniş aşağı yuvarlatmaq və tez də dalınca düşüb gətirmək, gecə ikən də evin damını döşəmək mümkün idi. Həm də



Həyət



Qədim ev (XIX əsr)

qışa yanacaq tədarük etmək, yaxud aparıb satmaq üçün də bura asanlıqla odun gətirməyə imkan vardı. Bulaq suyuna, cır kol meyvələrinə yaxınlığı da Çayqırağını muzdurlar və yoxsul şərbafların yaşaması üçün əlverişli edirdi. Buranın bir yaxşı cəhəti də o idi ki, su və peyinlik yaxın olduğundan, camaat kiçik bostan salıb şaxa çıxan lobya, soğan və digər bostan və tərəvəz bitkiləri əkib-becərirdilər. Məhəllədə ev ağartmaq üçün göy rəngə çalan şirə və paltar yumaq üçün gilabı deyilən palçıq da çıxırdı. Sakinlər bu palçıqdan qazıb torbalarda daşıyır, qəsəbənin dövlətlilərinə və yaxın kəndlərə satmaq üçün aparırdılar. ... Veysin evi də Çayqırağında idi. Bu, qaya içində salınmış, qabağında kiçik daş səkisi olan, torpaq damlı, kiçikcə pəncərəli, bir qapıcığazlı daxma idi. Başqa yoxsul şərbaf evləri kimi bu ev də həyət-bacasız və darvazasızdı. Alçaq çəpər bu evi qonşu evdən ayırırdı...".

Etnoqrafik materiallar və yazılı mənbələr əsasında müəyyənləşdirilmişdir ki, burada vaxtilə təkotaqlı evlər üstünlük təşkil etmişdir. Şirvan əhalisinin maddi mədəniyyətinə dair məlumat verən XIX əsr rus müəlliflərindən V.Leqkobıtov və N.F.Dubrovin də evlərin tək otaqdan ibarət olduğunu yazmışlar: "... Evlər əksər hallarda çox böyük ailə və bütün əmlakın yerləşə biləcəyi tək otaqdan ibarət olurdu (106; 99). Belə evlərin damı yastı olub, üstünə torpaq tökülürdü. Demək olar ki, küçəyə baxan pəncərəsi olmurdu, əyri-üyrü divarlarda təkcə sadə na-

xışlı qapılar görünürdü. Yağış və qar sularının axıdılması üçün daşların üstündə 3-4 yerdə dayaz qanov düzəldir və novça qoyurdular. Belə evlərdən həm yaşayış məqsədilə istifadə edir, həm də onun bir hissəsində 5-6 dəzgahı quraşdırıb kəlağayı toxuculuğu ilə məşğul olurdular.

XIX əsrin II yarısından başlayaraq bütövlükdə Azərbaycan sənayesinin inkişafında baş verən dəyişikliklər Şirvandan, o cümlədən Basqaldan da yan keçməmişdi. Bu dövrdən evlərin yaşayış və istehsal-təsərrüfat bölmələrinin bir-birindən ayrılması prosesi başlanmışdı ki, bu da hər şeydən əvvəl ailənin ictimai vəziyyəti və maddi həyat şəraitinin yüksəlməsi ilə bağlı idi. Basqallıların iqtisadi və sosial-mədəni yaşamında kəlağayıçılıq sənətinin mühüm yer tutması, həmçinin ticarətin inkişafı və burada tikinti işlərinin genişlənməsi ilə əlaqədar bir çox evlərin memarlıq-planlaşdırma quruluşunda dəyişikliklər baş vermişdi.

Deyirlər ki, o zamanlar adlı-sanlı kişilər daha çox öz yaraşıqlı evləri ilə tanınardı. Sənətkarlığın, xüsusilə kəlağayı istehsalının və ticarətin yüksək inkişaf səviyyəsinə çatması ilə bağlı "əli azacıq tutan" sənət ustalarının maddi imkanı artdıqca həyat tərzi, yaşayışı, dolanacağı da dəyişirdi. Varlanan basqallılar tikinti, abadlıq işləri aparır, böyük zövqlə tikilmiş gözəl binalar meydana gəlir, məişət şəraitini də yaxşılaşdırırdılar. Bu prosesə müasir inşaat materiallarından (daş, kərpic, sement, şüşə və s.) bacarıqla istifadə edilməsinin, evtikmə texnikasının və üsullarının yeni ənənələrlə zənginləşməsinin də güclü təsiri olurdu.

Basqal evlərinin demək olar ki, hamısı üzü qibləyə (Məkkədəki müsəlmanların müqəddəs məbədi olan Kəbənin səmti) doğru tikilmişdir. Bu Azərbaycanın başqa elləri üçün də səciyyəvidir. Azərbaycanın hər yerində olduğu kimi, Basqal evlərinin də qapıları gündoğana açılır. Bu da səbəbsiz olmayıb, ulularımızın təbiət, təbiət hadisələri və günəş işığının insan orqanizminə təsiri ilə bağlı empirik biliklərinin nəticəsi olaraq meydana gəlmişdir. Təsadüfi deyil ki, müdriklərimiz, loğ-

manlarımız "Gün işığı gümrahlıq gətirər", "Günəş girməyən qapıdan dərd girər", "Günəş girən evə təbib girməz" - deyiblər.

Yaşayış evlərinin vacib tikinti elementlərindən olan eyvan bir qayda olaraq, evin kəlləsində, cənub-şərq istiqamətində qurulurdu. Qəsəbənin yaşlı sakinlərinin verdiyi məlumata görə, bu, mənzilləri yayın qızmar istisindən və qışın sərt şaxtasından qorumaq məqsədilə edilirdi. XIX əsrin sonu-XX əsrin əvvəllərində Basqalda eyvanın bir, yaxud hər iki başı divarla əhatə olunub, ensiz tikilirdi. Burada ikimərtəbəli evlərin artırmasında sürahili (məhəccər), pəncərəli eyvanlara, ağac dirəklər





Qədim məhəllələr

üstə dayanan açıq eyvanlı evlərə də rast gəlinir (63, 48). Evlərin ayrılmaz hissəsi olan eyvandan mətbəx, məişət bölməsi kimi də istifadə olunurdu.

Azərbaycanın bütün bölgələrində olduğu kimi, Basqalda da qonaq üçün ayrıca otaq olur və bu otaqdan yalnız qonaq gələndə istifadə edirdilər. Yaraşığı, səliqə-sahmanı ilə diqqəti cəlb edən otağın bayıra

müstəqil qapısı olur və onu ən qəşəng xalılarla döşəyir, pərdələrlə bəzəyirlər. Basqal evlərində də otaqların qadınlara və kişilərə (yaxud uşaqlara) məxsus bölmələri mövcud olmuş və bu tip ev nümunələri Basqalda indi də qalmaqdadır. Burada həmçinin, ev peşəsi və sənətkarlıqla məşğul olan əhalinin müxtəlif səciyyəli təsərrüfat tikililərinə (emalatxana, karxana, kümxana, dəmirçixana, dükan və s.) də təsadüf olunur.

XIX-XX əsrin əvvəllərində Basqalda ikimərtəbəli mülklər də az deyildi. Belə evlərin üst mərtəbədəki otaqlar yaşayış funksiyası daşıyıb, alt mərtəbəsində və zirzəmisində isə sənətkarlara məxsus istehsal və təsərrüfat tikililəri, dükan yerləşirdi. Bəzi evlərdə mərtəbələr arasında əlaqə yaratmaq məqsədilə *dəribuni* adlanan pilləkən düzəldilir, məişət və təsərrüfat otaqları yaşayış binası kompleksindən kənarda tikilirdi. Əsasən varlı zümrələrə məxsus olan belə evlərdə otaqların sayı 20-yə çatırdı və onların bəziləri dövrümüzədək gəlib çatmışdır. Onlardan biri – Hacı Bağırın evi (mülkü) Qoşabulaq məhəlləsində yerləşir. On otaqdan, geniş həyətdən və həyətdəki bir sıra yardımçı tikililərdən ibarət olan mülk, deyilənə görə əvvəllər çox dəbdəbəli olmuşdur. Hazırda isə baxımsızlıq üzündən bir hissəsi uçulub-dağılmışdır. Şirvan mülkü memarlığının ən gözəl nümunələrindən olan bu evin bərpasına böyük ehtiyac vardır.

Evlərin daxili tərtibatı, səliqə-sahmanı da maraqlı məsələlərdəndir və etnoqrafik baxımdan böyük maraq doğurur. Çox-çox qədimlərdən adət idi, qışın şaxtalı gecələrində otağın ortasında kürsü qurulurdu. Evlər odun və kömürlə isidilirdi. Şirvanın dağ kəndlərinin, eyni zamanda Basqalın əksər evlərində otağın döşəməsində qazılmış dayaz çalanın üstünə *kürsü* qoyur, üzərinə iri kürsü yorğanı salırdılar. Bəzi evlərdə otağın ortasında manqal közərdər və ya gildən hazırlanmış kürə qoyar, kürədə kömür qızardardılar.

Evlərin divarları boyunca düzəldilmiş *taxçalarda* adətən, gündəlik-

də az işlədilən ev avadanlıqlarını, xırdavat əşyalarını, həmçinin qadın zinətlərini, bahalı parçaları, toy-düyün libasını və s. mücrü və boxçalara yığıb saxlayırdılar. Taxçanın önünə çox vaxt xırda və rəngbərəng parçaları bir-birinə tikməklə hazırlanan qurama, bəzən isə haça pərdə asır, onun başına isə rəngbərəng parçadan pərdəbaşlığı tutulurdu.



Evin daxili sahmanı. Rəf

Keçmişdə mətbəx hələ yaşayış bölməsindən ayrılmadığına görə, evin otaqlarının üç, bəzən isə iki divarı boyu adamın əli çatacaq hündürlükdə *rəflər* düzəldilir və burada rəngarəng saxsı və çini qab-qacaq, kasa və nimçələr, piyalələr, kiçik həcmli məişət əşyaları (lampa, gülabpuş və s.) müəyyən qayda ilə düzülürdü.

Basqal evlərinin daxili quruluşunun ən mühüm elementlərindən biri də *camaxatan* adlanan yük yeridir. Camaxatan, adətən, döşəmədən 10-25 sm yuxarıda, 60-70 sm dərinliyi olan divar batıqlarından ibarət olmaqla hündürlüyü 1,5 m, eni isə 70 sm – 1 m olmaqla düzəldilirdi.



Evin daxili sahmanı. Camaxatan

Camaxatanlara əsasən, yorğan-döşək, pal-paltar, gəbə, palaz, kilim, həmçinin sandıqça və s. qoyulur, qarşısından isə qurama (qurama tikmədə parça rəngləri ən kiçik detallara qədər uyğun çalarlarda və dəqiqliklə seçilirdi) pərdə salınırdı.



Qədim ev və küçə (XIX əsr)

1920-ci ilin aprel işğalından sonra Azərbaycanın bütün bölgələrində olduğu kimi, Basqalda da neçə-neçə dövlətli sənətkar-tacirin, din xadiminin tüfeyli ünsür, qəddar düşmən, qolçomaq damğası ilə başı üzüldü, Sibirə sürgünə göndərildi. Bəziləri isə amansız təqiblər səbəbindən doğma yurd-yuvalarından didərgin düşüb, uzaq-yaxın ölkələrə, qərib məmləkətlərə üz tutdular. Onların xüsusi zövqlə tikilmiş memarlıq quruluşuna və görkəminə görə fərqlənən mülkləri, malikanələri isə müsadirə olunaraq sovet hakimiyyəti tərəfindən



Qədim məhəllələrdən biri ( XIX əsr)

müxtəlif məqsədlər üçün istifadə edildi. Bu xüsusda qocaman kənd sakini və ziyalısı Miryavər Hüseynovun söylədiyinə görə, 1933-cü ildən 1968-ci ilədək ipək-toxuculuq arteli kimi istifadə edilmiş Heydər əminin 20 otaqdan ibarət yaraşıqlı, mozaik şəkildə daş döşənmiş həyəti olan binasında o zaman rayon icraiyyə komitəsinin, maarif şöbəsinin, hərbi komissarlığın və prokurorluğun idarələri yerləşmişdi. 1962-ci ilə kimi 2 saylı məktəb kimi tanınan Hacı Bağır mülkündə rayon partiya komitəsi, xalq məhkəməsi və sığorta idarəsi fəaliyyət göstərirdi. Molla İsmayılın uzun, şüşəbənd eyvanlı, çoxotaqlı evinin bir tərəfində rayon milis şöbəsi, əmanət kassası, şərq tərəfdəki hissəsində nümunəvi xəstəxana yerləşirdi. 1946-49-cu illərdə isə Molla İsmayılın həmən mülkü Sumqayıt kimya zavodunun istirahət evi üçün münasib hesab edildi. Heç bir lüzum olmadan 2 mərtəbəli, 40 metr uzunluğu, 15 metr eni olan geniş eyvanlı yeməkxana, yanındakı karvansara, həmin binanın alt mərtəbəsində yerləşən 7-8 baqqal dükanı sökdürüldü, əvəzində isə bəsit görkəmli bir daş hasar hörüldü. Rayon kooperativlər ittifaqının idarə heyəti Məşədi Rzaqulunun, rayon rabitə şöbəsi isə Hacı Həsən Əfəndinin evində idi. Göründüyü kimi, məscidlərin taleyini yaşayan bu mülklər də dəfələrlə əldən-ələ keçib.



Qədim küçə

Basqalda klassik Azərbaycan memarlığının nümunələri sayıla biləcək bu tipli evlərin bəziləri indiyədək qalmaqdadır. Ticarətlə

geniş məşğul olmaqla yanaşı, dövrünün hərtərəfli biliyə malik ziyalılarından olan Ağasəfərəli Güliyevin yaraşıqlı, yüksək zövqlə tikilmiş mülkü, Soltannisənin, Sonabacının, Müqbatın, Baba dayının, Hacı Məmmədtağının, Bala Əfəndinin, Bəşir kişinin mülkləri məhz belə evlərdəndir və onların hər birinin yüz əlli ildən artıq tarixi vardır. Yaşayış evlərinin bu günədək çatan yarlı-yaraşıqlı, tağlı, sürahılı, eyvanlı bu binaların özləri də təcrübəli Basqal bənna-sənətkarlarının bacarığı və düzgün memarlıq düşüncəsindən, zəngin inşaat ənənələrinə malik olduqlarından xəbər verir. Burada belə evlərlə yanaşı, bədii və tarixi dəyəri olmayan binalar da var. Hüseynov Eldar Ağahüseyn oğlu isə bu diyarın ən tanınmış bənnalarından olmuşdur.



Bəşir əminin evi (XIX əsr)

Son illər əhalinin mədəni-məişət həyatında özünü göstərən yeni keyfiyyət dəyişiklikləri nəticəsində rahatlıq cəhətdən daha əlverişli yeni-yeni ev avadanlıqları meydana çıxmış və Basqal əhalisi də bu avadanlıqlardan geniş istifadə edir.

**Həyətlər**

Həyətyanı torpaq sahəsinin azlığı, həmçinin relyef quruluşu tarixən Basqalda evlərin sıx şəkildə tikilməsi ilə bərabər, burada *həyətlərin* də həddən artıq kiçik olmasına, bir qayda olaraq orada ayrıca istehsal bölməsinin nəzərə alınmasına səbəb olmuşdur. Mütəxəssislərin fikrincə belə bir vəziyyət əksər orta əsr Şərq şəhərləri üçün xarakterik idi. Qafar Cəbiyevin qeyd etdiyi kimi, analoji mənzərəni orta əsr şəhər elementlərinin bu günədək qorunub saxlandığı İçərişəhərdə, Şəkidə və Lahıcda da müşahidə etmək olar (23, 40).



Daş hasarlı ev

Basqalda hər bir ailə öz həyət sahəsinin dövrəsini çəpər və ya barı ilə hasarlayırdı. Dağ kəndlərində həyətlərin ətrafına çox vaxt çaydaşından və qırmızı kərpicin qarışığından hörülmüş alçaq barı çəkirdilər. *"Daşqura"* adlanan belə barını bənna deyil, hər kəs özü hörürdü. Hər tərəfdən çəpər, hasar və ya barı ilə dövrələnmiş fərdi həyətlərin xarici mühitlə əlaqəsi müxtəlif növ keçid və qapılar vasitəsilə həll edilirdi. Həyətə giriş hər bir ailənin tavanalığından və təsərrüfat fəaliyyətinin formasından asılı olaraq, tək və ya qoşalaylı darvaza vasitəsilə həll olunurdu. Varlı həyətlərində darvaza daha geniş yayılmışdı. Belə qapılar el arasında "alaqapı" da adlanırdı. Həyətə daxil olub çıxarkən əksər hallarda onun yanında, bəzən də

darvaza laylarının birində balaca qapı qoyulurdu. Buna el arasında "ara qapı", yaxud "əl qapısı" deyilir. Darvazalar, əsasən, həyətə nəqliyyat vasitələrinin (araba, yüklü at, öküz və s.) sərbəst daxil ola biləcəyi qədər düzəldilirdi.

Həyət qapılarının bayır üzündən, adətən, "taqqılbab" adlanan qapıdöyən və minik atını bağlamaqdan ötrü midbar (dəmir halqa) asılırdı. Sifarişlə yerli dəmirçilərə düzəltdirilmiş dəmir "taqqılbablar" əməli vəzifə daşımaqdan əlavə, eyni zamanda qapının bədii tərtibatını tamamlayırdı. Həyətlərinin çoxunun girəcəyinə, darvazalara, qapılara





Həyət qapısı, darvaza, alaqapı (XIX əsr)

bədnəzərdən qorunmaq məqsədilə at nalı da vurulurdu. Darvaza kimi, alaqapı da həyətyanı hasarda ayrıca, bəzən də ikimərtəbəli yaşayış evinin tərkib hissəsi kimi onun altında düzəldilirdi. Yaşlı sakinlər söyləyirlər ki, Basqalda indi də qapıya qıfıl vurmazlar. Burada oğru-moğru yoxdur, burada eləsi yaşaya bilməz, kənardan gələnin isə buna cürəti çatmaz.

Etnoqrafik materiallar göstərir ki, yaşayış binasından ayrıca, onun yanında qurulmuş alaqapılar daha geniş yayılmışdı. Alaqapıların üstü çox vaxt "yastı", bəzən də "tağ" şəklində düzəldilirdi. Müasir dövrdə

isə sosial-iqtisadi həyatda baş verən keyfiyyət dəyişiklikləri nəticəsində Dasqalda abad və yaraşıqlı evlərin tikintisi genişlənir.

* * *

Xalq arasında evlə, ev tikintisi ilə bağlı adət-ənənələrin, inancların geniş bir sistemi məlumdur. Bu adət və inanclar mənəvi miras olaraq nəsildən-nəslə ötürülməklə günümüzə qədər gəlib çatmışdır. Azərbaycanın hər yerində olduğu kimi, bu gün Basqalda da onlara hörmət və ehtiram göstərilir, yeniyetmə və gənc nəsil arasında təbliğ olunur.

Ev tikintisi, ev tikmək ağır, çoxlu zəhmət tələb edən bir iş olduğundan, yaxın qohumlar, qonşular iməciliklər təşkil edər, ev tikənə maddi və mənəvi yardımlar göstərərdilər. Məsələn, evin bünövrəsinin qoyulmasında, evin orta tiri (ana tir) atılanda, çay daşlarının toplanıb tikinti sahəsinə gətirilməsində və digər işlərin gedişində el iməciliyi lazım olurdu. Qohum-qonşu yığışıb köməyə gələr, heç bir təmənna güdmədən, heç bir məcburiyyət olmadan hərə bir işin qulpundan yapışar, öz köməkliklərini əsirgəməzdilər.

Evin bünövrə daşını kəndin, elin-obanın ən nüfuzlu adamı, ağsaqqalı qoyar, sonra bünövrəyə duz, taxıl səpər, hətta qızıl və gümüş pullar qoyardılar. Bundan başqa gələcəkdə bu evdə həyat xoşbəxt və xeyir-bərəkətli olsun deyə, onun bünörəsinə qənd, noğul və digər şirnidən xonça tutub, üç dəfə ev yerinin ətrafına dolanar, şirni səpib üstünə su tökərdilər.

Çox zaman bünövrənin dörd küncündə dayanan bənnalardan biri ev sahibinə müraciətlə deyərdi ki, "künc düzəlmir". Bu halda ev sahibi də bənnalara kəlağayı, ipək yaylıq hədiyyə verərdi. Bundan başqa, evin bünövrəsi qoyulan gün qurban kəsilirdi. Ev tikilib başa çatdırıldıqdan sonra isə ev sahibi evin damından düşən sonuncu ustanı da mükafatlandırırdı. Professor Q.Cavadov ev tikintisi ilə bağlı bu cür

adətlərdən bəhs edərkən yazırdı ki, Azərbaycanın əksər bölgələrində yayılan "tir atdı" el köməkliyi adətinə xalq müqəddəs bir borc kimi baxmış, bu ənənəni əsrdən-əsrə, nəsildən-nəslə yaşatmışdır (22, 63-64). Təsadüfi deyil ki, Basqalda elə indinin özündə də ev inşası zamanı çoxlu qüvvə tələb edilən işlər qohum-qonşuların köməyi ilə görülür, yalnız ustaya əmək haqqı verilir.

Ululardan qalma adətə görə, təzə evə köçərkən, köhnə evin ocağından təzə evin ocağına çörək aparırlar ki, ata-baba ocağının bərəkəti, bolluğu davam etsin; bir də otağa ilk olaraq duz, güzgü, eləcə də çıraq daxil olurdu ki, bunların da evə aydınlıq və xoşbəxtlik gətirəcəyinə inanırlar. Camaat yeni binə qurmuş həmyerlilərinə kömək məqsədilə gücləri çatan bəxşiş və hədiyyələrlə yad edərdilər ki, buna da el arasında "ev gördüsü" deyirlər.

Söz yox ki, əsrlərin, nəsillərin sınağından keçərək bizim günlərədək gəlib çatmış ailə-məişət xarakterli bu örnəklər Azərbaycanın bütün bölgələrində məlumdur. İnsanlarda xeyirxahlıq, birlik, həmrəylik tərbiyə edən bu cür adətlərin hələ də qorunub saxlanılması, heç şübhəsiz ki, müsbət haldır və xalqımızın öz soykökünə bağlılığından xəbər verir.

**Məhəllələr**

Orta əsr Azərbaycan şəhərlərinin çoxunda olduğu kimi, Basqal qəsəbəsinin də memarlıq quruluşunun əsas tərkib hissələrindən birini *məhəllələr* təşkil edir. Müasir Basqal adlarında uzaq keçmişin min bir sirrini yaşadan, bu günəcən mənası bəlkə də tam olaraq aydınlaşdırılmayan, bu diyarın təbiətinin xüsusiyyətlərindən, sakinlərinin gündəlik məişətindən və həyat tərzindən xəbər verən bir neçə məhəllədən ibarətdir: Qoşabulaq, Dəmirçibazar, Qəlibgah, Dərəməhəllə, Qalabaşı, Kələkücə, Xarabiyan. Bu məhəllələr dar, enişli-yoxuşlu, əyri-üyrü kü-

çə, dalan və döngələrdən ibarət olmaqla, orta əsr Şərq şəhəri məhəllələrinin bir çox xüsusiyyətlərini özündə qoruyub saxlayır. Məhəllələrdə daşla döşənmiş küçə və yolları, əhalinin suya olan tələbatını ödəmək üçün saxsıdan hazırlanmış su tüngləri, çirkli suları kənara çıxarmaq üçün kanalizasiya qurğusu, bulaqlar, dini-etiqad abidələri, hamam və sənətkarlıq emalatxanaları, bir sözlə, ictimai-iqtisadi həyatı əhatə edən müxtəlif tikililər vardır. Onların hər birində tarixən Basqalda mövcud olmuş bu və ya digər peşə və sənət sahələri ilə məşğul olan insanlar yaşamışdır. Hər bir məhəllə də toplum olaraq bir növ icma qanunları ilə idarə olunur, özünün ağsaqqalı-qarasaqqalı, ağbirçəyi olurdu. Keçmişdə rəsmilər, mahal hakimləri də kənd və qəsəbələrlə əlaqələrini daha çox həmin məhəllə ağsaqqalları vasitəsi ilə qururdu.

Basqalın bütün məhəllələrinin əhalisi həmişə mehriban qonşuluq, birlik və əmin-amanlıq şəraitində yaşayıblar. Məhəllənin problemləri,





Qədim məhəllələr

qayğıları birlikdə həll edilir, məhəllə sakinlərinin dərdi-səri, sevinci-kədəri və qayğıları bərabər paylaşılmışdır. Xeyir-şər məclisləri – toy şənlikləri, yas mərasimləri məhəllə insanlarını yaxınlaşdıran və bir-birinə bağlayan ən kütləvi tədbirlər hesab olunur. Bundan başqa, Basqal camaatında "məhəllə təəssübkeşliyi" deyilən daha bir xüsusiyyət xüsusilə qabarıq nəzərə çarpır. Buranın camaatının məscidləri ümumi olsa da, demək olar bütün məhəllələrin öz bulağı var və bu bulaqlar da əhalinin suya olan tələbatını ödəyir. Sakinlərin hər biri kimsədən təklif və ya təmənna gözləmədən öz iradəsi ilə bu bulağın yan-yörəsini səliqə-sahmana salır, suyu sısqalanda tutulmuş gözünü açıb təmizləyir, su yolunu genəldir, bulaq başındakı daş axuru təmizləyir və digər bu kimi xeyirxah işlər görürlər. Bu sıraya məhəllə küçələrinin səliqə-sahmanı, yaşıllıqların qorunması və digər quruculuq-abadlıq işləri də daxildir. Bütün bunlara rəğmən hər bir məhəllə haqqında qısa məlumat verməyi məqbul sayırıq.





Qədim məhəllələr

*Qoşabulaq məhəlləsi* Basqalın ən qədim məhəllələrindən olub, adından göründüyü kimi, Qoşabulağın yerləşdiyi ərazidə salındığı üçün belə adlandırılır. Deyilənə görə, buz kimi şəfalı suyu olan Qoşabulağın 600 ilə yaxın yaşı var. Miryavər Hüseynov həmin məhəllədə yaşayan

tanınmış şəxsiyyətlərdən biri Hacı Ağabağır haqqında məlumat verərək yazır ki, o, rəhmətə gedən ağsaqqalların xatirəsinə Qoşabulaq məhəlləsinə gedən 300 metrlik daşlı-kəsəkli yolu 3 ay ərzində öz xərci ilə hamar daşlarla döşətdirdi. Küçəyə, usta və fəhlələrin yanına kətil gətirtdirdi, iş günü qurtarana kimi çay samovarını buxarlandırdı, şirin söhbəti, duzlu zarafatları ilə işləyənlərin həvəsini artırdı, onların qayğısına qaldı. Seyidin bu işə böyük məbləğdə pul sərf etdiyini görən həmyerliləri ona maddi kömək təklif etdilərsə də, o, bu işi yalnız öz halal pulu ilə başa çatdırdı. Hacı Ağabağır öz nəcib əməlləri ilə kənd sakinlərinin alqışını qazanmış, savab yiyəsi olmuşdur.

*Dəmirçibazar məhəlləsi* vaxtilə Basqalda usta-dəmirçilərin yaşadıqları və fəaliyyət göstərdikləri yer olub. Buradakı dəmirçilər özlərinə məxsus dükanlarda düzəltdikləri dəmir məmulatı satar və yeni sifarişlər qəbul edərdilər. "Dəmirçibazar" məhəlləsində XX əsrin 50-ci illərinə kimi dəmirçi Hacı Məhərrəm oğlu Qulu öz peşəsinin mahir ustası olub. O, öz sənətinin sirlərini şagirdlərinə və köməkçilərinə də öyrətmişdi. Övladları Cabbar, İbrahim, Rzaqulu bu sənəti atalarının dəmirçi emalatxanasında davam etdirmişlər. Onlar ailəliklə 6-7 emalatxanada təsərrüfat həyatında və məişətdə işlədilən cürbəcür dəmir alət və əşyalar (araba təkəri, yaba, çin, nal, mıx, kotan, gavahın və s.) düzəldirdilər.

Basqalın qədim məhəllələrindən biri *Qəlibgah məhəlləsidir*. Məhəllənin belə adlanması burada yaşayan əhalinin kəlağayı sənəti üçün qəlib basan rəngsazlıqla, boyaqçılıqla məşğul olması idi. Belə ki, məhəllənin sakinləri Əmrəki dağının otlarından, çiçəklərindən, yarpaqlarından toplayar, onlardan elə rənglər alardılar ki, baxmaqla doymaq olmazdı. Bu boyalar daha şux olub, rəngini və parıltısını heç vaxt itirmirdi. Vaxt var idi o kəlağayılar Basqalın ağ, qara, heyratı, bənövşəyi örpəyi idi. İndi də bu məhəllədə basmanaxış qəliblərlə boyaqçılıq sənətini qoruyub saxlayan davamçılar yaşayırlar.

Basqalın özünəməxsus xüsusiyyətləri ilə fərqlənən məhəllələrindən biri də *Dərəməhəllədir*. Yuxarıda qeyd etdiyimiz kimi, Basqal dağlıq sahədə yerləşdiyindən və buranın relyefi şimaldan cənub-şərqə doğru maili vəziyyətdə olduğundan dərəli-təpəli müxtəlif yarğanlara, çox da iri olmayan sahələrə bölünmüşdür. Dərəməhəllə adlanan ərazi də həmin yerin formasına və görkəminə uyğun adla adlandırılmışdır. Daha doğrusu, bu məhəllə coğrafi relyefinə görə dərədə yerləşdiyindən belə adlandırılmışdır. Dərəməhəllənin şərq tərəfindən hər iki yanı qocaman palıd və qoz ağaclarının sıx cərgəsi ilə bəzənən dərə keçir.

*Qalabaşı məhəlləsi* adlanan ərazi Basqalın şimal-qərb qurtaracağında, yüksəklikdə salınıb, Dəniz səviyyəsindən 1600 metr hündürlükdə yerləşən bu ərazidən cənubda Ağsu, cənub-qərbdə Şamaxı və digər yerlər aydın görünür. Odur ki, burada müşahidə məntəqəsi kimi xarici işğalçıların hücumlarını dəf etmək üçün bir metrdən də artıq enliyində qala divarları tikilmişdir. Tarixçilər qalanın tikilməsini orta əsrlərə aid edirlər. Qala divarlarının özülü indiyə qədər qalmaqdadır. Qeyd edək ki, məhəllənin şimalından Təndirəki deyilən yerdən çıxan və kürəbənd vasitəsilə qəsəbəyə çatdırılan su buranın ehtiyaclarının 50%-ni ödəyə bilir. Məhəllədən qəsəbə və ətraf kəndləri, dağları, meşələri seyr etmək üçün gözəl şərait var, torpağının hər daşında, hər bir tikilisində keçmişin şahidliyi görünür. Buraya qədəm basan hər kəsin nəzərində qədim şəhərlərimiz, xüsusilə də Bakının İçərişəhəri canlanır.

*Kələküçə məhəlləsi* də Basqalın qədim məhəllələrindən biridir. Məhəllənin adı tat dilindəki kələ (böyük, baş) və türk mənşəli küçə sözlərinin birləşməsindən ibarət olub, "böyük küçə", "baş küçə" mənasını bildirir. Qeyd edək ki, məhəllənin adını "Kəlləküçə" (yenə də "Baş küşə" mənasını ehtiva edir) kimi də adlandırırlar. Küçə bazardan qərb tərəfə buruların çay qırağı ilə Kəlfərəc yoluna qədər uzanır. Bu məhəllənin əhalisinin, demək olar ki, hamısı boyaqçı və toxucu olub.

Miryavər Hüseynov söyləyir ki, məhəllənin mahir ustalarından olan Məşədi Həsənqulunun, İbrahimxəlilin, Ağarəhimin, Qədirin, Zakirin toxuduğu, Ağaxəlilin, Əlibrahimin, Hüseynin, Kamalın boyadığı "Ağzəmin", "Soldurma", "Noxudu" kəlağayılar, gözəl naxışlı yorğanüzülər həmişə yüksək keyfiyyətli olub, təkcə Azərbaycanda deyil, Orta Asiyada və İranda da çox məşhur idi. Yeri gəlmişkən qeyd edək ki, yuxarıda adları çəkilən və 100-150-dən artıq yaşı olan qədim Basqal evlərinin bir çoxu, o cümlədən, XVI əsrə aid məscid və hamam da Kələküçə məhəlləsindədir.

*Xarabiyan* Basqalın şimal-şərqindən üzüyuxarı, yurd yerlərinə qalxan enişli-yoxuşlu yolların sinəsində salınmış ən qədim məhəllələrindəndir. Evlər bu yolun sağında və solunda salınmışdır. Yaşlı sakinlərin verdiyi məlumata görə, vaxtilə burada inşa ediləcək yaşayış evlərinin bünövrəsi qoyularkən və digər tikinti işləri aparılarkən tarixi bilinməyən qəbirlər aşkar olunmuş və bir çox maddi mədəniyyət nümunələri toplanmışdır. "Xarabiyan" sözünün mənşəyi də xalq etimologiyasına görə, məhəllənin başında xaraba, uçqun yerlərin olması ilə bağlı olub, "xarab yan" "xarab tərəf" mənalarını ifadə edir. O da maraqlıdır ki, basqallılar arasında məhəllələrin qeyd olunan xüsusiyyətlərini özündə əks etdirən belə bir söyləmə mövcuddur:

Qoşabulaq qoç kimidir,
Kələküçə kəl kimidir,
Dərəməhəllə dərəyə batıb,
Xarabiyan xarabadır.

Hesab edirik ki, Basqal məhəllələrinin tarixi, buranın insanlarının həyat tərzi və əmək fəaliyyəti, o cümlədən, sosial-mədəni səviyyəsi barədə ətraflı fikir söyləmək üçün arxeoloji qazıntıların aparılmasına, memarlıq və etnoqrafik baxımdan kompleks şəkildə öyrənilməsinə ehtiyac vardır.

## Kürəbənd su və kanalizasiya şəbəkəsi

Məlum olduğu kimi, xalqımızın təsərrüfat və məişət həyatı ilə bağlı bir çox məsələlər hələ də sona qədər öyrənilməmişdir. Bu məsələlərdən biri də qədim və orta əsrlər dövründə yaşayış məskənlərinin su təchizatı və kanalizasiya sistemlərinin hansı formada həyata keçirilməsidir. Halbuki tədqiqatlar sübut edir ki, tarixən Azərbaycanın istər düzən ərazilərində, istərsə də dağətəyi və dağlıq bölgələrində qərar tutmuş yaşayış məntəqələrində bu tipli məsələlərə ciddi fikir verilmiş, əsrlər boyu arxlardan, quyulardan, kəhriz və ovdanlardan istifadə olunmuşdur. Xüsusilə inkişaf etmiş şəhər və qalalar əhalini su ilə təchiz etmək üçün ətrafdakı su mənbələrindən saxsı tünglər vasitəsilə su gətirilmişdir. Bu məqsədlə əvvəlcə quyular qazılmış, sonra isə üstüörtülü dərin kanallar çəkilmişdir. Kanallardan saxsı tünglərlə çəkilmiş su təchizatı sisteminə Gəncə, Qəbələ, Beyləqan və digər şəhərlərdə rast gəlinmişdir (103, 324).



Su tüngləri

Basqal da belə yaşayış məntəqələrindən olmuşdur. Belə ki, əlverişli təbii-coğrafi mövqedə yerləşən və sənətkarlığın bir çox sahələrinin intişar tapdığı Basqalda da orta əsrlərə aid kürəbənd su və kürəbənd kanalizasiya (XII-XIII əsrlər) şəbəkələri mövcuddur. Su tüngləri dulus dəzgahları vasitəsilə hazırlanan müxtəlif ölçülü saxsı

borulardan ibarətdir. Saxsı boruların bir ucu adətən, geniş, digər ucu isə nisbətən ensiz hazırlanırdı. Su tünglərinin ensiz tərəfində xüsusi kərt yeri olurdu. Bu, borulardan birinin digərinin içərisinə geydirilməsi və su xəttinin müxtəlif istiqamətlərə yönəldilməsi üçün nəzərdə tutulurdu. Tədqiqatçıların fikrincə, Azərbaycan ərazisində təqribən VIII əsrdən başlayaraq saxsı tünglərdən istifadə olunmağa başlanıb. Erkən orta əsrlərə aid belə saxsı tünglərə ilk dəfə Qəbələ şəhərinin Səlbir hissəsində təsadüf olunub. Daha sonra saxsı su tünglərin qalıqlarına Bəyimli qalasında, Kələş düzündə, Kələsərdə, Lahıcətrafı ərazilərdə, Fit qalasının ətəyində, Xanəgah Qız qalasının yaxınlığında və bir sıra digər ilk orta əsrlər abidələrində təsadüf olunmuşdur (25, 296).

Basqalın şimalından – Təndirəki deyilən yerdən baş götürən su şəbəkəsi (kürəbənd) Basqalın bir neçə bulaqlarını özündə birləşdirmişdir. Həmin bulaqlardan Hacı Çələbi bulağı, Xarabiyan bulağı, Bədəl bulağı, Kələküçə bulağı (Abas bulağı), Məscid bulağı və başqalarının adlarını çəkmək olar. Bu qurğu XIII əsrin əvvəllərindən fəaliyyət göstərməklə, qəsəbənin su təchizatının yarıdan çoxunu ödəyir. Hər tərəfdən kəsmə daşlarla qorunan və böyük ustalıqla quraşdırılmış kürəbəndin gildən hazırlanmış tüngləri indi də işlək vəziyyətdədir. Baş verən zəlzələlər və ağır nəqliyyat vasitələrinin hərəkəti belə onun ahəngini poza bilməmişdir.

Təəccüblü cəhət həm də ondan ibarətdir ki, mənbəyini kəndin yuxarı başlanğıcından götürən kanalizasiya şəbəkəsi kəndin axırına qədər davam etsə də, mənsəbi bu günə qədər naməlum olaraq qalmaqdadır. Qəsəbə sakinlərinin fərziyyəsinə görə,



Qədim kanalizasiya sistemi

çox güman, bu şəbəkənin qurtaracağında hansısa bir formada təmizləyici sistem fəaliyyət göstərir və burada su çirkabdan təmizlənərək çaya tökülür, qalan hissə isə torpağa hoparaq yox olur.

Tədqiqatçıların qənaətinə görə, Basqaldakı kürəbənd su və kanalizasiya şəbəkəsi Basqalın hələ çox qədim dövrlərdən yüksək şəhər mədəniyyətinə malik olduğunu sübut edən faktorlardan biridir. Xalqın fitri istedadının məhsulu olan bu qurğular və Basqalın digər memarlıq, maddi-mədəni və dini abidələri həm də yalnız bu diyarın deyil, bütövlükdə Azərbaycanın, Azərbaycan xalqının qədim və zəngin tarixinin mühüm bir parçasıdır.

**Bazar meydanı**

Tarixən Orta əsr Azərbaycan, ümumiyyətlə Şərq şəhərlərinin ən mühüm struktur elementlərindən biri də bazar və meydanlar olmuşdur. Bazar ticarət dükanlarının və sənətkar emalatxanalarının cəmləşdiyi əsas mərkəz sayılırdı. Lakin bazarlar təkcə alış-veriş, alqı-satqı və mübadilə yeri olmayıb, həm də şəhərin və şəhər əhalisinin ən mühüm problemlərinin, ictimai və məişət həyatına aid olan məsələlərin müzakirə və həll edildiyi, müxtəlif problemlərlə bağlı qərarların qəbul edildiyi bir məkan olmuşdur. Şəhərin nəbzi məhz burada vururdu. Hədislərin birində Məhəmməd peyğəmbərə istinadən deyilir: “... bazarlar Allah-taalanın açdığı bir süfrədir: kim ora gəlsə, öz payını alar...”.

Bazarların şəhərin iqtisadi-siyasi həyatında böyük rolunu qeyd edən məşhur rus rəssamı və səyyahı V.V.Vereşşagin yazırdı: “Şərqdə bazarlar özlərinin ticarət əhəmiyyətindən başqa, cəmiyyət həyatında da olduqca mühüm rol oynayırdı. Onlar bir növ ən vacib, həyati məsələlərin müzakirə olunduğu və ən yeni siyasi xəbərlərin verildiyi yığıncaq, yaxud da parlamentləri əvəz edirdi (95, 263).


Basqalın Bazar meydanı

Bu fikirləri bütünlüklə Basqalın "Bazar meydanı" adlanan meydanına da aid etmək olar. Belə ki, ticarət yollarının üstündə yerləşən Basqal beynəlxalq ticarətdə də fəal iştirak etdiyindən, bu ticarət mərkəzində uzaq Çindən, Hindistandan, İrandan və digər ölkələrdən gətirilmiş nadir və qiymətli şeylər görmək olardı. Rusiyadan kənd təsərrüfatı alətləri, ev əşyaları və avadanlıqları, güllü-çiçəkli saxsı qab-qacaq gətirib satırdılar. Dünyanın çox yerindən buraya gələn tacirlər, alverçilər Basqal sənətkarlarının məhsullarına, xüsusilə toxuculuq malları, ipək parçalar, kəlağayılar, xalça-palaz, gön-dəri və s. daha çox maraq göstərir, gedərkən onlardan karvan-karvan yük tutub özləri ilə aparırdılar.

Bazar meydanı qəsəbədaxili məsələlərin müzakirə olunduğu, ticarət sazişlərinin bağlandığı, ictimai və sosial həyatda baş verən digər məsələlərin həll edildiyi ictimai mərkəz idi. Nəinki uzaq keçmişdə, hətta son illərə qədər (ötən əsrin 80-ci illərinədək mövcud olmuş həmin bazardan hal-hazırda əsər-əlamət yoxdur) Basqalın bütün yolları və cığırları məhz qəsəbənin mərkəzində yerləşən Bazar meydanında birləşirdi. Basqallılar zarafatla deyərdilər: "Haraya gedirsən get, bazar səni özünə çəkəcək".

Doğrudan da işdən, qayğıdan vaxt tapan kimi "bir bazara baş vurum", – demək burada adətə çevrilmişdi. Bir sözlə, şəhərin gözü burada idi. Adamlar məhz ticarət işlərini yerinə yetirməklə bərabər, burada yığışır, yaxşıdan-yamandan söhbətləşir, sevinclərim, dərdlərini bölüşürdülər. Təsadüfi deyil ki, insanlar bura "Kimgə" yeri (adamların bır yerə yığışdığı yer) deyirdilər. Qədim türk-oğuz yurdunun bir çox

yerlərində – Şırvanın, Şəkinin dağ kəndlərində və qəsəbələrində də bu adda meydanlar vardı (2, 170; 63, 22).

Əvvəllər Basqal bazarı (ona görə də bu meydana "Bazar meydanı" deyirdilər), bir çox qədim tikililər, sənətkar emalatxanaları, dükanlar məhz kimgə yeri yanında, ya da onun ətrafında yerləşirdi. Miryavər Hüseynovun da nəql etdiyi kimi, Basqal sakinləri, xüsusilə qocalar və el ağsaqqalları burada Zeynalın səhərdən gecə yarısınadək işləyən, qocaman qovaq ağacının dibində inşa edilmiş Soltanəli çayxanasını özlərinə kimgə, yığnaq yeri etmişdilər (təəssüf ki, bu gün basqallıların ən sevimli yeri olan həmin meydandan əsər-əlamət yoxdur). Yəni bura təkcə alış-veriş, mübadilə, ticarət məkanı deyildi. Ən son xəbərləri eşitmək istəyənlər, gəzən şayiələrin doğruluğunu yoxlamaq istəyənlər də bazara üz tuturdu. Hər hansı bir itkisi olan da bazara qaçırdı. İnformatorumuzun söylədiyinə görə, bazarın lap yanında hündür bir tut ağacı vardı. Qəsəbənin sakinlərindən biri, yaxşı səsə malik Məcid kişi hərdən o ağacın başına çıxıb müxtəlif səpgili elanlar verərdi. Məsələn: – Ay camaat, Kəbla Hüseynin ağ rəngdə, bir buynuzu sınıq, üçyaşar inəyi itib. Görənlər heyvanın yiyəsinə xəbər versinlər. Deyilənə görə, bazar meydanının hər yeri yastı daşlarla döşənmişdi. Ədəbiyyatda Şirvan bölgəsində ən gur və izdihamlı ticarət yerlərinin Şamaxı və Basqal bazarları olması barədə yazılı məlumatlar da vardıq.

Basqal bazarında əsasən, həftədə bir gün *həftəbazarları* olardı. Həftəbazarları daha gur olur və satışa daha çox məhsul çıxarılırdı. Bura Şamaxıdan, Qəbələdən, Ağsudan, İsmayıllıdan və bir çox uzaq kəndlərdən də axışıb gələrdilər. Belə günlərdə mal əlindən yer olmurdu və hər cür naz-nemət – qatıq, qaymaq, pendir, motal, lavaş, meyvə qurusu, bal, bitkilərdən düzəldilən məlhəmlər və s. satılırdı. Mallar açıq qapılardan daşınar, divar boyunca düzülmüş rəflərə yığılardı. Bir yandan sıra ilə ağzı çirməli un kisələri, ağ, sarı buğda, yarma, arpa,

çəltik, göyümsov lərgə, noxud, mərci düzülürdü. Daha sonra cürbəcür meyvə, növ-növ çərəz (qax, qoz, fındıq ləpəsi, kişmiş, mövüc, tut qurusu, lavaşana və s.) satılırdı. Düz cərgə ilə tikilmiş 30-a yaxın müxtəlif xırdavat, baqqal, qəssab, əttar, bəzzaz, papaqçı (Mirabbas ağanın bazardakı papaqçı dükanı adnan idi), dulusçu dükanları, yeməkxana, çayxana, dəmirçixana, boyaqxana, tikiş emalatxanası bütün günü fəaliyyət göstərirdi.

Verilən məlumata görə, Basqalın kəlağayı karxanalarında hazırlanan məhsulun bir hissəsi sifarişçilərə, digər hissəsi isə bazara satışa göndərilirdi. Əldə edilən parçalar, kəlağayılar keyfiyyət etibarilə müxtəlif olduğu kimi, onun bazar qiyməti də müxtəlif idi. Bazarda əkin-biçinlə, bağ-bağatla məşğul olan qonşu Xankəndi əhalisinin xüsusi yeri vardı. Basqal bazarında dükanı olmayan peşə sahibləri də fəaliyyət göstərirdi. Onlar daşyonan, bənna, dülgər, xarrat və b. idilər. Burada lahıclılara məxsus misgər dükanlarında par-par parıldayan, zərif naxışlı mis qablar – ləyən, məcməyi, samovar, qazan, kəfgir, cam və piyalələr, səhəng və s. də satılırdı.



Qədim bazar meydanının indiki vəziyyəti

Mal-qara, qoyun-quzu, sənətkar məhsulları, xalça-palaz bazarın axırında, çörək, şirniyyat, qəssab dükanları isə bazardan kənarda bir-birinin dalınca düzülüb gedirdi. Burada odun, kömür, həmçinin ardıc, qaratikan kötüyü ilə dolu yüklü ulaqlara da təsadüf olunardı. Qonşu obalardan gələnlər satdıqları şeyləri parça, kəlağayı, yorğanüzü, dəmir ləvazimatı, mis və saxsı qab-qacaqla dəyişərdilər. Yan-yana düzülmüş irili-xırdalı üstü dəmir qurmalı sandıqların, əlçim-əlçim asılmış boyalı sapların,

qanovuz, darayı ipək parçaların, güllü-butalı kəlağayıların, yorğanüzülərin, güləbətin tikmələrin rəngləri, naxışları göz oxşayardı. Toxuculuq, ipəkçilik, kəlağayıçılıq, dabbağlıq, dəmirçilik, dulusçuluq dükanlarının qabağında xalça salınmış səkinin üstündə tacirlər bardaş quraraq oturardılar. Yaşlı sakinlərin verdiyi məlumata görə, hərə öz malını tərifləyər, satdıqları məhsullara sözlərdən bəzək vuraraq daha çox müştəri yığmağa çalışardılar:

- Papaq, nə papaq, işıq üzü görməmiş körpəcə quzu dərisindən, xurmayı, gümüşü, qızılı rəngli...
- Halva, ətirli halva, ədavalıdı, ballıdı, bişirəni basqallıdı, gəl ay müştəri...
- Bafta, qanovuz, zərxara Basqal ipəyindən, palaz nə palaz, Şamaxı çeşnisi...
- At nalladan, öküz nalladan, bəri gəl, cəftə məndə, mismar məndə, gəl bəri, ay müştəri...
- Güllü-butalı kəlağayı, qara, qırmızı, tünd sarı qoşayelənni kəlağayı...
- Basmanaxış xonça, al-əlvan ipək parçalar, boxça örtükləri, yorğanüzü, qətvə, qələmkar toxumalar...
- İran xınası, mixək, darçın, zəncəfil...

Onu da qeyd edək ki, Bazar meydanındakı dükanlar sovet dönəmində milliləşdirilmiş, uzun illər xalqın xidmətində olan bir çox xalq sənəti sahələri layiq olduğu qiymətini almadığından, aradan çıxmış, binalar necə gəldi təmir olunduğundan, təhrif edilmiş və əvvəlki görkəmini itirmişdir. Ötən əsrin 80-ci illərində isə məşhur Bazar meydanı tədricən dağılmış və bu yer əvvəlki mahiyyətini və funksiyasını itirmişdir. Hazırda burada yalnız o illərdən xatirə kimi uçulub-dağılmış dükanların qalıqları qalmışdır ki, insanın quş qanadlı xəyallarını uzaq keçmişlərə qaytarır... Basqallıların ən böyük arzusudur ki, onların yerində ölməz el sənətinə layiq milli üslubda müasir görkəmli, tağlı-bə-

zəkli binalardan ibarət xalq sənəti mərkəzi yaradılsın və burada onları yaşadan insanlar – papaqçılar, dəmirçilər, dərzilər, halvaçılar və s. yerləşsin.

## Yeməklər və içkilər

Hər bir xalqın milli-mənəvi dəyərlərinin mühüm tərkib hissələrindən birini onun mətbəx mədəniyyəti, yeməklər və içkilər təşkil edir. Təsadüfi deyil ki, tədqiqatçılar xalqın etnik xüsusiyyətlərinin onun mətbəx mədəniyyətində daha aydın göründüyü qənaətindədirlər (62, 159). Azərbaycan xalqının da milli-mənəvi dəyərləri içərisində milli mətbəx xüsusi yer tutur. Azərbaycanın milli mətbəxinin müxtəlifliyi uzun tarixi inkişafın, yerli əhalinin nəsildən-nəsilə keçən və saxlanılan çoxəsrlik yaradıcılıq ənənəsinin nəticəsidir.

Yemək və içkilərin əldə edilməsinin tarixi insan cəmiyyətinin tarixi qədər qədimdir. Yəni insan özünü və ətraf aləmi dərk etdiyi gündən qida məhsulları əldə etməyə çalışmış, təbiətin hazır nemətlərindən istifadə etməkdən – yığıcılıqdan (mənimsəmə təsərrüfatı) başlayaraq istehsal təsərrüfatının ən müxtəlif mərhələlərini əhatə edən bir mədəniyyəti – mətbəx mədəniyyətini yaratmışdır. Ötən dövr ərzində bitki və heyvan mənşəli yemək və içkilərin çeşidləri genişlənmiş və hazırlanma texnologiyası xeyli təkmilləşmişdir. Ümumiyyətlə, qidalanma – yemək mədəniyyəti insanlığın yaratdığı, uğrunda mübarizə apardığı, zaman keçdikcə təkmilləşdirib günümüzə qədər qoruyub saxladığı və inkişaf etdirdiyi ilkin mədəniyyət formalarından biridir (52, 152).

Azərbaycanın təbii-coğrafi şəraitinin rəngarəngliyi, flora və fauna aləminin zənginliyi hələ çox uzaq keçmişdə burada mahiyyət etibarilə zəngin və çoxçeşidli mətbəx mədəniyyətinin yaranıb formalaşmasına təkan vermişdir. Əhalinin təsərrüfat məişətinin istiqamətləri ilə sıx bağlı olan bu mədəniyyət – yemək və içkilər, onların tərkibi, mətbəx

ləvazimatları, süfrə etiketi və s. bir-biri ilə qarşılıqlı əlaqədə – həmahəng inkişaf etmişdir.

Diqqət çəkən məqamlardan biri odur ki, özünəməxsus özəllikləri ilə seçilən Azərbaycanın mətbəx mədəniyyətinin formalaşmasında onun hər bir bölgəsinin, rayonunun, qəsəbəsinin və hətta kəndinin payı vardır. Bu baxımdan Şirvanın rolunu qeyd etməmək mümkün deyil. Müxtəlif tarixi dövrlərdə burada olmuş səyahətçilər, iş adamları, tacirlər, alimlər öz yazılarında və xatirələrində Azərbaycan mətbəxini vəsf etmiş, onun zənginliklərindən ağızdolusu söhbət açmışlar. Məsələn, XVI əsrin ingilis səyyahı Antoni Cenkinson Şamaxıda Abdulla xanın qəbulunda olarkən, bir nahar məclisində nə az, nə çox 290 cür yemək, içki və meyvənin verildiyini qeyd edərək yazır: "... Alaçıq təpənin döşündə çox gözəl görünürdü... Alaçığın qabağında əla bir bulaq vardı. Həmin bulaqdan kral və onun əyanları su içirdilər. Alaçığın içinə başdan-başa zəngin, bəzəkli xalçalar döşənmişdi. Onun altında isə gümüşdən və qızıldan bəzək vurulmuş kvadrat şəkilli xalça salınmış, üstünə də ona layiq yastıq qoyulmuşdu. Kral və onun yaxın adamları çadırda bardaş qurub oturmuşdular... Nahar vaxtı çatanda yerə süfrələr açıldı və müxtəlif cür xörəklər verildi. Xörəklər növlərinə görə cərgə ilə düzülmüşdü. Mənim hesabıma görə süfrədə 140 cür xörək vardı. Bu xörəklər yeyildikdən sonra qabları süfrə ilə birlikdə yığışdırıb, təzə süfrələr saldılar. Ortaya 150 növdə meyvə və başqa ziyafət yeməkləri gətirildi. Belə ki, iki dəfədə süfrəyə 290 cür yemək verildi..." (56, 126). Bu hər şeydən əvvəl xalqımızın yüksək süfrə mədəniyyətindən və qonaqpərvərliyindən xəbər verir.

Azərbaycan mətbəxinin zənginləşməsində və inkişafında özünəməxsus rolu və payı olan yaşayış məntəqələri arasında Basqalın da adı çəkilir. Basqal mətbəxində ümumazərbaycan səciyyəli yemək növləri və içkilərlə yanaşı, spesifik, yəni daha çox bu region üçün xarakterik olan yemək və içkilər də vardır ki, biz yeri gəldikcə onlardan

bəhs edəcəyik. Qeyd edək ki, etnoqrafiyada qəbul olunmuş ümumi prinsiplər əsasında Basqal yeməklərini də tərkibinə görə bitki və ət-süd mənşəli yeməklərə, təyinatına görə isə gündəlik və mərasim yeməklərinə bölmək olar. Mütəxəssislər bir çox hallarda pəhriz və müalicəvi yeməkləri də fərqləndirirlər. Bu təsnifatların da hər birinin özünün əsaslandırılması, maddi-mənəvi mənbəyi mövcuddur. Lakin bunların arasında süfrələrimizin bəzəyi, əvəzsiz neməti olan *çörək və çörək məhsulları* heç şübhəsiz ki, həmişə birinci yerdə dayanıb.

İlk növbədə qeyd edək ki, bütün azərbaycanlılarda olduğu kimi, basqallılar da əski çağlardan taxıla, çörəyə ehtiram göstərmiş, onu bütün nemətlərin şahı bilmiş, süfrənin barı-bərəkəti hesab etmişlər. Hələ min il bundan öncə bizim elləri gəzən dünyaca məşhur səyyahlar, coğrafiyaşünaslar, tarixçilər öz əsərlərində Azərbaycanın demək olar ki, bütün şəhərlərində taxılın, çörəyin bolluğunu göstərir, həm də çox ucuz, demək olar ki, havayı olduğunu qeyd edirlər. Əkinçilik mədəniyyətimizin bərəkət qoxulu xırmanı, dəyirmanı, təndiri xeyir-bərəkət rəmzi, müqəddəs yer-ocaq sayılıb. Ulu babalarımız, ağbirçək nənələrimiz ömür boyu hamımıza əxlaqi gözəllik arzulamışlar. Təsadüfi deyil ki, çörək əldən yerə düşsə, qaldırıb öpər, göz üstə tutub uca bir yerə qoyarlar ki, xeyir-bərəkəti qaçmasın.



Təndir çörəyi

İnsanlar üçün ən müqəddəs və əvəzedilməz nemət olan çörək

haqqında çox deyilib, çox yazılıb, lap çox. Ancaq hələ də bir çoxları fərqinə varmır ki, çörəyin zəmidən süfrəyədək gəldiyi yolda nə qədər əzab-əziyyət, zəhmət var?! Beləlləri unudurlar ki, torpağı şumlayan, malalayan, toxumluq buğda seçərək onu səpən, suvaran, biçən, döyən, üyüdən, çörək bişirən, onu süfrəyə gətirən əmək adamlarının zəhmət təri, əl qabarı var. Çörəklə – bu ulu nemətlə bağlı türk xalqları, eləcə də bu ailəyə daxil olan azərbaycanlılar arasında ta qədimdən günümüzədək yaşamaqda olan müdrik kəlamlar, ibrətamiz deyimlər, atalar sözü və el məsəlləri, inamlar, sınamalar, ayin və mərasimlər xüsusi yer tutur (17 a).

Tarixdən bəllidir ki, çox-çox qədim zamanlarda ibtidai insanlar topladığı dənli bitkiləri tədricən iki daş arasında, həvəngdəstə və yaxud sürtgəclər vasitəsilə əzib üyütmüş, ondan yarma və un hazırlamışlar. Arxeoloji qazıntılar zamanı ən çox tapılan əkinçilik aləti dən üyütmək üçün əl ilə işlədilən iki uzunsov daşdan – alt və üst daşlardan ibarət dənəzən daşlarıdır. Sonralar dən daşları daha mükəmməl formaya malik olan kirkirə (əl dəyirmanı) ilə əvəz olundu. Belə əkinçilik alətləri Basqalda da aşkar olunmuşdur (bax: "Daşişləmə" bölməsi).



Xeyir-şər məclislərinin yaraşığı Aşa nənə təndirə çörək yaparkən

İllər, əsrlər ötdükcə insanların səriştəsi, təcrübəsi artır və onlar *dəyirman* qurmağı öyrənirlər. Tədqiqatçılar hesab edirlər ki, Azərbaycanda ilk su dəyirmanları eramızdan əvvəl VII yüzillikdə meydana gəlmişdir. Basqalda yaşlı nəslin nümayəndələri

söyləyirlər ki, vaxtilə qonşu Sulut kəndinin çay kənarında su dəyirmanı vardı. Gecə-gündüz dəyirmandan kəndin başına xeyir-bərəkət yağırdı. Hər gün çuval-çuval, xurcun-xurcun taxıl, qarğıdalı üyüdülər, yarma çəkilər və ailənin qış ehtiyatı tutulardı.

Azərbaycanın demək olar ki, bütün bölgələrində hər kəsin evində, həyatində təndir olmuşdur. Günlərlə, həftələrlə çörək almağa getməz, ana və nənələrimizin yapdıqları təndir çörəyi yeyərdilər. Basqalda da zaman-zaman müxtəlif çörəkbişirmə üsul və vasitələrindən istifadə olunmuşdur. Vaxt vardı bir tay unun çörəyini-lavaşını təndirdə bişirib asmadan asaraq qurudar, qış aylarında həmin lavaşlardan su ilə yumşaldıb yeyərdilər. Təndirdən xörək hazırlamaq, meyvə qurutmaq və



Sac



Qutab

digər məhsulları bişirmək məqsədilə də istifadə edilirdi. Etnoqrafik müşahidələr Basqalda təndirdən hələ də istifadə edildiyini göstərir. Basqallılar çörəkbişirmə vasitəsi kimi sacdan da istifadə etmiş, üstündə yuxa, lavaş, qutab, fətir, sac əppəyi bişirmişlər.

Basqal ərazisi zəngin floraya malikdir. Burada yayılan həm yabanı, həm də mədəni yeməli bitkilərdən Basqal mətbəxində qida məhsulu kimi geniş istifadə edilmişdir. Elə indi də bu bitkilərin hər sirrinə bələd olan ağbirçəklər onların yeməlisindən hər gün təzə-tər,

çiy-çiy istifadə edir, pörtlədib və yaxud yağda qovurub yeyir, cürbə-cür xörəklər hazırlayır, kətə (qutab), səbzi, kükü bişirirlər. Bəzi pencərlərdən dovğa bulayır, şərbət hazırlayıb süfrəyə verir, bəzilərindən isə şorabada istifadə edirlər. Bu bitkilər yeməkləri dada-ləzzətə gətirir, ətrini, tamını artırır. Daha münasib bildikləri bitkilərin dərmanlığını, qışlığını ayırır, kölgədə qurudub qış ehtiyacı üçün saxlayırlar. Mədəni bitkilərdən soğan, sarımsaq, keşniş, şüyüd, ispanaq, reyhan, vəzəri, nanə, çuğundur, kök, xiyar, badımcan, balqabaq, lobya, paxla



Əriştə



Düşbərə

və s.-dən yeməklərin bişirilməsində geniş istifadə olunur. XIX əsrdən üzü bəri Basqal əhalisinin yemək öynəsində kələm, kartof, pomidor da əsas yer tutur. Onu da xatırladaq ki, mövsümdən asılı olaraq yeməklərin tərkibi də dəyişilir. Payızda ətli xörəklər, qışda unlu, yazda göyərti və ağartı məhsulları üstün yer tutur.

Aparılan araşdırmalar göstərir ki, Azərbaycanın əsas məşğuliyyəti əkinçilik olan dağətəyi və düzənlik ərazilərin əhalisinin yemək süfrəsində bitki mənşəli yeməklər bolluq təşkil etmiş, dağlıq bölgələrdə yaşayan maldar elatların qida öynəsində isə ət-süd yeməkləri bitki

mənşəli yeməkləri üstələmişdir. Bu yeməklər sırasına müxtəlif növ çörək məmulatı da daxil olmaqla, əsasən buğda unundan hazırlanan, çoxçeşidli xəmir xörəkləri – xəşil, xəngəl, halva, əriştə aşı, umac, quymaq, düşbərə və s. aiddir. Müxtəlif növ aş (plov) və çilovlar, yabanı və mədəni bitkilərdən, bostan və tərəvəz məhsullarından hazırlanan xörəklər də bitki mənşəli yeməklərə aiddir. Həmin bitkilərin bir çoxu (keşniş, şüyüd, nanə, yarpız, reyhan, cəfəri, mərzə, kəklikotu və s.) həm də özünün təbii şəklində istifadə olunur. Bütün bunlar onu göstərir ki, bu ərzaq məhsulları basqallıların mətbəxində hələ də öz yerini qoruyub saxlamaqdadır.



Hədik

Basqallılar ənənəvi olaraq maldarlıqla məşğul olmasalar da, ət-süd mənşəli (ət, yağ, süd, pendir, qaymaq, ayran, kəsmik, şor, qatıq və s.) yeməklərdən geniş istifadə edirlər. Belə ki, tarixən ətraf kəndlərdə bu təsərrüfat sahəsinin geniş yayılması, habelə bəzi köç yollarının Basqala yaxın ərazilərdən keçməsi burada ət-süd mənşəli yemək və içkilərin əhalinin mətbəxində mühüm yer tutmasına rəvac vermişdir.

Basqalda geniş yayılmış və çox məşhur olan ət yeməklərindən *pip dolmasını* xüsusi qeyd etmək lazımdır. Qəsəbədən təqribən 2 km aralıda, dağ başında Əmrəki meşə – dağ istirahət zonası yerləşir. Bu meşələrdə "pip" (fistıq) adında ağac növü bitir və onun yarpağı ilə yerli Basqal mətbəxinin ən ləziz təamlarından biri olan dolma bişirilir. Basqalda deyirlər ki, buranın pip dolması ələ düşməz. Təkcə gündəlik yemək üçün deyil, həm də qonaq gələndə, bayramlarda, xeyir və şər

mərasimlərində hər bir basqallı pip dolması bişirməyi özünə borc bilir. Bir sözlə uzun illərdir ki, pip dolması camaatın xoşladığı, iştahla yediyi, məclislərdə, milli mətbəximizdə öz yeri olan xörək növüdür.





Pip dolması

Yaz aylarında, daha dəqiq desək, ağaclar çiçək açarkən təqribən 10-15 gün ərzində pip yarpaqları toplanaraq şoraba qoyulacaq qaba yığılır, duzlu su hazırlanaraq üzərinə tökülür. İstənilən vaxt yarpaq isti suda yuyulur və ondan dolma hazırlanır. Basqal ağbirçəklərinin verdiyi məlumata görə, bu yarpaqlar xörəyə xüsusi dad verir, cana çox faydalıdır, onun tərkibində müxtəlif vitaminlər var, o dolmanın tamı, ləzzəti hesab olunur. Keçmişdə Basqala gəlib pip dolmasından yemədən getmək günah hesab edilirdi.

Pip dolmasını aşağıdakı qaydada hazırlayırlar: əvvəlcə qoyun əti ilə quyruq birlikdə döyülür və yaxud ət maşınından keçirilir. Sonra buraya yumru düyü, narın doğranmış baş soğan, duz, istiot və quru nanə əlavə edilərək yaxşıca qarışdırılır. Daha sonra isə tək-tək pip yarpağına bükülür. Qazana – dolmanın üzərinə bir az su əlavə edilərək bişirilir və süfrəyə qatıqla verilir.

*Piti* bişirmək üçün erkək quzu, yaxud qoyun əti xırda tikələrə bö-

lünür, dopuya (bardaq, çölmək) yığılır, 1-2 tikə quyruq, soğan, bişirilmiş noxud, əlavə olunur, üstünə azca su tökülür. Bişənə yaxın alça qurusu, duz, istiot, zəfəran (yaxud sarıkök) əlavə edilir. Bişəndən sonra piti bardaqlarının ağzını açan kimi zəfəranın bihuşedici ətri ətrafa yayılır. Piti süfrəyə sumax, quru nanə, fal-fal doğranıb sirkəyə qoyulmuş baş soğan, göyərti, təndir çörəyi ilə verilir.



Piti



Lülə kabab

Basqal mətbəxi üçün xas olan digər ət yeməkləri (qovurma, kabab, bozbaş, şorba, cızbız, yarpaq, kələm, bibər, badımcan, pomidor dolmaları və s.) də yüksək zövqlə və çox ləziz hazırlanır, tərkibində müxtəlif ədviyyatların (istiot, zəncəfil, darçın, mixək, sarıkök, sumax, zəfəran və s.) olması bu xörəklərin tamını, dadını daha da artırır. Yeri gəlmişkən qeyd edək ki, Basqal cızbızı indi də adnan tanınır. Əsasən qoyun içalatından (şirin bağırsaq, ürək, böyrək, ciyər, iç piyi və s.) bişirilən bu yeməyi Basqalda çox sevirlər. Quş ətindən və balıqdan hazırlanan xörəklər də həmişə özünəməxsus yer tutmuşdur. Xüsusilə toyuq ətindən hazırlanan bozbaş, çığırtma, toyuq yumurtasından bişirilən kükü və s. xörəklər də çox dadlı hazırlanır. Balıqdan basdırma, qızartma bişirilir.

Etnoqrafik materiallar göstərir ki, Basqal mətbəxində geniş yayıl-

mış yeməklərdən biri *həlimaşıdır.* Basqallıların xüsusi ustalıqla hazırladıqları həlimaşı adla söylənilir. Miryavər Hüseynov özünün "Basqal əcdadlarımızın əks-sədasıdır" kitabında həmin yeməyin geniş təsvirini vermişdir: "... Həlimaşı Basqalın çox sevilən yeməklərindəndir. Sübh tezdən axşama qədər Məşədi Dadaşın və Lahıc Ağakərimin həlimaşı dükanı dolub boşalardı. Müştərilər özləri ilə təzə nehrə yağı götürər, dükanda bir-iki qab (ölçü qabı təqribən üçdə bir litr olardı) istiotlu, dadlı-ləzzətli xörəkdən yeyər, evlərinə də göndərdikdən sonra ipək karxanalarına işləməyə gedərdilər. ... Həlimaşı müştərisi çox olduğundan bir gün əvvəldən dükanda qab qoyardılar. İndi – bu gözəl adətlər yox olub getdiyi vaxtda da, hər hansı bir işi qabaqcadan planlaşdıranda basqallılar zarafatla deyirlər: "Deyəsən, həlimaşı üçün qab qoymusan" (38, 66).

Həlimaşını hazırlamaq üçün qoyun əti, çil-bir (yaşıl buğda), düyü, ağ lobya, axta (zoğal), heyva, yağ-soğan tələb olunur. Onları ya taxta lövhə üzərində əzir, yaxud da ət maşınından keçirir. İnanclara görə, islağa qoyulmuş buğdanı heç kəs görməməliydi, əks təqdirdə buğda cücərməzdi. Nənələrin, babaların illər boyu böyük zövqlə yedikləri həlimaşı bu gün də həvəslə bişirilməkdədir. Basqallı Əhmədov Ağayusif Səttar oğlu və Feyzullayeva Sərgül Zibeyir qızı həlimaşı hazırlamaq üzrə ən tanınmış aşpazlardan olmuşlar.

Basqalın yaşlı sakinlərinin məlumatına görə, bəlkə də çoxlarının yaddaşından silinmiş bizim bir süfrə bəzəyimiz də vardı: *qaysava*. Plovun xuruşlarından biri. Qaysava hazırlamaqdan ötrü çox şey gərək deyil – nehrə yağı, bir də tut qurusu. Yağı dağ edəndən sonra tut qurusunu tökürlər yağın içərisinə. Ta qızarıncaya qədər gözləmək gərəkdir. Elə ki qızardı, qaysava olur hazır. Ağbirçəklərin dediyinə görə, dad-ləzzətində ələ düşən şey deyilmiş. Bəzi bölgələrdə qaysavanı əriyin qaysı növünün qurusundan hasilə gətirirlər (çox vaxt qaysıya

kişmiş də qatırlar). Belə bir güman var ki qaysava adı da elə qaysı sözündən yaranmadır. "Qaysısevən" sonralar "Qaysava" şəklində deyilib.



Döşəmə plov



Əriştə plov

Azərbaycan xörəklərinin şahı, süfrələrin bəzəyi adlanan *plovun* yeri Basqal mətbəxində həmişə görünür (Azərbaycanın bir çox bölgəsində bu xörək növünə "plov" deyilsə də, Basqalda "aş" sözü işlənir). Qaraların hazırlanması xüsusiyyətinə görə Basqalda plovun müxtəlif növləri (şabalıdlı qovurma, çığırtma-plov, səbzi-plov, cücəplov, südlü-plov, qiyməplov və s.) yayılmışdır. Xüsusilə əhali bayram süfrəsini döşəməplovsuz təsəvvür etmir. Döşəməplovu hazırlamaq üçün düyü qaynadılıb süzülür, qazanın dibinə qazmaq salınır, üstünə ət (toyuq, balıq, ov quşu da ola bilər), şabalıd, albuxara və s. yığılır, üzərinə yarımbişmiş düyü əlavə edilərək (üstünə kərə yağı və zəfəran da vurulur) dəmə qoyulur. Basqalda yayılan plov növlərindən biri də xuruşu toyuq çığırtması olan çığırtma-plovdur. Bundan başqa, "qaragöz" lobyanı qaynadır, böyrünə boranı (balqabaq) vurur, ayrıca qızardılmış soğan, axta zoğal əlavə edib pırtdama-qəlyə də bişirirlər.

Geniş yayılmış yemək növlərindən biri də *əriştədir*. Əriştə buğda

unundan hazırlanır. Onu hazırlamaqdan ötrü xəmiri kündələyir, oxlovla yuxayayanda (yaymakeş) nazik lavaş kimi yayır, sonra üst-üstə bir neçə qat bükür, nazik-nazik zolaq (dilim) şəklində bıçaqla kəsirlər. Basqal ağbirçəkləri söyləyirlər ki, hər bir ailə əriştə kəsib onu sacda, yaxud təndirdə qurudub torbalara yığar və qış uzunu ondan yerli-yataqlı istifadə edərdilər. Etnoqrafik materiallar göstərir ki, XX əsrin 70-ci illərinə kimi əriştə kəsilməsi qonum-qonşunun iştirakı ilə həyata keçirilərdi. O dövrdə 4-5 gün ərzində 8-10 ailə üçün əriştə hazırlanmasını qocalar indi də danışırlar. Bu birgə işgörmə, bir-birinə köməketmə etnoqrafiya elmində *qarşılıqlı yardım* adlanır. Əriştə aşı aşağıdakı qaydada bişirilir: əvvəlcə əriştə qaynadılıb aşsüzəndən keçirilir, sonra isə onun üzərinə kərə yağı töküb dəmə qoyurlar. Bu zaman əriştə aşının tərkibinə başqa xuruş da əlavə edilir. Keçmişdə milli bayramları əriştə aşı ilə qeyd etmək ənənə halını almışdı (63, 104).

Sulu əriştə bişirmək üçün qoyun ətinin sümüklərini qaynadıb süzür, içərisinə döyülmüş ətdən hazırlanmış xırda küftələr və qaragöz lobya tökərək qaynadılır. Sonra bərk xəmirdən yayılmış yuxa təpitmə edib ondan xırda əriştələr kəsib yeməyin tərkibinə əlavə edirlər. Süfrəyə verilərkən, adətən, üstünə quru nanə səpilir, yanına ayrıca qabda sirkə-sarımsaq qoyulur. Soyuqdəymədə ondan bədənə istilik verən xörək kimi istifadə olunur. Əriştəni uzun müddət rütubətsiz, sərin yerdə saxlamaq mümkündür.

Basqal üçün xarakterik olan yemək növlərindən biri də *Çıl-bırdır*. Bu yeməyi bişirmək üçün əvvəlcə dağ-soğan edilir. Daha sonra lobya (paxla), düyü, un və yumurtadan ibarət məzləmələr qaynadılaraq, üzərinə dağ-soğanı əlavə edirlər. Alınan sulu yemək ilin bütün fəsillərində, daha çox qış yaylarında yeyilir və soyuqdəyməyə qarşı faydalı hesab edilir.

Azərbaycan mətbəxində çox geniş yayılan, tərkibində un, şəkər, yağ və s. ilə yanaşı müxtəlif ədviyyat və əlavələr (bal, qoz, fındıq, ba-

dam, zəfəran, mixək, darçın, hil, zəncəfil, sarıkök və s.) olan *şirniyyat növləri* (paxlava, qoğal, şəkərbura, çudu, bamiyə, mütəkkə, qatlama, külçə, şəkər-çörək, halva və s.) Basqalda da həvəslə bişirilməkdədir. Belə yemək növlərindən biri də *Basqalın halvasıdır.* Deyilənə görə, bu şirniyyat növünü heç yerdə Basqaldakı qədər ləzzətli hazırlamırlar. Burada istiotlu, darçınlı, mixəkli, zəncəfilli çoxlu növ halva bişirərlər ki, ərməğan ətri məhəlləni bürüyür. Tərkibinə qoz ləpəsi, buğda unu, şəkər qatırlar. Basqalın yaşlı sakinlərinin söylədiyinə görə, halvaçı Soltan, halvaçı Ələsgər, halvaçı Hacı Nağıoğlu, halvaçı Ağasəlim öz dövrünün tanınmış usta halvaçıları olublar. Onların hazırladıqları halvalar



Şəkərbura



Paxlava



Qoğal

Basqaldan kənarda – ətraf kəndlərdə, hətta Şamaxıda, Ağsuda da tanınırdı. Hər yerdə təriflənən bu halva ilə bağlı bir söyləmə indi də dillər əzbəridir: "Ədvalıdı, ballıdı, bişirəni basqallıdı".

Basqalın məşhur halvaçılarından olan Ələsgər kişinin nəvəsi Əliyev Cahid bizimlə söhbətdə qeyd etdi ki, onlar nəsillikcə halvaçı olublar. İndinin özündə də o, yaxın-uzaq kəndlərdən sifarişlər qəbul edir, babasından qalan bu peşəni yaşatmağa çalışır. Basqal halvasının tərkibi haqqında məlumat verən Cahid bildirdi ki, bu məqsədlə nimçələrdə səməni göyərdir, sonra səməninin göy hissəsini atır, toxum hissəsini isə taxta çanaq, yaxud tabaqda daşla döyüb, şirəsini dəyirman

unu ilə qarışdıraraq ocaq üstündə bişirirlər. Bişənə yaxın onun tərkibinə qara istiot, darçın, mixək, razyana, zəncəfil, hil və s. qatırlar. Bundan sonra onu doşabda qarışdırır, qoğal, yaxud kündə şəklində yumrulayıb üstünə qoz ləpələri vururlar. Basqalın məşhur halvaçılarından danışarkən Ağasəlim Nağıyevin adı da hörmətlə xatırlanır.



Çay dıstgahı



Samovar

Basqal mətbəxində çay dəsgahının özünəməxsus yeri var. Çayı dəmləyərkən ona kəklikotu, sarıçiçək, qızılgül ləçəyi, mixək də qatırlar. Qızmar yay günlərində susuzluğu yatırmaqda pürrəngi çay əvəzedilməzdir. Basqalda çay becərilib yetişdirilmir. Lakin Azərbaycanın Lənkəran-Astara bölgəsindən gətirilən çaylardan istifadə edilir. Xalq şairimiz Səməd Vurğun necə də gözəl deyib:

*Keçək Kür çayını, Araz çayını,*
*İçək Lənkəranın nübar çayını...*

Basqallıların süfrələrində yeməklərlə bərabər, meyvələr və şərbətlər də xüsusi yer tutur. Onlar bağların, meşələrin mer-meyvəsindən tas-tas mürəbbələr, təamlar da bişirir, sağlamlıq və gümrahlıq gətirən şirələr, sərinləşdirici süfrə içkiləri və şərbətlər düzəldirlər. Hər piyaləsi min bir dərdin dərmanı... Xoşagəlim, ağız dada gətirən bu içki və şərbətlər çox vaxt hazırlandıqları ot və çiçəklərin adını daşıyır: çiyələk şərbəti, moruq şərbəti, albalı şərbəti, reyhan və yaxud nanə şərbəti,

gül suyu (gülab) və s. Bunlarla yanaşı, süfrə içkilərindən səhləb, turşaşirin, qəndab, xoşab, iskəncəbi, qoraba və başqalarını da göstərmək olar. Müxtəlif adda, müxtəlif dadda olan bu məhsullar basqallıların gündəlik zəruri tələbatını ödəməklə yanaşı, ənənəvi olaraq toylarda, bayram və şənliklərdə də verilir.

Ağ tutun doşabı nəinki Basqalda, Azərbaycanın çox yerində əhalinin yemək öynəsində xüsusi rol oynayır. Həm də doşabı soyuqdəymənin əlacı hesab edirlər. Ağbirçək nənələr deyirlər ki, borana, çovğuna, alaçalpova düşən adama, soyuqdəymə, sətəlcəm olana acqarına səhər-səhər bir qədər doşab içirin, o xəstəliyi bədəndən oynadıb qovur. Yeri gəlmişkən qeyd edək ki, tutun şirəsi, bəkməzi, riçalı, mürəbbəsi əvəzedilməzdir. Bu məhsullar isə süfrələrin bəzəyi, bir sıra yeməklərin tamı, ləzzəti hesab olunur. Bir vaxtlar qəndin, mürəbbənin qıt vaxtında rıçal, bəkməz onları əvəz edirdi. Ondan şəfaverici vasitə kimi də istifadə olunur. Ağaclardan çırpılan tutu azca aralıda sərib qurudur, qış azuqəsi də hazırlayırlar. Soyuq qış günlərində tut qurusu ilə çay içməyin ayrı ləzzəti var.



Səməni halvası



Tut mürəbbəsi



Tut doşabı

Onu da qeyd edək ki, Azərbaycanda tut ağacına böyük inam mövcud olmuşdur. Bu ağacı kəsmək günah sayılmışdır. Çünki inanclara görə, tut ağacını Xızır peyğəmbər əkib. Onun bəhərindən qohum-qonşulara pay verərdilər. Yaşlılar tut ağacını "çörək ağacı" adlandırır və deyirlər ki, aclıq illərində tut çox insanları ölümdən qurtarıb, insan-



Lavaşana

lar onun yaş və quru meyvəsi, bəhməzi, doşabı ilə dolanıblar.

Basqal meşələrindəki qırmızı, qara alça, gavalı, göyəm, alma, armud, zirinc, zoğal giləmeyvələrini yığar, sinilərdə, məcməyilərdə günün altına düzər, meyvə qaxı qurudardılar. Alçadan, almadan, gavalıdan lavaşana, turşu hazırlayardılar. Qış uzunu onlardan yerli-yerində istifadə edər, qismən də bazar üçün tədarük edərdilər. Keçmişlərdə Bakı, Tiflis, Kazan və digər şəhərlərin bazarlarında qoz, fındıq, meyvə qaxı, tut qurusu, turşu, lavaşana satardılar. Nənələr qışda turşu lavaşından dürmək düzəldib uşaqların hərəsinə birini verər, "yağlı xörək yemisiniz, üstündən ötürün, ürəyinizi bassın, yağın qənimi turşu lavaşıdır" – deyərdilər.

Basqalın xanım-xatın nənələri qızılgüldən gülab (gül suyu) çəkirlər, rayihəsi bürüyür dağı-daşı; bu nə gözəl ətirdi, – deyir, duyan, hiss edən. Bir sıra süfrə içki növlərini, xüsusilə şərbətləri hazırlayarkən ətirli olması üçün gülabdan həmişə istifadə edirlər. Xalq təbabətində gülab hələ qədimlərdən yuxu xəstəliyinə şəfa verir, əsəb xəstəliyinin dərmanı sayılır, ətriyyatda, həmçinin dini mərasimlərdə gülab işlədilir. Gülab çəkilməsi ilə bağlı gözəl adətlər var. Bu zaman adamlar yanaqlarına, alınlarına gülab sürtür, bir-birlərinə gözaydınlığı verir, gülab paylayırdılar. Müxtəlif oxuma və ayin oyunları ilə şənlənib əylənirdilər. Güyüm suyu, ayran, ovşala, iskəncəbi və s. kimi içkilər də Basqal süfrələrinin bəzəyi olmuşdur. "İskəncəbi necə hazırlanır" sualına məlumatçımız belə cavab verdi: – Suya azca alça lavaşanası qatırlar. Lavaşana suyun içində əriyənə qədər qalır. Bundan sonra onun üzərinə şirni (qənd) əlavə edib qarışdırırlar. Turşaşirin bir içki növü alınır. Keyfi qal-

dıran, əhvalı yüksəldən, ən başlıcası iştah gətirən bir içkidir iskəncəbi.

Basqallılar qızılgülün bəzi növlərinin ləçəklərindən *mürəbbə*, *şərbət*, xüsusilə *gülqənd* hazırlanmasında istifadə edirlər. Gülqənd hazırlamaq üçün qızılgül ləçəkləri yuyulub doğranır, qənd tozu və ya balla qarışdırılaraq bərnilərə doldurur və günəş altında saxlanılır. Xalq təbabətində yüksək kalorili və ətiri ilə seçilən gülqənd ümumi zəifliyin, qanazlığının, baş gicəllənmənin qarşısını almaq üçün işlədilir.

Azərbaycanın bütün bölgələrində olduğu kimi, Basqalda da hər bir ailənin məişətində qış ehtiyatı qayğıları mühüm yer tutur. Qocaman sakinlərin verdiyi məlumata görə, Basqalda bu məqsədlə hər bir ailə qış azuqəsini yaydan hazırlayır. Heyvanlar üçün ot-alaf toplanır, üzlü-gözlü pendir mayalanar, nehrə çalxalanar, motal təpilər, yağ tədarükü görülərdi. Dəyirmana daşınmış taxıl üyüdülər, yarma çəkilərdi. Meyvələrin qış tədarükünü görərdilər. Uşaqların qışlığını, bayramlığını, naxoş payını, qonum-qonşu "gözlüyünü" zirzəmiyə yığardılar. Mer-meyvənin artığının alıcısı qapıya gələrdi. Bu cür ehtiyat ət-süd məhsullarından da tutulurdu: şoru, pendiri uzun müddət saxlamaq üçün küplərə, yaxud da quzu dərisindən hazırlanmış motallara yığır, içərisinə kəklikotu, nanə, ətirşah, yarpız və s. qoyulardı.



Basqal nemətləri

Əti isə uzun müddət saxlamaq üçün ondan həm keçmişdə, həm də indi *qovurma, qiymə, cızdaq* və *qaxac* edirlər. Qovurma hazırlamaq üçün doğranmış ətə lazımi qədər duz vuraraq qazanda pörtlədirlər. Pörtlənmiş ətin yağı süzülür və yenidən öz yağında qovrulurdu. Qovrulmuş ətin saxlanmasında quyruq yağından istifadə olunur. Bu, qovurmanın uzun müddət saxlanmasına yaxşı təsir edir. Qovrulmuş ət qarından hazırlanmış dağarcıqlara, küplərə, bəzən də yunu çox gödək kəsilmiş motala doldurularaq üstünə quyruq yağı tökülürdü. Yağ ətin üstünə çıxmalı və onu örtməli idi. Ondan istənilən vaxt ətli xörək bişirmək üçün istifadə olunur və ya soyuq halda çörəklə yeyilirdi.

Yemək və içkilərdən danışarkən, onların tədarükü, emalı, qəbulu və saxlanması məqsədilə istifadə olunan mətbəx ləvazimatlarından və vasitələrindən də bəhs etmək vacibdir. Qab-qacağın hazırlanması, onlardan məişətdə istifadə olunması ev peşəsi və sənətkarlıq sahəsində mühüm yer tutur. Tarixi-etnoqrafik ədəbiyyatdan məlumdur ki, insanlar zaman-zaman ərzaq məhsullarının istifadəsi, saxlanması, yeməklərin hazırlanması və süfrəyə verilməsi üçün müxtəlif qab-qacağa ehtiyac duyulmuşdur. Bu ehtiyacı ödəmək məqsədilə insanlar ağac qabığından, heyvan dərisindən istifadə etmiş, çubuqdan, qarğı-qamışdan səbət hörmüş, onu palçıqla suvayaraq ilk qabları yaratmışlar. Bununla bağlı zəngin etnoqrafik materiallar mövcuddur. Belə ki, bütün Azərbaycanda olduğu kimi, Basqalda da məişət ehtiyaclarını təmin etməkdən ötrü müxtəlif qab-qacaqdan istifadə etmişlər. Amma həmin qablar və mətbəx ləvazimatı günümüzə qədər gəlib çatanadək böyük təkamül yolu keçmişdir. Şəhər və kənd əhalisinin ev məişətində gərək olan mətbəx qabları və ev avadanlığı xammalın səciyyəsinə görə daş (su daşı, xırman daşı, kirkirə, hovuz, axur, həvəng, dibək və s.), ağac (çömçə, qaşıq, təknə, tabaq (hövsər), xəlbir, oxlov, yuxayayan, sandıq, mücrü, nehrə, çanaq və s.), saxsı (təndir, koduş, bərni, çölmək, dopu, xeyrə, bardaq, nehrə, küp və s.), metal, (qazan, sapılca, kəf-

gir, aşsüzən, sərpuş, çömçə, sini, məcməyi, nimçə, kasa, cam, boşqab, şərbət qabı, gül qabı, çiriş qabı, ədviyyə qabı, gülabdan, qənddan, çıraq, lampa, manqal, xəkəndaz, maşa və s.), dəri və hörmə-toxuma (motal, eymə, tuluq, dağarcıq, tejən, zənbil, kövsərə, süfrə, tərəzi və s.) kimi qruplara ayrılır (60, 195-198). Qab-qacağın əhalinin məişətində əhəmiyyətli yer tutması barədə arxeoloq Qara Əhmədov yazır: "Azərbaycan kəndlərində bu yaxınlara qədər gilas ağacı qabığından düzəldilmiş koğay, qoyun və keçi dərisindən hazırlanmış tuluq, dağar, eymə, motal, içərisi çıxarılmış boranı qabığından hazırlanmış qablardan, müxtəlif toxuma səbətlərdən və s. qab növlərindən istifadə edirdilər" (32, 56).

Azərbaycanın hər yerində olduğu kimi adı çəkilən qab-qacaqların, məişət əşyalarının Basqal mətbəxində özünəməxsus yeri və rolu olmuşdur. Basqal ağbirçəklərindən aldığımız məlumata görə, bişmişlərin dadlı-ləzzətli alınmasında onların hansı qabda hazırlanmasının böyük rolu vardır. Yüz ölçüb, bir biçəndən, sınamadan sonra nənələrimiz, ana-bacılarımız bu qənaətə gəliblər ki, mis qazanda bişirilən plovla, gildən hazırlanmış çölməkdə qaynadılan plovun böyük fərqi var. Belə ki, daşma plov çölməkdə, süzmə plov isə qazanda bişəndə daha dadlı olur. Yaxud piti bərnidə, bozbaş isə mis qazanda hazırlananda keyfiyyətli və dadlı alınır. Deməli, xörəyin dadının-duzunun yarısı qazandadı. Yeməklərə vurulan yüz cür ədviyyat da onlara başqa bir ləzzət-tam verir.

Etnoqrafik ədəbiyyatda məişət qab və avadanlıqları daha çox funksional təyinatına görə təsnif edilir: 1) Su qabları; 2) Yeməyin hazırlanması, saxlanması və qəbulu üçün qablar: a) yeməyin bişirilməsi üçün qablar; b) çörəkbişirmə vasitələri; c) yeməyin saxlanması və qəbulu üçün qablar; d) masaüstü qablar; 3) süd məhsulları qabları; 4) İstilik və işıqlandırma ləvazimatları; 5) başqa məişət əşyaları; 6) su təchizatı qabları (87, 18).

Məlumat üçün bildirək ki, Azərbaycanda qab düzəltmək üçün ən münasib xammal qədim zamanlardan gil olmuşdur. Tədqiqatçılar Neolit (Yeni daş) dövründə məişətdə istifadə edilən gil qabların hazırlanıb bişirilməsini bəşəriyyətin ən mühüm kəşflərindən biri hesab edirlər. Arxeoloji materiallar göstərir ki, xüsusi kürələrdə bişirilmiş və dulus çarxında hazırlanmış dulus qabları Tunc dövründən başlayaraq yayılmışdı (7, 547). Gil qablardan son zamanlara qədər geniş istifadə olunmuş, elə indi də istifadə edilməkdədir. Sonrakı dövrlərdə isə dəmirdən, misdən hazırlanmış qab-qacağa tələbat artmış və onlar gil qablarla paralel olaraq işlədilmişdir.



Mətbəx və məişət avadanlıqları

Azərbaycanın Şamaxı, Gəncə, Bakı, Quba, Lahıc, Basqal və s. şəhərlərində dəmirçi və misgər məhəllələri, bazar və meydanlar var idi. Mis məmulatın mühüm istehsal və satış mərkəzlərindən biri olan Lahıcda ustaların misgər dükanları fəaliyyət göstərirdi. Elə indinin özündə də Basqal evlərində misdən düzəldilmiş qazanların, səhənglərin, sərniclərin, süzgəclərin, tavaların, teştlərin, sinilərin, kəfgirlərin, dolça və parçların, cam və badyaların, abgərdənlərin, aftafa-

ləyənlərin və s. yeri var. İsmayıllı rayon tarix-diyarşünaslıq muzeyində nümayiş etdirilən müxtəlif dövrlərə aid məişət əşyaları mətbəx mədəniyyətimizin çox qədim dövrlərdən mövcudluğunu göstərir.



Mətbəx avadanlıqları

Beləliklə, Basqal əhalisinin ənənəvi yeməklərinin, içkilərinin, şirniyyatların, çərəzlərin geniş çeşidi, onların hazırlanma qaydaları göstərir ki, bütün bunların böyük əksəriyyəti ümumazərbaycan səciyyəsi daşıyır və bir daha xalqımızın mətbəx mədəniyyətinin zənginliyini təsdiq edir. Lakin ilkin müşahidələr, toplanmış ədəbiyyat materialları sübut edir ki, hazırda mətbəx mədəniyyətimiz mllilik baxımından ciddi transformasiyaya uğramaqla qədim dövrlərdən formalaşmış bir sıra xörəklər unudulur. Gənc qızların çoxu həmin xörəkləri nəinki hazırlamağı bacarmırlar, hətta onların adlarını da bilmirlər (52, 154).



Ərzaq məhsulları dolabı

Yeri gəlmişkən onu da qeyd edək ki, gündən-günə gözəlləşən, cavanlaşan Bakıda şəhərimizin mərkəzlərində nümunəvi milli mətbəx və çörək evlərinin olmaması təəccüb doğurur. Arzu edərdik ki, şəhərlərimizin görməli yerlərində milli üslubda tərtib olunmuş milli mət-

bəx, çörək və şirniyyat evləri açılsın. Odlar diyarının paytaxtı Bakıya dünyanın hər tərəfindən çoxlu qonaqlar, iş adamları, turistlər gəlir. Süfrələrin bəzəyi olan, üzağardan, qonaq qabağına çıxarıla bilən neçə-neçə milli xörəkləri, çörək növlərini, halva, şərq şirniyyatı, unlu qənnadı məmulatlarını qonaqlara göstərməli, onları Azərbaycan xalqının zəngin mətbəx mədəniyyəti ilə tanış etməliyik.

**Geyimlər**

Maddi mədəniyyətin mühüm elementlərindən biri də *geyimlərdir*. Geyim insanı xarici təsirlərdən qoruduğu, zahirən gözəlləşdirdiyi kimi, müəyyən dərəcədə onun daxili aləmini də büruzə verir. Bəşəriyyətin ən qədim kəşflərindən olan geyim Paleolit (qədim daş dövrü) dövründən məlumdur. Arxeoloji qazıntılar zamanı Azərbaycanın Paleolit düşərgələrindən (Azıx mağarası, Damcılı mağarası və s.) tapılmış çoxlu miqdarda daş qaşovlar, həmçinin sümük iy ucları insanların gönü (dərini) emal etdiyini və paltar tikməyi bacardığını göstərir.

Əkinçiliyin və maldarlığın meydana gəlməsindən sonra insanlar kətan, çətənə, yun və pambıq lifindən parça toxumağı öyrəndilər. Cəmiyyətin sonrakı inkişafı prosesində sosial-iqtisadi amillərin geyimə təsiri güclənmiş, kişi, qadın, qız və gəlin libası bir-birindən fərqlənməyə başlanmış, gündəlik və mərasim (toy və şənlik, matəm libası) geyimləri yaranmışdır. Ənənəvi geyim örnəklərinin yaranmasında təbii-coğrafi və iqlim şəraiti, xammal ehtiyatları, xalqın məişət tərzi, iqtisadi və mədəni həyat səviyyəsi, estetik zövqü və digər amillər böyük rol oynamışdır.

Azərbaycan xalqı da qədim və zəngin geyim mədəniyyətinə malikdir. Təsadüfi deyil ki, bu gün ölkə muzeylərinin ekspozisiyalarını xalqımızın qoruyub yaşatdığı müxtəlif təyinatlı və çeşidli çoxlu sayda geyim nümunələri bəzəyir. Ölkəmizin ən müxtəlif bölgələrini təmsil

edən belə geyim nümunələri insanlarımızın geyim mədəniyyətini nümayiş etdirməklə bərabər, xalqımızın yaradıcılıq dühasının və sənətkarlıq istedadının göstəricisi kimi də mədəni-mənəvi və praktiki əhəmiyyətə malikdir.

Digər bölgələrimizdə olduğu kimi, tədqiqat obyektimiz Basqalın daxil olduğu Şirvan bölgəsi insanlarının da özünəməxsus geyim dəstləri olmuş və bu geyimlər əksər hallarda ümumazərbaycan səciyyəli olsa belə, özünün bir sıra regional xüsusiyyətləri ilə geyim mədəniyyətimizin zənginləşməsində mühüm rol oynamışdır. Həmin geyimləri təyinatına görə gündəlik və mərasimi, mövsümü, həmçinin insanların sənət və peşə fəaliyyəti ilə əlaqədar geyim növlərinə bölmək olar. Bundan başqa, etnoqrafik ədəbiyyatda geyimlərin, kişi, qadın və uşaq, həmçinin baş, bədən və ayaq geyimləri kimi təsnifatı da mövcuddur.

Orta əsrlərdə və XIX əsrdə Şirvanda olmuş tacirlərin, coğrafiyaşünas-səyyahların yol qeydlərində, yazıçı və şairlərin əsərlərində buranın insanlarının bir çox geyim növlərinin (çuxa, arxalıq, köynək, tuman, qurşaq, papaq, başmaq və s.) adlarına və ipək parça nümunələrinə aid məlumatlara təsadüf olunur. Bu sırada XIX əsrdə fransız səyyahı Aleksandr Dümanın Şamaxı rəqqasələri haqqında yazdığı və rus rəssamı, knyaz Q.Qaqarinin çəkdiyi şəkillər xüsusilə diqqəti cəlb edir. Həmin məlumatlara və şəkillərə, o cümlədən Basqalda yaşlı insanlardan aldığımız informasiyalara əsaslanıb deyə bilərik ki, keçmişdə Basqal əhalisinin geyimləri əsasən, yun və ipək parçalardan tikilirdi.

Yun parça – şal güzəm yundan (payız yunundan) toxunurdu. Ədəbiyyat materiallarından göründüyü kimi, Şamaxı qəzası, eyni zamanda Basqal kəndliləri küzəm yununu Qobustan tərəkəmələrindən alırdılar. Şal başlıca olaraq kişi üst geyimlərinin (çuxa, bürmə, başlıq, şalvar, dolaq və s.) hazırlanmasında istifadə edilirdi.

Yuxarıda qeyd olunduğu kimi, Şirvan diyarı əsrlər boyu Azərbay-

can ipəkçiliyinin mərkəzlərindən biri sayılmışdır. Şamaxı (o cümlədən Basqal), Gəncə, Şəki və Şuşada olduqca zərif, incə və gözəl naxışlı parçalar toxunmuş, ipəkdən müxtəlif geyimlər, baş örtükləri istehsal edilmişdir. Qadın geyimləri üçün tələbatın daha çox hiss olunduğu parça isə qanovuz olmuşdur. Qadınlar al yaşıl, sarı, yaşıl, göy, qırmızı və s. birrəng qanovuz parçalardan paltar tikər, tuman-köynək geyinər, çarşab örtərdilər. Məlumatçılarımızın sözlərinə görə, keçmişdə gəlinlik paltarı da daha çox al-əlvan qanovuz parçadan tikilirdi. Qanovuzun xalq arasında "şahi", "səhər-axşam", "ördək boynu", "al-yaşıl" və s. adlarına təsadüf olunur. Kişilər isə yaşılın göylə və qırmızının qara ilə qarışığından alınan "çalarlı" adlanan qanovuz parçadan üst köynəyi geyinərdilər. Bəzən don və çuxaların astarını da qanovuzlardan yerlik kimi istifadə edir, yorğanüzü, xalat tikilir, çarşabın və boxçanın hazırlanmasında işlədilirdi. Sarı, qırmızı və digər rənglərdə olan tafta tipli ipək parçadan – darayıdan əsasən, qadın paltarları tikilir, fitə hazırlanırdı (35, 24).




Üst köynəkləri

Tarixi qaynaqlardan və ədəbiyyat materiallarından məlum olur ki, vaxtilə Basqalda ipək parçadan toxunan cecimdən də müxtəlif qadın və kişi geyimləri (xüsusilə köynək) hazırlanırdı. Bu baxımdan alman həkimi, səyyah İ.J.Lerxin verdiyi məlumat çox maraqlıdır. O, 1744-48-ci illərdə Azərbaycanda olarkən, bir çox şəhərləri əhatə edən səyahəti zamanı öz yol gündəliyində Şamaxıda, o cümlədən Basqalda toxunan cecim parçalardan özünə köynək sifariş verdiyini yazmışdır: "... Müxtəlif rəngli, yaşıl, qırmızı, göy zolaqlı və gözəl görünüşə malik

olan ipək parçalardan başqa şəhərdə az parça toxunurdu. Azərbaycanlılar ondan yay köynəkləri tikirdilər. Biz demək olar ki, hamımız belə köynəklər sifariş etmişdik” (107).



Arxalıq

Bundan başqa, Basqal əhalisinin geyim məişətində *gön-dəri məmulatı* da mühüm yer tuturdu. Onlar aşılı göndən çarıq, başmaq, kəmər, müşkü və tumacdan başmaq, məst, çəkmə, çust, xəz dəridən isə kürk və papaq geyinirdilər. Burada Azərbaycanın digər bölgələrində olduğu kimi, köynək, dizlik, nifəli şalvar, canlıq, arxalıq, çuxa, yapıncı, kürk, əba və s.-dən də istifadə olunmuşdur. Kişi baş geyimləri içərisində isə qoyun, yaxud quzu dərisindən hazırlanmış papaq mühüm yer tuturdu. Yaşlı sakinlərin dediyinə görə, adətən burada papağın altından təsək geyilirdi. Çox vaxt təsəyin qıraqlarına qızılı, yaxud gümüşü bafta tutulurdu. Keçmişdə təzə bəy mütləq bu cür bəzəkli təsək geyərmiş. Az da olsa başına fəs qoyanlar da vardı. Fəsi başlıca olaraq o dövrün ziyalıları geyərdi.* Ruhanilər, tacir və baqqallar köhnə adətlə çuxanın altından arxalıq geyinər, bellərinə ipək parçadan yaşıl qurşaq dolayar, buxara papaq qoyardılar. Bəziləri isə arxalıq biçimində hazırlanmış ləbbadə geyinər, üstündən əba salar, buxara papaq qoyar, Şiraz çarığı geyərdilər.

Ənənəvi qadın geyim kompleksinə üst və can köynəkləri, tuman, arxalıq, çəpkən, küləcə, qolçaq, önlük, çaxçur, kəlağayı, ləçək, çalma, ayaq geyimlərindən başmaq, çust, corab, kəmər və s. daxil idi. Qadın can köynəyi humayın ağından, əsasən, pambıq və ipək parçalardan

* Məlumatı Basqalın qocaman sakini Məşədi Cəlal Əlabbas oğlu vermişdir.

uzun ətəkli tikilər, yaxası rəngli düymələrlə bəzədilərdi. Üst geyimləri (köynək, tuman, arxalıq, çəpkən, küləcə, kəmər və s.) bahalı parçalardan tikilib, əlvanlığı, incəliyi və gözəlliyi ilə nəzəri cəlb edirdi.


Qadın arxalığı


Tuman

Verilən məlumatlara görə, basqallı qadınların gündəlik geyimlərindən başqa toy-bayram üçün ayrılmış bir dəst *"baş paltar"*ı da olurdu. Oğlan evi tərəfindən toy mərasimi üçün nişanlı qıza tikilmiş gəlinlik paltarı da "baş paltar" adlanırdı. Keçmişdə gəlinin toy paltarı arasında bahalı ipək və məxmər parçalardan açıqyaxa biçimli arxalığın olması vacib sayılırdı. Adətən, onu gündəliyə geyməzdilər və "başpaltarı" kimi uzun müddət saxlayardılar.

Qadın bas geyimləri içərisində kəlağayı, təsək, şal, ləçək, və s. mühüm yer tuturdu. Belə ki, keçmişdə qadınlar saçlarını yığcam saxlamaq məqsədilə yaylıq, kəlağayı və digər baş örtüklərinin altından təsək geyirdilər. Onu ən çox pambıq parçadan, qırmızı və yaşıl məxmərdən tikirdilər. Təsəyin qabaq kənarına qiymətli metaldan hazırlanmış bəzək nümunələri bəndlənir, gümüşü saplarla, güləbətinlə iki-üç cərgə naxış vurulurdu. Lakin Basqal qadınlarının əsas baş geyimini istər keçmişdə, istərsə də indi kəlağayı təşkil etmişdir. Bərbəzək və naxışlarla zinətləndirilən, məharətlə hazırlanan kəlağayılar qızlarımızın, gəlinlərimizin, ana

və nənələrimizin nurlu simalarını yaraşığa gətirir, daha da cazibəli göstərirdi.

Etnoqrafik müşahidələr göstərir ki, yaşlı qadınlar kəlağayını çalma, yaxud dingə bağlayır, cavan qadın və qızlar isə örpək kimi örtürdülər. Bundan başqa yaşlı qadınlar tünd, gənc qadınlar isə al və əlvan rəngli kəlağayıya üstünlük verirdilər. Zümrə mənsubiyyətinə görə də kəlağayının müxtəlif çeşid və rəngləri olurdu. Məsələn, keçmişdə əksər türk xalqlarında ağ-bəyaz rəngli kəlağayılar daha geniş yayıldığı halda, azərbaycanlılar arasında od-alov və can sağlığının rəmzi sayılan al qırmızı rəngli kəlağayılar dəbdə olmuşdur. El-obanın nəzərində bu rəng bütün şər qüvvələrin uzaqlaşdırılıb zərərsizləşdirən qoruyucu bir vasitə, etibarlı bir sipər sayılmışdır.



Baş örtüyü – kəlağayı

Məna və məzmun xüsusiyyətlərinə görə baş örtükləri xalqımız arasında qız ismətinin nişanəsi, saflıq və təmizliyin timsalı tək tanınmışdır. Keçmiş dövrlərin qayda-qanununa görə, artıq adaxlısı olan qız nişan mərasimindən sonra evdən çıxanda başına mütləq kəlağayı örtməli idi. Bu, qızın artıq müəyyən bir oğlana-kişiyə məxsus olduğunu bildirirdi. Bu adət həm də ər evinə köçdükdən sonra da müəyyən müddət davam edirdi. İnformatorumuzun söylədiyinə görə, kəlağayıdan başqa Basqal qadınları arasında baş geyimi növü olaraq örpəklər də mühüm yer tutmuşdur. Burada belə örpəklərin "Sərəndaz", "Naz-nazı", "Bəlalə", "Xaralı", "Alafa", "Bənarə" və başqa növlərindən daha geniş istifadə olunmuşdur.

Beləliklə, etnoqrafik araşdırmalar və muzey fondlarında qorunub saxlanılan kolleksiyalar belə bir fikir söyləməyə imkan verir ki, məharətlə biçilən milli qadın geyimləri, bədii tikmələr, bər-bəzək və naxışlarla zinətləndirilərək cazibəsi, əlvanlığı və gözəlliyi ilə nəzəri cəlb edir. Basqal qadınları da parça üzərinə, o cümlədən paltara iynə-sapla könül oxşayan müxtəlif naxış və təsvirlər vururdular. Bu bəzəklərdə əlvan boyalı ipək saplar, güləbətin adlanan qızılı-gümüşü saplar, xırda zərif muncuqlar, rəngli parça kəsikləri və s. tətbiq edilirdi.

Basqal üçün xarakterik olan bu və digər ənənəvi geyim nümunələri xalq yazıçısı Əbülhəsənin "Dünya qopur" romanında geniş şəkildə şərh edilir: "... Sona yeri göy, xırda güllü sətindən tuman, beli büzməli ağ ipək kofta geymiş, zənbəqi kəlağayı örtmüşdü. Üzünə gün düşməsin deyə o, kəlağayısını qaşının üstünə çəkmişdi. O, yeridikcə kəlağayısının ucları xırdaca qanadlar kimi sağa-sola açılır, yavaşca yellənirdi. Qırçınlı və uzun tumanı küləşə toxunub, yerişini çətinləşdirməsin deyə, qız sol əli ilə ötəri tumanının balağını qaldırmışdı. Buna görə də onun ayağındakı uzunboğaz məstləri də görünürdü...Uzun, qırçınlı tumanı, sumağı yerli ala-bula güllü çit koftası və heyratı kəlağayısı Minayəni çox yaxşı tuturdu... Allahqulunun əynində təzə tumac başmaq, məngülə şalvar, məngülədən də arxalıq var idi. Ancaq şalvar qısa və dar idi. Arxalıq uzun və gen idi. Döşünü düyməməmişdi. Buna görə də, Allahqulunun göyəmi qanovuzdan tikdirib geydiyi təzə köynəyi altdan görünürdü. ... Allahqulu belinə enli gümüş toqqa bağlamış, başına da şabalıdı buxara dərisindən müsavat vaxtı tacirlər arasında dəb olan yastıraq papaq qoymuşdu..." (33, 330, 338).

Basqal əhalisinin məişətində, xüsusilə də qadınların geyim kompleksində *bəzək elementləri*, xüsusilə qadın zinətləri mühüm yer tutur. Bəzəklər maddi mədəniyyətin əsas elementlərindən biri kimi "icti-

mai təbəqələr arasında sosial bərabərsizliyi daha dolğun əks etdirməklə, xalqın həyat və məişət tərzini, lokal və etnik özünəməxsusluğunu, etnik-mədəni təması, türkdilli xalqlar arasında etnogenetik əlaqələri, yaş dövrünün ayrı-ayrı pillələrində bəzəklərdən istifadə edilməsində meydana gələn dəyişiklikləri və s. özündə daha dolğun əks etdirir (12, 156). Geyimlər kimi onlar da bir neçə qrupa bölünür: boyun bəzəkləri (boyunbağı, boğazaltı və s.); baş bəzəkləri (cütqabağı, qarmaq, müxtəlif sırğalar və s.); bel və paltar bəzəkləri (kəmər, belbağı, kəmərbənd, sancaq və s.). Bu bəzək nümunələri milli geyim kompleksinin ayrılmaz hissəsi sayılır və təsadüfi deyil ki, basqallı qadınlar da bu zərgərlik örnəklərindən gen-bol istifadə edirlər.

Nəhayət, onu da qeyd edək ki, XIX yüzilliyin ikinci yarısından başlayaraq Azərbaycanın hər yerində olduğu kimi Basqalda da əhalinin məişət həyatında mövcud olmuş bəzi ənənəvi geyim nümunələri tədricən aradan çıxmışdır. Bu gün məişətimizdə müasirliyi ilə diqqəti çəkən avropasayağı biçimdə hazırlanmış geyim nümunələrindən, fabrik mallarından geniş istifadə olunur. Müasir şəhər geyim nümunələri əhalinin məişətində özünə möhkəm yer tutmuşdur. Bununla belə, milli Azərbaycan geyim və bəzəkləri, bayram və mərasim geyimləri milli yaddaşın nümunəsi kimi öz əməli əhəmiyyətini itirməmişdir.

## ABİDƏLƏR VƏ MEMARLIQ İNCİLƏRİ

Basqalın çoxəsrlik tarixinin və mədəni irsinin mühüm bir qismini orta əsrlər dövrünə aid abidələr və memarlıq inciləri təşkil edir. Həmin abidələrin bir qismi bərbad vəziyyətdə də olsa, dövrümüzədək çatmışdır. Babalarımızın bu torpaqda yadigar qoyub getdiyi tarixi izləri qoruyub saxlayan abidələr həm də onlarla, yüzlərlə memarın, ustanın əməyinin, ağlının, istedadının məhsulu kimi dəyərlidir.

Qədim tarixin sorağına görə, keçmişdə yaşayış yerləri yadelli basqınlara və müharibələrə qarşı qala divarları ilə əhatə olunurdu. O taylı-bu taylı doğma Azərbaycanımızın elə bir guşəsi olmayıb ki, orada başı göylərə ucalan möhtəşəm qala, bürc, qüllə və istehkamlara, onların qalıqlarına rast gəlinməsin: Əlincəqala, Çıraqqala, Bəzz qalası, Girdiman qalası, Cavanşir qalası, Ərk qalası, Zərdüşt qalası, Qız qalaları, Dərbənd qalası, Abşeron qalaları, Fit qalası, Qəhqəhə qalası, Pəri qalası, Gələsən-görəsən qalası, Gülüstan qalası, Koroğlu qalaları, Nəhəcir qalası, Əsgəran qalası və s. Bunlar müxtəlif dövrlərdə dəfələrlə xarici hücumlara məruz qalmış, amansız çarpışmalara və savaşlara sinə gərməli olmuşdur.




Fit qalası. Təqribən VIII əsr

Qədim Şirvanın da ərazisi belə qalalar, müdafiə istehkamları ilə zən-



Xanəgah Qız qalası. VII-VIII əsrlər

gin olmuşdur. Qəhrəman oğul-qızlarımız elin-obanın ağır günlərində bu tərlan oylaqlarında at minib, qılınc oynadıb, qalxan gəzdirib, düşmənə dağ çəkib, yağıya qan uddurublar. Həmin möhtəşəm tikililərin qalıqlarına Basqal-ətrafı ərazilərdə də rast gəlinir. Təkcə Sulut kəndi ətrafındakı dağların yamacında neçə-neçə müdafiə tikililəri – qala və istinadgahlar qurulub, sığınacaqlar yaradılıb. Fit qalası, Niyal qalası, Girdiman qalaları, Cavanşir qalası, Xanəgah qız qalası, Xirəki qalası, Mücü qalası və Basqalın qalabaşı məhəlləsindəki müdafiə divarlarının qalıqları, qəsəbənin cənub-qərbində, tarixi Şamaxı – Qəbələ ticarət yolunun üstündəki "Qalalar" yaşayış yeri abidəsi də bu sıraya aiddir. Onlar ilk orta əsrlər dövründən Şirvanşahlar dövlətinin süqutuna qədər uzun və mürəkkəb bir yolu keçmiş, tarixin canlı şahidləri kimi günümüzədək gəlib çatmışdır.

**Düzən qəbiristanlığı**

Həmin abidələrdən biri də Düzən qəbiristanlığıdır. Məlumdur ki, tarixən Azərbaycanın kənd və qəsəbələrində, xüsusilə dağətəyi və dağlıq ərazilərdə qəbiristanlıqlar həmişə hündür və hər yerdən görünən yerlərdə salınardı. Bu, ilk növbədə xalqın öz əcdadlarına, dünyasını dəyişmiş yaxınlarının. əzizlərinin ruhlarına olan hörmət və ehtiramdan irəli gəlirdi. Basqalın qəbiristanlığı da qəsəbənin kənarında hündür təpədədir. Qəbiristanlıqda əhəngdaşından hazırlanmış və əsasən XVI-XIX əsrlərə aid neçə-neçə bədii məzarüstü baş daşları, sinə daşları nümunələri diqqəti cəlb edir. Onların hamısı qiblə istiqamətin-

dədir. Qəbirlər eyni tipli daşlarla hörülmüş, hündür başdaşları qoyulmuşdur. Baş daşıların yuxarı hissəsi yarımdairəvi arka ilə tamamanmışdır. Qəbirlərin üzərində epitafiya – məzar kitabələrində burada uyuyan şəxsin mənsubiyyəti, yəni məzarın kimə aid olduğu bildirilir.


Qədim qəbiristanlıq

Xatirə daşlarının üzərində həmçinin müxtəlif rəsm və işarələrə, xüsusilə həndəsi, nəbati ornamentlərə, eyni zamanda, insan, heyvan və quş fiqurlarına da rast gəlinir. Bəzi qəbirlərin üz tərəfində həkk olunmuş müxtəlif formalı xonçaların içərisi ərəb-farsdilli kitabələr və məişət təsvirləri ilə bəzədilmişdir. Daha təmtəraqlı, diqqət çəkən başdaşıları görünür varlı zümrələrin və mövlanə səviyyəsinə yüksəlmiş nüfuzlu din xadimlərinin şərəfinə hazırlanmışdır. Başdaşlarından birinin (hündürlüyü 1,86, eni 40x0,10 m) üzərində xüsusi yonulmuş tağın içərisində süls elementli nəsx xəttilə ərəb dilində kitabədə mərhumun adı və ölüm tarixi həkk olunub. Kitabənin mətnini və tərcüməsini Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı A.N.Qasımov nəşr etdirmişdir. Kitabənin mətni belədir: "Ya rəhimlilərin rəhimlisi! Ya Allah, Ya Muhəmməd! Quluna rəhm et, onu bağışla. Bu qəbir mərhum, bağışlanmış Hacı Əli İbn Əbdül Əzizindir. Allah onu bağışlasın. 1234-cü il. Quran 2-225". İli Hicri-Qəməri 1234=1823/24, Müqəddəs Qurani-Kərimin 2-ci surəsindən 255-ci ayə çox gözəl və aydın şəkildə haşiyələnərək həkk olunub (48, 160-161).



Nəsx xətti ilə ərəb dilində kitabə

Qəbiristanlıqdakı bəzi qəbirlərin üzərində son orta əsrlər üçün səciyyəvi olan sənduqə tipli sinə daşlarına da rast gəlinir. Cızma, döymə və oyma üsulu ilə zəngin nəbati təsvirlərlə bəzədilmiş bu daşların üzərindəki haşiyənin içərisində bədii xətt növü olan süls elementli nəsx xətti ilə yazılar (kitabə) həkk edilmişdir. Kitabə əsas etibarı ilə müqəddəs Quran ayələrindən, klassik Azərbaycan ədəbiyyatının poetik nümunələrindən, həmçinin mərhumun adı, doğum və ölüm tarixi barədə məlumatlardan ibarətdir. Bəzi sənduqələrin üzərində isə məişət əşyalarının (gülabdan, qayçı, iynə və s.) təsvirinə rast gəlinir. Kompozisiya etibarı ilə bitki motivləri adətən sənduqənin yan tərəfində – nisbətən böyük sahədə, yazılar isə sənduqənin yan hissəsində – nazik qurşaq arasında, həndəsi naxışlar isə oturacaq hissənin üstündə təsvir olunmuşdur.

Yeri gəlmişkən qeyd edək ki, bir çox qəbir daşları üzərindəki müxtəlif məzmunlu təsvirlər, naxışlar sadəcə bəzək və bədii xarakter daşımayıb, dəfn olunmuş şəxsin kimliyini, həyatını, peşə fəaliyyətini və s. əks etdirir. Daşların aşağı hissəsində isə adətən gül və yarpaq ornamentli təsvirlər, simvolik mahiyyətli rəsmlər, islamı təmsil edən ay-ulduz, ələm, günəş bildirən svastika və s. naxışlar əks olunmuşdur. Bəzi daşlarda da mərhumun fəlsəfi kəlamları, görkəmli şairlərin (ən çox Füzulinin) şeirlərindən beytlər, dualar, şifahi ədəbiyyatdan gəlmə şeirlər yazılmışdır.



Məzar daşları

Yerli əhalinin verdiyi məlumata görə, XX əsrin 40-cı illərinə qədər məzarlıqda üzərində müxtəlif səciyyəli təsvirlər, ərəb qrafikalı yazılar olan belə daşlar çox idi. 1944-cü ilin yazında İsmayıllı rayon hərbi komissarlığının şöbə rəisi, kapitan Nikolay Çernodubun rəhbərliyi altında Basqalda keçirilən zona hərbi təlimi zamanı 400-500 il, hətta daha çox yaşı olan bu baş daşlarının əksəriyyəti məhv edilmiş, yalnız bir neçəsi qırılmış vəziyyətdə olsa da, günümüzədək qalmışdır. Halbuki abidə tipli həmin daşlar iki, üç və beş yüz il əvvələ, hətta daha qədim dövrlərə aid dəfn mərasimlərini, ayrı-ayrı vaxtlarda yaşamış əhalinin maddi və mənəvi mədəniyyəti haqında müəyyən mülahizələr söyləməyə imkan verir.

Ümumiyyətlə, Düzən qəbiristanlığındakı daşlar üzərindəki yazı və təsvirlər öz bədiiliyi ilə dövrünün başqa sənət nümunələrindən (məsələn, xalça, parça, zərgərlik və s.) heç də geri qalmamış və bu baxımdan Azərbaycanın orta əsr tarixini və mədəniyyətini araşdırmaq üçün mühüm mənbələrdən hesab oluna bilər. Bu mənada qeyd olunan və digər qaranlıq məqamları aydınlaşdırmaq üçün ərazidə geniş arxeoloji-epiqrafik araşdırmaların aparılmasına ehtiyac var.

Düzən qəbiristanlığında diqqət çəkən bir məzar var və onun üzərində möhtəşəm bir məqbərə tikilmişdir. Bu məzar və məqbərə Hacı

Həbib adlı müdrik və ağsaqqal bir Basqal sakininə məxsusdur. Hacı Həbib ötən əsrin 70-80-ci illərində qəsəbənin tanınmış iş adamlarından və xeyriyyəçilərindən olmuşdur. Basqaldakı iri kəlağayı sexlərindən birinin sahibi olan Hacı Həbib 3 dəfə Məkkədəki müqəddəs Kəbəni ziyarət etmişdir. Oğlanları ilə bərabər, bir neçə məscidin tikintisinə həm təşkilatçı, həm də sərmayəçi kimi yardımçı olmuş, əlində olan pul vəsaitinin bir hissəsini xeyriyyə işlərinə xərcləmişdir. Hal-hazırda Basqal qəsəbəsinin girişində yerləşən və onun adını daşıyan bulaq da Hacı Həbibin yadigarıdır.

Sovet hakimiyyəti illərində dəfələrlə Hacı Həbibi kommunist partiyası sıralarına daxil olmağa məcbur etməyə çalışıblar. Lakin o, hər dəfə bundan imtina etmiş və buna görə təzyiqlərə məruz qalmış, sonda isə işdən çıxarılmış və kəlağayı sexi əlindən alınmışdır.

Allaha yaxınlığı, xeyriyyə işləri, ziyalılığı və ürəkgenişliyi ilə seçilən Hacı Həbibin xatirəsi bu gün də basqallılar tərəfindən hörmət və ehtiramla yad edilir. Hər il onun doğum günündə burada xatirəsinə həsr edilmiş urfani gecələr keçirilir və bu gecələrdə tanınmış mədəniyyət xadimləri, ustad sənətkarlar, söz xiridarları iştirak edirlər.

## Şeyx Məhəmməd məscidi

Çoxəsrlik tariximizin və mədəniyyətimizin ən kamil nümunələrindən biri də heç şübhəsiz ki, məscidlərdir. Məscid ("səcdə yeri") İslam dinində müsəlmanların Allaha kütləvi və ya tək ibadəti üçün nəzərdə tutulmuş memarlıq tikilisidir. İslam mədəniyyətində məscid, insanların qüdrətli Yaradan ilə acizanə şəkildə əlaqə qurmaq üçün seçdiyi müqəddəs məkan kimi tanınır.

İslam ölkələrində məscidlər təkcə ibadət üçün, dini mərasimlər keçirmək üçün inşa edilmirdi. Məscid çoxfunksiyalı bir məkan hesab edilir və onun içərisində keçirilən tədbirlər həm də müsəlmanlar arasında

ünsiyyəti, birliyi gücləndirmək funksiyasını yerinə yetirir. Yəni müsəlman dünyasında insanların ən çox toplaşdığı yer olan məscidlər namaz qılınması, dini məsələlərin müzakirəsi ilə yanaşı, sosial, milli, iqtisadi və başqa vacib məsələlərin də müzakirə olunduğu müqəddəs yerdir.

İslamda məscidin tarixi Məhəmməd peyğəmbərin İslam dinini insanlara çatdırmağa başladığı zamandan başlanır. O dövrdə Məkkə rəhbərliyi Məhəmməd peyğəmbərə Kəbədə ibadət etməyə mane olurdular. Məhəmməd peyğəmbər isə "Allahın evi"ndə namaz qılmaq üçün ibadətlərini məsciddə icra etməyə çalışırdı. Digər müsəlmanlar təzyiqlərdən sığortalanmaq üçün evlərdə, müxtəlif ərazilərdə yığışaraq ibadətlərini yerinə yetirirdilər.

İlk məscid 623-cü ilin ortalarında Mədinədə – Məhəmməd peyğəmbərin (S) evinin yanında tikilmiş, sonralar isə Yaxın və Orta Şərqdə, Orta Asiyada, Azərbaycanda və digər ölkələrdə geniş yayılmışdır. Məkkədə tikilmiş "Məscid-ül-həram" (Beyt-ül-Lahə – Allahın evi) müsəlman ailəsində ən müqəddəs məscid hesab edilir.

Azərbaycanda da belə tarixi məscidlər çoxdur və onlardan biri yüzilliklərin yadigarı olan Basqaldakı *Şeyx Məhəmməd məscididir.* Lakin təəssüflər olsun ki, məscidin tarixi və memarlıq xüsusiyyətləri hələ də lazımınca öyrənilməmişdir. Qəsəbənin Kələkücə məhəlləsinin girişindən bu məscidin divarları görünməyə başlayır. Deyilənə görə, bir vaxtlar məscidin qapı tağının yanındakı divar hörgüsündə kufi xətti ilə yazılmış iki daş kitabə mövcud idi. Kitabələrin birində məscidin Əl-Fəqir Şeyx Səfayi Şeyx Məhəmməd oğlu tərəfindən hicri 1036-cı ildə (miladi 1568-ci il) tikildiyi göstərilirdi. Çox güman ki, kitabədə adı çəkilən Məhəmmədin "şeyx" ləqəbi onun xalq arasında böyük nüfuza malik alim olduğunu göstərir. İkinci kitabənin taleyi isə məlum deyil. İnformatorumuz onun vaxtilə Bakıya aparıldığını, hansısa muzeyin, yaxud AMEA Əlyazmaları İnstitutunun zirzəmisinə atıldığını söylədi.

Şeyx Məhəmməd məscidi müsəlmanların müqəddəs şəhəri olan

Məkkədəki Kəbə səmtinə cəhətlənməklə inşa edilmişdir. Abidə eyni vaxtda inşa edilən iki minarədən (minarələr əsasən binanın baş fasadı tərəfində simmetrik şəkildə yerləşdirilmişdir), bir neçə tağlı hissədən və dörd qonaq otağından ibarət olmuşdur ki, burada da şeyxlər, axundlar, əfəndilər və mollalar həm İslam dininin təbliği, həm də ibadətlə məşğul olmuşlar. Minbərə çıxmaq üçün taxta pilləkənlərdən istifadə edilmişdir. Vaxtilə məscidin həyətində mədrəsə də fəaliyyət göstərmiş və burada öz dövrünün tanınmış alimləri ilahiyyatdən dərs demişlər. Yaşlı sakinlərin sözlərinə görə, məscidin meydanı həmişə təmiz olar, sakinlər növbə ilə hər cümə axşamı buranı silib-süpürər, səliqə-sahman yaradırdılar.

Sovet repressiyalarının, xüsusilə də dinsizliyin, "qırmızı terror"un, iyrənc ateist təbliğatının tüğyan etdiyi ötən əsrin 20-30-cu illərinin ağrı-acıları Basqaldan, onun dini-sitayiş obyektlərindən, bu torpağın yetişdirdiyi hörmətli din xadimlərindən də yan keçməmişdi. Uzun müddət ibadət yeri olan Şeyx Məhəmməd məscidi 1920-ci ilin Aprel çevrilişindən sonra – sovet hakimiyyətinin ilk illərindən etibarən dindarların üzünə qapanmış və mədəniyyət evi kimi fəaliyyət göstərmişdir. Yeni profilə uyğunlaşdırılarkən məscidin həyətində yerləşən və üzərində "Qurani-Kərim"dən ayələr yazılmış iyirmiyə yaxın daş kitabə məhv edilmiş, qoşa minarələr isə sökülmüşdür. Burada insanların milli-mənəvi düşüncəsinə yabançı olan tədbirlər keçirilmiş, müxtəlif oyun-tamaşalar nümayiş etdirilmişdir.

1975-ci ildə elektrik şəbəkəsində baş verən qısaqapanma nəticəsində məscidin binası tamamilə yanmışdır. Lakin nə yaxşı ki, bu zaman Basqal camaatı məscidi tikən və onu tikdirən şəxs haqqında məlumat verən sözügedən divarüstü yazını (kitabə) xilas edə biliblər. Həmin kitabə hal-hazırda yarımçıq tikili vəziyyətində olan abidənin çılpaq divarlarının birində yerləşdirilmişdir.

1984-cü ildə əsaslı bərpa layihəsi olmadan qəsəbə əhalisinin tə-

şəbbüsü ilə abidə yenidən ötəri bərpa olunmuşdur. Binanın daş hörgü izləri bəzi yerlərdə qeyri-mütəxəssislər tərəfindən (deyilənə görə erməni ustaları tərəfindən) bərpa edilmişdir, yağmurdan qorunmaq üçün damı örtülmüşdür. Qalan işlər isə böyük vəsait tələb etdiyindən yarımçıq qalmışdır. İlkin görkəminə uyuşmayan bir tərzdə aparılan yarımçıq bərpa işləri nəticəsində məscidin qədimliyinə, memarlıq ənənələrinə ciddi xələl gəlmiş və məscid öz əvvəlki görkəmini itirmişdir. Bir neçə tağlı hücrə, həyətdə bir neçə otaq tez və ucuz başa gəlsin deyə, ixtisara salınmışdır. Beləcə bu tarixi abidə insanların diqqətsizliyi və biganəliyi, o cümlədən qarın, yağışın təsirləri altında tədricən dağılıb sökülmüşdür. Hal-hazırda bu Allah evini seyr etdikcə insanın ürəyi ağrıyır. Yalnız mehrabı qalmış məscidin qapısız, pəncərəsiz otaqları yararsız hala düşüb. Məscidin həyətində olan və uzun illər müqəddəs ziyarətgaha çevrilmiş övliyaların məzar daşlarından da əsər-əlamət yoxdur. Onların sökülərək digər bir məscidin həyətinə yığıldığı deyilir.

Bununla belə, inanırıq ki, Müstəqil Azərbaycan dövlətinin tarixi abidələrə və maddi-mədəni irsin qorunmasına və bərpasına böyük diqqət və qayğı göstərdiyi indiki zamanda Şeyx Məhəmməd məscidi də bərpa olunacaq və yenidən xalqın istifadəsinə veriləcəkdir.

## Hacı Bədəl məscidi

Basqalın tarixi-memarlıq abidələrindən biri də Hacı Bədəl məscididir. Qəsəbənin yaşı az qala yüzü haqlamış sakinlərinin dediklərinə görə, məscid 1854-cü ildə Qoşabulaq məhəlləsinin sayılıb-seçilən sakinlərindən olan tacir Bədəl kişi tərəfindən tikilmişdir. Bədəl kişi Basqalın imkanlı adamlarından biri idi. Bir neçə ticarət dükanı vardı. Basqalda iki bulaq təmir etdirmiş və ətrafını abadlaşdırmışdı. Vaxtaşırı kasıb-kusuba əl tutmuş, yaxın qohumu Məşədi İbrahimxəlil üçün bazar meydanında papaqçı dükanı açdırmışdı.

Günlərin birində – Həcc səfəri öncəsi Bədəl Allah dərgahında seçilmək, savab iş görmək məqsədilə söz verir ki, ziyarətgahdan sağ-salamat qayıtdıqdan sonra yeganə qızı Sitarənin xatirinə məscid tikdirəcək. Bu məqsədlə o, Bazar meydanının aşağı tinində, Dəmirçibazar məhəlləsinin başlanğıcında köhnə ev yerini bir nəfərdən satın alır və çox da böyük olmayan həyəti hasara salır. Uzun ömür yaşamış Basqal sakini Cabbar əmi qeyd edir ki, atası Qulu kişidən eşitdiyinə görə, məscidin tikintisində hər gün 20-dən çox adam işləyirmiş. Hacı Bədəl bənnaları, fəhlələri həvəsləndirmək üçün onlara yaxşı haqq verirmiş. İki ildən sonra məscid hazır olur və el arasında tikdirənin adı ilə "Hacı Bədəl məscidi" adlandırılmışdır.

Məscidin həyətində iki əlavə yardımçı otaq tikilmiş, su quyusu qazılmış, qəsəbə camaatının müqəddəs məkanlarından biri olan Seyid Ümmülbanu türbəsi inşa edilmişdir (1897-1898). Məscidin qarşısında böyük meydanda Bədəl kişinin əkdiyi iki tut ağacı indinin özünə qədər yaşayır və bar verir. Memarlıq quruluşu elə də zəngin olmasa da, memarlıq elementlərinin uyarlığı məscidə bədii ifadəlik gətirir və ilk baxışda çox sadə görünən məscidin zahiri görünüşü əslində kifayət qədər cəlbedicidir. Məscidin çatma tağ-tavanla örtülmüş yeganə ibadət salonunun cənub divarında oyma ornamentli ağacdan mehrab vardır. Məscid son dərəcə dəqiq düşünülmüş memarlıq kompozisiyasına malikdir. Naməhrəmlər bir-birini görməsin deyə, içəridə qa-





Hacı Bədəl məscidi. XIX əsr

dınlar üçün ikimərtəbəli hissə quraşdırlmışdır. Ağsaqqalların rahat oturmaları üçün yuxarı başda divar boyu döşəkçələr, nimdərlər salınır.

Deyilənə görə, vaxtilə bura yaxın-uzaq ellərdən də zəvvarlar, səyyahlar ziyarətə gələrdilər. Ağsaqqalların sözlərinə görə, ateizm dövründə digər dini-sitayiş ocaqları kimi, Hacı Bədəl məscidinin də acınacaqlı günləri başlanmış və allahsızlar tərəfindən qapısına qıfıl vurularaq xalqın üzünə bağlanmışdı. Hökumət dairələri əhalinin məscidə getməsini qadağan etmiş və məscid əvvəlcə xüsusi dəzgahlar yerləşdirilən kəlağayı sexi kimi fəaliyyət göstərmişdi. Sonralar isə kənd istehlak cəmiyyətinin anbarına çevrilən məscidin kitabxanasındakı əski əlifba ilə yazılmış qiymətli kitablar və nadir əlyazmaları da məhv edilmişdi. Dağılmaqda olan Hacı Bədəl məscidini təmir etdirmək istəyən adamlar isə yuxarı təşkilatlara çağırılır, çək-çevirə, sorğu-suala cəlb olunur və cəza tədbirlərinə məruz qalırdılar. Lakin bütün bu yasaqlar və cəza tədbirləri insanları öz inamından və əqidəsindən uzaqlaşdıra bilməmişdi. Azərbaycanın hər yerində olduğu kimi basqallılar da gizli şəkildə olsa da evlərində dini ibadətləri icra etməkdə davam edir, bir növ dustaq düşmüş bu allah evinin mühafizəsinin qayğısına qalırdılar. Nəhayət 1957-ci ildə onlar böyük zəhmət və vəsait hesabına Hacı Bədəl məscidinin təmirinə nail ola bilirlər. 1985-ci ildə isə yaranan yeni tarixi şəraitlə əlaqədar əslən basqallı, 30-cu təqiblər üzündən doğma elini atıb Bakıda yaşayan İtaliyanın milli qəhrəmanı, tanınmış partizan Məmməd Bağırov məscidin əsaslı təmir olunması üçün döymədiyi qapı qoymadı. Hökumət dairələrinə yazılı, şifahi müraciətlər etdi. Nəhayət 1985-86-cı illərdə Mədəniyyət Nazirliyinin tarixi abidələri bərpa İdarəsi Hacı Bədəl məscidində əsaslı təmir işləri apardı, çürüməkdə olan tavan təzələndi, məscidin döşəməsi, həyətin daş örtüyü təzələndi, divarların gil suvağı sement-beton suvaq qarışığı ilə əvəzləndi. Məscidin giriş qapısının üzərinə, divarların iç tərəfinə və mehrabın dövrəsinə nəfis şəkildə müqəddəs Qurandan ayələr həkk olundu.

1991-ci ildə Məmməd Bağırovun təkidi ilə məscidin açılması qanuniləşdikdən sonra yerli camaatın gücü ilə ibadətgahın damı ağ dəmir örtüyə dəyişdirildi. Daha yaraşıqlı minarə tikildi və eyni vaxtda məscidin həyətindəki Seyid Ümmülbanu türbəsi də əsaslı təmir olundu. Hazırda bu müqəddəs ocaqda hər gün oradan ulu tanrının dərgahına azan sədası yüksəlir, dualar oxunur, namazlar qılınır. Niyyət eləyənlər məscidə nəzir-niyaz gətirir, ehsan verirlər. Doxsanıncı ilin qanlı yanvar faciəsindən sonra məsciddə qırx gün təziyə saxlanılıb. Hər il məsciddə 20 yanvar şəhidlərinin, Xocalı soyqırımı qurbanlarının xatirəsi anılır, Vətənin azadlığı və müstəqilliyi yolunda şəhid olanların ruhuna dualar oxunur, ehsanlar verilir. Hörmətli, nüfuzlu adamların, el ağsaqqallarının yas mərasimləri də Hacı Bədəl məscidində keçirilir. Beləcə, hər səhər məscidin minbərindən azan səsi bütün qəsəbəyə yayılır, insanlara xeyir-dua diləyir, onları mərhəmətə, düz niyyətə çağırır.

### Seyid Ümmülbanu türbəsi

Azərbaycan ərazisi əsrlər boyu insanların inam bəslədiyi, pənah apardığı, dilək dilədiyi həm islamdan əvvəlki dövrlərə aid, həm də islam dini – onun müqəddəs şəxsiyyətləri, övliyaları ilə bağlı olan pirlər və ocaqlarla da zəngindir. Tarixin bütün zamanlarında bu müqəddəs yerlər insanların mənəvi rahatlıq tapdıqları ziyarət yerləri olmuşdur. Nə saysız-hesabsız qanlı müharibələr, nə siyasi proseslər, nə ideoloji baxışlar, nə də repressiya və təqiblər həmin inamı söndürməyə gücü çatmamış, bu müqəddəs məkanları xalqın üzünə bağlaya bilməmişdir. Belə müqəddəs məkanlardan biri də Basqaldakı *Seyid Ümmülbanu türbəsidir.*

Tarixi-memarlıq baxımından diqqəti cəlb edən türbə yaxşı yonulmuş əhəngdaşından dairəvi şəkildə inşa edilmişdir. İçəridə məzar üzərində qoyulmuş başdaşı əhəngdaşından, yuxarı hissəsində çatmatağlı formada düzəldilmişdir. Abidənin üz tərəfində ərəbcə kufi ele-

mentli süls xəttilə yazılmış kitabə vardır. Kitabə mərmər lövhəyə (0,40 x 0,42 m) həkk olunmuşdur. Kitabənin mətnini və tərcüməsini AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı A.H.Qasımov nəşr etdirmişdir. Kitabənin mətnindən aydın olur ki, “Bu türbə mərhum, bağışlanmış seyyidə (xanım) Ümmülbəniyə məxsusdur. Allah ona rəhmət eləsin. Vəfatı tarixi 1310 il. Allah onu Məhəmməd, Fatimə, Həsən və Hüseynə bağışlasın və onlara salam olsun”. 1315-1897/1898-cı il” (48, 160-161).




Türbənin ərəb dilində kufi elementli süls xətti ilə yazılmış kitabəsi (XIX əsr)

Türbəyə giriş cənub istiqamətindəndir. Divarlarda tacşəkilli pəncərələr açılır. Basqalın yaşlı sakinlərinin sözlərinə görə, Seyid Ümmülbanu seyid nəslindən, kəramət göstərmiş övliya olmuşdur. Onun böyük nüfuzu, ümidsiz xəstələri belə sağalda bilməsi ilə bağlı çoxlu sayda maraqlı söz-söhbətlər mövcuddur. O, insanlara xeyirli, faydalı işlərlə məşğul olmağı təbliğ edir, onların xilaskarı və ümid yeri kimi çıxış edirdi. Miryavər Hüseynovun da qeyd etdiyi kimi, Seyid Ümmülbanu Basqalda peyğəmbər nəslinə mənsub, əlləri, nəfəsi, nəzəri, məsləhəti, sözü-söhbəti, şəfalı, əlli beş illik həyatı möcüzatlarla dolu, günahları əfv etməyi bacaran, səxavətli, səbirli bir seyid olub. Allaha məhəbbət, iman atəşi onu müqəddəslik dərəcəsinə gətirib çıxarmışdı. Onun etdiyi dualar həmişə müstəcəb olardı. Bu pak amallı qadının sayəsində nə qədər insan şər qüvvələrdən, bəlalardan, xəstəliklərdən uzaq olublar.

O, bütün Şirvan bölgəsində şəfaət sahibi kimi şöhrət qazanıbmış.

Camaat, el-oba 1898-ci ildə vəfat etmiş Seyid Ümmülbanunu – xalq arasında böyük hörmətə və nüfuza malik bu nurlu insanı Hacı Bədəl məscidinin həyətində dəfn etmiş, onun şərəfinə qəbri üzərində türbə ucaltmışlar. Həyatını müqəddəs əməllərə sərf etdiyi üçün, Seyid Ümmülbanunun türbəsi də o zamandan insanların inanc yerlərindən birinə çevrilmişdir. Aradan neçə müddət keçməsinə baxmayaraq, camaat bu müqəddəs Seyidi, onun xidmətlərini unutmur. Təsadüfi deyil ki, təkcə Basqaldan, İsmayıllıdan deyil, Azərbaycanın hər bir guşəsindən bu müqəddəs ocağı ziyarətə gəlirlər.

İndi artıq dünyasını dəyişmiş Basqalın qocaman sakinləri deyirdilər ki, Seyid Ümmülbanunun mədəni-maarif işlərinin inkişafında, Basqal ərazisində sosial problemlərin həll edilməsində də böyük əməyi olmuşdur. Bu nəslin nümayəndəsi olan Hacı Seyid Hüseyn, anası Kərbəlayı Seyid Fərrux və bacısı Seyid Ümmülbanu xanımla birlikdə Qoşabulaq məhəlləsində yaşayıblar. Görkəmli alim, dövlət xadimi, akademik Tofiq İsmayılovun atası Kazım İsmayılovun bu nəsillə çox yaxın qohumluğunun olduğu da deyilir.

### Pirlər

Qədim dövrlərdən etibarən çarəsiz, dərdli insanların, övladı olmayan qadınların müxtəlif xəstəliklərdən qurtulmaq istəyənlərin əsas ümid yeri, qurtuluş ünvanı *pirlər* olmuşdur. Tədqiqatlar sübut edir ki, vaxtilə Azərbaycanın elə bir kəndi-kəsəyi olmamışdır ki, orada *"Qorxu piri", "Nəzər piri", "Qırx piri"* və s. adlarla adlandırılan pirlərə və ya ziyarətgahlara rast gəlinməsin. Bu pirlərin bir çoxu insanların ibtidai inam və etiqadları ilə, bir qismi də İslam dini və onun müqəddəs şəxsiyyətləri ilə bağlıdır. Birincilərə ağac, daş, qaya, su hövzələri (bulaqlar, çaylar və s.), ikincilərə isə ilk növbədə müqəddəs imamların nəslindən-şəcərəsindən olan müqəddəslərin məzarları və ya türbələri daxildir.

Azərbaycandakı pirlərin bir çoxu AMEA-nın müxbir üzvü, professor

Məşədixanım Nemətova tərəfindən aparılmış uzunmüddətli tədqiqatların yekunu olan "Azərbaycanda pirlər" monoqrafiyasında geniş təhlil olunmuşdur. Lakin monoqrafiyada əsasən kitabəsi olan, yaranma tarixi, orada fəaliyyət göstərmiş böyük şəxsiyyətlərin – ruhanilərin, alimlərin, təriqət başçılarının adları, eləcə də xalqımızın mənəvi həyatında mövqeləri haqqında məlumat olan abidələrdən bəhs olunur.

Basqal torpağının və basqallıların mənəvi dünyasından danışarkən də haqqında müxtəlif əfsanələr (həm də həqiqətlər) dolaşan, insanların müxtəlif arzu-niyyətlərlə pənah apardığı pir və ziyarətgahları yaddan çıxarmaq olmaz. Xatırladaq ki, uzaq keçmişdə ətraf aləmi dərk etməyə çalışan insan ayrı-ayrı daş, ağac və bitkiləri fövqəltəbii qüdrətə malik hesab edərək ilahiləşdirmiş, çətin məqamlarda onların köməyinə ümid etmişdir. Azərbaycan ərazisi də tarixən belə ağac və bitkilərə sitayiş ocaqlarından biri olmuşdur (80, 97-98). Onlardan biri də Basqal qəsəbəsinin şimala doğru hissəsində, dağların qoynunda yerləşən və xalq arasında *«Göz piri»* adlanan ağac-pirdir. Basqal sakini, yaşı yüzü keçmiş mərhum Vəli oğlu Məmməd əminin söylədiyinə görə, vaxtilə gözləri zəif görənlər, müxtəlif göz xəstəliklərinə düçar olanlar əlac ümidi ilə bu zoğal ağacına pənah gətirərək dilək diləyirdilər. Zəvvarlar ağacın budaqlarına parça tikəsi bağlayar, qurban kəsər, bu müqəddəs ocağın torpağından götürüb gözlərinə sürtər və şəfa tapacaqlarına inanardılar. Deyilənə görə, elə pir də ziyarətə gələnlərdən kəramətini əsirgəməz, əməli-saleh adamları naümid qaytarmazdı. Buradan o qədər şəfa tapıb geri qayıdanlar olub ki...! Pirlərə qurban kəsdikdən, nəzir-niyazdan sonra dünyaya gələn uşağa Allahverdi, Pirverdi, Babaverdi və başqa adlar qoyulardı.

Basqalın ağsaqqal-ağbirçəklərinin söhbətlərindən məlum olur ki, arzu və niyyətləri hasil olan həmin adamlar bir daha pirə təşrif buyurar, ağacın yanında mərasim düzəldər, onun başına fırlanar, qurban kəsər, qol-budaqlarını isə dür-düyünlə bəzəyərdilər. Müalicəvi əhə-

miyyət kəsb edən bu cür pirlər demək olar ki, Azərbaycanın hər yerində mövcuddur.

Yazıçı Əbülhəsən Ələkbərzadənin "Dünya qopur" romanında belə bir maraqlı epizod vardır: "... Bu qəsəbənin qəribə bir adəti vardı. Hər hansı bir münasibətlə nəzir dedikləri qurbanı evdə yox, qəsəbənin yaxınlığındakı bütün nahiyədə məşhur olan "Övliya-pir" üstündə kəsərdilər... Heç bir nəziri olmasa da bəzən sahibkar, ya tacir hər hansı bir bəhanə ilə olur-olsun səfalı yaylaq yeri olan "Övliya-pir" üstünə qurban aparar, kəndin kasıblarını da ora dəvət edərdi. Burada yeyib-içər, qaynayıb-qarışardılar...". Professor Məşədixanım Nemətovanın fikrincə pir sözünün əvvəlinə əlavə edilən Övliya epitetinə görə. burada dəfn olunanın ruhani alim olub xalqına xidmət etdiyi üçün pir bu gün də ziyarət olunmaqdadır (59, 190).





Şıx Şirəki piri. XIX əsr

Məlumdur ki, Sovet hakimiyyəti illərində ateist təbliğatı fonunda müqəddəs ziyarətgahlara getmək yasaq olunsa da, basqallılar bu müqəddəs yerləri (ocaqları) unutmamış, gizli də olsa oranı ziyarət etmişlər. Həmin müqəddəs yerlərdən biri də Basqalla qonşu olan Kəlfərəc kəndi yaxınlığındakı meşədə yerləşən *Şıx Şirəki piri* də bölgədə məşhur olan belə ziyarətgahlardandır. Məlumatçılarımız bu ziyarətgahın

kəramətindən geniş bəhs etməklə bərabər, burada uyuyan müqəddəsin Baba dağındakı Övliya ilə qardaş olduğunu da söylədilər. Şıx Şirəki ziyarətgahına digər kənd və yaşayış məntəqələrinin əhalisi ilə bərabər basqallılar da tez-tez baş çəkirlər. Bir neçə il əvvəl ziyarətgah elə məhz basqallılar tərəfindən təmir edilərək zəvvarların istifadəsinə verilmişdir. Bura müxtəlif xəstəliklərdən əziyyət çəkənlər, niyyət, arzu və istəklərinin yerinə yetməsini arzulayanlar, dilək diləyənlər təşrif buyururlar. Ziyarətgahın yanında qurbanlar kəsir, nəzir qoyur və dualar edirlər. Ziyarətgahın səfalı yerdə yerləşməsi oranı həm də insanların istirahət guşələrindən birinə çevirmişdir.

Bundan başqa, Basqalətrafı ərazilərdə *Baba Əfəndi piri*, *Dəmrov piri* və *Seyid Bibi ocağı* deyilən ziyarətgahlar da vardır. Baba Əfəndi pirində ağır bir seyidin dəfn olduğunu deyirlər. Seyid bibi ocağında da müqəddəs bir övliya uyuyur. Deyilənə görə, insanlar hansı niyyətlə bu ocağa üz tutardılarsa, hasilə yetərdi. Dəmrov pirinin isə insanların qədim inancları, xalq təbabəti və ənənəvi müalicə üsulları ilə bağlılığı heç bir şübhə doğurmur.

**Basqal hamamı**

Azərbaycanda *hamam* cəmiyyətin özəyi sayılan ailə və onun məişəti ilə bağlı olub, əhalinin həyatında özünəməxsus yer tutur (20, 114). Məlumdur ki, hamam çimmək, pak olmaq, sanitariya-gigiyena yeri olmaqla yanaşı, eyni zamanda istirahət, söhbət, rahatlıq, görüş yeri, müalicəvi səciyyə daşıyan və mərasimlər məkanı olmuşdur. Memarlıq baxımından unikal kompozisiyaya malik Azərbaycan hamamları adətən istiliyin yaxşı saxlanması üçün yer səviyyəsindən müəyyən qədər dərinlikdə inşa edilirdi. Abşeronda Nardaran hamamı (1388), Bakıda Qasımbəy hamamı (XIV əsr), Hacı Qayıb hamamı (XV əsr), İçərişəhərdə Ağa Mikayıl hamamı (XIV əsr, indiki yaşıl aptek), Ordubadda

Darkənd hamamı (XV əsr), Gəncədə Çökək hamamı (XVII əsr), Naxçıvan şəhərində İsmayılxan hamamı (XVIII əsr), Şuşada "Merdinli" məhəlləsinin hamamı (XIX əsr), Qubada "Cuxur hamam" (XIX əsr), Şəkidə Təzə hamam (XIX əsr), Abdulxalıq hamamı (XIX əsr) və s. vaxtilə torpağımızın bəzəyi olan bu və digər hamamlar maddi mədəniyyətimizin ən dəyərli örnəkləridir.

Onlardan biri də Basqal hamamıdır. Təkcə qəsəbənin deyil, bölgənin ən qədim tikililərindən olan bu hamam XVI əsrdə Kələküçə məhəlləsində inşa edilmişdir. Deyirlər ki, onu Basqalda bir imkanlı sənətkar-tacir xeyriyyə məqsədilə tikdirib. Bu da ən vacib iş sayılıb ellərimizdə. Ulular deyəni "bu savab onun özünə də bəs edərdi, yeddi arxa dönəninə də". Şərq memarlıq üslubunda tikilmiş hamam bir-birinin içində olan iki salondan və yardımçı otaqlardan ibarətdir. Ümumi planda dördkünc formalıdır və üstü tağ bəndlərlə saxlanan 2 günbəzlə örtülmüşdür. Hamam tağları üzərində nəbati naxışları sütun elementlərinin dəqiq simmetriyası ilə xalq memarlıq folklorunun yüksək səviyyəsindən xəbər verir. Hamamın palçıq hörgüsü əhəng və yumurta sarısından ibarət məhluldan hazırlanmışdır.

Yaşlı insanların söylədiyinə görə, yaxın keçmişə qədər hamamın birinci soyunma-geyinmə otağının ortasında dairəvi soyuq su hovuzu fəvvarə vurardı, çimmə salonunun ortasında isə isti su hovuzu vardı. Daş döşəmə həmişə tər-təmiz olardı. Daşdan inşa olunmuş soyunub-geyinmə səkilərinə həsir salınardı. Müştərilər səkilərdən pilləkənlə düşüb, tağların arasından keçərək yuyunma otağına daxil olardılar. Girişdəki enli səki hamamçının yeri idi. Ağappaq divarlarda asqılar vurulurdu. Hamamçı lazım gəldikdə müştərilərə fitə, hamam ləvazimatları da verirdi.

Hamamda yuyunmaq üçün salonun ortasında böyük, sağ yanda iki, sol yanda da iki gözlü tağlı bölmələrdən ibarət xüsusi yerlər var. Sağ tərəfdə soyuq və isti sututarlar – xəzinələr yerləşirdi. Suyu

isitmək üçün odun ilə qızdırılan xüsusi yer olmuşdur. Keçmişdə xəzinəyə su dağdan çəkilmiş saxsı borularla gətirilərdi. Yuyunan adamlar isti suyu yuyunma otağına açılan hovuzdan, soyuq suyu isə digər borular vasitəsilə xəzinənin yanında yerləşdirilmiş otaqdan götürərdilər. Hamamın işlənmiş suları kanalizasiya sisteminə axıdılardı. Hamamın içərisi günbəz və tavanının mərkəzində açılmış xüsusi açırım və baca vasitəsilə işıqlandırılırdı.

Ağsaqqallar söyləyirlər ki, Basqal hamamında işləyənlərin arasında dəqiq iş bölgüsü vardı. Onlardan biri döşəkcə üstündə bardaş qurub qapının ağzında oturardı. Gələni gülə-gülə qarşılayar, gedəni gülə-gülə yola salardı, müştərilərə çay da paylayardı. Burada kisə çəkən, təmizlik, səliqə-sahman yaradan, oğurluq olmasın deyə qadınların boxçalarını güdən işçilər də vardı. Hamamın xidmətindən cüt günlər qadınlar, tək günlər kişilər istifadə edərdi. Hamamçının da hörmət-izzəti olub həmişə. Basqal hamamının isti və çimmək üçün əlverişli şəraitə malik olması səbəbindən müştərilərin sayı da çox idi.

Hamam bütün basqallıların rahatlıq tapdığı istirahət və sağlamlıq məkanlarından biri idi. Xüsusilə qadınlar üçün "hamam günü" sanki həyatlarının ən maraqlı günü olurdu. Həftədə bir dəfə tədarük görüb boxçalarını yığışdırıb, qızlarını da yanına götürərək hamama gedərdilər. Bu zaman onlar ən yaxşı paltarını geyinər, qızıllarını taxardılar. Hamamda onların paltar və qızıllarını saxlayan xüsusi qadın olardı. Qadınlar burada tanış-bilişləri ilə rastlaşar, söhbət edər, "dağı arana, aranı dağa daşıyardılar". Oğluna, qardaşına qız seçən kim, dərdini dağıdan kim, xırda-xuruş alver eləyən kim... Hamamda hətta uzanıb dincəlmək üçün taxtlar da var idi. Qohum-qonşu, tanışlar rastlaşanda şirin söhbət eləyər, bir-birlərinin başına su töküb ürək qızdırar, "həmişə təmizlikdə", – deyərdilər. Bu adət hamamda yaşlı adamlara hörmət və ehtiram əlaməti olaraq da icra edilərdi. Hamamdan gələnləri hörmət və izzətlə qarşılayıb, xüsusi diqqət yetirərdilər.




Basqal hamamı. XVI əsr

Etnoqrafik materialların təhlili göstərir ki, bayram və toy hamamları isə daha təmtəraqlı keçərdi. Hamı bu günlərdə təzə paltar geyməli idi. Hamam mərasimlərindən biri də zahının (yenicə doğmuş qadın) və körpənin qırxı çıxan gün çimizdirilməsi ayinidir. Buna "qırx tökmə" deyilir. Həmin gün erkən, daha doğrusu, dan qaranlığında təzə gəlinin qaynanası onu və körpəni gözlə görünən və görünməyən bədxah qüvvələrdən və pis nəzərdən xüsusi qayğıyla qorumaq məqsədilə hamama aparıb çilləsini (çillə ilahi sözündən olub qırx deməkdir) kəsirdilər. Hamamda 40 ovuq su bir qaba tökülür (el-obada "qırx suyu" adlanır) və bu su ana və körpənin başından axıdılırdı. Bununla da onlar qırxdan çıxmış olurdular. Basqal ağbirçəklərindən Şahab xala deyərdi ki, inanca görə qırxgünlükdən sonra uşağın yanaqlarına ocaq hisi çəkərdilər ki, göz dəyməsin. Yanaqlarını (üz-gözünü) pambıqla silərdilər ki, uşaq saç-saqqalı pambıq kimi ağaranadək yaşasın.

Basqal hamamı barədə qəsəbənin ağsaqqal ziyalısı Miryavər Hüseynovun yazdıqları da böyük maraq doğurur: "... 90-dan çox yaşı olan hamamçı Əliabbas kişi yaxşı havalarda kətil qoyub hamamın qabağında oturar, əlində təsbeh, qabağında pürrəng çay, dodağında

dua... soyuq havalarda içəridə oturar, qabağındakı manqalın közünü eşələyərdi. İçəridə yaşlı adamlar vardısa, hamama gəlmiş cavanlara məsləhət verərdi: "Gedin evə, filankəslər hamamdadır". Yaşlılara da uşaqlar hamamda olanda gözləməyi məsləhət görərdi. ... Hamamın lap tinində Məmmədsəlim kişinin çayxanası həmişə adamla dolub-boşalardı. Burada həmişə yüngül yeməklər: çərəz, meyvə, çay olardı. Hamamlananlar minnətdarlıq əlaməti olaraq mahnı da qoşmuşdular:

Ay bərəkallah, cin Ələbbas sənə,
Bu gün hamam ləzzət veribdir mənə".

Bir sözlə, özgə aləm, tayı-bərabəri olmayan, yayda sərin, qışda isə isti bir məkan olmuşdur Basqal hamamı. Son illərəcən işləyirdi, indi isə evlərdə fərdi hamamların geniş yer alması ilə yüzilliklərin yadigarı olan el hamamlarından əl-ayaq tamamilə yığışıb. Baş vermiş təbii fəlakətlər nəticəsində hamamın döşəməsində, tavanında və divarlarında iri çatların əmələ gəlməsi abidənin ciddi təmirə ehtiyacı olduğunu gündəmə gətirmişdir. Çünki "Azərbaycanın müxtəlif ərazilərində orta əsrlərdə mövcud olub indiyədək qalan hamamların məişətdə, maddi və mənəvi mədəniyyətdə yeri və mahiyyəti haqqında geniş təsəvvür yaradır və eyni zamanda, xalqımızın əsrlər boyu sağlam həyat tərzinin müəyyən edilməsində mühüm vasitə olmuşdur" (20, 135).

Onu da xatırladaq ki, bir sıra abidələrin, ictimai və məişət xarakterli tikililərin, eləcə də yaşı əsrlərlə ölçülən mülklərin inşaat quruluşunda Şirvan-Abşeron memarlıq məktəbi üçün səciyyəvi olan üslub xüsusiyyətləri özünü qabarıq şəkildə göstərir və bu abidələr bütün varlığı ilə nadir sənət nümunələridir.

**Çinar ağacı**

Maddi-mədəni dəyərlərimiz sırasında bir sıra təbiət abidələri vardır ki, onlardan da biri ağaclardır. Əsrləri adlayıb dövrümüzədək qalmış bu ağac abidələrinin əksəriyyəti insanlar tərəfindən müqəddəsləşdirilərək inam yeri, pir, ziyarətgah funksiyasını yerinə yetirirlər. Ağac pirləri içərisində daha geniş yayılanı isə *çinar ağaclarıdır*. Belə çinar ağaclarına Qarabağda, Ordubadda, Gəncəbasarda, Göyçayda, Ağdamda və digər yerlərdə rast gəlmək mümkündür ki, onlardan biri də Basqalda – Şeyx Məhəmməd məscidinin qarşısındakı meydanda ucalır. Keçmişdə çinarı daha çox məscidlərin, pirlərin həyətlərində əkərdilər. Deyilənə görə, bu ağac da XVI yüzillikdə məscid inşa edilərkən əkilib. Ona görə də bu qocaman çinar bir növ pir – ocaq sayılır. Azərbaycanlıların dini-mifoloji təfəkkür tarixində çinar ağacına müqəddəs, müalicəvi qüvvəyə malik, dilək ünvanı kimi böyük inam bəslənilmişdir. El-obada bununla bağlı müxtəlif deyimlər də formalaşmışdır: "Çinar kimi kölgəli olasan". Burada çinarın adı təsadüfən çəkilmir. Yəni ulularımız çinarın timsalında insanlara çoxlu qol-budaq, yəni övlad, onların xeyrini – kölgəsini görməyi arzulamışlar. Beləliklə, illərin, yüzillərin zəngin salnamələrini yaşadan, tarixin neçə-neçə hadisəsinə şahidlik edən bu əzəmətli çinar zaman keçdikcə müqəddəsləşmiş, möhtəşəm görünüşünə görə elin gözündə bir ucalıq, əyilməzlik rəmzinə çevrilmişdir. Onu kəsmək, oduncağını yandırmaq günah hesab edilir və düşünürlər ki, bunu edən adam zərər görə bilər.



Çinar ağacı. XVI əsr

500 ildən artıq yaşı olan bu ağacın gövdəsinin diametri 4 metrdən artıqdır. Yay

fəslinin ən qızmar günlərində insanlar çinarın gövdəsindəki koğuşda sərinləmiş, istirahət etmişlər. İllər öncə bu koğuşdan dəlləkxana, sonralar isə çayxana kimi də istifadə olunmuşdur.

Basqal sakini Hacı Əziz Mövlamov nəql edir ki, Novruz ərəfəsində – çərşənbə axşamlarında çinarın dibində şam yandırardılar. "Çinara da Novruz payı düşür" – deyərdilər. Odur ki, nənəmin xahişi ilə noğul, qənd, qovurğa və başqa şirnidən xonça düzəldib, ağacın kökləri üzərinə səpib üstünə də su tökərdik. Yenə də Basqal ağsaqqallarından aldığımız məlumatlara görə, keçmişdə ailə quran gənclər xoşbəxt gələcək və firavan həyat diləyi ilə çinar ağacını ziyarət edər, niyyət tutar, dilək diləyərdilər. Bu məqsədlə ağacın qol-budaqlarına əski parçaları bağlayar, nəzir verər, qurban kəsərdilər. İnamlara görə öz ucalığı, möhtəşəmliyi ilə səmaya doğru uzanan bu qüdrətli xan çinar ulu tanrı ilə insanlar arasında sanki müqəddəs bir vasitə, onların arzudiləklərini yaradana çatdıran xeyirxah bir qüvvədir.

Yeri gəlmişkən qeyd edək ki, ağaclarla bağlı inanclar (ağac kultu) türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mənəviyyatında dərin iz buraxmış, minillər boyu yaşadılaraq günümüzə qədər gəlib çıxmışdır. Azərbaycanlılar böyük həyati varlıq olan çinar ağacını tanrı, yaxud tanrıdan ayrılmış bir parça hesab edirlər. Basqaldakı çinar ağacı da ulu təbiətin biz nəsillərə yadigar qalmış ecazkar bir abidəsidir.

**Bulaqlar**

Təbiətin insanlara bəxş etdiyi sərvətlər, nemətlər içərisində *bulaqlar* da mühüm yer tutur. Ölkəmizin ərazisində suyunun dadı-tamı, keyfiyyəti və faydası ilə məşhur olan yüzlərlə şəfa bulaqları vardır: Turşsu, Xanqızı bulağı, Adıgözəl bulağı, Qoşabulaq, Ağbulaq, Pirbulaq, İstisu, Badamlı, Sirab, Kərəm bulağı, Heydər bulağı, Qızlar bulağı, Qaynama bulağı, Şirinbulaq, Qırxqız bulağı, Sarıbulaq, Südlübulaq, Novlubulaq, Göybulaq, Ballıbulaq, İsa bulağı, Ağa bulağı, Ceyran bulağı... O qədər çoxdur ki,

saymaqla qurtarmaz. Təbiətin nadir bəxşişlərindən, dağlarımızın şah damarlarından axıb gələn misilsiz, əvəzsiz müalicə və şəfa qaynaqlarıdır bu bulaqlar.

Yurd yerlərində, yol kənarlarında, insanların üz tutduğu təbiətin ən füsunkar guşələrində üzə çıxan bu bulaqlar ulularımızın xeyirxah əməllərinin məhsuludur. Suyu bir-birindən soyuq, bir birindən dadlı, tamlı, dupduru, hərəsi min dərdin dərmanıdır. Uzaq-uzaq mənzilləri qət edən və ürəyi yanan yolçuların qəlbinə sərinlik çiləyir, bu bulaqlar. Onlar da bu çeşməni açana, qurub-yaradan insanın ruhuna qəni-qəni rəhmət diləyirlər.

Yay aylarında yaxından-uzaqdan gələn qonaqlar bulaq başına yığışar, çadırlar, dəyələr yan-yana düzülərdi. Gəbələr salınar, ocaqlar yandırılar, samovarlar qoyular, süfrələr salınar, sazlı-sözlü məclislər qurulardı. Aşıqlar, şairlər söz deyər, bir-birindən gözəl musiqilər dinlənərdi. Gül yaylıqlı, güllü donlu qız-gəlinlərə əllərində güyüm, çiyinlərində səhəng hər bulaqda rast gəlmək olardı. Bulaq başında qız-gəlinin gülüş səsləri gəncləri yaxıb-yandırardı.

Bütün dövrlərdə bulaqlar ailələrin həsrətli görüşlərinin, qızların sir-söhbətlərinin, gəlinlərin arzu diləklərinin şahidi, sevib sevilənlərin görüş yeri, şadyanalıqların keçirildiyi bir məkan olmuşdur. Təsadüfi deyil ki, yüzillərlə yaşı olan folklor nümunələrimizdə – aşıq yaradıcılığında, analarımızın, nənələrimizin bayatılarında, əfsanə və rəvayətlərdə bulaqlar, çeşmələr, su mənbələri çox geniş vəsf olunmuşdur.

Basqal qəsəbəsinin ərazisi də bu cür nadir bulaqlarla zəngindir. Həm qəsəbənin daxilində, həm də qəsəbəətrafı yerlərdə çoxlu sayda diş göynədən, şirin sulu bulaqlar vardır ki, onları da düşünmədən bu qəsəbənin ən gözəl təbiət abidələri hesab etmək olar. Dağların döşündən süzülərək axan bu bulaqları heç şübhəsiz vaxtilə Basqal sakinləri çəkdirib yaşadıblar. Onlar bu nəcib əməlləri ilə indi də neçə-neçə yolçunu, bulaq başında dayananın alqışını qazanır, savab yiyəsi

olur, həm özlərinə, həm də nəsil-köklərinə əbədi rəhmət qazandırırlar. Təəssüflər olsun ki, bu bulaqları inşa edənlər haqqında konkret məlumat ala bilmədik. Bədəl bulağı (XIV əsr), Qoşabulaq (XVI əsr), Xarabiyan bulağı (XVII əsr), Hacı Çələbi bulağı (XVIII əsr), Micgohun bulağı (XIX əsr), Dambulu bulağı (XIX əsr), Hüseyn bulağı (XIX əsr), Bədo bulağı (XIX əsr), Əmrəki bulağı (XIX əsr), Çömçəbulaq (XIX əsr) və s. Bu bulaqlar buz kimi soyuq suyu ilə həm əhalinin ehtiyaclarını ödəyir, həm də meşə və çəmənliklərə, buranın təbiətinin nadir inciləri olan heyvan və quşlara da bir növ "xidmət göstərirlər".

Yuxarıda qeyd etdiyimiz kimi, keçmişdə Basqalda hər məhəllənin öz bulağı olmuşdur. Onlardan biri – *Qartapıl bulağı* dağın ətəyində, Basqalın girəcəyində – "Qələmlik" deyilən yerdən bir az aşağıdadır. Vaxtilə bura həm basqallıların, həm də gələn qonaqların ən çox istirahət etdikləri yer sayılırdı. Ətraf meşələr, yaşıllıqlar, seyrangahlar buraya istirahətə gələnlərin könlünü, zövqünü oxşayıb həmişə.

*Qoşabulaq* isə eyniadlı məhəllədə yerləşib, yan-yana iki gözdən ibarətdir. Yerli ağsaqqalların söhbətindən məlum olur ki, bulağın birindən içmək, çay dəmləmək üçün su götürürlər, digərindən isə xörək bişirmək üçün. Tərsinə etdikdə, dadı-tamı itir. XVI əsrdən yerli əhalinin tələbatını ödəyən bulaq axırıncı dəfə XIX əsrdə bərpa olunub və hal-hazıra qədər fəaliyyət göstərməkdədir. Qoşabulağın daş kitabəsində bunlar yazılıb: "Su ilə hər şeyi canlandırdıq" (əl-Ənbiya, 30). "O, cənnətlərdə iki axar bulaq vardır" (ər-Rəhman, 50) yenidən təmir oldu – 1321-ci il. *Bulağı tikdi və yazdı: Haqqızadə"*. Onu da qeyd edək ki, daş lövhə üzərindəki mətn Misirdə yaşayan həmyerlimiz, gənc alim-xəttat Seymur Nəsirov tərəfindən oxunmuş və tərcümə edilmişdir.

*Dambulu bulağı* Basqalın mərkəzindən süzülüb axır. Məlumatçılarımızın sözlərinə görə "Dambulu" türk mənşəli söz olub, "dam" və ya "damla" (damcı) söz tərkibi ilə "bul", yəni "bulmaq", "tapmaq" sözləri-

nin birləşməsindən əmələ gəlmişdir. Şübhəsiz ki, bu, "Dambulu"nun son və qəti izah variantı deyildir. Bu hidronimin daha geniş və dərin tədqiqata ehtiyacı vardır. Basqalda evlərinin altından keçən bu hörmə borulu su xətti ulu və yüksək səviyyəli məişət mədəniyyətimizdən xəbər verir.

Çox maraqlı yerdə yerləşən *İsa bulağı* əsil cənnəti xatırladır. Qəsəbənin ayağında yerləşən bu bulaq yolçuların, Basqala təşrif buyuran qonaqların susuzluqlarını yatırdıqları, sərinlədikləri və beləcə yayın qızmar istilərinə qalib gəldikləri bir məkandır.


Dambulu bulağı. XIX əsr


Bədo bulağı. XIX əsr

Elə burada kiçik bir haşiyə çıxmaq istəyirik. Basqal sakini Əliyev Sabir Dadaş oğlu babasından eşitdiyi maraqlı bir məqama toxundu: "Şirvan müqəddəs "Qurani-Kərim"də adı çəkilən Musa qayası, haqqında çoxlu rəvayətlərin olduğu "Həyat bulağı" və ya "Dirilik suyu" ilə daha çox məşhurdur. Əgər Xıdır (Xızır) peyğəmbəri Musa qayası, ya da Xıdırzindəni Beşbarmaq dağı ilə bağlamaq mümkünsə, "dirilik suyu" (şəfa bulağı) elə Basqaldadır. Çünki Basqal əsil cənnəti xatırladır. Bu barədə T.Cəfərlinin "Bir əsr, bir nəsil" kitabında da məlumat verilir.

Xatırladaq ki, "Dirilik suyu" ilə bağlı el arasında neçə-neçə rəvayət, əfsanə dolaşmaqdadır ki, onlardan da biri belədir: "... Dədə Qorqud yurdunun əfsanəvi qəhrəmanı neçə gün, neçə gecə döyüşür, axırda al-qan içində taqətdən düşür. Vətən uğrunda canını qurban vermiş qəhrəman artıq can üstədir. Elə bu vaxt o, ani olaraq gözlərini açıb ətrafa nəzər salır. Göz yaşı kimi dupduru, çağlayan bulağı görür. Ciyərinin yanğısını son dəfə söndürmək və gözlərini əbədi yummaq istəyir. Sürünə-sürünə bulağa yaxınlaşır və dodaqlarını onun gözünə dirəyir. Sudan doyunca içir və yuxuya gedir. Neçə gündən sonra ayılır ki, sapsağlamdır. "dirilik suyu" elin igidini ölümdən xilas etmişdir".



Bulaq



Hacı Həbib bulağı

Basqalda əsrlər boyu yaşayan el adətinə görə, hər məhəllənin sakinləri öz bulağını, çeşməsini səliqəli, sahmanlı saxlamalıdır. Bulaqların tutulmuş gözünü açıb təmizləyir, su yolunu genəldir, yan-yörəsini abadlaşdırır, bərpa işləri aparır, zümrüd bulaqların başında axur hörür və başqa bu kimi xeyirxah işlər görürlər. Çünki su müqəddəsdir, su paklıq, saflıq, təmizlik nişanəsidir. Harada su varsa, deməli orada həyat var və çörək kimi suyun da qədrini bilmək lazımdır. Ulularımızdan yadigar olan bir müdrik kəlamda deyildiyi kimi, "Qədri bilinməyən bu-

laq yolunu azar". Ona görə basqallılar da ulu tanrının bu əvəzsiz neməti və ulu babaların, xeyirxah adamların yadigarı olan büllur çeşmələri, şır-şır bulaqları hər zaman göz bəbəyi kimi qoruyaraq sonrakı nəsillər üçün yaşadırlar.

İsmayıllı rayonu İcra Hakimiyyətinin Basqal qəsəbəsi üzrə nümayəndəsi Novruz müəllimin dediyinə görə, ərazidə kiminsə xatirəsini əbədiləşdirmək, əhalinin içməli suya olan tələbatını ödəmək məqsədilə köhnə kişilər öz hesablarına, yaxud qəsəbə sakinlərinin birgə əməyi ilə düzəltdikləri neçə-neçə bulaq xeyirxahlıq rəmzi kimi hələ də yaşamaqdadır. Bizlər bu bulağı çəkdirməklə böyük ürəkli ağsaqqalların, ata-anaların ruhuna, xatirələrinə baş əydiyimizi bildirmişik. Həm də istəmişik ki, qədim və gözəl adətlərimiz unudulmasın, insanlar bir-birinə duaçı olsunlar.

**Bayramlar. Novruz bayramı**

Xalq bayramları, adət-ənənələr, elm, din və dini etiqadlar, inanclar, alqışlar, qarğışlar, ədəbiyyat və incəsənət, şifahi xalq yaradıcılığı, qonaqpərvərlik, oyun və əyləncələr, xalq təbabəti və s. xalqın mənəvi dünyasını, onun mənəvi mədəniyyətini təşkil edir. Tarixin ayrı-ayrı dövrlərinin yadigarı olan bu milli sərvətlərdə xalqımızın tarixi, təsərrüfat və məişət həyatı, yaşayış səviyyəsi, qayda-qanunları, düşüncə tərzi və etik təsəvvürləri əksini tapmışdır ki, onlar milli mədəniyyət tariximizin daha da zənginləşməsinə böyük fayda verə bilər. Bu sırada xalq bayramlarının özünəməxsus yeri vardır. Sosial-mədəni həyatımızın ayrılmaz tərkib hissəsini təşkil edən xalq bayramları qədim və çox zəngin tarixə malikdir. Əslində xalqımızın gündəlik məişətini müəyyənləşdirən bu bayramların ən kütləvisi çoxçeşidli mərasimləri, ayinləri, nəğmələri, müxtəlif məzmunlu əyləncələri, tamaşa-oyunları ilə hamı tərəfindən sevilən *Novruz bayramıdır.*



Novruz şənliyi

İnsanların təbiətə və təbiət hadisələrinə münasibəti ilə sıx bağlı olan bu bayram əsasən, əkinçilər və maldarlar tərəfindən qeyd olunmuşdur. Alimlərin uzunmüddətli araşdırmaları göstərir ki, ibtidai cəmiyyətin iqtisadi əsasını təşkil etmiş əkinçilik və maldarlıq Yaxın Şərq xalqlarının, eyni zamanda Azərbaycan xalqının təsərrüfat həyatında mühüm yer tutmuşdur. Belə ki, qışın başa çatması ilə əkinçi babalarımız əkin sahələrinə çıxmış, həyatın mənbəyi sayılan torpağa əyilmiş və onun qayğısını-nazını çəkmişlər. Xalq təqvimində bu müddətə əkinçi ilə torpağın bir-birinə ünsiyyət bağladığı vaxt deyərlər. Elə bu səbəbdən də ömrünü-gününü torpağa bağlayan əcdadlarımız yazın hər gəlişini, həyatın yeniləşməsini səbirsizliklə gözləmiş, çalıb-oynamış, şadlıq etmiş və onu bayram kimi qarşılamışlar. Bu xalq bayramı eldə-obada Novruz bayramı adı ilə tanınır. Bütün tarixi dövrlərdə, ictimai-siyasi quruluşlarda Novruzun gəlişi şərəfinə təntənələr qurulmuş, müxtəlif mərasimlər, ayinlər, oyun və əyləncələr icra edilmişdir. Bütün bunlar Azərbaycanın başqa bölgələrində olduğu kimi Basqalda da

lap çoxdan unudulmaz bir ənənə şəklini almışdır.

Doğrudur, ayrı-ayrı dövrlərdə bu bayramı xalqın yaddaşından silməyə, köhnə fikir və təxəyyülün məhsulu kimi gözdən salmağa cəhdlər göstərilib. Sovet hakimiyyəti illərində digər milli mənəvi dəyərlərimiz kimi Novruz bayramı da təqiblərə məruz qalmış və keçirilməsi qadağan edilmişdi. Basqallılar da həmin ağır illəri çox yaxşı xatırlayırlar. Məlumatçımızın söylədiyi kimi, hətta iş o yerə gəlib çatmışdı ki, bayram günlərində evlərə soxulub bayram süfrəsi açmağa belə qoymurdular. Lakin bütün bu təqiblərə və qadağalara baxmayaraq, insanlar həmin bayramı çox təmtəraqlı keçirir, ulularımızdan bizə gəlib çatan mənəvi dəyərlərimizi yaşatmaqdan çəkinmirdilər. Bir ay öncədən bayrama hazırlıq işləri başlanır və bu hazırlıqlar Novruza qədər yekunlaşırdı: qəsəbənin hər bucağında əhəmiyyətli işlər görülür, küçələrdə, həyətlərdə abadlıq işləri aparılır, yollar təmizlənir, uçuq-sökük yerlər təmir olunurdu. Ev-eşik silinib-süpürülür, əhənglənib ağardılır, hər yerdə səliqə-sahman yaradılırdı. El-obada buna "evatdı" deyirdilər. Qız-gəlinlər evlərə döşənmiş xalça-palazı yığışdırır, açıq havaya çıxarır, iplərə, barılara sərib toz-torpağını çırpır, günə verirdilər. Bu müddətdə əriştə kəsilib qurudulur. Keçmişdə Novruzu




Novruz dekorasiyası

əriştə aşı ilə qeyd etmək adət şəklini almışdı.

Bayram ərəfəsində bərəkət nişanəsi olan taxıl – səməni göyərdilməsi ən gözəl Novruz adətlərindəndir. Adətən, bu məqsədlə bütün evlərdə buğda, arpa, mərci, noxud və digər dənli bitki məhsullarını islağa qoyub cücərdəndən sonra məcməyi, sini, yaxud boşqaba barmaq qalınlığında sərir (üstü dəsmal və ya tənziflə örtülür), üzərinə su çiləməklə cücərdilirdi. Yazın gəlməsi, torpağın oyanması, təbiətin canlanması, yaşıllıq rəmzi sayılan səməni Novruz süfrəsində ən görkəmli yeri tuturdu. Basqalda qohum-qonşular bir-birinə səməni payı yollayır. Təzə-tər səməninin şərəfinə alqışlar söyləyir, bahar mahnıları oxunurdu:

Səməni, ay səməni,
Sən gələndə yaz olur.
Saz olur, avaz olur.
Səməni saxla məni.
Səməni, can səməni,
Göyərdərəm mən səni...

Ümumiyyətlə, Azərbaycanda qışın bitməsi, yazın başlanması – Novruzun gəlməsi ilə bağlı zəngin məzmunlu mərasim və ayinlərin, oyun və əyləncələrin, meydan tamaşalarının sayı çoxdur. Novruz çərşənbələrinin hər birində Basqalın mərkəzi meydanında tonqallar qalanır, fişənglər atılır, müxtəlif məzmunlu oyun və tamaşalar göstərilir, nəğmələr oxunur, xoruz döyüşdürülür, it boğuşdurulur, məzhəkə oyunları başlanır.

Oyun-əyləncələrdən ən maraqlısı yumurta döyüşdürməkdir. Yumurta döyüşdürmədə həm çiy, həm də ala-bəzək rənglərlə boyanmış bişmiş yumurtadan istifadə olunur. Lakin əvvəlcə tərəflərin razılığı ilə yumurtalar dəyişdirilərək dişə vurulub bərk-boşluğu yoxlanılır. Bu, "yumurta dadma" adlanır. Bilinəndə ki, döyüşdürülən yumurtalardan biri digərinkindən bərkdir, boş olan yumurtanın sahibi ona: əy, vu-

rum, – deyir. "Əy, vurum" yumurtanın sivri tərəfindən azca aşağı nişan qoymaq deməkdir. Bu gün də sevilə-sevilə yaşayan həmin adət əyləncəli bir səhnəyə çevrilir:

Daş yumurtam,
Daş, daş...
Baş yumurtam,
Baş, baş...
Hacı dayını
Yandırdım.
Bir səbətlik
Yumurtasını sındırdım.
Daş yumurtam,
Daş, daş...

Kim daha çox yumurta sındırırsa, o da sınıqları yır-yığış eləyib, oyunun qalibi kimi sevinir.

Keşmişdə Novruz bayramında yumurtadan fal vasitəsi – niyyətin qabaqcadan xəbər verilməsi ayini kimi də istifadə edirdilər. Bunun üçün yumurtanı yük dolabının altına, taxça-rəfin əl çatmayan küncünə yerləşdirir, yanına da qırmızı və qara rəngli boyalar qoyaraq niyyət tutub yatırdılar. Sabahısı gün sübh tezdən durub baxırdılar: əgər yumurtada təsadüfən qırmızı boyalı xətlər, işarələr varsa, falın uğurlu olacağına, istək və niyyətin baş tutacağına inanırdılar.

Novruzda hər evdə, ailədə, məhəllədə bu əziz günlər böyük şənliklərlə qeyd edilir, bununla da qarşıdan gələn təzə ili bolluq, firavanlıq, əmin-amanlıq və sağlamlıq ili kimi görməyi arzulayırdılar. İlaxır çərşənbənin səhərisi arvad-uşaq bulaq üstünə gedib, çərşənbə suyundan əl-üzünü yuyur, bir-birinin üstünə su çiləyirlər ki, yeni il onlara uğur və xoşbəxtlik gətirsin. Sonra təzə sudan gətirib evə, həyət-bağçaya, qapı-pəncərəyə, təndirə səpirdilər ki aydınlıq olsun,

həm də deyirlər belədə il ruzili olar, bar-bərəkət artar. Basqalda deyirdilər: "suyu murdarlamaq günahdır, quruyar".

Bulaqlardan danışarkən, bir maraqlı məlumatı yada salmamaq olmaz. Mənbələrin məlumatına görə, Basqal qəsəbəsindən bir qədər aralıda, Şamaxı şəhərinə gedən yolda xalq arasında *"Novruz bulağı"* deyilən bir bulaq varmış. Bu bulağın suyunun mütəmadi olaraq axmasına baxmayaraq, inanclara görə, ilk dəfə məhz Novruz bayramında – baharın ilk günü insanlara görünmüşdür. Odur ki, bulağın suyu müqəddəs, müalicəvi əhəmiyyətli sayılmış, ondan müxtəlif xəstəliklərə qarşı istifadə edilmişdir. Novruz günündə təkcə Basqalın deyil, digər kənd və qəsəbələrin sakinləri də elliklə "Novruz bulağı"na üz tutar, onun suyunu daşıyıb evlərə gətirərdilər (94 23).

Basqalda olarkən bu məlumatı dəqiqləşdirməyə çalışdıq. Öyrəndik ki, sözgedən Novruz bulağı vaxtilə Kələküçə məhəlləsində, Qalabaşının ətəyindəki qaya daşlarının arasından süzülən bulaq Novruza bir ay qalmış və Novruzdan bir ay sonraya qədər fasiləsiz axar, sonra isə quruyarmış. Novruz bayramı günlərində basqallılar və qonşu kəndin adamları bu bulağın suyundan daşıyıb evlərə gətirirdilər. Təəssüflər olsun ki, neçə illərdir ki, Novruz bulağı çağlamır. Sakinlərin sözlərinə görə, bəlkə də diqqətsizlikdən, qayğısızlıqdan "küsüb gedib".

Hazırda da Azərbaycanın digər bölgələrində olduğu kimi, Basqalda da Novruz bayramı axşamında uca bir yerdə tonqal yandırır, şöləsi qəsəbəni nura qərq edir. Uşaqlar, cavanlar Qalabaşı məhəlləsinə qalxır, atəşfəşanlıq edir, tonqalın üstündən hoppanmaqla köhnə ilin ağırlığından çıxır, "ağrım-uğrum üstümdən", "azarım-bezarım burda qalsın", – deyirlər. Deyilənə görə, Qalabaşıda qalanan əzəmətli tonqalın şəfəqlərini nəinki basqallılar, hətta qonşu rayonların sakinləri də seyr edə bilirlər.



Novruz şənliyi



Bayram tonqalı

Yeri gəlmişkən onu da xatırladaq ki, Novruz tonqallarının içərisinə üzərriklə bərabər, Basqalda "cırt-pırt" adlandırılan ardıc kolunun tikanlı budaqlarından da atılırdı. İnanclara görə, "cırt-pırt"ın tonqalda yanması bədnəzəri qovur, insanları şərdən, pis gözdən mühafizə edir. Tonqalın külündən bağ-bağçalarda ağacların dibinə səpirlər ki, məhsulu bol olsun. Novruz bayramında küsülülər barışar, bir-birlərinə bayram payı göndərib kin-küdurəti ürəklərdən tullayar, giley-güzara son qoyarlar. Novruzda küsüşənlər barışmasa, inama görə, bu küskünlük yeddi il davam edər. Bu əziz gündə savaşmaq, yalan danışmaq, qeybət eləmək pis əlamət hesab edilir. Cavanlar, uşaqlar məşəlləri yandırıb qaranlığı işıqlandıra-işıqlandıra papaqlarını həyət qapısından içəri atır, ya da qapı ağzına qoyub, qapını döyməklə evdəkilərdən bayram payı alırlar. Ev sahibi papağın içinə şəkərbura, qoğal, qırmızı yumurta, ləbləbi, qovurğa, qoz, fındıq, kişmiş, qax və s. çərəzlər qoyur. Bəzən niyyətləri hasil olan nənələr, analar, gəlinlər papağa bir cüt qotazlı corab, əl dəsmalı, ətirli sabun və yaxud başqa şeylər qoyur. Qapı açılan kimi, uşaqlardan biri qapıya qaçır, papağı götürüb tonqalın kənarına gətirirdi.

Keçmişdə "Qulağa getmə" ("Qulaq falı" da adlanır) əyləncəsi də

geniş yayılmışdı. Bu adət cavan oğlan və qızların arzu və niyyətlərini, bəxtlərini sınamaq məqsədi güdmüş, yeni ildə pusduğu evdən xoş sözlər eşitmək mənasını daşımışdır. Adətə görə, qulağa gedən şəxs pusduğu evdən könül açan xoş bir söz eşitsəydi, şad olacaq, niyyəti yerinə yetəcəkdi. Odur ki, həmin axşam həmişə xoş, könül açan, sevinc bəxş edən sözlər danışılır, ibrətamiz söhbətlər, ağbirçək-ağsaqqal öyüd-nəsihəti eşidilirdi.

Adətə görə, bayram axşamı nişanlı qızların adına oğlan evindən bayram sovqatı gətirilir. Al-əlvan geyinmiş qadınlar, qız-gəlinlər bu məhəllədən o biri məhəlləyə üstü allı-güllü, saçaqlı tirmə şalla örtülü xonçalar aparırlar, boxçalar yan-yana düzülür, birinin içərisinə bəy oğlanın qız-gəlin üçün tikdirdiyi paltar dəsti, ipək parça, qırmızı kələ-ğayı, müxtəlif bayram yeməkləri və s. qoyurlar.



Novruz xonçası

El bayram süfrəsi başına toplaşır, dünyada nə ki ağız şirin eliyən naz-nemətlər (qoğal, paxlava, şəkərbura, badambura, şəkərçörəyi, bamiyə, qurabiyə, fəsəli, qozlu-fındıqlı halva, noğul, nabat və s.) var süfrəyə qoyulur, çərəzli (püstə, badam, qoz, fındıq ləpəsi, kişmiş, armud, alma qaxı və s.) xonçalar, rəngbərəng yumurtalar düzülür, Novruz bayramının ən əziz yeməklərindən hesab edilən aş qazanının ağzı açılır... Ağbirçək nənələrin tapşırmasındadır, Novruzda fəsəli, qoğal, kömbə və digər şirin çörək bişirmək gərəkdi ki, ocaqdan xeyir-bərəkət ətri gəlsin, güzəran şirinlik üstündə binə tutsun. Başqa bir inanca görə kənarda yaşayan insanlar da bayram günü doğma ocağa cəm ol-

malıydı. Hesab edirdilər ki, bu bayramda el-obanı, dost-tanışı, valideynlərini yada salmayanda, onların görüşünə gəlməyəndə araya yeddi il ayrılıq düşər. İmkanlı adamlar imkansız ailələrin evlərini bir-bir dolanır, ehtiyacı olanlara əl tutulur, bayram sovqatı göndərilir. Deyilənə görə, Novruzda verilən bayram payı köməkdən, dəstəkdən başqa, həm də pay verilən evə, ocağa bolluq, firavanlıq arzulamaqdır.

Basqalda belə bir bayram adəti də diqqəti cəlb edir: əl ilə rəngli yun və ya ipək saplardan toxunmuş xonça cürbəcür şirniyyatlar və konfetlərlə bəzədilərək evin tavanından asılır. Təbrikə, bayramlaşmağa gələnlər həmin şirniyyatdan götürüb bir-birinə gözəl günlər, şirin həyat arzulayırlar.

Bayram günündə uşaqlı-böyüklü qəsəbənin baş meydanına yığılır və el şənliyi burada davam etdirilir. Aşıqlara ayaq verilir, el havası çalınır, qanlar qaynayır, sümüklər oynayır. Basqal cavanları öz məharətlərini göstərir, qurşaq tutur, pəhləvanlar, daş qaldıranlar məharətlərini nümayiş etdirirlər. Həzin musiqi sədaları altında şux baxışlı, lalə çöhrəli, başları ağ, qırmızı kəlağayılı gözəllər qol qaldırıb süzürlər. Yaşlıların alqışı, xeyir-duası səslənir. Müxtəlif oyun və əyləncələrin səs-küyü düz-dünyanı başına götürür. “Papaqaldıqaç”,



Novruz süfrəsi

″Bənövşə”, ″Dirədoymə”, ″Şumaqədər”, ″Gizlənqaç” və s. uşaqlar və yeniyetmələrin ən çox oynadıqları oyunlardır.

Ağaclardan yelləncək asılır və uşaqlar, cavanlar bir-bir, iki-iki yelləncəklərə qalxıb yellənirlər ki, çillədə qalmasınlar. Ətrafdakılar isə əl çalır, şənlənir, əlindəki çubuqla yüngülcə yellənən qızın ayağına vurub oxuyurdular:

Örpəyi çəhrayı qız,
Nişanluvun adın de.
Saçları xurmayı qız,
Nişanluvun adın de.
Qaşları sürməli qız,
Nişanluvun adın de.
Ha yellənə-yellənə,
Nişanluvun adın de.
Yaylığı yellənən qız,
Nişanluvun adın de.
Bura qonaq gələn qız,
Nişanluvun adın de.
Ha yellənə-yellənə,
Nişanluvun adın de.

Keçmişdə basqallılar Novruz günündən etibarən qırx gün müddətində hər həftə cümə günləri ailəvi, qohum-əqrəba ilə birlikdə Gözəldərə yaylağına, Əmrəkiyə, dağ döşünə, meşələrə, çəmənliklərə gəzintiyə çıxırdılar ki, bu da “həftə seyri” adlanırdı. “Həftə seyri”ndə əyləncələr təşkil edir, şənliklər keçirir, çalıb-oxuyur, rəqs edir, yallı gedir, od üstündən tullanır, müxtəlif oyun-tamaşalar icra edirdilər. Burada süfrə açar, üstünə gözəl təamlar, mer-meyvə düzərdilər. Samovar qaynadan, kabab bişirən və nimçələrə aş çəkənlər sanki bir-biri ilə

bəhsə girərdi. Ocaqlar üstündəki qazanlarda bişməkdə olan xörəklərin ətri hər tərəfi bürüyərdi.

Bu əziz bayram günlərində basqallılar qohum-əqrəbasının qəbri üstünə gedib Yasin oxutdururlar. Bundan sonra bir-birinin görüşünə gedib, təbrik edir, el alqışlarına üz tuturlar: – "Bayramınız mübarək, neçə-neçə belə bayramlara çatasınız!" "Ömrünüz-gününüz bahar ətirli olsun. Üzünüzə xeyirli, nurlu sabahlar açılsın".

İli tamam olmayan ölənlərin yaxın adamları üçünsə Novruz bayramı *"qara bayram"* sayılır. Bu zaman yaslılar yasdan çıxmaq üçün qəbiristanlığa gedir, ölənlərin qəbirləri üstə səməni, şam, şirniyyat xonçası aparılır. Bu da el arasında *"yasdançıxma"* adlanır.

**Qurban bayramı**

Azərbaycanlılar arasında dərin kök salmış qədim və ümumxalq bayramlarının mühüm hissəsini islamla bağlı bayramlar təşkil edir. Bütün müsəlmanların – azərbaycanlıların, eyni zamanda basqallıların həyat və məişətinə daxil olan *Qurban, və Orucluq bayramları* da əziz bayramlar kimi lap qədim zamanlardan qeyd edilir. XXI əsrin əvvəlində cəmiyyətdə baş verən köklü dəyişikliklər nəticəsində basqallı cavan və orta nəsil də təmtəraqla Həcc ziyarətinə gedirlər, namaz qılır, oruc tutur, qurban kəsir, bayramları böyük sevinclə qarşılayır. Hazırda Qurban bayramı da, Orucluq bayramı da əsl ümumxalq bayramları sırasına daxil olmuş, bayram günləri qeyri-iş günü elan edilmişdir.

*Qurban bayramı* müsəlmanların hicri-qəməri təqvimi ilə 12-ci ayda – zülhiccə ayının 10-da başlanır və bir ay müddətində davam edir. Qurban və Orucluq bayramları ay – qəməri təqviminə əsasən keçirildiyindən, hər il 10-12 gün geri çəkilir və beləliklə, bütün fəsilləri, ayları dolaşır. Zülhiccə, adından da göründüyü kimi, Həcc ayıdır. Qurbankəsmə isə Həcc ziyarətlərinə daxil edilmişdir.

Məlumat üçün qeyd edək ki, İslamda Qurban bayramı İbrahim

peyğəmbərin adı ilə bağlıdır. Qurani-Kərimdən məlum olur ki, o, Allaha olan sədaqətini sübut etmək üçün oğlu İsmayılı qurban vermək istəyir; bu zaman Allah Cəbrayıl vasitəsilə iki qoç göndərərək oğlunun yerinə onları kəsməyi İbrahimə əmr edir. Məhz buna görə Qurban bayramına "İsmayıl qurbanı", yaxud "İsmayıl bayramı" da deyilir. İslam dininin bu tarixi ayinə mütərəqqi xidməti ondan ibarətdir ki, onu ümumxalq müsəlman bayramı səviyyəsinə qaldırmışdır. Lakin Qurban kəsərkən əsas məqsəd qan tökmək və ya ət yemək deyildir. Məqsəd, qurban kəsərkən Həcc ibadəti sayəsində müsəlmanın şeytana və öz nəfsinə qalib gələrək onları öldürməsi və cəhənnəm əzabından xilas olmasıdır. Qurban bayramı günü imkanı olan hər bir müsəlman qurban kəsməlidir. Ənənəyə görə, qurbanlıq qoyun, keçi, dana və dəvə ola bilər.



Qurbanlıq

Qurbanlıq heyvanın kəsildiyi bu bayram Basqalda da geniş qeyd olunur. Topladığımız etnoqrafik materiallardan məlum olur ki, hər məhəllə ayrılıqda yığılıb qurbanlıq iribuynuzlu heyvan alır, onu xarici əlamətlərinə görə başqalarından fərqləndirir, boğazından göz muncuğu, ipdən hörülmüş qotaz asır, qoçun və ya qoyunun belinin ortasında qırxım vaxtı bir cəngə yun saxlayır (buna *kəkil* deyirlər), belinə xına yaxır, rəng vururlar. Fərdi qaydada öz həyətində qurban kəsib paylayan adamlar da olurdu və bu ənənə hazırda da yaşamaqdadır...

Qurban üçün heyvanın əvvəlcədən bəslənilməsini və bəzədilməsi-

ni məşhur teatr xadimi H. Sarabski öz xatirələrində xüsusi vurğulayır: "Qurban ayına bir-iki həftə qalmış qoyun alıb həyətə buraxırdılar. Bayram günü bəslənib yemlənmiş, kökəlmiş qoyunu həyətə çıxarıb, gözünə sürmə çəkər, sulayıb ağzına bir parça qənd verərdilər. Qurban duasını oxuduqdan sonra qoyunu kəsərdilər" (79, 84). Adətə görə, kəsiləcək heyvanın sağlam, gümrah və əzaları təndürüst olmasına xüsusi fikir verirlər. Kor, şikəst, xəstə, üstündə eybi olan (axtalanmış, buynuzu sınıq, quyruğu kəsik, dişi yox, arıq) heyvanı qurban kəsmək olmaz. Xalq arasında qara qoyunun əti daha yüksək qiymətləndirildiyindən, çox vaxt qurbanlıq üçün kəsiləcək erkəyin qara və çəkil (ayaqlarında və başında ağ ləkələr) olmasına xüsusi diqqət verilir.

Qurbanın kəsilməsi zamanı müəyyən qaydalara əməl olunur. Heyvan kəsilərkən bədənində qan qalmamalı, axıb təmizlənməlidir. Tökülən qanın altına bir qab tutur, həmin qab sonra torpağa basdırılır. Qurbanlıq heyvan üzü qibləyə tərəf kəsilir. Bu isə xalqın yaradana, ulu Tanrıya böyük məhəbbətindən, səadətindən irəli gəlir. Üzü qibləyə kəsilməmiş heyvanın əti haram hesab olunur. Heyvan kəsildikdən sonra qurbanlıq ət – "Qurban tikəsi" adətə görə yeddi qapıya paylanır ki, imkanı olmayanlar da o günü bir tikə ət yesinlər. Belə pay, adətən, daha çox fəqir-füqəraya, yoxsullara, əlsiz-ayaqsızlara verilir. Qurbanlıq ətdən qismən də ailənin bayram süfrəsi üçün işlədirlər.

Xalq etiqadına görə, qurbanlıq heyvanın sümüklərini atmaz, murdarlamaq olmaz, onları torpağa basdırırlar. Adətə görə, Basqalda da Qurban bayramında nişanlı qızların adına oğlan evindən alnına, ayaqlarına xına (həna) qoyulmuş, boynuna qırmızı kəlağayı, yaxud parça bağlanmış qurbanlıq qoyun gedər, sevinc payı yola salınar.

Qurban bayramı gününü xeyir və bərəkət günü, səadət, dinclik, sevinc və şadlıq bayramı kimi qeyd edilir. Bayram günü evlər təmizlənir, bəzədilir, dadlı, tamlı yeməklər bişirilir, ən gözəl paltarlar geyilir,

dostlar, qohum-əqrəba bir-birinin evinə qonaq gedirlər. Bu müqəddəs bayram günlərində bir-birini təbrik edirlər, alqışlara üz tuturlar: "Bayramınız mübarək! Allah qurbanınızı qəbul etsin!", – deyirlər. Bayram mərasiminə xüsusi ibadət, əzizlərin məzarlarının ziyarət edilməsi də daxildir.

**Orucluq bayramı**

Basqalda Qurban bayramı ilə yanaşı Orucluq bayramı da böyük təmtəraqla keçirilir. İslam dininə görə, orucluq müsəlmanların əməl etmələri vacib sayılan beş şərtdən ikincisidir. Orucluq hər il hicri-qəməri təqviminin 9-cu ayı olan Ramazan ayında saxlanılır. Bu müddətdə yemək-içməyə gündə iki dəfə – gün çıxmamış (obaşdanlıq) və şər qarışan vaxt (iftar açma) icazə verilir. Hər bir oruc tutan adam iftarını açmazdan əvvəl namaz qılır, dua oxuyur və yalnız sonra əlini yeməyə uzadır.

Oruc tutmaq bütün müsəlmanlar üçün vacib sayılmaqla burada istisnalara da yol verilir. Xəstələr, yaşlı adamlar, uşaqlar, səfərə çıxanlar, hamilə və südəmər körpəsi olan qadınlar, taqətsiz qocalar oruc tutmaqdan azad olunurlar. Lakin "Qurani-Kərim" buyurur ki, "sizdən xəstə və səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar" (əl-Bəqərə, 184).



Orucluq bayramı süfrəsi

Xalq arasında Ramazan ayı təmizlik, mehribanlıq, halallıq, səmimiyət ayı kimi məşhurdur. Ramazan həm də xeyirxahlıq, alicənablıq ayıdır. Vaxtilə Basqalda Ramazanın 15-ci gününü

xüsusi təntənə ilə qeyd edərdilər. Cavan qız-gəlinlər təzə paltar geyinər, uşaqlar dəstə-dəstə qapılara gedib torba atar, orucluq payı yığardılar, oyun və əyləncələr keçirərdilər. Onların biri haqqında məlumat verən İlham Ağayev qeyd etdi ki, yaxın keçmişə qədər Ramazan ayinin 15-ci günü qəsəbənin gəncləri və uşaqlar tanınmasınlar deyə, üzlərinə maska taxır, oxuya-oxuya, oynaya-oynaya həyətlərə daxil olur və ev sahiblərindən bayram payı istəyirdilər:

Orucun 15-i gəldik sizə,
Qazanın yağlı dibin verin bizə.
Ay Ərsin, Ərsin, Ərsin,
Tanrı Muradını versin.

****

Hər kəs bizə pay versə,
Oğlu-qızı gül olsun,
Gül olsun, bülbül olsun,
Bağçalarda sünbül olsun.
Ay Ərsin, Ərsin, Ərsin,
Tanrı muradını versin.

Qəsəbənin ağsaqqalı Miryavər Hüseynov qeyd edir ki, Orucluq ayında axşamlar iftardan sonra Zeynalın çayxanasına yığışar, çay içər, şorqoğalıdan, ballıbadıdan, şəkərçörəyindən, üstü darçınlı firnidən yeyər, söhbət edərdilər. Məclis gecə yarısınadək davam edərdi.

Orucluq qurtaran günü təzə ayın – hilalın nazik şəkildə görünməsi ilə *Fitrə bayramı* başlayır. Bu zaman nəinki oruc tutanlar, hətta oruc tutmayanlar da bir-birini təbrik edir, "oruc-namazın qəbul olsun", – deyirlər. Həmin axşam evlərdə bayram süfrəsi açılır, ləziz nemətlər, xörəklər süfrəyə düzülür. Fitrə mərasimi keçirilir. Evin ağsaqqalı-ağ-

birçəyi Allah-taalaya dua edir, ailə üzvlərinə cansağlığı, əmin-amanlıq, xalqın rifahının yaxşılığa doğru getməsini, axirətdə səadətə yetişməyi arzulayır. Sonra fitrə vermək mərasimi başlayır. Bu məqsədlə ailə başçısı ailə üzvlərinin sayına görə hər nəfərə bazar qiyməti ilə 3 kq buğdanın pulunu ayırır və fitrə həmin gecə fəqir-füqəraya çatdırılır.

Orucluq bayramında fətir, ədvalı halva, firni bişirir, qonum-qonşulara pay göndərir, xüms, zəkat paylanır, dünyadan köçmüş əzizlərinin məzarlarını ziyarət edirlər. Analar rəngbərəng xonçalar düzəldib gəlin köçmüş qızlarına, başqa kənd və qəsəbələrdə yaşayan oğul-uşaqlarına bayram payı aparırlar. Basqalda digər bayramlarda olduğu kimi, Orucluq bayramında da nişanlı oğlan evindən qız evinə bayram sovqatı göndərilir. Milli şirniyyatlı, noğullu-badamlı xonçalar yan-yana düzülür. Bayram günündə Allah yolunda imkansızlara, əlillərə, xəstə və qocalara, ehtiyacı olanlara kömək əli uzadılır, sovqat paylanır. Bu, müqəddəs borc hesab edilir, həm də böyük savab sayılır. Orucluq müddətində tələb olunan qaydaların gözlənilməsi insanı pis vərdişlərdən, günah işlər görməkdən çəkindirir, xeyirxah əməllərə, yaxşılığa sövq edir.

**Xalq təbabəti**

Azərbaycan xalqının zaman-zaman yaratdığı və əsrlərin sınağından çıxaraq yaddaşlarda qalmış çoxşaxəli mənəvi dəyərlər sistemində xalq təbabəti – ənənəvi müalicə vasitələri və üsulları mühüm yer tutur. Elmi biliklərin olmadığı və ya aşağı səviyyədə olduğu uzun bir dövr ərzində insanların sağlamlığı keşiyində xalqın içərisindən çıxmış, geniş empirik bilik və təcrübəyə malik ayrı-ayrı adamlar – loğmanlar, təbiblər və başqa seçilmişlər insanların sağlamlığı keşiyində durmuş, əslində müasir tibb elminin əsaslarını yaratmışlar. Azərbaycanın demək olar ki, bütün bölgələrində fəaliyyət göstərmiş belə loğman və təbiblər qə-

dim Şirvan torpağında, həmçinin Basqalda da olmuşdur. Rəngarəng təbii-coğrafi şərait, zəngin flora və fauna, həmçinin Basqal ətrafı ərazilərin müalicəvi xüsusiyyətli otlarla, bitkilərlə bolluğu burada da həmin otların, çiçəklərin dilini bilən və onlardan müalicə məqsədilə istifadə etməyi bacaran xalq təbiblərinin meydana gəlməsinə şərait yaratmışdır. Onların arasında Basqalda indi də xoş təəssüratla, hörmət və ehtiramla anılan Axund Hacı Məhəmmədkərim və onun oğlu Məşədi Ağakərimin bu sahədə xidmətləri daha böyük olmuşdur. Nəcəfi-Əşrəfdə mükəmməl dini, həmçinin elmi təhsil almış hər iki şəxs təbabət, ilahiyyat, iqtisadiyyat və siyasət sahəsində hərtərəfli biliyə, təcrübəyə malik alimlər olmuşlar.

1993-cü ildə dünyasını dəyişmiş Axund Hacı Məhəmmədkərimin ötən əsrin əvvəllərində etibarlı mənbələr əsasında xalq təbabətinin tarixinə dair yazdığı "Tarixi-təbabət" adlı çox qiymətli əlyazması basqallı Cəbrayıl Əliyev və Əlicabbar Novruzov tərəfindən oxunmuş, haqqında geniş məlumat verilmişdir. Təəssüflər olsun ki, əski əlifba ilə yazılmış digər cild-cild qiymətli kitablar və nadir əlyazmaları kimi bu əsər də 1937-ci ilin burulğanından çıxa bilməmiş, belə demək mümkünsə, "qırmızı imperiyanın amansız repressiyasına məruz qalmışdır".

Basqaldan topladığımız etnoqrafik materiallardan məlum olur ki, ensiklopedik biliyi ilə seçilən Hacı Məhəmmədkərim xalq təbabətinin mahir bilicisi olub. Onun müxtəlif otlardan, çiçəklərdən hazırladığı məlhəmlər bu və ya digər xəstəliklərdən əziyyət çəkən neçə-neçə insana həyat bəxş etmişdir. Onun yeganə oğlu Məşədi Ağakərim də bu sahədə atasından geri qalmamış, el-obada adlı-sanlı təbib, loğman kimi şöhrət qazanmışdır. Belə ki, azar-bezarın dərmanını gül-çiçəkdə, bitkilərə axtaran Məşədi Ağakərim vaxtının çox hissəsini təbiətin qoynunda – Niyal və Fit dağlarındakı çəmənliklərdə keçirərdi. O, Əbu Əli ibn Sinanın, Əbu Reyhan Biruninin və digər təbib-loğmanların əsərlərindən, həmçinin nənələrimizin, babalarımızın əsrlər boyu qoruyub

saxladıqları müalicə təcrübəsindən və üsullarından bəhrələnərək, bacarıqlı və təcrübəli əczaçı kimi yetişmişdir. Sədası eldən-elə yayılan Məşədi Ağakərimin şəfalı əllərinin sorağına Şamaxı, Ağsu, Qəbələ və başqa bölgələrdən də xəstələr axışıb gəlirdi. Onun Basqal bazarındakı zəngin əttar dükanı azara tutulanların son ümid qapısı idi. Babasil, bel ağrısı, ishal, qanlı ishal, dizenteriya, sarılıq, qəbizlik, öskürək, qara ciyər iltihabı, burundan qanaxma, malyariya, sınıqlar, yanıqlar, mədə pozğunluğu, dalaq böyüməsi və s. xəstəliklər Məşədi Ağakərimin hazırladığı məlhəmlər və müalicə vasitələri qarşısında çox aciz görünürdü. Bundan başqa o, əhval-ruhiyyəsi pozulmuş insanların üzünə baxmaqla onların hansı xəstəliyə düçar olduğunu da asanlıqla söyləyə bilirdi.

Yaşlı adamların dediyinə görə, Məşədi Ağakərim təbii dərman bitkilərinin, şəfa otlarının yayıldığı əraziləri, onların yığılma dövrünü, qurudulma üsullarını və hazırlanma qaydalarını çox gözəl bilirdi. Bu məqsədlə o, buz bulaqlı yaylaqları, sıx meşələri qarış-qarış, addım-addım gəzərək, dərman bitkilərinin, onların yarpağını, çiçəyini, meyvəsini qurudur, bəzilərini isə qaynadıb düzəltdiyi məlhəmlərlə neçə-neçə mərəzi sağaltmış, azar-bezara çarə qılmışdır.

Bölgəyə etnoqrafik səfərimiz zamanı Basqalın qocaman sakinləri Məşədi Ağakərimin fitri istedadından xəbər verən bir neçə əhvalat danışdılar. Deyilənə görə, Məşədi Ağakərimin yanına gələn bir nəfər canındakı ağrılardan şikayətlənir. Təbib əli ilə xəstənin biləyindən tutub ona "Üzüm çıxanda çoxlu kişmiş üzümü ye, sağalacaqsan" – deyir. Başqa bir xəstənin isə nəbzini yoxlayandan sonra "Sənə toxluxambacı (əməköməci) yemək lazımdır", – söyləyir və elə öz həyətində yetişdirdiyi bu bitkidən yığaraq ona verir.

Məşədi Ağakərimin ayrı-ayrı xəstəliklərin müalicəsi üçün məqbul saydığı bəzi resept – tövsiyələri basqallıların yaddaşında indi də yaşamaqdadır. Əhəmiyyətli olduğunu nəzərə alaraq həmin reseptlərin bir neçə nümunəsini təqdim edirik:

Gözdə qızartı olarkən toyuq yumurtasının sarısı ilə ağ narın suyunu qarışdırıb bir qədər qaynatmaq gərəkdir. Məlhəmi tənzifə çəkib 2-3 gecə gözün üstünə qoymaq çox faydalıdır.

Bağırsaq xəstəliyi olan adamlar 5-6 gün hər səhər ac qarına bir stəkan çuğundur şirəsi içsələr, şəfa taparlar.

Yüngül işlətmə vasitəsi kimi körpə uşaqlara qara gəndalaşın quru meyvələrindən firni (kisel) hazırlayıb içirmək məqsədəuyğundur.

Qotur xəstəliyinin müalicəsi üçün üzərlik suyu ilə arpa ununu qarışdırıb horra düzəltmək lazımdır. Həmin horranı bir neçə dəfə qoturun üzərinə çəkdikdə xəstəlik aradan qalxır.

Oynaqlarda duz olduqda qovaq ağacının qaynadılmış yarpaqlarını yatmazdan əvvəl həmin yerə qoyub, üstündən yun örtüklə sarımaq gərəkdir. Bu proses mütəmadi davam etdirildikdə şiddətli ağrılardan əsər-əlamət qalmır.

Öd kisəsinin təmizlənməsində ən yaxşı vasitə gicitkən bitkisinin tər yarpaqlarını 6-7 gün duzla ovuşdurub yeyilməsidir.

Paltar sabununu sirkədə qaynadıb 2-3 gün alına çəkdikdə qulaqda yaranan səsi kəsir.

Xatırladaq ki, Hacı Məhəmmədkərim və onun oğlu Məşədi Ağakərimdən başqa Basqalda müxtəlif dövrlərdə digər xalq təbibləri, həmçinin sınıqçı, çöpçü və mamaçalar da yaşamışlar. Onların hər biri haqqında yaşlı nəslin nümayəndələrinin yaddaşında çoxlu sayda xoş xatirələr, məlumat və əhvalatlar qalmışdır. Basqalda təbiblik, loğmanlıq, türkəçarəçilik peşəsinin və onun kamil bilicilərinin mövcudluğu heç də səbəbsiz deyildi. Bu, uzaq keçmişdən üzü bəri Azərbaycanda, eləcə də Şirvanda boy alan, davam etdirilən və yaşadılan bir mənəvi miras, ənənədir. Belə ki, hələ XII əsrdə Şamaxının Məlhəm kəndində məşhur Azərbaycan şairi Xaqani Şirvaninin əmisi oğlu Kafiəddin Ömər Osman oğlu tərəfindən Şərqdə ilk dəfə olaraq Tibb Akademiyası – "Mədrəse-yi-tibb" yaradılmış və onun nəzdində müalicəxana və əczaxana fəaliy-

yət göstərmişdir. O, mədəniyyət tariximizdə həm böyük loğman, həkim, həm də görkəmli filosof kimi dərin iz qoymuşdur.

Zaman-zaman Azərbaycanda, o cümlədən qədim Şirvan torpağında bu böyük alimin ardıcılları yetişmiş və onlar Ömər Osman oğlundan miras qalmış gözəl ənənələri davam etdirmişlər. Şükürüllahi Şirvani (və ya Şirvanzadə Şükür), Məhəmməd Yusif oğlu Şirvani, Həsən Rza oğlu Şirvani, Mirzə Məhəmməd Şirvani və başqaları xalq təbabətinin mahir biliciləri, adlı-sanlı loğmanlar olmuşlar (124).

**Xalqın söz xəzinəsi**

Basqal təkcə öz ipəyi, kəlağayısı ilə məşhur olmayıb. Basqallı babaların sinəsi zamanın sınaqlarından uğurla çıxmış atalar sözü və məsəllərlə, ibrətamiz və müdrik kəlamlarla, öyüd-nəsihətlə, nənələrin şirin dilləri isə nəvələrinə oxuduqları həzin laylalar, kövrək bayatılar, nəğmələr və türkülərlə doludur. Qədimlərdən adət idi, elə ki, qışın donduran, sümük üşüdən şaxtaları başladı, bayırdan-bucaqdan əl-ayaq yığışar, hamı ocağın ətrafına toplaşar və ocağın istisinə qızınaraq, "Qışda ocaq başı, yazda dağ başı", – deyərdilər. Yəni, müdrik babaların söz dəryasında deyilən bu məşhur kəlam kimi: "El ocaq başına yığışar".

Hə, beləcə uzun qış gecələrində otağın döşəməsində qazılmış dayaz çalanın üstünə kürsü qoyar, üzərinə iri kürsü yorğanı salardılar. Bəzi evlərdə otağın ortasında manqal közərdər və ya gildən hazırlanmış kürə qoyardılar. Kürənin içinə tüstüsü çəkilmiş köz tökdükdən sonra dövrəsinə nimdər düzüb oturar, ayaqlarını yorğanın altına uzadardılar. Kürsü başında hətta yer salıb yatardılar da. Kürsü yorğanının üstünə məcməilərdə ləbləbi, qoz-fındıq, kişmiş, qax (quru meyvə), qovurğa, qovut qoyardılar. Özü də bəkməz qatılmış qovut. Cana istilik gətirən dadlı-ləzzətli xörəklər hazırlayardılar. Yüz cür ədviyyat da bu xörəklərin, bu yemək və çərəzlərin tamını artırardı. Ərməğan ətri evi başına götürərdi, istiotlu, darçınlı, mixəkli, zəncəfilli səməni halvası bişirərdilər...

Belə bir məqamda sinəsi söz xəzinəli, zəngin həyat təcrübəli nənələrin, babaların ocaqdibi söhbətləri, nağıllı, dastanlı gecələri başlanardı. Bildiklərindən, eşitdiklərindən, gördüklərindən çeşid-çeşid deyimlər qoşub, düzüb danışardılar. Xüsusilə Basqalın mahir nağıl ustalarından Camal xala, Sahab xala və Bahar xalanın evləri həmişə qonaq-qaralı, sözlü-söhbətli idi… Bu ağbirçəklər rəvayətlər, məzəli əhvalatlar söyləyər, neçə-neçə yüzilin, minilin olub keçəni, neçə-neçə elin-obanın sözü-söhbəti yada salınardı. Adət-ənənələrimizdən, ulularımızın müdrik sözlərindən, inanclardan, sınamalardan söhbət açar, sözü-sözə, kəlməni-kəlməyə calayar, cavanlara, dəli-dolu gənclərə xeyir-dua, öyüd-nəsihət verərdilər. Hələ nənələrimizin bayatılarını, laylalarını demirik. Xalqın əlçatmaz, ünyetməz keçmişi, eynilə də dünəni və bu günü ilə səsləşən həzin bayatıları. Biz də basqallı nənələrin bizə söylədiyi, özü də birbaşa Basqalla bağlı olan həmin bayatılardan bir çoxunu dinləyib qələmə aldıq. Yeri gəlmişkən, Basqalın digər maddi və mənəvi elementləri kimi, bu bayatıların da əksəriyyətinə etnoqrafik və folklor ədəbiyyatında indiyə qədər rast gəlinməmişdir. Beləliklə:

Ellər deyib Basqala,
Olmayasan nəs qala,
Könlümüz həsrətinə
Tab eləsə, kəs qala.

Yağı gəlsə Basqala,
Onu oda bas, qala.
Yağının anasının
Ürəyində yas qala!

* * *

Bu yol gedir Basqala,
Gəl, bu yolda bas qala.
Görüb əzəmətini
Düşmən gərək, pəs qala.

* * *

Əzizinəm dolmuşam,
Kədəri bol olmuşam.
Qürbət canımı sıxıb,
Basqala yol almışam.

Dörd yanım qala-qala,
Düşmüşəm yaman hala.
Namərd dustaq eyləyib,
Əlim yetmir Basqala.

* * *

Mən aşiqəm qaş qalda,
Göz davada, qaş qalda.
Bir gözəl naz eyləyib,
Məni yaxdı Basqalda.

* * *

Əzizinəm tas qaldı,
Ay calandı, tas qaldı.
Yad eldə cənnət gəzmə,
Cənnət-məkan Basqaldı.

* * *

Əzizim naz eylədi,
Hazını saz eylədi.
Basqallı qız payızda
Könlümü yaz eylədi.

* * *

Mən aşiq bu çinara,
O qalxıbdı gör hara.
İki çayxana olub,
Divarı indi qara

* * *

Bu yer şahanə yerdi,
Yeganə, nişanə yerdi.
Basqal tək məkan hanı,
Cənnət əfsanə yerdi!

* * *

Mən aşiq havasına,
"Basqalı" havasına,
Dadına heç dad çatmaz,
Basqalın halvasına.

* * *

Bir qəribəm burda mən
Həsrətdəyəm yurda mən
Basqal səndən mən ayrı
Necə yatım gorda mən?

* * *

Yolları daş küçədir
"Dəmirçi" baş küçədir
Basqalın bu evləri
Elə bil iç-içədir.

Aşıq musiqisi də Basqalda həmişə çox sevilib. Aşıq Şamil və muğam ustası Mansur Əliyev bütün Şirvanda yaxşı tanınırdı. Kalvalı Aşıq Əlinin musiqi dəstəsi isə Basqal toylarının bəzəyi, yaraşığı idi. Aşıq Şamil 1938-ci ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə iştirak etmiş, dahi bəstəkarımız Ü.Hacıbəyli ilə şəxsən tanış olmuşdur. "Rəna və Əbülfəz", "Koroğlu", "Əsli və Kərəm", "Aşıq Qərib" dastanları bu xalq sənətkarının ifasında çox bəyənilirdi. O, özündən sonra zəngin bir irs qoymaqla bərabər, həm də Aşıq Şakir, Aşıq Məmmədağa, Aşıq Barat kimi ustad aşıqlar yetişdirmişdir.

Son illərdə də bir çox şairlərin şeirlərində bu yurdun adı, tarixi, təbiəti, onun möcüzələri, o cümlədən basqallıların yüksək insani keyfiyyətləri – mərdliyi, qoçaqlığı, alicənablığı, qonaqpərvərliyi və s. xüsusiyyətləri əksini tapmaqdadır (84). Bu baxımdan şair Davud Aslanın, Ağacan Bədəlzadənin, Kifayət Cəfərovanın və onlarla başqalarının həzin, kövrək duyğularla dolu misralarını xüsusi qeyd etmək lazımdır.

Basqal bölgədə öz lətifələri ilə də çox məşhurdur. Şifahi xalq yaradıcılığının janrlarından olan lətifələrdə dövrün eybəcərlikləri, ictimai həyatdakı yaramazlıqlar, nöqsanlar kinayəli gülüş və incə yumorla tənqid edilir. Bunları nəzərə alıb Basqalda öz lətifələri ilə ad çıxarmış adamlar arasında qəsəbənin ağsaqqal ziyalılarından olan Əjdər Tağıyev, Yavər Mikayılov, Pərviz Məmmədəli və Miryavər Hüseynovdur (26).

Basqalda Azərbaycan kinosunun bir çox incilərinin, ən məşhur filmlərimizin fraqmentləri bu gün də ekranlarımızın bəzəyi, mədəniyyətimizin ən gözəl nümunələrindən sayılır. Məsələn, Azərbaycan kinosunun unudulmaz nümunələrindən biri, rejissor Tofiq Tağızadənin "Uzaq sahillərdə", "Gilas ağacı", Tofiq İsmayılovun "Musiqi müəllimi"

və s. kinoların müəyyən epizodları məhz Basqalda lentə alınmışdır. Nicat Feyzullayevin "Təzə evlənənlər" filmi isə əvvəldən axıra qədər Basqalda çəkilmişdir.

**Məktəb və maarifin tarixindən**

Bütün Azərbaycanda olduğu kimi, XIX əsrin ortalarına qədər Basqalda da elm və təhsil ocaqları ruhanilərin əlində cəmləşirdi. Mollaxanalarda ərəb əlifbasını öyrənmək üçün Quranın kiçik surələrindən tərtib edilmiş ilk dərslik, əlifba kitabı çərəkə idi; çərəkədən sonra ərəbcə Quran oxuyurdular. Ayrı-ayrı məscidlərin nəzdində fəaliyyət göstərən orta və ali tipli mədrəsələrdə dini və dünyəvi elmlərlə birgə şəriət haqda ibtidai bilgilər verilirdi. Mədrəsədə konkret proqram və təhsil müddəti yox idi. Özü də belə təhsil müəssisələrində yalnız oğlan uşaqları oxuyurdu. Qızların isə təhsil almasına qadağalar qoyulmuşdu.

Bu cür mənfi hallarla barışmayan Y.V.Çəmənzəminli yazırdı: "... Dünyada xeyirli, xoşbəxt ömür sürmək istər isək, bilgi toplamalıyıq. Bilgini də verən ən əvvəl məktəb olur. Bunun üçün məktəblərimizin sayı nə qədər artsa, bir o qədər tərəqqi etməyə qadir ola biləcəyik. Ancaq iş burasındadır ki, məktəbləri yalnız oğlan uşaqları üçün açıb qız balalarını yaddan çıxardıqda tərəqqimiz də ətraflıca olmayıb birtərəfli qalar" (30, 171).

Deməli, xalqın tərəqqisi üçün çoxlu sayda dünyəvi məktəblər açmaq və oğlanlarla birgə qızların da təhsil almasını təmin etmək lazım idi. Elə buna görə də milli maarifçilik hərəkatının öncülləri olan Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Mirzə Şəfi Vazeh, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Məmməd Tağı Sidqi, Firudin bəy Köçərli, Həbib bəy Mahmudbəyov, Sultan Məcid Qənizadə, Üzeyirbəy Hacıbəyli, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli,

Cəlal Rəfibəyli, Süleyman Sani Axundov, Nəriman Nərimanov və digərləri çarizmin maarif sahəsindəki siyasətini, qaragüruhçuların mürtəce fəaliyyətini ifşa edir, hər vəchlə uşaqların savadsızlanmasında, milli ruhun, mədəniyyətin dirçəldilməsində maarifin inkişafına, ana dilində məktəblərin açılmasına çalışmışlar.

Bu amil Basqalda da özünü göstərirdi. Məhz ziyalıların, mütərəqqi fikirli basqallıların gərgin əməyi və səyinin nəticəsi idi ki, 1887-ci ilin 25 avqustunda Basqalda müəllim kadrları hazırlayan məktəb açıldı. Açılış mərasimində iştirak edənlər arasında pedaqoq, maarif xadimi Rəşid bəy Əfəndiyev də vardı. Əsası tanınmış maarifçi, Qori müəllimlər seminariyasının məzunu Məmmədəli Nəsibzadə tərəfindən qoyulan və "Zemstvo" adlandırılan bu məktəbdə təhsil müddəti əvvəllər 4, sonralar isə 7 il olmuşdur. İlk vaxtlarda burada 55-60 şagird təhsil alırdı. Məktəbdə Məmmədəli Nəsibzadə ilə bərabər Şamaxıdakı "Üsulicədid" məktəbinin yetirməsi olan Xaliq Fətəlizadə kimi tanınmış müəllimlər dərs deyirdi.

Materialların sorağına görə, 1895-97-ci illərdə Dəmirçibazar məhəlləsində 8 otaqlı yeni bir məktəb binası inşa edildi. Burada təhsil alan şagirdlərin sayı daha çox idi. İkisinifli məktəbdə birinci dərs ilində 20 şagird oxuyurdu. Əvvəllər uşaqlarını məktəbə həvəssiz göndərən bəzi valideynlər yavaş-yavaş xalq təhsilinin əhəmiyyətini dərk edir və övladlarının təhsil almasına özləri imkan yaradırdılar. XX əsrin əvvəllərində Basqal məktəbini bitirənlər Azərbaycan, rus və fars dillərində sərbəst yazır, oxuyur və danışırdılar.

Basqal məktəbinin təminatı quberniya mərkəzi tərəfindən həyata keçirilsə də, basqallılar burada dərs deyən müəllimlərə qayğı ilə yanaşır, onlara hərtərəfli əl tuturdular. Məktəbdə dərs deyən müəllimlər də öz növbəsində dərslərin keyfiyyətli aparılması üçün bilik və bacarıqlarını əsirgəmirdilər. Bu sahənin biliciləri olan Ağarəzi xan Qasım-

xanlı, Rəfi Əliyev, Məmmədəli Nəsibzadə, İsgəndər bəy Səfərəliyev, Növrəstə xanım Kərimzadə, Törə Hüseynova, Ağaələkbər Ələkbərov, Saleh Mustafayev və onlarla başqaları əsil təhsil fədailəri idilər. Adı çəkilən ziyalılar Basqalın yaşlı adamları tərəfindən indi də hörmətlə yad edilirlər. Başqa yerlərdən fərqli olaraq, basqallılar uşaqlarının maariflənməsinə, elm və təhsil almasına böyük önəm vermişlər. Lakin övladlarını məktəbə qoyanlara münasibət heç də birmənalı olmamışdır. Belə ki, mövhumatçılar, qatı dindarlar tərəfindən lənətlənən açıqgözlü, yenilik tərəfdarları olan valideynlər "kafir", yaxud "yolunu azmışlar" adlandırılaraq nifrətli baxışlarla rastlaşırdılar.

Köhnəliyə qarşı mübarizə aparan basqallıların əqidəsinə görə, kəndli və molla olmasına baxmayaraq, sağlam düşüncəyə malik bütün insanlar övladlarının məktəbə getməsinə maneçilik törətməməlidirlər. Bu cür düşünən, daha doğrusu, məktəb tərəfdarı olan basqallılardan biri yüksək amallı, mədrəsə təhsilli böyük alim – Mir Hüseyn ağa idi. Bütün Basqal əhli kasıb-kusuba əl tutan, haqqı nahaqqın ayağına verməyən bu nurani, pirani kişinin xətrini çox istəyir, ona hədsiz ehtiram göstərirdi. O, xalqın gözündə saflıq, təmizlik və halallıq rəmzinə çevrilmişdi.

Deyilənə görə, Mir Hüseyn ağa Zeynalabdin Tağıyevlə möhkəm dost olmuşdu. Azərbaycanın böyük xeyriyyəçisi olan H.Z.Tağıyevin "Qızlar gimnaziyası"na azərbaycanlı qızların cəlb olunmasında da Mir Hüseyn ağanın böyük zəhməti vardı. O, qızların, ümumiyyətlə müsəlman uşaqlarının yeni tipli məktəblərdə təhsil almasını yasaq sayan ruhanilərin düşüncəsini rədd edirdi. Ətalətə, geriliyə, savadsızlığa qarşı qəti mübarizə aparırdı. Bu elcanlı ziyalı ruhanilərə və köhnə üsul-idarənin tərəfdarlarına, cəhalətə uyanlara təlqin edirdi ki, inkişaf və tərəqqi yolu ilə getməyən xalqın, millətin gələcəyi ola bilməz. Tərəqqi

və inkişafın yolu isə təhsilə, yeni elmlərə yiyələnməkdədir. Buna maneçilik törətmək, önünə çəpər çəkmək Allah qarşısında günah işlətməkdir. Məhz ona görə də balalarımıza təhsil verib onları Azərbaycanımıza layiq elmli, savadlı vətəndaş kimi böyütməliyik.

Basqal camaatına nümunə olmaq üçün Mir Hüseyn ağa və H.Z.Tağıyev öz qızlarını "Qızlar gimnaziyası"na qoyurlar. Ağanın düşüncə və dərrakəsinə valeh olan, onun dəlil-sübutları qarşısında mat qalan dindarlar bu böyük alimin addımına qarşı gedə bilmirlər. Digər bir yenilik tərəfdarı Mir Hüseyn ağanın dostu Kəblə Cəfər olmuşdur. Tahir Cəfərli soraq verir ki, "Babam Kəblə Cəfər mövhumata, xurafata qarşı çıxırdı. O, Basqal uşaqlarının oxumasına mane olanlarla mübarizə aparırdı. Babam tez-tez söyləyirdi ki, zəmanə dəyişib, dövr texnika dövrüdür, gərək dünyəvi elmlərə yiyələnəsən. Elə bu səbəbdən idi ki, Mir Hüseyn ağa kimi babam Kəblə Cəfər də öz qızını gimnaziyaya qoymuşdu".

Yuxarıda adlarını çəkdiyimiz şəxslərlə yanaşı, Basqalda yüksək mədrəsə təhsili görmüş, xalq arasında böyük nüfuz qazanmış digər hörmət-mərifət sahibləri də olmuşdur. Axund Dadaş, Molla Məhəmmədkərim, Məşədi Ağakərim, Axund Əli, Axund Əhməd, Molla Abdulsalam, Hacı Həsən, Molla Məhəmməd, Məşədi Əlibala və başqalarının adları bu sırada birinci çəkilir. İlahiyyat alimləri kimi yetişmiş həmin





Basqal orta məktəbinin binası

şəxslər bütün həyatlarını xalqı pis əməllərdən çəkindirməyə həsr etmiş, oxuyub öyrənməyi daima alqışlamışlar. Yəqin buna görədir ki, Basqal həmişə elm və ədəbiyyatın görkəmli təmsilçilərinin vətəni sayılmışdır.

Araşdırmalardan bəlli olur ki, XX əsin əvvəllərində Basqalda təhsillilərin sayı Şamaxıdakından çox idi. Bu, basqallıların elmə, təhsilə olan marağından irəli gəlirdi. Onların zəngin pedaqoji ənənələrə malik dünyəvi məktəbləri vardı. Təsadüfi deyil ki, Azərbaycan maarifçilərinin hərbi-vətənpərvərliyi, böyük səy və fədakarlığı nəticəsində fəaliyyətə başlamış Basqal kənd orta məktəbi uzun illərdən bəri ölkəmizin mədəni həyatında mühüm rol oynamışdır. Sevindirici haldır ki, bu ənənə sonrakı illərdə də davam etdirilmişdir. Yəni, sonrakı illərdə də Basqalda məktəbə, maarifə diqqət yetirən, müəllimliyi şərəf, şöhrət və müqəddəs bir iş hesab edən çox görkəmli pedaqoqlar yetişmişdir ki, onlardan da biri XX əsrin ortalarından başlayaraq bütün ömrünü məhz Basqalın təhsilinə həsr edən Dəmir Hacıyev olmuşdur. Göyçay Pedaqoji Texnikumunu və Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki N.Tusi adına ADPU) məzunu olan Dəmir müəllim 1954-cü ildə dərs hissə müdiri kimi Basqal məktəbinə göndərilir və az sonra həmin təhsil ocağına direktor təyin olunur və 1988-ci ilə qədər bu vəzifədə çalışmışdır.

Uzun illər Basqal qəsəbə orta məktəbinin rus dili və ədəbiyyatı müəllimi işləmiş Miryavər Hüseynovun həyatı da başdan-başa Basqalla, Basqal məktəbi ilə bağlı olmuşdur. Zəhmətinə görə bir çox ad və fəxri diplomlarla mükafatlandırılan Miryavər müəllim həm də yaradıcılıqla məşğul olur, Basqalın tarixinə, mədəni həyatına, təhsilinə dair onlarla elmi və bədii əsərin, həmçinin publisistik məqalələrin müəllifidir. Məhz belə müəllimlərin yetişdirdiyi gənclər təhsil almaq üçün Av-

ropanın demək olar ki, bütün şəhərlərinə gedirlər. Moskva, Sank-Peterburq, Kiyev, Rostov, Paris, Berlin və digər şəhərlərdə oxuyur, Azərbaycan cəmiyyətində layiqli yerlər tuturlar. Onların səsi, sorağı ən mötəbər kürsülərdən eşidilib Basqala şöhrət gətirir.

Ümumiyyətlə, Basqal məktəbi bütün dövrlərdə ən qabaqcıl təhsil ocaqlarından olmuş və təkcə Basqalın deyil, bütövlükdə Azərbaycanın, keçmişdə isə SSRİ-nin ictimai-mədəni həyatında mühüm rol oynamış şəxsiyyətlər yetirmişdir. Xalq yazıçısı Əbülhəsən Ələkbərzadə, Beynəlxalq Mühəndislik Akademiyasının həqiqi üzvü, texnika elmləri doktoru Tofiq İsmayılov, şair Davud Aslan, İkinci Dünya müharibəsi qəhrəmanı Kamal Qasımov, İtaliyanın Milli Qəhrəmanı, qızıl Harribaldi



Basqal orta məktəbinin müəllimləri (1970-1980-ci illər)

ulduzu kavaleri Məmməd Bağırov, görkəmli dövlət xadimlərindən Kazım İsmayılov, Mirmahmud Mirbağır oğlu, Azərbaycanın Əməkdar elm xadimləri, fizika-riyaziyyat elmləri doktorları, Azərbaycan EA-nın müxbir üzvləri Maqsud və Mayis Cavadovlar, Əməkdar elm xadimi, texnika elmləri doktoru, SSRİ Dövlət mükafatı laureatı, Azərbaycanın Əməkdar neftçisi Ağasəf Bağırov, Azərbaycanın Əməkdar mühəndisi Zeynal İsmayılov, tibb elmləri doktoru, professor Mehdi bəy Səfərəlibəyov, texnika elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Siyavuş Şirinzadə, texnika elmləri doktoru Alçın Şirinzadə, Düşənbə Dövlət Universitetinin fizika kafedrasının müdiri, fizika-riyaziyyat elmləri doktoru Nazim Məmmədtağızadə, fizika-riyaziyyat elmləri doktoru, professor İbrahim İsmayılzadə, texnika elmləri doktoru Əlişir Əlifov, Elmi geosiyasi tədqiqatlar mərkəzinin sədri, "Dil və ədəbiyyat" jurnalının baş redaktoru, filologiya elmləri doktoru, professor Tahir Cəfərli və b. Onların bəziləri Basqalda anadan olmasalar da, Basqal məktəbini bitirməsələr də, istər cismən, istərsə də ruhənmənən basqallı olub, bu diyarın havası və suyu ilə qidalanaraq yaşayıb-yaratmışlar.

# III fəsil

# TƏSƏRRÜFAT HƏYATI
# VƏ
# SƏNƏTKARLIQ

Hər bir bölgənin təbii-coğrafi şəraiti orada məskunlaşan əhalinin iqtisadi həyatında həlledici rol oynayır. Bu mənada Basqalın relyef quruluşu və iqlim xüsusiyyətlərinin buranın sakinlərinin təsərrüfat məişətinə təsiri şübhəsizdir. Araşdırmalar göstərir ki, Dağlıq Şirvan ərazisində yerləşən Basqalın yan-yörəsində istifadəyə yararlı torpaq sahəsinin və əlverişli otlaqların olmaması əkinçiliyin, həmçinin də maldarlığın zəif inkişafına səbəb olmuşdur. Ona görə buranın əhalisi yaşayış ehtiyaclarını təmin etmək məqsədilə müxtəlif peşə və sənət növləri ilə məşğul olmağa üstünlük vermişlər.

XIX əsrin başlanğıcında tərtib olunmuş "Şirvan əyalətinin təsviri" məcmuəsində verilən məlumatlara əsasən də göstərilir ki, bunun əsas səbəbi əkinə yararlı torpaq sahələrinin azlığı idi (36, 57). Bu haqda XIX yüzilliyin tədqiqatçılarından rus alimi V.Leqkobıtov da məlumat vermişdir: "Əkinçilik əhalinin ən az məşğul olduğu iş hesab edilirdi. Çünki məhsuldar və münbit torpaq olmadığından onlar dağlarda əlverişli sahə seçir, çox vaxt torpağı çətinliklə becərirdilər 106, 121).

Bu fikir Şirvanın dağ və dağətəyi ərazisindəki kəndlər üçün də səciyyəvi idi. Burada məskunlaşmış əhali qidaya olan tələbatlarını ödəmək naminə bir sıra tədbirlər həyata keçirmişlər. Arxeoloq Saleh Qazıyevin yazdığına görə, çox-çox qədimlərdə, bir parça çörək yerinin qiyməti hesaba-ölçüyə gəlməyən vaxtlarda xalqımız dağların döşü ilə uzanan dəmyə torpaqlarda əkinçiliklə məşğul olmuş, min bir əzab-əziyyətlə taxıl əkib-becərmiş, məhsul əldə etmişlər. Elə buna görə xalq belə əkin sahələrini "çörək dağları" adlandırmışlar. Azərbaycanın çörək təknəsi sayılan Qəbələ mahalının içərisindən keçən Bozdağ silsiləsinin bir qolu yaşlılar arasında indi də "çörək dağları" kimi anılır.

Lakin əhalisinin başlıca məşğuliyyəti sənətkarlıq və ticarət olan Basqalda digər kəndlərdən gətirilən hər cür kənd təsərrüfatı nemətləri – ağartı (süd) məhsulları, tərəvəz-bostan bitkiləri, ət məhsulları satılırdı. Xüsusilə də əkinçiliyin, bağçılığın, tərəvəz-bostan bitkilərinin inkişaf etdirilməsi baxımından əlverişli təbii imkanlara malik Xankəndi əhalisinin Basqalın həyatında həmişə xüsusi yeri olmuşdur. Onlar da Basqal sakinlərinin ehtiyaclarını təmin edirdi.

**Bağçılıq**

Basqalda bütün dövrlərdə *bağçılıq* əhalinin məişətində mühüm yer tutmuşdur. Arxeoloji materialların ən qədim nümunələri e.ə. V-IV minilliklərə aid olmaqla, hələ uzaq keçmişdən bu coğrafiyada bağçılığın geniş inkişaf etdiyini söyləməyə əsas verir. Basqalətrafı ərazilərdə, xüsusilə də Qırlartəpə, Qalagah və digər abidələrdə aparılan tədqiqatlar zamanı çoxlu sayda yanmış üzüm tumlarının qalıqları, Qəbələnin bizim eranın VIII-XIII əsrlərinə aid mədəni təbəqəsindən isə qoz, fındıq, nar alma, armud, ərik, xurma və digər meyvə qalıqlarının aşkar edilməsi buna sübutdur (76, 98).

Azərbaycanda bağçılığın tarixi, qədim odlar diyarının səfalı, şəfalı torpaqlarının barı, bərəkəti haqqında antik müəlliflərdən Strabon, Ammian Marsellin, Böyük Plini və başqaları da yetərincə məlumat vermişlər. Məsələn, təqribən 2 min il əvvəl yaşamış məşhur yunan alimi Strabon özünün "Coğrafiya" əsərində Azərbaycan torpağının münbitliyindən, məhsuldarlığından, tükənməz sərvətlərindən, ulu babalarımızın əkinçilik mədəniyyətindən, işgüzarlığından xəbər verib. Onun yazdığına görə, "Albaniyadan (Qədim Azərbaycandan) keçən Kür çayı və ona tökülən başqa çaylar torpağın məhsuldarlığını artırır... Bu torpaqlar nəinki cürbəcür bostan məhsulları, həm də hər cür meyvə yetişdirir; həqiqətən orada, hətta həmişəyaşıl bitkilər yetişir. Həm də torpaq heç bir xırda qulluq tələb etmir, ancaq bütün həyat nemətləri,

bu tərəfə yürüş edənlərin xəbər verdiyi kimi, bir dəfə əkilən torpaq çox yerdə 2 və ya 3 dəfə məhsul verir və birinci məhsul, səpiləndən hətta 50 dəfə artıq alınır... Üzüm tənəklərinin dibini heç vaxt axıradək belləmirlər və yalnız 5 ildən bir budayırlar. Cavan tənəklər artıq ikinci il məhsul verir, yetkinliyə çatanda isə o qədər salxım gətirir ki, onların çox hissəsini şaxlarda saxlamaq lazım gəlir...." (13, 16-17).

Miladi tarixinin I yüzilində yaşamış Roma tarixçisi A.Marsellin qeyd edir ki, bu ərazidə "... yaşayan əhalinin bol məhsullu taxıl zəmiləri, meyvə bağları vardır. Bu yerlərin torpağı olduqca münbitdir". Roma alimi və yazıçısı Böyük Plini (I əsr) də Azərbaycanın qədim əhalisinin yüksək əkinçilik mədəniyyətinə valeh olduğunu dilə gətirərək qeyd edirdi ki, "... Mən heç bir yerdə belə meyvə bağları görməmişəm. Bu xalq torpağı misirlilərdən yaxşı becərə bilir. Şəhərlərinin gözəlliyi və bəzəyi ilə də o, öz qonşularını geridə qoyurlar". Bundan başqa, antik dövr müəllifləri Strabon və Teofrast öz əsərlərində yunan və romalıların Car, Qəbələ, Şabran və digər bölgələrdən heyva, ərik, şaftalı və portağal apardıqlarını qeyd etmişlər. VIII-IX əsrlərdə Azərbaycanın Bağdad bazarlarını meyvə ilə təmin etməsi haqqında da məlumatlar vardır. Nəhayət ilk orta əsrlər dövrünün yadigarı olan "Kitabi Dədə Qorqud" dastanının boylarından da görünür ki, oğuz tayfaları taxıl əkib-becərməklə yanaşı, badam, alma və üzüm kimi meyvə ağacları yetişdirmişlər. Azərbaycanda bağçılıq ənənələri sonrakı yüzilliklərdə də davam etmişdir.

XIX əsr rus mənbələrinin verdiyi məlumatlardan da görünür ki, Azərbaycanın bir çox bölgələri, o cümlədən Dağlıq Şirvanın əksər və kənd qəsəbələri zəngin meşə sahələri ilə əhatə olunduğundan, burada əhali sənətkarlıqla bərabər, bir çox yardımçı təsərrüfat sahələri ilə məşğul olurdular ki, onlardan biri də bağçılıq olmuşdur. Xüsusilə də Basqal özünün məşhur armud bağları ilə şöhrət qazanıbmış. Burada yetişdirilən armudların əsasını sini, şabranı, homunu, nararmudu, xanarmudu, cırhacı, cırxoca və s. təşkil edirdi. Qəsəbənin yaşlı sakinləri söyləyirlər ki, Basqalın yerli armudları daha dadlı-ləzzətlidir, qo-

naq-qaraya, dost-tanışa gözəl sovqatdır, xəstəyə loğmandır, min bir dərdə dərmandır. Xüsusilə Basqalın nararmudu bağbanların görkəmli seleksiya nümunəsi kimi qiymətləndirilə bilər. Meyvəsi iri, uzunsov olur, yetişəndə çox şirəli və zərifdir; xoş ətri, lətinin şəkərliliyi ilə fərqlənir. Tamını və dadını itirmədən uzun müddət saxlanıla bilər. Hər ağacdan ildə 80-100 kq meyvə dərilir. Bu meyvələr keçmişdə nəinki Azərbaycanda, həm də Tiflis və Rusiya bazarlarında belə satışa göndərilirdi.

Basqalın kənarında, xüsusilə dağların ətəyində *"Qələmlik"* adı ilə məlum olan gözəl bağ-bağat yerləri vardı. Orada növü, dadı və ətri ilə diqqəti cəlb edən çoxlu meyvə ağacları olub. Deyilənə görə müdrik bağbanlar burada cır meyvə ağaclarını calaq etmək və qələm yolu ilə yetişdirmişlər. Ona görə də buranı basqallılar "Qələmlik" adlandırırlar. Cır meyvə ağaclarını calaq etməkdən əlavə, yeni ağaclar əkmək yolu ilə də bağlar salınırdı. Burada dadı-tamı ilə seçilən alma, armud bağları yaşıl şərid kimi uzanıb gedirdi.

Tahir Cəfərli yazır ki, bu yerlər başdan ayağadək armudluq olubdur. Mənim babam Kəblə Cəfər qardaşlarının köməyi ilə burada yüz iyirmi növ armud ağacı əkmiş və qələm etmək yolu ilə bağlar salmışdır. Harada yaxşı armud var, ağacını oradan gətirirdi. Türkiyədən qayıdanda özü ilə bir neçə Anadolu ağacı gətirmişdi. Bu ağac Bas-





Meyvə bağları

qalda daha yaxşı bitir. Çox şirin, ətirli meyvəsi olur. Burada yerli nararmudu olub. Dünyada belə ləzzətli armud ola bilməz. Çox naz-qəmzəli meyvədir. Başqa yerə aparsan, bu cür bitmir. Həmişə qayğı tələb edir, vaxtında gərək qulluq edəsən (27, 8-9). Onu da bildirək indinin özündə də "Qələmlik" adlanan yerdə gözəl meyvə bağları qalmaqdadır. Basqal yolunun üstündəki bağa isə el arasında *"Həsənxan bağı"* deyirlər. Yaşlı sakinlərin verdiyi məlumata görə, bu ərazi nə vaxtsa Həsənxan adlı bir nəfərin bağ-bağat yeri olub.

Basqalda alma növləri yetişmə müddətinə görə "yay alması", "qış alması" sortlarına bölünür. Qış almasının bəzi növlərini yaz aylarına qədər saxlamaq olur. Bu sortların hər biri uzun illərin təcrübəsi nəticəsində yaranmışdır. Meyvənin dadına da söz ola bilməz. Məlumatçılar təəssüflə qeyd edirlər ki, bir neçə il bundan əvvəl üzüm plantasiyaları salmaq məqsədilə Basqalda fındıqlı təpə (fındıqlıq) adlanan ərazidəki bütün meyvə bağları tez bir zamanda məhv edildi, yerində üzümlük salındı. Basqal meşələrində bitən qırmızı, qara alça, əzgil, armud, alma, zirinc, zoğal ağacları düzüm-düzüm olur. Onları yığıb qatılaşanadək qaynadır, sonra həmin mayeni (məhlulu) məcməyi, taxta, daş üzərində lavaş formasında yayır, günəş altında qurudub *lavaşana* (adı da lavaş sözündəndir) alırlar.

Meyvələrin qurudulmasında və saxlanılmasında bir sıra ənənəvi xalq üsullarından istifadə edilmişdir. Azərbaycanın meyvəçilik rayonlarında daha geniş tətbiq edilən belə üsullardan biri günəş altında qurutma olmuşdur. Bunun üçün meyvə adi qayda ilə evin damına, yaxud həyətin münasib bir yerinə sərilirdi. Armud, alma və digər meyvələr doğranır, çəyirdəkli meyvələr isə bütöv halda günün altına düzülürdü.

İsmayıllı rayonunun ayrı-ayrı kəndlərində, eyni zamanda Basqalda meyvəni təzə halda və yaxud təndirdə qurudurlar. Meyvəni qurutmaq üçün onu əvvəlcədən qızdırılmış təndirə yığır, bir gün saxladıqdan sonra götürürlər. Bu yolla alınan meyvə qurusuna *qax* deyilir. Qax

üçün əsasən şirəli armud növü seçilir. Bu armudlardan qurudulan qax qurumaz, öz yumşaqlığını qış boyu şaxlayar. Keçmişdə basqallılar meyvə qurularının bir hissəsini gündəlik tələbat üçün ayırıb çərəz kimi istifadə edir, qonşuya pay verirdilər. Digər hissəsini taxıla, yağ, pendir, yun və s. məhsullara dəyişirdilər. Meyvə quruları toy-bayramların, el şənliklərinin, ziyafət süfrələrinin bəzəyi olub həmişə. Qurudulmuş meyvələr ilboyu bazarlarda satılardı. Tarixi ədəbiyyatdan məlum olur ki, XIX əsrin 80-ci illərində təkcə Qubanın meyvə bağlarından hər il Həştərxan, Tiflis və Nijni Novqorod şəhərlərinə 12 min pud armud, 80 min pud alma qaxı aparılmışdı (117, 231-232). Rusiya şəhərlərinə Basqaldan da çoxlu armud, alma qaxı göndərilirdi.

Basqalın şirin və şirəli ağ tutu adnan idi. Tutun şirəsi, doşabı, riçalı, mürəbbəsi əvəzedilməzdir. Yayın istisində tut şirəyə dolduqca şirinləşib bala dönür. Bir yandan budaqlar çırpılır, o biri yandan azca aralıda çaydaşlarından ocaqaltı düzəldirlər. İri bəhməz qazanları suvanır, tiyanlar asılır, tut şirəsindən doşab bişirilir. Doşab bişirmək üçün yetişmiş tutu əzib şirəsini çıxarır, alınmış şirəyə xüsusi tərkibə malik sarı torpaq (şirəxak) qatır, sonra onu süzgəcdən keçirirlər. Alınan meyvə təqribən yarısına qədər qaynadıqda mətləşib doşab halına düşür. Doşab yavanlıq kimi həmişə yağ-çörək süfrəsinin yanında olmuş, bir sıra xəmir xörəklərinin (xəşil, quymaq və s.), həmçinin halva (mərasim halvasını adətən doşabla çalırlar), sucuq, şərbət hazırlanmasında işlədilmişdir. Yüksək kaloriyaya malik doşabdan xalq arasında qaraciyər xəstəliyinin, qanazlığının, başgicəllənmənin, ümumi zəifliyin qarşısını almaq üçün də istifadə edilir. Qədim bir tarixə malik olmuş meyvələrin saxlanması və qurudulması, onlardan müxtəlif növ məhsul hazırlanması basqallılar tərəfindən bu gün də yaradıcılıqla davam etdirilir.

**Arıçılıq**

Basqal əhalisinin təsərrüfat həyatında və məişətində arıçılıq da müəyyən yer tutmuşdur. Belə ki, ərazinin faydalı alp çəmənliklərinə və zəngin meşəliklərə malik olması zaman-zaman burada təsərrüfatın sözügedən sahəsinin inkişafı üçün hər cür şərait yaratmışdır. Basqal və Sulut kəndi arasındakı meşə sahəsinin *Arlan* (arı olan) adlanması da göstərir ki, bu yerlərdə əski çağlardan vəhşi arılar məskən salmış, onlar əhalinin bal və muma olan ehtiyacını ödəmişlər. Tarixçi-arxeoloq Fazil Osmanovun verdiyi məlumata görə, keçmişdə Arlan meşəsində arı yuvasını tapan, ağacın iki yerində – kök tərəfində və gövdəsində kərtmə nişan qoymaqla, yaxud da yuvanın aşağısından qarmaq asmaqla ona sahib çıxırdı. Kəndlilər payız aylarında qov, kösöv yandırıb tüstüsünü koğuşlardakı arıya verir, bal və mum götürürdülər. Çox vaxt isə meşədəki ağac koğuşlarını kəsib yaşadıqları yerin yaxınlığına gətirir, rahatlıq və təhlükəsizlik üçün bir yerə toplayırdılar. Beləliklə, bütöv pətəkliklər – arıxanalar yaranırdı. Ədəbiyyat və etnoqrafik materiallardan aydın olur ki, meşələrdəki ağac koğuşlarından bal və mum toplanması XX əsrin əvvəllərinədək mövcud olmuşdur (88, 148).

Azərbaycanda ev arıçılığının mənşəyini e.ə. I minilliklə bağlayırlar. Arxeoloji materialların təhlili, xüsusilə mum qəliblər vasitəsilə metal əşyaların hazırlanma texnikası, toxuculuqda parça üzərinə naxışvurma üsulu arıçılığın kifayət qədər gərəkli sahə olduğunu təsdiq edən dəlildir. Qazax rayonunda Sarıtəpə adlı yaşayış yerindən tapılmış qabın içərisindən sarı rəngli məhlul-bal aşkar olunması da buna misaldır (40, 147).

Arıçılığın inkişafı təsərrüfatın bu sahəsinə vergi təyin edilməsi ilə nəticələnmişdi. Orta əsrlərdə kəndlilərdən ildə bir pətəkdən 12 axça gümüş pul, xanlıqlar dövründə isə "arı pulu" vergisi toplanırdı. Bəzi yerlərdə vergi balla ödənilirdi. Şamaxı xanı öz arıçı kəndlilərindən balın ¼ qədər vergi alırdı (123). XIX əsrin əvvəllərində Şirvan əyalətinin dağlıq hissəsində 9000-ə yaxın arı ailəsi vardı. Hər il onlar 6 min batman bal və 500 batmana qədər mum verirdilər. Balla birlikdə hər bir pətəyin satış qiyməti Şirvan pudu ilə 9 manata bərabər idi. Balın

bir pudu gümüşlə 4-5 manata, mum isə 8-10,5 manata satılırdı.

Qədim zamanlardan meşə zonalarında arı saxlamaq üçün ən xarakterik pətək növü *god* olmuşdur. Belə pətək növləri ibtidai arı məskənini – ağac koğuşunu xatırladır. Məhz buna görə god pətəyin ilk forması hesab edilir. Godu, əsasən qoz, cökə, fıstıq ağaclarından hazırlayırdılar. Godu düzəltmək üçün diametri 50-70 *sm* olan ağac gövdəsinin içərisi silindr şəklində oyulur və hər iki başı taxta ilə bağlanırdı. Bu qapaqlar pətəyə taxta payacıqlarla bərkidilir. Onları saxlamaqdan ötrü pətəyin yuxarı hissəsində dayaqcıqlar düzəldilirdi. Arıçılar pətəkləri odun parçası və yaxud yastı daşın üzərinə qoyur, yağış, qar düşməsin deyə onların üstünü ağac qabığı və ya samanla örtürdülər.



Pətək növü – səbət. XIX əsr

Geniş yayılmış pətək növlərindən biri də *səbətdir*. Arıların səbət pətəklərdə saxlanılması qaydasının Azərbaycanda çox qədim tarixi vardır. Etnoqrafik materiallardan aydın olur ki, səbət pətəklər Quba, Şamaxı, İsmayıllı, (eyni zamanda Basqalda və Lahıcda), Daşkəsən, Kəlbəcər rayonlarında, habelə Qarabağda nəsildən-nəsilə keçərək bu günədək qalmışdır. Səbəti toxumaq üçün müəyyən ölçüdə sini götürür, bunun dövrəsi boyu yerə itiuclu çubuq basdırır, sonra isə adi qayda üzrə 20-25 *sm* hündürlüyündə silindr formasında hörürdülər. Çubuqların tez çürüməməsi, həmçinin içərisindəki arıları soyuqdan qorumaq üçün səbətin xarici səthi palçıqla suvanırdı. Səbətin aşağı hissəsində arıların girib-çıxması üçün "baca" açırdılar. Buna səbətin "gözü" deyilirdi. Səbətin üstünə və altına saxsı xeyrə qo-

yurdular. Arıçıların dediyinə görə, xeyrə səbəti sərin saxlayır, günəş şüaları ona təsir edib balı əritmirdi.

Sonralar çərçivəli pətəklər meydan gəldi. Belə pətəklərdə arı yuvasını nəzərdən keçirmək, bal dolmuş şanları yeniləri ilə əvəz etmək, hətta onları bir pətəkdən digərinə köçürmək olurdu. Müasir pətəklərdə arıçı balı rahatlıqla ayıra bilir, arılara nəzarət edir, onları öz müdaxiləsilə həyəcanlandırmır. Bu da arıların məhsuldarlığının artmasına, arıçı əməyinin yüngülləşməsinə səbəb olur.

Arıçılığın inkişafında azərbaycanlıların nəsildən-nəsilə ötürülən zəngin təcrübəsi, bacarığı əhəmiyyətli rol oynamışdır. Arıçı kəndlilər həmişə arıların qədrini bilmişlər. Elə bu diqqət və qayğının yekunu olaraq deyirlər ki, "arı yaxşı dövlətdir, gərək ki, ondan yaxşı da muğayat olasan. Arı da insan kimi qulluq və qayğı tələb edir". Görünür, xalq arasında deyilmiş "arını qoy bağçaya, balın getsin axçaya", "Arının zilləti, balın ləzzəti", "Balı süfrəmizdə, zəhməti torpağımızda" və s. deyimlər də arıya və arıçılıq təsərrüfatına göstərilmiş münasibətdən irəli gəlir.

Etnoqrafik materiallar göstərir ki, balın keyfiyyəti, dadı, ətri, rəngi arının hansı çiçəkdən şirə toplanmasından çox asılı olur. Müşahidə edilmişdir ki, arıların alp çəmənliklərindən topladığı balın dadı digər yerli bal növlərindən qat-qat üstündür. Belə keyfiyyətli, ətirli balı Azərbaycanda geniş yayılmış Qapaqtəpə arısından alırdılar. Qafqaz arıçılığı üzrə görkəmli mütəxəssislər belə hesab etmişlər ki, Azərbaycanın yerli Qapaqtəpə arısı xarici görünüşü, bioloji xüsusiyyətləri və bir sıra əlamətlərinə görə məşhur boz dağ Qafqaz arısı ilə eynidir. Qapaqtəpə arısı Azərbaycanın Daşkəsən rayonundan başqa, Kəlbəcər, Şəmkir, Göygöl rayonunda, həmçinin Qarabağ və Şəki-Zaqatala bölgələrində, İsmayıllı (o cümlədən Basqal), Qonaqkənd və s. yerlərdə yayılmışdır. Akademik A.A.Qrossheym yazır ki, Qapaqtəpə arıları bir sıra üstünlüklərə malikdir. Bu arılar Şimal arılarına nisbətən 10-11 faiz ağır, dözümlü, çevik və çox cəfakeşdirlər. Onlar daha həssas və uzağa uçandırlar. Bu səbəblərə görə Qapaqtəpə arıları başqa arılara nisbətən çox məhsuldardır (97, 80). Sakit, əməksevər, soyuğa və xəs-

təliklərə dözümlülüyü ilə səciyyələnən Qapaqtəpə arısı haqlı olaraq mütəxəssislər tərəfindən "qızıl arı" adlandırılmışdır.

Arıçılıqdan yüksək məhsul alınması, arıların gümrah və normal inkişafı, həmçinin qüvvətli arı ailələri əldə edilməsi məqsədilə arıçılar arıların qışlamasına qayğı ilə yanaşmış, onların qışdan müvəffəqiyyətlə çıxmasına arıçılığın əsası kimi baxmışlar. Bu sahənin biliciləri qışdan çıxmış arılara erkən yazda, yığım olmayan vaxtlarda şirə hazırlayıb verirdilər. Onlar bu üsulla arıların sağlamlığını təmin etmiş olurdular.

Balın kəsilməsi xalq meteorologiyası ilə müəyyən edilirdi. Etnoqrafik materiallardan məlum olur ki, xalq təqviminə görə quyruqdoğdu müddətində kəndəlaş bitkisinin çiçəkləri qaralanda (avqustun əvvəllərində) əhali bal kəsməyə başlardı. Xalq təcrübəsinə görə bu dövrədək arılar lazımi qədər şirə toplaya bilirdi. Arıçılar belə hesab edirdilər ki, balın həmin vaxtdan tez kəsilməsi əlverişli deyildi, çünki o ərəfədə bal hələ yetişmirdi, həm də ki, bu müddətdə arı ailəsində arıların sayı olduqca çox olurdu. Bu isə bal kəsilməsi işini çətinləşdirirdi.






Müasir çərçivəli pətəklər

Bal kəsimi dövrü insanların ən sevincli gün-

ləri hesab olunurdu. El arasında məlum olan “Gəldi ballı gün, yamacda var toy-düyün” kimi məsəllər də bununla əlaqədar yaranmışdır. Balı kəsdikdən sonra el adətinə görə, hər kəs bu əvəzsiz nemətdən qohum-əqrəbaya, qohum-qonşulara pay göndərirdi. Xalq arasında “Bal tutan barmaq yalar” atalar sözü və zərbi-məsəllərin yayılması göstərir ki, xalqımız balı qida məhsulu kimi yüksək qiymətləndirmişdir. Hələ çox qədimlərdən baldan müxtəlif növ mürəbbə, bəkməz, riçal və s. bişirmiş, sirkə almış, dadlı və ətirli şərbət hazırlamışlar. Müxtəlif növ şirniyyatların (paxlava, ballıqayğanaq, qurabiyə və s.) hazırlanmasında baldan geniş istifadə etmiş, Şamaxı ballıbadısına, Şirvan qatlamasına şirə əvəzi bal hopdurmuşlar. Halva, quymaq, xəşil və digər yeməklərin tərkibinə də bal qatırdılar. Xüsusilə mərasim halvasını balla çalırdılar.

Mum da qədim zamanlardan azərbaycanlıların məişətində xüsusi yer tutmuşdur; Ondan gön-dəri istehsalında, misgərlikdə, balıqçılıqda, iptoxumada, qaytan hazırlanmasında istifadə edilmişdir. Mumdan hazırlanan şam əsrlər boyu evlərdə çıraq kimi işlədilmişdir. Başmaqçılar, pinəçilər xam sap və kəndirin möhkəmliyini, elastikliyini artırmaq üçün ona mum çəkmişlər. Orta əsrlərdən Gəncə, Şəki, Şamaxı, Naxçıvan, Basqal və s. sənət mərkəzlərində ipəkçiliyin inkişafı ilə əlaqədar ipək parçalara basma üsulu ilə naxış vurarkən mum da işlədilmişdir.

Azərbaycanlılar uzaq keçmişdən balın müalicəvi xüsusiyyətlərinə dərindən bələd olmuşlar. Balı “min bir dərdin dərmanı” hesab edən ulularımız onun köməyi ilə yara, yanıq, göz, ürək xəstəliklərini müalicə etmiş, ümumi zəifliyi, başgicəllənmələri aradan qaldıra bilmişlər. Həzm prosesinə yaxşı təsir göstərdiyinə görə mədə-bağırsaq xəstəliklərinin müalicəsində də balın müalicəvi xüsusiyyətlərindən istifadə olunmuşdur.

Arıçılığın təsərrüfat məişətində geniş yer tutması ilə əlaqədar arıçılar arasında bir sıra adət və ayinlər də mövcud olmuşdur. Arıçılar bir qayda olaraq mal-qara olan yerdə, yaxud natəmiz sahədə arı sax-

lamazdılar. Kəndlilər göz dəyməsin deyə öz pətəklərini kənar adamlardan gizlin saxlayardılar, arıların sayını başqalarına söyləməz, onları tərifləməzdilər. Bəzən arıxananın dörd tərəfinə çəpər çəkir, yaxud qamışla hörüb palçıqla suvayırdılar ki, kənar şəxslər görməsin. Burada məqsəd arıları "yaman gözdən" (bəd nəzərdən) qorumaq idi.

Onu da qeyd edək ki, son dövrlərdə təsərrüfat sahəsi olaraq arıçılıqda durğunluq, tənəzzül və laqeydlik müşahidə olunurdu. Belə bir şəraitdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 2009-cu il fevralın 2-də Milli Məclisdə arıçılığın inkişafı perspektivlərini təsbit edən "Arı haqqında" qanun qəbul olundu. Bu qanun Azərbaycanda arıçılıq təsərrüfatının yenidən inkişafı, qiymətli bal arılarının genefondunun qorunub saxlanılması, arıçılığın maddi-texniki bazasının möhkəmləndirilməsi, həmçinin arıçılıqla məşğul olan sahibkarlara güzəştli kreditlərin verilməsi kimi geniş imkanlar yaratdı.

Hazırda İsmayıllı rayonunda arı ailələrinin sayını artırmaq məqsədilə "Arıçılar" birliyi təşkil edilmiş, azad sahibkarlığın, kiçik biznesin inkişafı üçün imkanlar yaradılmışdır. Hökumət əhalini maraqlandırmaqla Basqalda, İvanovkada, Talıstanda və digər kəndlərdə kompleks tədbirlər həyata keçirməyi və qısa zamanda arıçılığın keçmiş şöhrətini qaytarmağı düşünür.

Beləliklə, son illər dövlət səviyyəsində kənd təsərrüfatına diqqət və qayğının artırılması, sahibkarlara ayrı-ayrı təsərrüfat sahələrinin inkişaf etdirilməsi üçün güzəştli kreditlərin verilməsi, 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan olunması və digər tədbirlər yaxın gələcəkdə Şamaxı-İsmayıllı zonasında da öz müsbət nəticələrini verəcəyinə ümid yaradır. Bu məsələnin həlli Basqal qəsəbəsinin, basqallıların sosial problemlərinin aradan qaldırılmasında, insanların yurd-yuvalarına, torpağa daha çox bağlanmalarına stimul verə bilər.

**Sənətkarlıq**

Sirr deyil ki, hər bir xalqın qürur mənbəyi onun tarix boyu yaratdığı milli-mənəvi dəyərləridir. Həmin mədəniyyət örnəklərini qoruyub saxlamaq və gələcək nəsillərə çatdırmaq bütün dövrlərin ən aktual və mühüm vəzifəsi olmuşdur. Müasir dünyada da qlobal, regional və lokal problemlərin həlli, qloballaşma və mədəni inteqrasiya məsələlərinin tənzimlənməsi kontekstində, onlardan imtina etməmək şərtilə milli-mənəvi dəyərlərin qorunması məsələləri də mütləq nəzərə alınmalıdır.

Xalqımızın Ümummilli lideri Heydər Əliyev demişdir: "... Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq... Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam, saf əxlaqi əhvali-ruhiyyədə tərbiyələndirməliyik".

Azərbaycan xalqının çoxəsrlik tarixi boyu yaratdığı zəngin mədəni-mənəvi irsin mühüm bir qismi nəsildən-nəsilə keçərək yaşadılan qədim xalq sənətləri və sənətkarlıq nümunələridir. Sənət və sənətkarlıq insanın əmək fəaliyyətinə başlaması ilə birgə yaranmış, müxtəlif sosial-iqtisadi formasiyalar çərçivəsində tədricən təkmilləşmiş və inkişaf etmişdir. Sənaye istehsalı mərhələsinə daxil olana qədər əllidən çox sənət və peşə növü əhalinin maddi və məişət ehtiyaclarının ödənilməsinə xidmət etmişdir. Azərbaycan ustalarının istehsal etdikləri sənət məhsulları təkcə yerli tələbata xidmət etməyib, xarici bazarlara da yol tapmış, beynəlxalq ticarətdə çox mühüm rol oynamışdır.

Sənət istehsalının meydana gəlməsi və inkişafı şəhərlərin yaranması ilə üzvü surətdə bağlı olduğundan və ona həlledici təsir göstər-

diyindən cəmiyyət tarixində vacib dönüş mərhələlərindən biri hesab olunur. Şəhərlərin yaranmasında və inkişafında isə onların malik olduğu coğrafi mövqe, təsərrüfat fəaliyyətinin formaları və ticarət əlaqələrinin səviyyəsi mühüm rol oynamışdır. Bu mənada Azərbaycanda şəhərlərin yaranması prosesində aparıcı amil olan müxtəlif sənət sahələri haqlı olaraq təkcə istehsal tarixinin deyil, ümumən sosial-iqtisadi və mədəni inkişafın mühüm pillələrindən biri hesab edilir. Xalq sənətinin zəmanəmizədək gəlib çatmış sahələrinin etnoqrafik baxımdan öyrənilməsi Azərbaycanda tarixən mövcud olan istehsal formalarının mahiyyətini açmağa, hər bir sənət sahəsinin inkişaf səviyyəsini, onun yayılma arealını və xarakterini müəyyənləşdirməyə imkan verir.

Eyni zamanda, XX əsrin əvvəllərinə qədər əhəmiyyətini itirməmiş bir çox sənət sahələri, ev peşəsi və əmtəə istehsalının dərindən araşdırılması ötən nəsillərin istehsal irsini, mədəni-texniki nailiyyətlərini hərtərəfli şərh etməyə imkan verir. Belə sənət sahələrindən biri də heç şübhəsiz toxuculuq olmuşdur.

Azərbaycanın əlverişli təbii-coğrafi şəraiti, müxtəlif təsərrüfat sahələrinin inkişafı, zəngin xammal ehtiyatlarının, təbii boyaq maddələrinin bolluğu qədim zamanlardan burada toxuculuğun müxtəlif sahələrinin (həsirçilik, kətançılıq, xalçaçılıq, bəzzazlıq, şalbaflıq, şərbaflıq) meydana gəlməsinə və inkişafına səbəb olmuşdur. Bunu sübut edən əsas mənbə isə heç şübhəsiz ki, arxeoloji materiallardır. Təsadüfi deyil ki arxeoloji qazıntılar zamanı ölkəmizin müxtəlif bölgələrində (Kültəpə, Mingəçevir, Qəbələ, Beyləqan, Şamaxı və s.) bu faktı təsdiqləyən çoxlu sayda maddi mədəniyyət nümunələri – ip əyirmək üçün sümük iy ucları, tağalaq, teşi, əyircək, parça, alt və üst paltarların qalıqları, həmçinin toxuculuq dəzgahının hissələri aşkar edilmişdir ki, onların da ilkin nümunələri e.ə. VI-IV minilliklərə aiddir (50, 71-86, 97, 259; 86, 223; 91, 152-153; 37, 97).

Bundan başqa, bəzi arxeoloji abidələrdən tapılan və müxtəlif öl-

kələrə məxsus qədim sikkə nümunələri (Makedoniyalı İsgəndərin draxmaları, Selevki və Yunan-Bəlx padşahlarının tetradraxmaları, Parfiya padşahlarının draxmaları, Roma və Arşaki sikkələri, habelə Makedoniyalı İsgəndərin sikkələrinə oxşadılmış dirhəmlər) Azərbaycan şəhərlərinin hələ antik dövrdən Şərq və Qərb ölkələri ilə intensiv iqtisadi-ticarət və mədəni əlaqədə olduğunu göstərir (93, 16-30; 113, 19-20) ki, həmin əlaqələrdə də ipək və ipək məmulatı çox mühüm rol oynamışdır. Naxçıvan, Gəncə, Bərdə, Şamaxı, Qəbələ, Dərbənd, Bakı, Şəki, Şabran, Quba və digər şəhər və yaşayış məntəqələri həmin dövrün mühüm ticarət və sənətkarlıq mərkəzləri olmuşdur (93, 340).

Lakin onu da qeyd edək ki, sənətkarlığı və sənət istehsalını yalnız şəhər mühiti ilə bağlamaq səhv olardı. Tarixən bəzi kəndlərdə və şəhər tipli qəsəbələrdə də müxtəlif sənətkarlıq sahələri mövcud olmuş, buranın insanlarının bir çox ehtiyacları məhz kənd sənətkarları tərəfindən təmin edilmişdir. Bu məhsullar ya sənətkarların özləri tərəfindən, yaxud da vasitəçilər – ticarət adamları tərəfindən təklif olunurdu. Azərbaycanın belə yaşayış məskənləri sırasında cəsarətlə Basqalın da adını çəkmək olar. Çünki bu qəsəbə əsrlər boyu Azərbaycanın əsas sənətkarlıq, xüsusilə də ipəkçilik mərkəzlərindən biri kimi mövcud olmuş və ənənəvi ipək parça toxuculuğu, xüsusilə də çoxçeşidli kəlağayı istehsalı ilə bütün Yaxın və Orta Şərqdə, Rusiya və Avropada yaxşı tanınmışdır. Lakin arxeoloji kəşfiyyat işləri zamanı əldə olunan bəzi materiallar vaxtilə Basqalda ipəkçiliklə yanaşı, boyaqçılıq, dulusçuluq, dəmirçilik, dabbaqlıq, daşişləmə və digər sənətkarlıq sahələrinin də inkişaf etdiyini söyləməyə imkan verir (24, 65; 61, 22). Onlar ipək toxuculuğu qədər geniş inkişaf etməsə və yayılmasa da, ən azından Basqal və ətraf kəndlərin əhalisinin məişət ehtiyaclarını ödəyəcək səviyyədə olmuş, bu sənət sahələri üzrə bütün bölgədə tanınan çox bacarıqlı ustalar fəaliyyət göstərmişdir.

**İpəkçilik**

Bəzi tarixi qaynaqlarda və məxəzlərdə Azərbaycanda ipəkçiliyin yayılma tarixi V-VI, bəzilərində isə VI-VII əsrlərə aid edilsə də, son illərin fundamental araşdırmaları artıq eramızın III-IV əsrlərində ölkəmizin ərazisində inkişaf etmiş ipəkçilik təsərrüfatının mövcud olduğunu sübut etməkdədir. Yəni hələ çox qədim dövrlərdə Azərbaycanda toxuculuğun bu sahəsi ilə əhalinin geniş təbəqələri məşğul olmuşdur. Mənbələrdə göstərildiyi kimi, Azərbaycanın Kür sahili əraziləri ucsuz-bucaqsız tut bağları və çəkilliklərlə zəngin olmuş, buranın əhalisi müxtəlif rəngli ipək parça və məmulatının hazırlanması və ticarəti ilə məşğul olmuşlar (45, 16-17; 82, 88, 134-135; 89, 48; 31, 148; 119, 81-82; 14, 55). Təsadüfi deyil ki, "Kitabi-Dədə Qorqud" dastanında da Azərbaycanda digər sənətkarlıq sahələri ilə bərabər, xalçaçılığın da inkişafından, ipək saplardan xalça toxunması kimi məsələlərdən də bəhs olunur. Belə ki, dastan boylarının bir çoxunda "min yerdə ipək xalçası döşənmişdi", "doxsan yerdə ala qalı, ipək döşənmişdi" kimi ifadələrə rast gəlmək mümkündür (46, 16, 28, 42, 69, 106).

İstər ilk orta əsrlərdə, istərsə də sonrakı dövrlərdə yalnız Azərbaycanda deyil, Yaxın və Orta Şərqdə, həmçinin Qafqazda toxuculuğun ən mühüm mərkəzlərindən biri Şirvan sayılmışdır. Xüsusilə XV əsr tarixə Şirvanın siyasi, iqtisadi və mədəni cəhətdən çiçəklənən dövrü kimi daxil olmuşdur. İpək məmulatı istehsalı bu regionun, xüsusilə də Şamaxının və ətraf kəndlərin iqtisadi həyatında mühüm rol oynayırdı. Şəhərin əlverişli coğrafi mövqeyi onun digər şəhər və yaşayış məntəqələri ilə intensiv ticarət əlaqələri saxlamasına imkan verirdi. Buradan quru yollar vasitəsilə ipək parçalar, kəlağayı və s. Bakıya gətirilir, oradan isə Həştərxana və digər liman şəhərlərinə göndərilirdi. Təsadüfi deyil ki, Azərbaycanı gəzmiş Şərqin və Avropanın bir çox səyyahları, tacirləri, elçi və alimləri öz əsərlərində Azərbaycanın digər şəhərləri ilə yanaşı, Şamaxının da rifahından və zənginliyindən, əla keyfiyyətli ipək parçalarından, zərif baş örtüklərindən geniş bəhs etmişlər. XV əsrin II yarısında Azərbaycanda Venesiyanın rəsmi elçisi vəzifəsinə təyin

olunmuş Katerino Zeno, Venesiyanın Ağqoyunlu sarayındakı elçilərindən olan Ambrocco Kontarini və başqaları Şamaxı haqqında maraqlı məlumatlar verir və "buranın (Şamaxının) "talaman" adlanan əla ipək parçalarından söz açırdılar (55, 161). Alman səyyahı İ.Şildberger isə qeyd edirdi ki, "Şirvandan başqa ölkələrə böyük miqdarda ipək ixrac olunurdu... İpəkdən müxtəlif parçalar hazırlanırdı. Hətta ipəyin müəyyən hissəsi Venesiyaya göndərilir və burada ondan yüksək keyfiyyətli məxmər toxunurdu" (114, 41).

Şirvanlı tacirlər elçi sifəti ilə tez-tez Moskva çar sarayının qonağı olur, bu ölkəyə digər mallarla yanaşı, küllü miqdarda xam ipək və ipək parçalar aparırdılar. Rus tacirləri də xam ipəyi ilk növbədə Şirvandan alırdılar. Moskva ilə Şirvan arasında bağlanmış ticarət müqaviləsindən sonra Şamaxı ipəyinə tələbat daha da artmışdı. Əslində elə rus tacirlərinin Şamaxı bazarına göstərdikləri marağın əsas səbəblərindən biri də Şamaxıya daşınıb gətirilən Azərbaycan ipəyi idi (34, 64-65).

İngilis səyyahı, tacir Antoni Cenkinson (XVI əsr) qeyd edir ki, "Şirvan bəylərbəyi Abdulla xanın köməyi ilə Şamaxıda ingilis ticarət faktoriyasının əsasını qoymuşdu. ...İpək almaq üçün dünyanın hər yerindən buraya tacirlər axışıb gəlirdi". Müəllif şirvanlıların, xüsusilə də ali zümrədən olan adamların geyim dəstinin əsasən ipək parçadan tikildiyini, sarayların ipək parçalarla bəzədildiyini də qeyd edərək daha sonra yazır: "...Xan ipək və qızılla bəzədilmiş çadırda oturmuşdu. Hökmdar ipəkdən tikilmiş və daş-qaşlarla bəzədilmiş zəngin paltar geyinmişdi. Onun çadırının döşəməsi bahalı xalçalarla döşənmişdi..." (90, 203).

Şirvanın ticarət əlaqələrindən bəhs edən şotlandiyalı həkim və səyyah Con Bell (1691-1789) isə məlumat verir ki, "Şamaxıda xam ipəklə geniş ticarət aparılır, ətraf yerlərdən toplanılan xam ipək ingilislərin və hollandların təsis etdikləri şirkətlər tərəfindən alınırdı. İpəyin böyük bir qismi Hələb şəhərinə göndərilirdi..." (47, 83).

XVII əsrin I yarısına qədər zəngin parça və məxmərdən başlamış basma naxışlı parçalara qədər bir sıra müsəlman parçaları Rusiyaya

geniş ixrac olunurdu. Həmin parçaların arasında altabas, məxmər, izorbof, atlas, kamxi, tafta, darayı, bez, basma naxışlı parça, mitqal, tirmə və s. adını çəkmək olar (116, 368-374). Bu fakt alman səyyahı A.Oleari tərəfindən də qeyd edilmişdir. Onun yazdığına görə, buranın əhalisinin əsas məşğuliyyəti yun əyirmək, ipək və yun parça toxumaq, müxtəlif parçalar üzərində tikmə ilə məşğul olmaqdır (111, 462). 1715-ci ildə Azərbaycana gəlmiş rus səfiri A.Volınskinin "Şirvanda elə bir kənd yoxdur ki, orada ipək emal edən yerli emalatxana olmasın" kimi fikirləri də bu baxımdan böyük maraq doğurur.

İpəkçilik və ipək ticarəti XVIII əsrdə də Şirvanın iqtisadi həyatında aparıcı yer tuturdu. Görkəmli Azərbaycan səyyahı H.Z.Şirvaninin məlumatlarına görə, XVIII əsrin 90-cı illərində Şamaxıda darayı, tafta və qanovuz toxuyan 1500 toxucu dəzgahı fəaliyyət göstərirdi (63, 64). Burada ipək o qədər çox olmuşdur ki, onun artıq hissəsinin ölkənin müxtəlif şəhərlərində fəaliyyət göstərən fabriklər tərəfindən alınmasına baxmayaraq, hər il 2000 puddan çoxu Rusiyaya ixrac olunurdu. İngilis səyyahı G.G.Forsterin 1784-cü illərə aid məlumatından aydın olur ki, Şirvandan ildə 400 tona qədər ipək yalnız Həştərxana göndərilmişdir (120, 7). Burada qadınlar və kişilər yay vaxtı ipəkçilik və əkinçilikdən başqa heç bir işlə məşğul olmur, qış vaxtı isə müxtəlif ipək parçalar toxuyurdular (65, 59-65; 102, 179).



Qələmkar parça. XIX əsr

Mövcud vəziyyət bir sıra vacib amillərlə şərtlənmişdi. Belə ki, bəhs edilən dövrdə Şamaxı xanı Məhəmmədsəid xan ticarət və sənətkarlığa

himayədarlıq edir, ipəkçiliyin inkişafına xüsusi diqqət və qayğı göstərirdi. Onun hakimiyyəti illərində ipək ticarəti çiçəklənmə dövrü keçirirdi və Şamaxı xanlarının gəlirləri də daha çox ipək istehsalından formalaşırdı. Arxiv materiallarına əsaslanan tarixçi Nailə Bayramova yazır ki, XVIII əsrdə Şamaxı xanlığının xəzinəsinə ipək məmulatına görə adam başına 60 qəpik miqdarında vergi də ödənilirdi (19, 49, 52-53).

Beləliklə, Şirvanın orta əsrlərdən etibarən Qafqazın ən böyük ipəkçilik və ipək ticarəti mərkəzinə çevrildiyinin şahidi oluruq ki, bu da öz növbəsində müxtəlif dövlətlərin diqqətini cəlb edirdi. Azərbaycan ipəyi hətta dövlətlərarası münasibətlərə, dünya siyasətinə təsir göstərməyə başlamışdı. Bu qiymətli məhsulu ələ keçirmək məqsədilə Azərbaycanda möhkəmlənmək, bu ölkə ilə birbaşa ticarət əlaqəsi yaratmaq siyasəti bir çox Avropa və Asiya ölkələri arasında toqquşmalara, hətta müharibələrə səbəb olmuşdu (56, 3).

Bütün deyilənlərə rəğmən onu da nəzərə almaq lazımdır ki, qeyd olunan dövrdə ipəkçilik təsərrüfatı və şərbaflıq yalnız Şamaxı şəhərində inkişaf etməmişdi. Yuxarıda da qeyd etdiyimiz kimi, bir çox mənbə və tarixi ədəbiyyatda Şirvanın əsas ipəkçilik mərkəzləri sırasında Basqal və Mücü kəndlərinin adları da qeyd edilir və göstərilir ki, 1795-ci ildə Ağa Məhəmməd Qacarın Gürcüstan, Muğan, Talış və Şirvana hücumu zamanı Şirvan xanı Mustafa xanın öz yaxın qohumları ilə yaxınlıqdakı Fit dağında qalaya çəkilir və qaladan çox da uzaq olmayan Basqal adlanan şairanə yerdə ipək əyirən və şal toxuyan fabrik açır (57, 33).

Bəzi mənbələrdə XVIII əsrin 70-ci illərində Əlvənd, Zərdab, Ağsu və Basqal kəndlərində ipək parça istehsal etmək üçün 50 toxucu dəzgahının işlədiyi göstərilməklə, burada istehsal edilən müxtəlif rəngli və ölçülü ipək parça, örtük, dəsmal, çadra və s. çox yüksək qiymətləndirildiyi xəbər verilir (120, 59-61; 110, 110). Bundan başqa o da xəbər verilir ki, Basqalda sənətkarlığın səviyyəsi ildən-ilə artır, miqyası tədricən genişlənir və ilbəil ayrı-ayrı sənət sahələri ilə əhalinin daha



İpək çadra (XIX əsr)

geniş təbəqələri məşğul olmağa başlayırdı. Hətta Şamaxıda və bütövlükdə Şirvanda istehsal olunan ipəyin mühüm bir hissəsi mübaliğəsiz olaraq Basqal qəsəbəsinin payına düşmüşdür. Professor Q.Cəbiyevin də qeyd etdiyi kimi, "Şirvan deyəndə başlıca olaraq Şamaxı şəhəri nəzərdə tutulub. Lakin ədalətlisi odur ki, özünün zəngin ipəkçilik ənənələri ilə Şirvanı da, Şamaxını da məşhur edən məhz Basqal olub. Əslində Basqaldan olan ustalar, tacirlər və iş adamları sonralar Azərbaycanın, bütövlükdə Qafqazın bir çox başqa yerlərində də ipəkçiliyin intişar tapıb yayılmasında təşəbbüsçü olublar" (24, 197).

Arxiv materiallarından məlum olur ki, XIX əsrin ortalarına doğru Basqalda ipək parçalar və kəlağayı istehsalı üzrə 12 toxucu, 1 sapəyirici karxana mövcud idi. Evlərin çoxunda müxtəlif rəngli qanovuz parçalar toxuyan ibtidai dəzgahlara rast gəlmək olardı. 1876-cı ildə Məşədi Həbibulla Hacı Abbas oğlunun dörd dəzgahlı toxucu karxanasında tafta və qanovuz parçalar, eləcə də müxtəlif ölçülü və naxışlı kəlağayılar, baş yaylıqları toxunurdu. 1877-ci ildə Hacı Səmədə məxsus toxucu karxanasında tafta və qanovuz ipək parçalar, həmçinin müxtəlif növ kəlağayılar və yaylıqlar istehsal olunurdu. 1880-ci ildə Hacı Seyid Məhəmməd Hacı Əkbər oğlunun təşkil etdiyi karxanada qanovuz, tafta, mov, ipək parçalar və müxtəlif çeşiddə kəlağayılar, ipək yaylıqlar hazırlanırdı. 1886-cı ildən fəaliyyətə başlayan Əliabbas Cəbrayıl oğluna mənsub olan karxanada qanovuz parça və "Heratı" kəlağayısı istehsal edirdilər. Həmin karxanalar yerli Basqal ipəyindən istifadə edir, istehsal olunmuş hazır malları Şamaxıya göndərirdilər. Ustalıq baxımından da Basqal sənətkarları adnan idi. Onların arasında öz sənətlərinin sirlərini dərindən bilən sə-

nətkarlar az deyildi. Toxunan yüksək keyfiyyətli qanovuz, tafta parçalar təkcə yerli tələbatı ödəmir, xarici bazarlarda da bu parçalara böyük ehtiyac duyulurdu. Qanovuz parçalar çox zaman Orta Asiyaya, Rusiyaya, Tiflisə, İrəvan xanlığına, qonşu mahallara satmağa aparılırdı. O da məlumdur ki. XIX əsrin sonlarında Basqal ustalarından Əliabbas Cəbrayıl oğlu, Məşədi Həbibulla Hacı Abbas oğlu, Hacı Bağır Mirzə oğlu, Hacı Əkbər Hacı Seyid oğlu və digərləri Paris, London, Sankt-Peterburq, Moskva, Tiflis və s. şəhərlərdə keçirilən beynəlxalq sərgilərdə iştirak edib və qanovuz, tafta, saya və sadə klassik naxışa malik ipək parçaların örnəklərinə görə beynəlxalq sərgilərin yüksək mükafatına layiq görülmüşdülər.

XIX əsr müəllifi Q.Abelov yazır ki, "İpək istehsalı aztorpaqlı Basqal əhalisinin rifah halının yeganə mənbəyi idi (63, 183-185). Təkcə onu demək kifayətdir ki, həmin dövrdə burada 220-dən artıq qadın baramanın açılması ilə, 700 usta və 100 şagird darayı, mov, xasxirmə, cəlişi, namazı, tatınlıq, qanovuz kimi ipək parçaların istehsalı ilə məşğul olmuşlar. Rusiyada qanovuz növlü ipək parça (şemaxeyka) xüsusilə məşhur idi. Lakin kəlağayı ipəyi daha məşhur idi (41, 127).

Basqalın ipək istehsalı müəssisələrində darayı, qanovuz, mov,





Boxça. Qurama tikmə (XIX əsr)

cecim və s. arşünnüma toxumalarla yanaşı, yüksək keyfiyyətli çarşab, yorğanüzü, baş örtüyü, kəlağayı, əl dəsmalı və s. kimi ədədi toxumaların üstün yer tutması sənətşünas Gülsüm Əliyevanın tədqiqatlarında qeyd olunur (35, 10). Özü də burada istehsal edilən ipək parçalara, kəlağayı nümunələrinə təkcə Azərbaycanda deyil, kənarda da böyük tələbat olmuş, basqallı ustaların Səmərqənd, Buxara və Tiflis kimi böyük şəhərlərdə ipək sexləri və karxanaları fəaliyyət göstərmişdir. Lakin təəssüflə qeyd etmək lazımdır ki, xalq sənətinin inkişafı xeyli dərəcədə əmək şəraitinin dəyişməsi ilə bağlı olduğundan, XIX əsrin ortalarından etibarən ipəkçilik təsərrüfatı dərin böhran keçirmişdir. Rusiyadan gətirilən və ucuz başa gələn fabrik məmulatının Azərbaycan bazarlarına yol tapması xalq sənətkarlığının ayrı-ayrı sahələrini tənəzzülə uğratmış, bəzilərini isə tamamilə sıradan çıxarmışdır. İpəkçilik təsərrüfatını bürümüş böhran Basqaldan da yan keçməmişdi. Həmin böhranın acı nəticələrini təsvir edən ədəbiyyatların birində yazıldığı kimi, "Basqal Şamaxının iqtisadi ürəyi idi. Burada ipək çox idi, şərbaf azlıq təşkil edirdi. İndi həmin kənd aylarla, illərlə xammalsız oturur, əsil-nəsəbləri usta olan, kobud dəzgahlar arasında zərif, misli görünməmiş qumaşlar toxuyan şərbafların nəsli yoxa çıxır..." (35, 9).



Basmaqəlib naxışlı ipək yorğan üzü

Ürək ağrısı ilə deyilən bu sözlər XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda ənənəvi parça istehsalının tənəzzül etdiyini çox aydın göstərən faktlardan biridir. Bununla belə, ağır böhran şəraitində

də Basqalda ipəkçilik inkişafını davam etdirirdi. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, XIX əsrin II yarısında Basqal qəsəbəsində 90-a qədər ipəktoxuma müəssisəsi olmuşdur ki, bu da Şamaxının bütün digər kənd və qəsəbələrindəki müəssisələrin birlikdə götürülmüş sayını iki dəfə üstələyirdi (41, 76).

XX əsrin əvvəllərində, daha dəqiq desək, 1912-1913-cü illərdə Basqalda ipək istehsalı ilə 900 sahibkar məşğul olur və onlar üst-üstə 1400 dəzgaha malik idilər (104, 21-22). Ümumiyyətlə, ipək istehsalı ilə bağlı statistik rəqəmlərə nəzər saldıqda görürük ki, XX əsrin əvvəllərində Basqal toxucu karxanalarının sayına görə Şirvan regionunda yalnız Şamaxıdan geri qalmışdır. Deyilənə görə, o zaman Basqalda emalatxana və ya toxucu karxanası olmayan insanlar belə, evinin bir küncündə dəzgah quraşdırıb, sözün əsil mənasında bu incə sənətlə məşğul olurdular. Yaşlı sakinlərin dediyinə görə, Qalabaşı məhəlləsinin isə az qala bütün evlərində ipək toxunurdu.

İpəkçiliyin texnoloji əsasları və məmulat istehsalı prosesi bir-birini tamamlayan bir neçə mərhələdən ibarət idi: əvvəlcə barama boğulur, sonra sabunlu suda qaynadılaraq mancılıq (çuqun və ya mis tiyandan, qoz ağacından hazırlanmış çarxdan, qarqara və qayışdan ibarət olurdu) vasitəsilə açılırdı. Bundan sonra "çarxto" adlanan dəzgahda tovlanaraq kələf halına salınırdı. Buna *xam ipək* deyirdilər (118, 197-198). Təkotaqlı hündür və geniş binada (çarxtoxanada) quraşdırılmış tov dəzgahı bir neçə hissədən ibarət mürəkkəb istehsal texnologiyasına malik idi. İpəktoxumanın ən çətin və ağır mərhələsi də elə onun tovlanması idi. Ona görə də tov ustaları çox vaxt kargər və ya şagirdlə köməkli işləyirdilər.

Daha sonra xam ipəyin seçilib sarınması başlanırdı ki, bu işlə *nəqqatlar* məşğul olurdu. Karxana toxuculuğunun inkişaf etdiyi istehsal mərkəzlərində nəqqatlar ilboyu işləyirdilər. Etnoqrafik materiallardan görünür ki, XIX əsrin sonlarına qədər istehsal fəaliyyətini davam etdirən şərbaf karxanalarında nəqqat əməyinə tələbat azalmamış, Basqal və Mücü qadınlarının yarıdan çoxu məhz nəqqat sənəti ilə məşğul

olurdular. Nəqqat, əsasən, sifariş əsasında işləyirdi. O, şərbafdan girvənkə hesabı ilə çəkib aldığı ipək kələfini sarıyıb qurtarandan sonra onu küpü üzərində sahibinə qaytarırdı. Sarınmış ipək geri təhvil verilən zaman "küpü"nün yeri çıxılır və üzərinə "yontu" əlavə edilirdi. Sarıma əməliyyatı başa çatdıqdan sonra ipək bişirilirdi. Yeri gəlmişkən, karxana toxuculuğu şəraitində ipək mərhələlərlə bişirilirdi. Bu məqsədlə istər çillə, istərsə də ara ipəyi əvvəlcə kələflənir və qəlyadaşından hazırlanmış şirabda bişirilirdi. Qəlyadaşı şoran sahələrdə bitən sarağan bitkisindən hazırlandığından, çox vaxt ona *"sarağan daşı"* da deyilirdi.



İpək yorğanüzü

Basqalın ipək istehsalı müəssisələrində hazırlanan çoxçeşidli məmulat arasında *bədii parçalar* da mühüm yer tuturdu. Bu sənət sahəsi XVI-XVII əsrlərdə daha çox inkişaf etmişdi. Məhz bu dövrdə Azərbaycan toxuculuğu sənaye mərhələsinə keçmiş, istehsal olunan bədii parça və tikmə məmulatı Avropa bazarlarına yol tapmışdı. İpək məmulatının bu növü digərlərindən fərqli olaraq, daha çox hədiyyə qismində müxtəlif ölkələrə aparılır, əksər hallarda saray adamlarının və din xadimlərinin təmtəraqlı geyimlərinin, ev və məişət bəzəklərinin mühüm qismini təşkil etmişdir. Təsadüfi deyil ki, indinin özündə də Rusiyanın və bəzi Avropa ölkələrinin muzeylərində XVI-XVII əsrlərə aid Azərbaycan bədii parçalarının orijinal nümunələrinə təsadüf olunur. Araşdırıcılar bunun bir səbəbini Azərbaycanın həmin ölkələrlə mövcud olmuş ticarət əlaqələri ilə bağlasalar da, digər səbəb kimi həmin ölkələrdə vaxtaşırı keçirilən sərgiləri göstərirlər. Xüsusilə 1857-ci il (Tiflis), 1861-ci il (London),

1872-ci il (Moskva), 1889-cu il (Tiflis), 1900-cu il (Paris), 1902-ci il (Sankt-Peterburq), 1913-cü il (Moskva) sərgilərində Azərbaycanın bədii parça ustaları və həvəskarlar öz əsərləri ilə böyük uğurlara imza atmış, müxtəlif mükafatlar, diplomlar, qızıl və gümüş medallarla təltif olunmuşlar. Həmin parçalar içərisində atlaz, tafta, mov, darayı, qanovuz, kəlağayı, çarşab, ləçək, yaylıq, süfrə, örtük və s. daha mühüm yer tuturdu İpəkçiliyin, şərbaflığın inkişafı ilə əlaqədar dərziliklə məşğul olan usta sənətkarlar isə həmin parçalardan istifadə etməklə, milli geyim dəstlərinin yeni-yeni növlərini yaradırdılar. Təsadüfi deyil ki, o dövrün bəzi geyim nümunələri də elə hazırlandıqları parçanın adı ilə – "qanovuz don", "tirmə köynək", "abı nimtənə", "xara çəpkən", "alaça köynək", "xara şal", "atlas don", "güllü-butalı kəlağayı", "zərbaf kəmər" və s. adlandırılırdı. Həmin parçalar geyim növü olmaqla bərabər, həm də basqallıların estetik zövqünün, bədii təxəyyülünün, həyat tərzinin, o cümlədən sosial-iqtisadi vəziyyətinin göstəricisi kimi çıxış edirdi.

Basqalın İpəkçilik təsərrüfatında qanovuz toxuculuğu mühüm yerlərdən birini tuturdu. Qanovuz toxuculuğunda əsasən, tovlu ipək saplardan istifadə edirdilər. Bu prosesin gedişində saplar hamarlanır, möhkəmləndirilir və toxunma üçün hazır vəziyyətə gətirilirdi.

Texnoloji baxımdan sapların düzgün yerləşdirilməsi mühüm şərt hesab edilirdi. Dama-dama parça istehsalı daha geniş yayılmışdı. Belə parçaların çilləsinin hazırlanmasında əsas çarxlarla bərabər, müxtəlif ornament elementləri əmələ gətirən köməkçi çarxlardan (qələmçə) da istifadə olunurdu. Çillə və ara ipəyini müxtəlif rənglərlə rəngləməkdən öncə onu potaş suyunda bişirir və bəzi yapışqanlı maddələrdən və yağlardan təmizləyirdilər.

İpəyin bişirilməsini yüngülləşdirmək məqsədilə ona xüsusi forma verirdilər. Bunun üçün ipək saplar çarpaz dəzgahlarında çarpazlaşdırılır və burada kələfçə şəklində yenidən sarınırdı. Bu işlə şərbaf şəxsən özü məşğul olurdu.

Qanovuz çilləsinin rənglənməsindən sonra onları boyama zamanı

məruz qaldıqları qüsurlardan təmizləyir, əvvəlki forma və keyfiyyətini qaytarırlar. Bu məqsədlə sapları nişasta qarışığında yuyur, sonra çarxlara bölünmüş çillə nirə və şanadan keçirmək üçün xüsusi ustalara – tərrahlara təhvil verirdilər. *Tərrah* dəzgahında emal edildikdən sonra şərbaf xüsusi düzülmüş çilləni kargər və pəstəkarın köməyi ilə toxucu dəzgahında qururdu. Yeri gəlmişkən, informatorlar Basqalda qanovuz parça istehsalının XX əsrin 30-cu illərinə qədər davam etdiyini söyləyirlər.

"Tafta", "darayı" və "qanovuz" adlanan qadın paltarı üçün ipək materiallardan başqa, Basqalda "tor" adlı toxuma ipək şərflər və ipək örtük materialı – *"yorğanüzü"* istehsalı da geniş yayılmışdı. İnformatorların sözlərindən məlum olur ki, XIX əsrdə ipəkçiliyin bu sahələri üzrə Hacı Seyid Məhəmməd Hacı Əkbər oğlu və Əliabbas Cəbrayıl oğlu xüsusilə böyük şöhrət qazanmışdılar.

İpək toxuculuğunun mühüm sahələrindən olan *cecim toxuculuğu* haqqında isə xüsusi danışmaq lazım gəlir. Cecim istehsalı ən qədim ev sənəti sahələrindən olub, bir vaxtlar Azərbaycanın çox yerində yayılmışdı. Bunun da əsas səbəbi cecimə tələbatın böyük olması idi. Şəhər və kənd evlərində divar boyu uzadılmış dör-döşəyi, nimdər, mütəkkə, balınc, püştü, döşək, yorğanüzü, taxça və camaxatan pərdəsi, yükörtüyü, buxarı qabağı, gərdək. canamaz, süfrə və s. üçün ən münasib toxuma məmulatı məhz cecim sayılırdı. Cecim məmula-



İpək cecim (XIX əsr)

tından milli geyim növləri (köynək, şalvar, çuxa, arxalıq, qurşaq, patava və s.), həmçinin heybə, yəhər qaşı, ladı, kəpək torbası, duz torbası, qaşıqlıq və s. zəruri məişət avadanlıqları da hazırlanırdı. Bununla yanaşı, xalis ipəkdən toxunmuş cecim məmulatı keçmiş məişətdə cah-cəlal, qiymətli ev əşyası sayılırdı.

Cecimi adətən bir nəfər qadın toxuyurdu. Lakin ikiqat və mürəkkəb ornamentli cecim növlərinin istehsalında toxucunun yanında ipək telləri aralamaqla məşğul olan daha bir nəfər köməkçi – *"yançı"* işləyirdi. Cecimlər toxunma xüsusiyyətlərinə görə palazla eynilik təşkil etsə də, bədii cəhətdən ondan müəyyən qədər fərqlənir. Üfüqi keçirilən rəngli arğaclar palazın əsas bəzəyini – üfüqi zolaqları yaradır. Cecimin bəzəkləri isə şaquli istiqamətli enli və ensiz zolaqlardan ibarət olur və çox vaxt zolaqların üzəri müxtəlif formalı həndəsi ornamentlərlə bəzədilir. Cecim istehsalında tətbiq olunmuş dəzgahlar tip və quruluş etibarilə ev toxuculuğunun digər sahələrində işlənən şaquli və üfüqü dəzgahlarla tipoloji oxşarlıq təşkil edir və *dik hana*, *üfüqi hana* olaraq adlandırılırdı. Onların hər iki növü zəmanəmizədək gəlib çatmışdır (60, 286-287).

Yeri gəlmişkən, Basqalda cecim naxışları ilə bağlı yayılmış bir rəvayəti qeyd etmək yerinə düşər. Deyilənə görə, keçmişdə Şamaxıdan və onun ətraf kəndlərindən olan toxucu qadınlar zolaqlı cecim xalçaların və parçaların rəng naxışlarını təbiət hadisələri ilə əlaqələndiriblər. Bu barədə danışan informatorumuz söylədi ki, yazda ara vermədən gürşad leysan yağışları insanlar tərəfindən bir qayda olaraq sevinclə qarşılanır, bərəkət, bolluq suları sayılır. Belə yağışlar kəsən kimi göy üstündə qövsi-qüzeh – bir-birinin ardınca düzülən yeddi rəngli göy qurşağı görünəndə isə bol məhsulun yetişəcəyinə inanıblar. Ona görə evdə də həmişə bolluq olsun deyə, göy qurşağının rəngli zolaqlarını toxumaya köçürmüşlər. Təsadüfi deyildir ki, göy qurşağı görünəndə el arasında "qarı nənə cecimini sərdi" və yaxud "qarı nənə hana uzadır, qırmızısı mənim" – deyirlər.

Cecimin növlərindən biri olan *alaca* ipək parçadan çox sıx toxunur. Vaxtilə əsasən kübar qadınların üst geyimlərinin hazırlanmasında istifadə edilmiş alaca indinin özündə də müəyyən geyim növlərində istifadə edilir. Alacanın qırmızı və ağ rəngli ikişər zolaqlı naxışları olur. Bu zolaqlar "alacalı naxış" adı ilə Mahmud Qaşqarlının "Düvani lüğət it-türk" əsərində də təsvir edilmişdir. Qədim türk toxumalarından olan alaca möhkəm və davamlı olması ilə fərqlənərək, türk xalqlarının əl işləri arasında mühüm yer tutmuş və *«alaköynək»* adı ilə geniş yayılmışdı.

Xam ipəkdən hazırlanan məmulatlar bir qayda olaraq orta əsrlərdən son dövrlərə qədər böyük təkamül yolu keçmiş mütəhərrik ipək dəzgahlarında (yezdimo, dördayaq, kəlağayı dəzgahı) toxunurdu. Onların texniki quruluşu və işləmə mexanizmi etnoqraf Arif Mustafayev tərəfindən ətraflı təsvir edilmişdir (60, 135-139). Toxuculuq dəzgahları və istehsal ləvazimatlarının çoxu yerli idi. Məsələn, Basqala qonşu olan Mücü kəndində müxtəlif parça və ipək mallar toxumaq üçün dəzgahlar düzəldilirdi (19, 55). Sadə quruluşa malik belə dəzgahlar texniki göstəricilərinə görə Avropa və Rusiyada istifadə olunan dəzgahlardan geri qalsa da, onda istehsal olunan ipək məmulatı həmin Avropanı və Rusiyanı heyrətə salırdı.

Xatırladaq ki, kəlağayı toxuculuğunda istifadə olunan dəzgahlardan biri bərpa olunaraq hal-hazırda Milli Azərbaycan Tarixi Muzeyində qorunub saxlanılır.* Həmin dəzgah təbii ağac materialından və qarğıdan hazırlanmış və aşağıdakı əsas və köməkçi hissələrdən ibarətdir: pəlkeş, nəvər, cangüzə, məkik, şana və nirə, alt və üst çənə, külçəbağara, şüftir, xərək, yezbənd və s. Dəzgaha əlavə olunan "küpü" ipək sapın dolanması üçün nəzərdə tutulmuşdur.

---

* Dəzgah Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı Gülzadə Abdulovanın təşəbbüsü və onun iştirakı ilə 2011-ci ildə 90 yaşlı basqallı usta Yunus Balayev tərəfindən ekspozisiya zalında quraşdırılmışdır. İnventar № EF 9816

## Bədii tikmə

Vaxtilə Basqal özünün bədii tikmələri ilə də şöhrət qazanmışdı. Bədii tikmə sənətinin də tarixi çox qədimlərə gedib çıxır və bunu Gəncə, Şamaxı, Gədəbəy, Şəki, Mingəçevir, Örənqala və Abşeronda aparılan arxeoloji qazıntılar zamanı tapılan çoxlu sayda ipək, yun, pambıq parça tikələri, ayrı-ayrı tikmə nümunələri də sübut edir. Tarixi qaynaqlarda, şifahi və klassik ədəbiyyatda da orta əsrlər Azərbaycan bədii tikmə ustalarının əl işləri haqqında məlumatlar vardır. XIII yüzildə mahud üzərində rəngarəng ipəkdən işlənmiş Şəki tikmələri çox məşhur olmuşdur. Səfəvilər dövrünə aid Təbriz miniatür məktəbi surətlərinin geyimində, ev və məişət əşyalarının üzərində də bədii tikməli təsvirlərə rast gəlinir. Mütəxəssislər hesab edir ki, bədii tikmə sənəti gəlir qazanmaq məqsədi daşımayıb, xalqın məişət və estetik ehtiyaclarının vasitəsi kimi meydana gəlmişdir.



Bədii tikməli ipək əba (XIX əsr)



Bədii tikmə. Araqçın. XIX əsr



Bədii tikmə. Daraq qabı. XIX əsr

Bakı şəhərinin muzeylərində apardığımız müşahidələrdən məlum olur ki, vaxtilə Basqal sənətkarları tərəfindən hazırlanmış toxuculuq nümunələri, həmçinin al-qırmızı, qızılı, gümüşü, yaşıl və b. könül oxşayan rəngli saplarla tikilmiş nəfis geyimlər – arxalıqlar, başmaqlar, qadın və kişi baş geyimləri, bədii parçalar Basqalın tanınmış bədii parça ustalarından olan Kəbutər xanım Hacı İsmayıl qızına və başqalarına məxsusdur. Onların əl işləri XIX əsrin I yarısında bir sıra şəhərlərdə keçirilən sərgilərdə fəxri yer tutaraq diplomlara layiq görülmüşdür. Məsələn, Kəbutər xanım Hacı İsmayıl qızı tərəfindən çox incə zövq və ustalıqla ön hissəsi mirvari və sədəflə tikilmiş qadın arxalığı və Narınc Məşədi Əbdüləli qızının hazırladığı qadın və kişi araqçınları Azərbaycan Dövlət İncəsənət Muzeyində nümayiş olunur. Bundan başqa, Basqal Kəlağayı Muzeyində saxlanılan nəfis şəkildə hazırlanmış örtüklər də əlvanlığı, tikmə üsulu, rəng koloriti və rənglərin tətbiqi baxımından könül oxşayır. Bədii tikmə ustaları bu gözəl sənətin sirlərini Basqalın istedadlı gənclərinə də öyrədirdilər.

Bir vaxtlar qızılı və gümüşü saplardan güləbətin tikmələrin, üst geyimlərin, taxt örtüklərin, heybə və xurcunların, yastıq və mütəkkələrin üzərini bədii tikmələrlə bəzədilməsi dəb olmuşdur. Daraq, qələm, ətriyyat, pul və s. üçün balaca kisələr tikər və bunun da üzərinə cürbəcür naxışlar salardılar. Bu naxışlar əsasən tünd qırmızı yerli, sürməyi yerli, ağ yerli, bənövşəyi, firuzəyi yerli parçalar üzərində işlənirdi. İncəsənətin digər sahələri kimi, onlar da bir növ şair təbiətli, rəssam təxəyyüllü basqallı nənələrin arzu, istək və məhəbbətinin tərənnümü, sevgi dolu qəlblərin çırpıntıları, insanların həyat tərzinin, iqtisadi və mədəni həyatının, bədii yaradıcılıq təxəyyüllünün və zövqünün bədii ifadəsi idi.

**Kəlağayıçılıq**

Azərbaycanda kəlağayı istehsalının tarixi barədə hələlik dəqiq məlumat yoxdur. Doğrudur, bəzi mənbələr vaxtilə "çarqat" adı ilə məlum olan zərif baş örtüyü növünün ənənəvi şərbaflıq mərkəzlərinin demək olar ki, hamısında istehsal olunduğunu xəbər verir. Məsələn, görkəmli alim, akademik Ə.Əlizadə "Hüdud əl-aləm"ə istinadən hələ X əsrdə Azərbaycanın Bərzənd şəhərində baş örtüyü istehsal olunduğunu yazır. Burada hansı növ baş örtüyündən söhbət getdiyi məlum olmasa da, digər bir mənbədə – "Əcaib-əd dünya" adlı XIII əsrə aid anonim mənbədə Təbrizin sənət məhsulları içərisində güləbətinlə tikilmiş xüsusi baş örpəyinin adı çəkilir.

XVII əsrin Hollandiya səyyahı Yan Streys də Şamaxı zadəganları arasında şöhrət qazanmış güləbətin toxumalı yüksək keyfiyyətli baş örtüyündən bəhs edir. Lakin bu baş örtüyünün kəlağayı olmadığı dəqiqdir, ona görə ki, güləbətin toxuma texnikası ilə hazırlanmış məmulat basmaqəlib üsulu ilə ona əlavə bəzək vurulmasını tamamilə istisna edir. Bununla belə, məşhur türk səyyahı Övliya Çələbinin Naxçıvan kişilərinin qələmkar parçadan köynək geyindikləri haqqında məlumatı, hələ XVII əsrə qədər Azərbaycanın toxuculuq mərkəzlərində boyaq üsulu ilə bəzək texnikasının özünün yüksək inkişaf mərhələsində olduğunu sübut edir.

Basqalda da kəlağayı istehsalının tarixi dəqiq məlum deyil. Lakin heç şübhəsiz ki, bu diyarı təkcə Azərbaycanda deyil, bütün dünyada şöhrətləndirən, tanıdan məhz onun zərif, incə, gözəl kəlağayıları – kəlağayı sənətkarlığı olmuşdur. Belə ki, Basqal tarixən Azərbaycanın Şamaxı, Gəncə, və Şəki kimi dünya əhəmiyyətli siyasi və iqtisadi mərkəzlərlə bərabər, Qafqazda kəlağayıçılığın əsas mərkəzlərindən hesab edilmiş və bu sənət sahəsi basqallıların iqtisadi həyatının əsasını təşkil etmişdir. Burada hazırlanan yüksək keyfiyyətli və çoxçeşidli

kəlağayılar təkcə yerli tələbatı ödəməyib, xarici ölkələrə də ixrac edilmişdir (3, 82-83). Bu barədə bir çox mənbələrdə, o cümlədən, rəsmi dövlət sənədlərinə istinadən XIX əsrdə Rusiyada çap olunan "Qafqaz təqvimi" jurnalında mütəmadi olaraq məlumatlar çap olunmuşdur.



Kəlağayı kolleksiyası

Xatırladaq ki, Azərbaycanda bütün orta əsrlər boyu inkişaf edən kəlağayıçılıq sənətkarlığı XVIII-XIX əsrin əvvəllərində bədii-texniki və texnoloji baxımdan özünün çiçəklənmə dövrünü yaşayırdı. Lakin əsrin ortalarında ipəkçilik təsərrüfatını bürümüş böhran, ipəkqurdu xəstəlikləri və ucuz fabrik məmulatının karxana mallarını sıxışdırması bu sənət sahəsinin də tədricən zəifləməsinə və hətta bəzi kəlağayaçılıq mərkəzlərinin bağlanmasına gətirib çıxarmışdı. XX əsrin əvvəllərində proses daha da dərinləşmiş və nəticədə Azərbaycanda kəlağayı istehsalı iki ünvanda – Basqalda və Gəncədə cəmləşmişdi (60, 141). Beləliklə, Basqal həmin dövrdən etibarən kəlağayıçılıq sənətini yaşadan, onu həm bədii-estetik və həm də texniki cəhətdən inkişaf etdirən, zənginləşdirən əsas mərkəz rolunu yerinə yetirməyə başlamışdır. Bu fakt bir çox tarixi mənbələrdə, o cümlədən, dövrün iqtisadi təhlilinə aid elmi əsərlərdə də əksini tapmışdır. Məsələn, mənbələrin birinin məlumatına görə, Birinci dünya müharibəsi ərəfəsində Basqalın kustar şərbafxanalarında il ərzində 1 milyon 800 min ədəd kəlağayı isteh-

sal edilmiş və Basqal boyaqxanalarının bu qədər kəlağayını boyamağa gücü çatmadığından, onların xeyli hissəsi Şamaxı, Gəncə və Bakıya göndərilmişdir (92, 42; 118, 141). Şahidlər də bildirirlər ki, bir vaxtlar çoxlu sayda toxucu karxanalarından başqa, qəsəbənin demək olar ki, hər bir evində kəlağayı toxuculuğu ilə məşğul olurdular. Lakin kiçik ev emalatxanalarında əllə istehsal olunan kəlağayıların parçası həm gözəlliyi, həm də keyfiyyəti ilə fərqlənirdi. Ailənin bütün üzvləri bu işlə məşğul olur və təbii ki, boyama sirlərini və naxışlanmanın dilini bilirdilər (41, 128). Tədqiqatçı Tahir Cəfərli qeyd edir ki, kəlağayı ustaları bütün günü evin bir küncündə quraşdırılan toxucu dəzgahının arxasından durmazdılar. Hər evdən dəzgahın məkisinin nəğməni xatırladan ahəngdar səsi – "çak-çuk, çak-çuk"u eşidilərdi. Necə deyərlər, elə ki "basqallı dəzgah arxasında işlədi, elə bil tərki-dünyadır, özünün böyüklüyünü, güclülüyünü anlayır. Heç nəyi görmür, heç nəyi eşitmir. Qulaqları məkinin ritmik səsini tutub dəzgahın necə işlədiyini toxucunun beyninə çatdırırdı. Bu ritm pozulduqda toxucuya gözə güclə görünən ipək sapların ahənginin pozulduğunu çatdırırdı. Belə olduqda toxucu dəzgahı dayandırır, qırılmış sapı milyonlarla sapın arasından tapıb çıxarır və birləşdirir. Yenidən dəzgahı işə salırdı... Qadınlar dəzgahın altında ipək sarıyar, uşaqlar cəhrəyə bənzər alətdə lülələri ipək sapla doldurar, kişilər isə kəlağayı toxunduqca, bütün əzalarını – əllərini, ayaqlarını, bellərini, boyunlarını, hətta fikirlərini də işlədərdilər. Bir sözlə, ailənin özü dəzgahla birlikdə vahid bir mexanizmi xatırladırdı. Bunlardan biri bu prosesdən qıraqda qalırdısa, iş ahəngi pozulurdu, məhsuldarlığı azalırdı. Hamının çörəyi, evin, ailənin ruzisi dəzgah arxasında oturub səhərdən axşama qədər işləyən ailə başçısından, yaxud onu əvəz edə bilən oğullarından asılı idi. Basqalda əsrlər boyu vərdiş halına keçmiş bu həyat tərzini heç nə və heç kim poza bilməzdi" (27, 110).

Kəlağayı karxanalarının istehsal gücü quraşdırılmış dəzgahların

texniki səviyyəsindən və orada çalışanların sayından asılı olurdu. Bu barədə məlumat verən informatorlarımızın sözlərinə görə, məsələn, Həbibulla Həmid Abbas oğlunun dörd dəzgahdan ibarət toxucu karxanasında səkkiz nəfər kişi fəhlə fəaliyyət göstərir və onlar qanovuz, mov, darayı və tafta parçalar, eləcə də müxtəlif ölçülü və naxışlı pərdəlik parçalar, kəlağayılar, baş və əl yaylıqları və s. toxuyurdular. Yerli ipəkdən istifadə edilməklə toxunan məmulat Şamaxıya göndərilirdi.

Hacı Səmədə məxsus toxuculuq karxanasında isə 4 usta və 4 fəhlə çalışırdı. Burada da tafta və qanovuz ipək parçalar, habelə müxtəlif növ kəlağayılar və yaylıqlar istehsal olunurdu. Hacı Seyid Məmməd Hacı Əkbər oğluna və Əliabbas Cəbrayıl oğluna mənsub olan toxucu karxanalarının da əsasən kəlağayı istehsalı üzrə ixtisaslaşmalarına baxmayaraq, burada istehsal olunan qanovuz parçalara, yaylıqlara və s. istər daxili bazarda, istərsə də qonşu ölkələrin bazarlarında böyük tələbat var idi. Basqalın qocaman kəlağayı ustalarının məlumatına görə, orta səviyyəli belə karxanalarda bir gündə 25-30 kəlağayı istehsal etmək mümkün idi. Bəzən elə də olurdu ki, kəlağayı naxış ustaları ipək parçanı hazır şəkildə ya Şamaxıdan, ya da Şəkidən funtu 5-10 manata alırdılar.

Karxana toxuculuğu şəraitində kəlağayıçılıq sənəti bir-birini ardıcıl izləyən bir çox peşə və sənətlərin sintezi kimi ortaya çıxır. Buraya əyirici, toxuyucu, boyaqçı və naxışbasma iş sahələri aiddir. Bunlar bir müəssisədə ayrı-ayrı ustalar və ya bir peşəkar usta tərəfindən icra olunurdu. Belə sənətkarlar xalq arasında "ustakar" adlandırılırdı (35, 62). İlk olaraq, şərbaf nəqqatdan təhvil aldığı ipəyin müəyyən hissəsini lüləvəkilə verib dövr (cəhrə) vasitəsilə lülə sarıtdırır, qalan hissəsindən isə çilləçarxda karatan vasitəsilə çillə çəkdirirdi. İpək parça toxuculuğundan fərqli olaraq kəlağayı çilləsi tovlanmırdı. Çillənin uzadılıb qələməklərə bölünməsi əməliyyatı ilə şərbaf özü bir nəfər kömək-

çisi ilə məşğul olurdu. Qələməklərə bölünmüş çillə tərraha verilib nirə və şanadan keçirilib qurtardıqdan sonra təkrar sahibinə qaytarılırdı. Şərbaf kargər və şagirdin köməyi ilə onu açıb kəlağayı dəzgahına qoşurdu. Yeri gəlmişkən, kəlağayı dəzgahlarının əksər hissələri – *nəvərd, dəstək, xərək, yezbənd* və s., eyni zamanda köməkçi hissələri (qarqar, külgə-bağara) də sifarişlə dülgər və xarrat tərəfindən düzəldilirdi.

İşin başa çəkilməsinin növbəti mərhələsində nirə və şana bəndəklər vasitəsilə dəzgahın hərləmə ağacından asılırdı. Dəzgahın bu mütəhərrik hissələri yerbəyer ediləndən sonra çillənin başı karvankeş vasitəsilə nəvərdə qoşulurdu. Bunun üçün xəlfə (kargər) karvankeşin baş örtüyünün arasına qoyulmuş mili nəvərdin yarığına salıb pəlkeş vasitəsilə nəvərdi fırladırdı. Nəvərd fırlandıqca karvankeşin başını özünün altına alır və onun sabit qalmasını təmin edirdi. Kargər nirələrin alt çubuğunu kəndir və ya ciyə vasitəsilə təpkənlərə qoşur, xərəyi çillənin üzərinə basıb, çarpaz qarğılarını yerbəyer edəndən sonra dəzgahın arxasına keçib toxumağa başlayırdı. *"Putatma"* adlanan bu əməliyyat ara ipəyini çillə çarpazlarının arasından keçirib onları aramsız olaraq bir-birinin yanına sıxlaşdırmaqdan ibarətdir. Əvvəllər kəlağayı dəzgahında məkik çillə çarpazlarının arasından əllə



Kəlağayı dəzgahı. Basqal

atılmaqla ötürülürdü. XX əsrin əvvəllərindən etibarən o, mexaniki üsulla, xüsusi məkitutan qurğunun köməyi ilə ötürülməyə başlanmışdı.

Arşünnüma toxunan ipək parçalardan fərqli olaraq kəlağayı ədədi qaydada toxunur və bu məqsədlə xüsusi ölçü ipindən istifadə olunurdu. Hər dəfə 20-25 ədəd kəlağayı toxunandan sonra nəvərd dolur və kargərin işini çətinləşdirirdi. Ona görə də toxuma əməliyyatını dayandırıb, nəvərdi geri açmaqla, hazır kəlağayıları götürürdülər. Bu halda nəvərdə dolanmaq üçün sonuncu kəlağayını saxlayıb onun vasitəsilə çilləni nəvərdə qoşurdular. Bu qayda ilə bir bəstan işin çilləsi tamam qurtarıncayadək toxuma əməliyyatı davam etdirilirdi. Lakin çillənin sona çatmasını gözləmədən kəlağayının hər bir dəstəsi toxunub hazır olandan sonra, kəsildikcə boyaqxanaya verilib naxışlanır, yaxud da "ağ mal" adı ilə boyaqçılara satılırdı..." (61, 144). Beləliklə məhsulun boyadılması prosesi başlanırdı.

Onu da nəzərə almaq lazımdır ki, Basqalın kəlağayı ustaları uzun illər çox ağır mənəvi-ictimai bir mühitdə fəaliyyət göstərmişlər. Xüsusilə Sovet hakimiyyətinin ilk illərində onlar "müftəxor", "tüfeyli", "zəhmətsiz gəlirlə yaşayanlar" və s. bu kimi böhtançı adlarla damğalanaraq təqib olunur, çalışmalarına imkan verilmirdi. Qəsəbə tez-tez milislərin, müfəttişlərin, sovet və digər hakimiyyət strukturlarının hücumlarına məruz qalırdı. Yerli əhalidən olan bəzi adamlar da buradakı işləri, danışılan söhbətləri bir su içimdə müvafiq orqanlara çatdırırdılar. Qəsəbənin qocaman kəlağayı ustası Qadir Səfiyev onu da söylədi ki, özlərini və məhsullarını müxtəlif orqanların hücumlarından qorumaq üçün qəsəbə sakinləri ətrafda növbə ilə keşik çəkir, təhlükə anında müxtəlif işarələrlə (məşəl yandırmaqla, mis qabları döyməklə) bir-birini xəbərdar edir, sahibkarlar dərhal mallarını və avadanlıqlarını yeraltı yollarla təhlükəsiz yerlərə daşıyırdılar. Bu zaman basqallıların çörək bişirmək üçün istifadə etdikləri yeraltı təndirlər də onların köməyinə gəlirdi. Belə ki, hücum zamanı şərbaflar məhsullarını bəzən

bu təndirlərdə gizlədir və üstünü örtürdülər. Lakin elə də olurdu ki, cana doymuş basqallı şərbaflar doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalır, "hazırladıqları kəlağayıları da götürüb Tiflisə, Batuma, Krıma, Tatarıstana, Rusiyaya, Orta Asiyaya (Aşqabada, Daşkəndə, Buxaraya və s.), İrana və başqa ölkələrə üz tuturdular.

Sənətkarların çoxu öz mallarını bilavasitə özləri satırdılar. Bundan başqa, iqtisadi əlaqələr yaratmaq, istehsalı artırmaq və genişləndirmək məqsədilə Basqal tacirləri ayrı-ayrı şəhərlərdə (Tiflisdə, Şəkidə, Gəncədə) kəlağayı karxanaları açır və ora ustalar göndərirdilər ki, işə rəhbərlik etsinlər" (27, 86-87). Bu cür səfərlər ticarəti genişləndirməklə yanaşı, həmin ölkələrin və şəhərlərin toxuculuq mərkəzləri ilə, yeni dəzgahlarla tanışlıqlarına da imkan və şərait yaradırdı.

Onu da qeyd edək ki, Basqalda uzun bir tarixi dövr ərzində çoxlu sayda insanlar irsən yaşatdıqları bu qədim sənəti davam etdirib sonrakı nəsillərə çatdırmışlar. Qəsəbənin yaşlı sakinlərinin hələ də xatırladıqları Tağıyev Həbib Əbdüləhəd oğlunun, onun atası Əbdüləhəd Hacı Həbib oğlunun, onun babası Hacı Heydər oğlunun və başqalarının adları indi də ehtiramla yad edilir. Dübbə kişinin, Əlbağır kişinin, Nəcəfqulunun, Şasılın, Ağarəhimin, Xəlyullanın, Məşədi Calal əminin toxuduqları ipək yorğanüzü və kəlağayısı adla tanınırdı. Deyilənə görə, Məşədi Yusif bir qayda olaraq toxuduğu məmulatın üzərinə müştərisinin adını da yazırdı. Amma çox təəssüf ki, Məşədi Yusif bu sənətin sirlərini heç kimə, hətta övladlarına belə öyrətməmişdi. "Yeddi rəng" (İspirəy), "Heyratı", "Hələbi", "Gülvəngi", "Qonşuçatladan", "Bağdadı", "Saçaqlı", "Şamaxı", "Bəstə-nigar", "Gəlinlik" (qıraqları yaşıl, ortası qırmızı), "Noxudu", "Mixəyi", "Bənövşəyi", "Yaşıl-qara", "Yemişani", "Zeytuni", "Ağzəmin-zanbağı", "Ağzəmin-qızılı", "Qızılı" və s. Basqal kəlağayılarının ən qiymətli, ən gözəl örnəkləri sayılırdı. Onlar bir-birindən çeşidli naxışları, tərtibatının zənginliyi, boyalarının rəngarəngliyi, bəzəklərinin müxtəlifliyi və rəng harmoniyası ilə fərqlənib, hamının diqqətini cəlb edirdi. Hər birinin də adının fəlsəfəsi, təyinatı,

xalq məişətində özünəməxsus yeri vardı. Vaxtilə qadınlar bölmə kəlağayı (kəlağayının dörddə bir hissəsi) ilə başlarına *"dingə"* bağlayır, üstündən isə iri kəlağayını örtərdilər. Bundan başqa, keçmişdə eni-uzunu 2 metr olan ipək kəlağayılar da toxunurdu ki, onlardan həm də yorğanüzü kimi istifadə olunurdu.



Kəlağayı nümunələri

Naxışlarına, rənglərinə görə fərqlənən kəlağayıların zirvəsi, şahı isə "*Yeddirəng kəlağayı"*dır. Onu nə az, nə çox, düz doqquz dəfə qaynadır, rəngləyir və qurudurlar. *"Heratı"* kəlağayısı haqqında isə

xüsusi danışmaq lazım gəlir. Bu kəlağayının parçasının toxunuşu seyrək olub, biçiminin dəqiq seçimi, naxışları və bəzəyi ilə səciyyələnir. Onun bədii tərtibatında nəzərə çarpan quş, balıq, buta və s. arxaik motivlərlə bərabər, mərkəz hissədə dəyirmi xonçanın verilməsi onu yelləni örtüklərdən fərqləndirir. Xalq ustaları belə xonçalı naxışı «məcməyi-gül» adlandırırlar. "Məcməyi-gül" medalyonları Mərkəzi Asiyada basma və tikmə (süzəni) məmulatlarının da bədii tərtibatında mühüm yer tutur. Hər hansı bir basma məmulatında xonçalı bəzək elementi bütöv qəlibdən deyil, onun dörddə birindən istifadə edilməklə alınır. Bunun üçün də əsas naxış eyni ölçüdə, eyni formada dörd yerə kəsilmiş olur və hər biri dörd dəfə xüsusi hazırlanmış aşqar sıyığa batırılıb üzbəüz və ya simmetrik olaraq məmulat üzərinə basılır. Beləliklə, tam şəkilli "göl", "xonça" və ya "şəms" adlanan medalyonlar alınır (35, 66).

XIX yüzilliyin ortalarından başlayaraq azərbaycanlı toxucular Rusiya və Qərbi Avropa ölkələrində keçirilən bir çox beynəlxalq sərgilərə qatılmaqla, öz sənətkarlıq məharətlərini nümayiş etdirmişlər. Onlardan Əliabbas Cəbrayıl oğlu, Kərbəlayı Nəsir Abdulla Əziz oğlu, Məşədi Həbibulla Hacı Abbas oğlu, Nəsir Əbdüləziz oğlu, Hacıbağır Mirzə oğlu, Hacıələkbər Hacıseyid oğlu və başqalarının adlarını çəkmək olar. Bu ustalar London, Paris, Sankt-Peterburq, Moskva, Tiflis və digər beynəlxalq sərgilərdə qanovuz, tafta və s. kimi saya və sadə klassik naxışlara malik parçaların, basmaqəlib üsulu ilə al-əlvan naxışlanmış kəlağayıların ən gözəl örnəklərinə görə yüksək mükafatlarla təltif edilmişlər. Kərbəlayı Nəsir Əbdüləziz oğlu isə 1861-ci ildə Londonda təşkil edilmiş Ümumdünya sərgisində nümayiş etdirdiyi nəfis kəlağayı və zərif qanovuz parçaya görə sərginin gümüş medalına və diplomuna layiq görülmüşdür. Basqalın yaşlı nəslinin nümayəndələri söyləyirlər ki, kəlağayı ustası Londondan qayıtdıqdan sonra həmin hadisəni belə təsvir edib: "...İngilis xanımları macal vermədilər ki, camaat bir kəla-

ğayıya tamaşa etsin. Bir anın içində yarmarkada keçirilən satış sərgisində hamısını aldılar. Qaldım mat-məəttəl baxa-baxa. Gərək çox aparardım. Allah qoysa, bu səfər çox apararam...".

Toxucu-sənətkarların məharəti, qazandıqları yüksək nailiyyətlər 1902-ci ildə Tiflisdə çağırılmış Qafqaz kustar sənayesi işçilərinin 1-ci qurultayına aid bir sənəddə belə təqdim olunur: "...Onların təhsili olmasa da, sənətkarlıq sahəsində öz avropalı həmkarlarını xeyli üstələyirlər. Hazırladıqları məmulat isə öz bədiiliyi və yaraşığı ilə adamı heyran edir. Avropada işlədilən maşınlar və başqa dəzgahlar burada yoxdur. Onların hazırladıqları məhsullar gərgin işin və bacarıqlı əllərin bəhrəsidir" (53, 100).

Yeri gəlmişkən, kəlağayıçılıq sənətinin mahir biliciləri olmuş həmin insanların basmaqəlib üsulu ilə hazırladıqları əl işləri indiyə qədər bir çox dünya muzeylərində, o cümlədən Azərbaycan Milli İncəsənət Muzeyinin, Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyalarında nümayiş olunmaqdadır. Heç də təsadüfi deyil ki, milli naxış örnəklərinin qorunub saxlanmasında və sonrakı nəsillərə ötürülməsində böyük xidmətləri olmuş bu ustaların adları hələ də hörmətlə və ehtiramla yad edilir. Kəlağayı mütəxəssislərinin sözlərinə görə, bu gün 100 il və daha əvvəl hazırlanmış kəlağayılara baxanda, onların harada və kim tərəfindən hazırlandığını dəqiqliklə demək olar (41, 128). Sevindirici haldır ki, hazırda Basqalda həmin ustaların sənətini yaşadan, inkişaf etdirən və gənc nəslə öyrədən Abbasəli Talıbov, Nizami Məmmədov, Qadir Səfiyev kimi ustalar fəaliyyət göstərməkdədir.

Beləliklə, kəlağayı orta əsrlərdən başlayaraq günümüzə kimi qadınlarımızın milli geyim dəstini tamamlayan ən mühüm örnəklərdən, istər kasıb, istərsə də zəngin təbəqədə Azərbaycan xanımlarının əsas geyim atributlarından biri olmuşdur. Toxucu karxanalarında gənclər üçün, yaşlılar üçün və hətta xüsusi mərasimlər üçün də növbənöv kəlağayılar toxunarmış. Baş örtüyü olmaq funksiyasından başqa,

kəlağayı əsrlər boyu Azərbaycan cəmiyyətində az qala sosial-ictimai münasibətlərin göstəricisinə, insanı beşikdən məzara qədər müşayiət edən bir atributa çevrilmişdi. Bu haqda məlumat verən Rəna İbrahimbəyova deyir ki, keçmişdə adəti üzrə toyda gəlinin başına qırmızı kəlağayı örtərmişlər. Bu oynaq naxışlı, qırmızı rəngli kəlağayı qaynana və qayınata tərəfindən gəlinə bağışlanan vacib hədiyyələrdən biri idi.

Bundan başqa, uşaq dünyaya gələndə, onu anasının gəlin gələrkən başına örtdüyü qırmızı rəngli kəlağayıya bükərdilər. Gənc ana onu 40 gün ərzində belinə sarımalı idi. Yaşlı sakinlərin dediyinə görə, bu həm də qədd-qaməti şux saxlamağa kömək edirdi. İnsan dünyanı tərk edəndə də mafənin üstünə kəlağayı atırdılar. Toya gələn qonaqlar bəyin boynuna da parlaq rəngli kəlağayılar salardılar.

Rəna xanımın sözlərinə görə, kəlağayı qadınlarımızın isməti, sülhün, əmin-amanlığın rəmzidir. Müharibənin, qan tökülməsinin qabağını almaq istəyən analarımız, nənələrimiz döyüşən tərəflərin arasına kəlağayı atanda onlar dayanırdı. Qızlar sevdikləri oğlanın elçi göndərməsinə razılıqlarını ona kəlağayı verməklə bildirərdilər. Adi günlərdə evdən bayıra çıxarkən və ya qonaq qəbul edərkən qadınlar başlarına sakit rəngli "soğanı", "soldurma", "qəhvəyi" və s. rəngli kəlağayı örtərdilər. Asketik çərçivəli (haşiyəli) qara kəlağayı qəmgin əhval-ruhiyyəni ifadə edir, parlaq rənglərlə bolluca naxışlanmış kəlağayı isə sevinc və şadlıq hissləri doğurur. Qədim Azərbaycan adətinə görə, qadın kəlağayısını atdıqda münaqişəni dayandıra bilər. Qız kəbinə razılığını bildirmək məqsədilə ona evlənmək təklifi etmiş gənc oğlana öz kəlağayısını verərdi (60, 132).

Maraqlıdır ki, kəlağayı qadın baş geyimi olsa da, kişilər tərəfindən hazırlanır. Bunun da əslində bir fəlsəfəsi, mənası var. Rəna xanımın sözləri ilə desək, kəlağayıda olan rənglərdə, naxışlarda əslində kişilərin qadınlara münasibəti, hissləri, duyğuları əks olunur. Bəlkə də kəlağayıya bu cür münasibətə görə, xalq ustaları evləri ilə bərabər,

toxucu karxanasının, boyaqxananın qapısına da qoruyucu vasitə olaraq heyvan kəlləsi, üzərlik, nal və s. asar və güman edərdilər ki, bədnəzərdən, xata-bəladan uzaq olacaqlar.

Onu da qeyd etmək lazımdır ki, kəlağayının azərbaycanlıların məişətində yeri və rolu onun zaman-zaman çalma, çarqat, cuna, yaşmaq, yaylıq və s. baş örtükləri ilə bərabər şifahi xalq ədəbiyyatı nümunələrində – dastan, qoşma, gəraylı və bayatılarımızda, aşıq yaradıcılığında geniş şəkildə vəsf edilməsinə səbəb olmuşdur. Burada telləri qızıl düymələrlə, sinələri əlvan muncuqlarla, qulaqları aypara, minarə sırğa, belləri zərbaf kəmərlə, bədənləri çəpkənli, əlvan naxışlı köynəklə, güllü-butalı kəlağayılarla (çarqatla) bəzənmiş, qaş-gözü sürməli el qızlarının, gəlinlərinin poetik obrazlarına tez-tez rast gəlinir:

Kəlağayının ucu sarı,
Açılır könlüm qubarı,
Söylə görüm kimin yarı,
Yaxan düymələ-düymələ

*("Əsli və Kərəm" dastanı)*

* * *

Yaxası mürəssə, çatqızı Gülgəz,
Çarqatının ucu sürmələnibdir...

*(Qurbani)*

* * *

Başına örtübdür kəlağayı gəzər,
Əyri tel üstündən qızıl düymələr.
Belinə yaraşıb zərbafdan kəmər,
Çəpkənli, çarqatlı ağ bədən gəzər

*(Aşıq Abbas Tufarqanlı)*

* * *

Gah zaman başına tirmə şal bağlar,
Gah olur ki, zülf gizləyib, xal bağlar.
Kəlağayı qabağına al bağlar
Yaşılın altından, ağın üstündən

*(Molla Pənah Vaqif)*

* * *

Başında Herat kəlağayı
Hər paltarı darayıdı.
Bəşərə bənzətmək olmaz,
Göydə mələklər tayıdır

*(Aşıq Ələsgər)*

* * *

Odur! Odur! Kəlağayılı qıza bax!
Bizim yurdun kəlağayıdır baş örpəyi.
Həşyələri neçə-neçə rəngə çalaraq,
Şölə verir bu torpağın öz ipəyi

*(Səməd Vurğun)*

**Boyaqçılıq**

Boyaqçılıq sənətinin tarixi toxuculuq qədər qədimdir. Azərbaycan ərazisinin boyaq bitkiləri ilə zənginliyi tarixən burada boyaqçılıq sənətinin geniş yayılması üçün də şərait yaratmışdır. Arxeoloji qazıntıların nəticələri Azərbaycanda boyaq maddələrindən istifadə olunması, parçaların rənglənməsi tarixinin Eneolitdən Tunc dövrünə keçid (e.ə. IV-III minilliklərdə) mərhələsinə aid olduğunu göstərir. Belə ki, bəzi arxeoloji abidələrdən aşkar olunan yun parça qalıqlarındakı rəng izləri hələ o zamandan Azərbaycan əhalisinin müxtəlif bitkilərdən boyaq maddə-

ləri ala bilmək vərdişlərinə malik olduqlarını göstərir. Bu barədə qədim yunan tarixçisi Herodotun (e.ə. V əsr) məlumatları böyük maraq doğurur. O yazır: "Qafqaz meşələrində elə ağaclar bitir ki, yerli əhali onların yarpaqlarını əzərək su ilə qarışdırır və bu məhlulla paltarlarına naxışlar vururlar. Bu naxışlar silinməyib parça köhnələnə kimi qalır" (105, 7). Doğrudur, burada məlumat tam olaraq Azərbaycana aid edilməsə də, ölkəmizin ərazisindəki abidələrdən aşkar olunan rəngli parça qalıqları, həmçinin Herodotun "Farslar midiyalıların paltarlarını geyinirdilər, çünki bu paltarlar onlara daha xoş gəlirdi və gözəl görünürdü" (100, 32) kimi fikirləri həmin məlumatı məhz Azərbaycana şamil etməyə əsas verir.

Boyaqçılıq sənəti rənglərin seçilməsi və hazırlanma texnologiyasına görə uzun müddət aparılan müşahidələrə və əməli təcrübəyə əsaslanmaqla nəsildən-nəsilə keçərək bizim günlərədək gəlib çatmışdır. IX-XII əsr ərəb müəlliflərinin əsərlərində Dərbənddən Tiflisə qədər bütün Azərbaycan ölkəsində küllü miqdarda boyaqotu yığılmasına və Xəzər dənizi vasitəsilə Curcana, oradan da Hindistana aparılmasına dair məlumatlar vardır. Boyama maddələri içərisində boyaq kökündən və xırda qırmızı böcəklərdən istifadənin tarixi də çox qədimdir. Lakin 1841-ci ildə rus kimyaçı alimi N.Zininin anilini, 1868-ci ildə isə Almaniyada Qrebe və Libermanın alizarini ixtira etməsi boyaq bitkilərinin yetişdirilməsi sahəsində, ümumiyyətlə boyaqçılıqda böhrana səbəb oldu. Süni boyaqlar keyfiyyətcə təbii boyalardan geri qalmasına baxmayaraq, ucuzluğu və asan başa gəlməsi ilə təbii boyaq istehsalının kəskin aşağı düşməsinə və onların bazarlardan sıxışdırılmasına gətirib çıxartdı.

Süni boyaq maddələrinin istehsala daxil olması toxuculuq sənətkarlığının bütün digər sahələrində olduğu kimi, keyfiyyət müstəvisində toxuculuğun digər sahələri ilə bərabər, kəlağayıçılığa da ciddi təsir göstərdi. Xalqın əsrlər boyu yaşatdığı gözəl ənənələr, qazandığı əməli

təcrübə və kəlağayıya qazandırdıqları şöhrət az qala təhlükə qarşısında qaldı. Lakin Azərbaycanın kəlağayı istehsal edən bir çox məntəqələri, o cümlədən Basqal sənətkarları asan qazanc dalınca qaçmaqdan çəkinərək, çətin şəraitdə olsa belə, təbii boyaq maddələrindən istifadəni davam etdirərək, bu sənəti günümüzədək gətirib çıxartdılar. Təsadüfi deyil ki, "Basqal İpəkçilik Mərkəzi"ndə bu günün özündə belə kəlağayı boyaqçılığında təbii boyaq maddələrindən istifadə edilir. Oradakı iş prosesi, işgüzar şərait, avadanlıqlar, nəfis kəlağayı nümunələri də insana məhz o keşməkəşli illərin ab-havasını yaşadır.

Keçmişdə toxuculuq xammalının, məmulatın və s. boyadılması iki əsas formada həyata keçirilirdi: ip ya boyaq bitkisi ilə bərabər qaynadılır, ya da əvvəl boyaq məhlulu hazırlanır, sonra isə ip məhlulun içərisinə salınıb rənglənirdi. Etnoqrafik materiallardan aydın olur ki, boyama prosesi mis qazanlarda yerinə yetirilirdi; çünki kimyəvi reaksiya zamanı mis qabın divarlarından müəyyən maddələr məhlula keçir və boyama prosesinin daha keyfiyyətli alınmasına səbəb olurdu.





Boyaqxana. İpin təbii rəngdə boyadılması

Toxuculuq sənətkarlığında ayrı-ayrı rənglərin, rəng koloritlərinin alınması xüsusi ustalıq tələb etdiyindən, həmin rənglərin alınmasına daha çox diqqət yetirilirdi. Məsələn, qırmızı rəng toxuculuqda daha çox işləndiyinə görə, boyama prosesində onun keyfiyyətli alınmasına xüsusi fikir verilirdi. Bu rəngin Azərbaycan şifahi xalq yaradıcılığında, inam və etiqadlarında və mifoloji düşüncəsində də xüsusi yeri vardır. Belə ki, insanlar qırmızı rəngi həmişə səadət, xoşbəxtlik, azadlıq, bayram, qələbə rəmzi hesab etmişlər. Eyni zamanda bu rəng qədim xalq inanclarında günəşi, odu, al çiçəyi və s. simvolizə edir. Qırımızı rəngin özü də bir neçə keçici rəng xüsusiyyətlərinə malikdir: açıq qırmızı, qırmızı, tünd qırmızı, al qırmızı, yaqut-qırmızı, qırmızı-çəhrayı, çəhrayı və s. Bu rəngləri almaq üçün boyaqçı babalarımız boyaq kökündən (qızıl boya), qırmızı səndəldən, qırmızı badam ağacı, çətiryarpaq, dilqan, koşenil (yastıca), anilin və alizarin maddələrindən istifadə edirdilər.

İpəkboyama üsulları və rənglərin hazırlanması ilə bağlı əldə etdiyimiz etnoqrafik materialların təhlili göstərir ki, istehsalın təşkili baxımından boyaq işi ikili səciyyə daşımışdır. Belə ki, keçmişdə şərbaf karxanalarının nəzdindəki yardımçı boyaqxanalardan başqa, sənət və ticarət mərkəzlərində müstəqil şəkildə fəaliyyət göstərən boyaqxanalar da mövcud idi. Xalq arasında onlara "küp boyağı" deyilirdi ki, bu da təkcə ipək məmulatı deyil, yun ip və pambıq parça (şilə, qədək) məmulatının boyadılmasında da istifadə olunurdu. Belə boyaqxanaların biri də Şamaxı xanlığının Basqal kəndində fəaliyyət göstərirdi. Şamaxı xanı Mustafa xanın qohum Xancan, Mərdan və Mehdi bəyə məxsus olan bu boyaqxana ayrı-ayrı şəxslərə ildə 120 manata icarəyə verilmişdi (10).

Toxuculuq emalatxanasının nəzdində fəaliyyət göstərən boyaqxanalar da vardı. Bu boyaqxanalar toxuculuq emalatxanasının sahibinə

məxsus olub, istehsal edilən toxuculuq məmulatının rənglənməsinə xidmət edirdi. Bundan başqa Basqalda ev boyaqxanaları da geniş yayılmışdı. Toxucu sənətkarların əksəriyyəti öz məhsullarının rənglənməsi ilə özləri məşğul olurdular.

İpəkboyama özünün bir sıra spesifik xüsusiyyətlərinə görə fərqlənirdi. İlk növbədə, yun və pambıq boyaqçılığından fərqli olaraq ipək boyağı soyuq üsulla yerinə yetirilirdi. Bundan başqa, fərdi qaydada işləyən şərbaflar bu işi özləri gördüyü halda, karxana ipəkçiliyində boyaq işi peşəkar ustalara etibar edilirdi. Saya cecimlər istisna olmaqla, cecimin digər növləri toxunmazdan əvvəl onların əriş və arğacı çeşni xüsusiyyətlərindən asılı olaraq müxtəlif rənglərə boyanırdı. Bu zaman tətbiq edilən rənglərin çoxu (qara, sarı, qırmızı) toxucu qadınlar tərəfindən hazırlanır, çətin sayılan rənglər (mavi, sürməyi, yaşıl və s.) isə sifariş yolu ilə xüsusi boyaqxanalarda alınırdı (61, 97; 60, 286).

Boyaqxanaların daxili sahmanı təqribən belə olmuşdur: adətən bir cüt kürənin (ocağın) üzərində mis tiyan qurulurdu. Burada su daşımaq üçün 3-4 şatıl, rəngabı doldurub-boşaltmaq üçün 2-3 abgərdən, boyanmış məhsulu 9 çillə, məsəlahı yuyub təmizləmək üçün hovuz və ağac çəlləklər olurdu. Rəngab turşu, zəy, həlim və s. saxlanılan küplər adətən boyaqxananın döşəməsinə basdırılırdı. Bu halda küpdəki maye qışda donmadığından, küpün sınma təhlükəsi da aradan qalxırdı. Boyaq ağaclarını döymək üçün boyaqxanalarda balta, gürz və s. əmək alətlərindən də istifadə olunurdu (61, 103). Tiyanda boyanmış qırmızı, narıncı, bənövşəyi, qəhvəyi, qara, sarı, yaşıl və daha neçə rəng saplar bir-birinin yanındaca üzü günə sərilirdi. Qərinələr, yüz illər keçir, həmin bitkilərdən hazırlanan boyalar daha şux olub solmur, rəngini və parıltısını heç vaxt itirmirdi.

**Kəlağayı boyaqçılığı**

Kəlağayı istehsalı prosesinin ən mühüm, bəlkə də ən məsuliyyətli və çətin mərhələsi onun boyadılması idi. Çox güman ki, ipəkçilər arasında "Boyaqçıya nəzir düşür" atalar sözü bəlkə də burdan qaynaqlanmışdır. Kəlağayı boyaqxanaları karxanaların nəzdində fəaliyyət göstərir və adətən, kirayə yolu ilə əldə edilən tək və ya iki otaqdan ibarət olurdu. Belə kəlağayı boyaqxanalarının həyətində, adətən, bir cüt kürə və onların hər birinin üzərində bir ədəd boyaq tiyanı quraşdırılırdı. Bir qayda olaraq boyaq tiyanı misdən, su qızdıran tiyan isə çuqundan hazırlanırdı.

Boyaqxanalardakı istehsal ləvazimatları arasında gen ağızlı "boyaqçı küpləri", qırmızı, qara, yaşıl, abı, bənövşəyi rənglər və onların müxtəlif çalarları üçün nəzərdə tutulan rəngab küpləri, zəy və turşu məhlulunu saxlamaq üçün küplər, satıl, tava, abgərdən, qazan və s. metal qablar, həmçinin kəlağayı yağının hazırlandığı qazan, cövhər rənglərinin saxlanıldığı kiçik qablar, kəlağayının naxışlanması prosesində istifadə edilən və "piştaxta" adlanan (eni və uzunu bir arşın, hündürlüyü bir çərək) alçaq masa, malı sıxmaq üçün taxta məngənə, ləçək taxtası, toxmaq, keçə lopası və s. yardımçı ləvazimatlar da mühüm yer tuturdu. Qəlib ustaları tərəfindən armud ağacının oduncağından sifarişlə hazırlanan müxtəlif ornamentli ağac qəliblər də əsas ləvazimatlardan hesab olunurdu. Sarağan, vağam, narınc, səndəl və s. kimi boyaq tərkibli bitki və ağacları doğrayıb döymək üçün balta, gürz və s. alətlərdən istifadə edilirdi.

Kəlağayı boyaqçılığı ənənəvi boyaqçılığın digər sahələrindən, o cümlədən ipək boyaqçılığından xeyli fərqlənir. Bu fərqlər aşağıdakılardan ibarətdir: əvvəla, kəlağayı boyaqxanalarında məmulat çillə və ya ara ipəyi formasında deyil, toxunub hazır olduqdan sonra boyanırdı. İkincisi və ən başlıcası burada boyama üsulu ilə həm də naxışlama əməliyyatının görülməsi idi. Bu səbəbdən də ipək parça istehsalı ilə məşğul olan karxanalardakı boyaqxanalardan fərqli olaraq, kəlağayı boyağı bir növ rəngkarlıq səciyyəsi daşıyırdı. Basmaqəlib üsulu ilə icra edilən kəlağayı boyaqçılığında *"xəlfə"* və ya *"kargər"* adlanan boyaq

ustası ilə yanaşı, həm də naxışlama əməliyyatı görən peşəkar ustalar "*tavakeş*" (qəlibbasan) də çalışırdı. Lakin xırda və orta istehsal həcminə malik boyaqxanalarda kargər eyni zamanda, tavakeş vəzifəsini də yerinə yetirirdi. İri boyaqxanalarda isə bunların hər birinin öz vəzifəsi vardı (113, 146). Bütövlükdə hər bir boyaqxanada adətən *"əmələ"* adlanan 4-5 nəfər işçi olurdu.

Kəlağayı boyaqçılığında ardıcıl surətdə yerinə yetirilən texnoloji proseslərin ilkin mərhələsini boyaq maddələrin tədarükü təşkil edir. Mənbələrdən, həmçinin toplanmış etnoqrafik materiallardan məlum olur ki, XIX əsrin sonlarına qədər boyaqçılıqda, o cümlədən ipək boyaqçılığında bitki mənşəli boyaqlar üstün yer tutmuşdur. Bu boyaqlar yerli və kənardan gətirilmə olmaqla iki qrupa bölünürdü. Birinci qrupa sarağan, narınc, sumaq, cır alma, zirinc, qızılağac, naz, zəfəran, boyaq bitkisi və s. daxil idi. Kənardan gətirilən bitki mənşəli boyaq maddələri isə səndəl, vağam, sarıkök, ispirək və s.-dən ibarət idi. Bu bitkilər əsasən Mərkəzi Asiya, İran və Hindistandan gətirilirdi. Deyilənə görə, bir vaxtlar həmin bitkiləri əldə etmək üçün basqallı boyaq ticarətçiləri hətta bəhs edilən ölkələrə gedib çıxırdılar. Bununla bağlı Abbasəli ustanın söylədiyi aşağıdakı əhvalat böyük maraq doğurur:

"Günlərin bir günü boyaq bitkisi ticarəti ilə məşğul olan basqallı iş adamı Hindistana gedir. Burada o, bir qrup yerli insanın vağamdan (boyaq bitkisi) tonqal qalayıb ətrafında kütləvi mərasim icra etdiyinin şahidi olur. Özünü saxlaya bilməyən basqallı mərasim iştirakçılarına cumub «bunu niyə yandırırsınız, bu ki, çox qiymətli bitkidir..." – deyə odu söndürməyə çalışıb. Yerli camaat isə adamın onlar üçün müqəddəs sayılan odu təhqir etdiyini düşünərək, başlayıblar basqallını döyməyə. Haçandan-haçana məsələni aydınlaşdırandan sonra onlar üzr istəyib basqallı ilə dostlaşır və ona boyaq bitkisi almaq üçün lazım olan hər bir yardımı göstəriblər".

Boyaqçı ustalarla, ağsaqqallarla söhbətlərimizdə boyaq maddələri və bitkiləri barədə bir çox hikmətləri öyrəndik. Öyrəndik ki, keçmişdə qırmızı rəngi boyaqkökü, badam ağacı, sumax, qaraağac qabığından,

narıncı kolunun oduncağından, qızılıya çalan boyağı palıd qabığından, qara rəngi nar qabığından, qaraya çalan tünd qəhvəyi rəngi qoz qərzəyindən alırdılar. Narıncı rəngi almaq üçün sarıya boyanmış ipi qırmızı rəngə salırdılar. Sarı və narıncı rəng Basqal meşələrində bol olan sarağan ağacından alınırdı. Payızda tut ağacının tökülən yarpaqlarından, qantəpərdən və naz gülündən də sarı rəng alırdılar. Vaxtilə rəngi solmayan ən yüksək keyfiyyətli boyağı gəndalaşın başındakı qara toxumlardan alınması faktı da məlumdur. Nar və soğan qabığından, qoz ağacının yarpağından, meyvə ağaclarının hissələrindən müxtəlif rənglərin əldə edilməsi təcrübəsi də mövcuddur.





Boyaq məhlulunun hazırlanması

Bununla belə, kəlağayı boyaqçılığında süni mineral boyaqlar da mühüm yer tutmuşdur. Tənəkə qutularında gətirilən cövhər boyaqlar misqal və girvənkə hesabı ilə çəkilib alınırdı. Bundan başqa bərkidici, rəngdəyişdirici vasitə kimi qələvi (turşu) və yerli mineral maddələr (dəmir kuporosu), zəy (ikiqat sulfat turşuları kristallarından ibarət daş) və yağ məhlulu hazırlamaq üçün mum, piy, həmçinin saqqızdan da geniş istifadə olunurdu.

Boyama prosesində əsas məsələlərdən biri kəlağayı yağının hazırlanmasıdır. Kəlağayı naxışlarını əmələ gətirən, sənətkarlar arasında *"gülgötürmə"*, yaxud *"qondarma"* adlanan əməliyyat məhz bu yağın vasitəsilə icra olunur. Yağ ipəyin üzərində qoruyucu təbəqə yaradır, rənglərin onun altına keçməsinə imkan vermir. Məhlulu hazırlamaq üçün ağ saqqız və mumu qazanda əridir, məmulatın üzərində tez donmasını təmin etmək üçünsə müəyyən qədər mal piyi əlavə edir, bir-birinə qarışanadək qaynadılır. Kəlağayının üzərində örtük əmələ gətirən yağ ləkələri sabunlu su ilə yuyulub təmizləndikdə onun altında qalmış naxışlar aşkar olmaqla bəzək ünsürünə çevrilir (61, 154). Kəlağayının boyanı yaxşı götürməsini təmin etmək məqsədilə onu qəlyadaşından hazırlanmış *"şirab"* adlanan məhlulda bişirir, kəlağayının üzərindəki yapışqan təbəqəsi təmizləndikdən sonra sərilib qurudulur, bundan sonra boyama prosesi üçün hazır hesab olunurdu.

Keçmişdə kəlağayı üzərindəki naxışları əksər hallarda ustalar özləri fikirləşirdi. Bu, Azərbaycan sənətkarlarının bədii ustalığının əsas xüsusiyyətlərindən biri idi. XIX əsrdə və XX əsrin əvvəllərində Basqalda Usta Hacı Həmid Talıb oğlu, Kərbəlayi Abdulxaliq Əşrəf oğlu, toxucu Əliabbas Cəbrayıl kimi çox məşhur basmanaxış ustaları fəaliyyət göstərmişlər. Deyilənə görə, vaxtilə Basqalın Kələküçə məhəlləsi sakinlərinin hamısı demək olar ki, boyaqçı və toxucu olub. Məşədi Һənqulunun, İbrahimxəlilin, Qədirin, Zakirin, Hüseynin, Kamalın, Ağaxəlilin toxuduqları və boyadıqları "Ağzəmin", "Soldurma", "Noxudu" və digər kəlağayılar, gözəl naxışlı yorğanüzülər təkcə Azərbaycanda yox, Orta Asiyada və İranda da çox məşhur idi. Onların hazırladıqları kəlağayılar sərgilərdə fəxri yerlər tutaraq mükafatlara layiq görülmüşdülər (38, 16).

Onu da nəzərə almaq lazımdır ki, kəlağayını eyni zamanda rəngləmək texniki baxımdan mümkün deyil. Çünki bir çox hallarda bir

şəkil digərinin davamı kimi meydana çıxır. Bundan başqa, hər dəfə qəlibi qoruyucu tərkibə malik kütlənin içinə salmaq, naxışları bir-bir kəlağayının üzərinə vurmaq lazım gəlir. Proses aşağıdakı ardıcıllıqla yerinə yetirilir: usta masanın yanında dayanır və onun sağ tərəfində ocağın üstündə kəlağayı yağı ilə dolu qazan qoyulur. Qatışıq tez donduğundan onun isti saxlanması vacib idi. Naxışlanma prosesi bir qayda olaraq yelən hissədən başlanır. Əsas naxışlar da elə yelənə salınır, orta hissədə adətən saya saxlanır. Basmaqəlib ustaları hər vəchlə materiala qənaət etməyə çalışırlar. Bunun üçün ilk "qondar-ma" kəlağayının öz təbii rəngindən götürülür. Usta əməliyyatı qəlibi yağa batıraraq kəlağayının kənarı boyunca ardıcıl, simmetriyanı poz-madan, diqqətlə basaraq yerinə yetirir. Bunun üçün ustadan alıcı göz, yüksək səriştə, əldən itilik tələb olunur. Böyük ölçülü kəlağayıların orta sahəsinə *"xonça"* adlanan dairəvi naxış vurulur, ətrafına müxtəlif ölçülü butalar düzülür və nəticədə çox maraqlı kompozisiya alınır. Da-ha sonra naxışlanmış kəlağayını arzu edilən rəngə gətirmək üçün onu zəy kütləsinin içinə salır və ən azı iyirmi dörd saat saxlayırlar. Bundan sonra onu soyuq suda bir neçə dəfə təmiz yuduqdan sonra isə kəla-ğayı rəngin içinə atılır və bu zaman yaylığın yalnız qəlib naxışlara mə-ruz qalmayan ağ hissələri rənglənirdi. Ağzəmin kəlağayılar boyaq-na-xış texnikasının nisbətən mürəkkəb olması ilə digər kəlağayələrdan fərqlənirdi.

Kəlağayı üzərindəki yağı təmizləmək üçün onu bir saat ərzində sabun məhlulunda, sonra isə ılıq suda yuyur, daha sonra isə təmiz suya çəkirlər. Naxışlanmış kəlağayılar bundan sonra sərilib qurudulur. Qurudulmuş yaylıqları dörd-dörd hamarladıqdan (ütülədikdən) sonra *"mənganə"* adlanan dəzgahda iki taxta arasında yerləşdirir, taxtaları yanlardan bərkidir, 2-3 saat ərzində sıxılmış vəziyyətdə saxlandıqdan sonra onların bir üzünü açıb ipə asırlar. Nəmliyi bir qədər çəkildikdən sonra onları sərgidən yığıb qatlayır və yenə də dəstə halında üst-üstə

yığaraq ikinci dəfə mənganəyə verirlər. Dəstəçin edilmiş kəlağayı bu vəziyyətdə bir gün ərzində qalıb "qatını götürürdü". Keçmişdə hazır məhsulların (ipək parça, kəlağayı və s.) bazara çıxarılması, dükan, karxana və emalatxanalara xammal gətirilməsi kimi işlər müxtəlif nəqliyyat vasitələri, xüsusilə də at arabası ilə daşınırdı. Basqalda bu işlər parça alveri ilə məşğul olan sövdəgarlar (tacirlər, parça dükanı sahibləri) tərəfindən yerinə yetirilirdi.




Kəlağayının asılıb qurudulması

Çox sevindirici haldır ki, bu gün də Basqalda kəlağayıların naxışlarını yaxşı bilən neçə-neçə sənətkar var ki, onlardan biri də Abbasəli Talıbovdur. Basmanaxış sənəti Abbasəli Talıbov üçün ata-babaların yadigardır. O, atası Əlişahdan, Əlişah öz atası Talıbdan, o da babası Hacıdan öyrənib bu sənətin incəliklərini. Basqal basmanaxış ustaları ənənəvi ornamentləri saxlamaqla yanaşı, yenilərini də axtarırlar. Abasəli Talıbov deyir: "...Vaxt vardı Basqal kəlağayıları Niyalın ağ, qara, heyratı, bənövşəyi örpəyi idi. Qarası Niyalın matəmi, qırmızısı toy-düyünü, bənövşəyisi seyri-seyrangahı sayılırdı. O çiçək kəlağayıları çiçək kimi qadınlarımız, qız-gəlinlərimiz örtüb, çiçək ətri verərdi. Bəs indi? Hanı o ipək, o naxışlar!? O boyalar ki, gülün, çiçəyin ətri gələrdi. İndi qorxudan kəlağayıya yaxın durmurlar. Çünki süni boyalar adamı qurdeşənək edir. Bircə dəfə yudunmu, rənglər, naxışlar qarışıb olur həftəbecər...".

 

Kəlağayıların basmaqəlib üsulla naxışlanması

Kəlağayı rəngkarlığının texnoloji əsaslarından danışan Abbasəli Talıbov onu da söylədi ki, naxışlanmadan öncə gərək kəlağayıya köçürüləcək təsvirin eskizini hazırlayasan. Çünki işlədiyin bəzəyin, naxışın eskizi olmasa, bəzəyi adicə təsəvvürlə canlandırmaq çətin olur. Möhkəm olduğuna görə qəliblər qəlib ustaları tərəfindən meşə armudu ağacının oduncağından hazırlanır. Həmin qəlibləri hazırlamaq üçün "qazacaq" adlı bıçaqla onları iki şəkildə – qabarıq və oyuq şəkildə yonur və istənilən təsvirləri alırlar. Hər bir kəlağayı istehsalı mərkəzinin də özünəməxsus bəzək çeşniləri və buna müvafiq qəlibləri var. Yəni usta Abbasəli xoşuna gələn hansısa rəngi, yaxud bəzəyi yeniləşdirir və yeri gəldikcə əlavə bəzəklər də edir. Beləliklə də, yeni kəlağayı öz görkəmini az da olsa dəyişir. Abbasəli usta deyir ki, "çox yerə gedib bu kəlağayılar. Kim bilir, bəlkə də ən məşhur muzeylərə çatıb, sərgiləri bəzəyib...". Usta Abbasəli Talıbov bu sənətin incəliklərindən həvəslə söhbət açmaqla, hazırladığı kəlağayı nümunələrinin naxışlarını az qala həzin bir bayatı kimi zümzümə edir: "... bu da səkkiz qanadlı ulduz – qızılı gül-çiçək, onların arasında – tən ortada xonçadır, gəlin köçən qızlara şirni aparılan xonça...".

Abbasəli Talıbov kəlağayı növləri ilə bağlı sualımıza cavab verər-

kən onlarla kəlağayının adını çəkdi: "Yeddi rəng" (ispirəy), "Heyratı", "Bəstə-nigar", "Gəlinlik" (qıraqları yaşıl, ortası qırmızı), "Noxudu", "Mixəyi", "Yaşıl-qara", "Yemişani", "Zeytuni", "Ağzəmin-zanbağı", "Ağzəmin-qızılı", "Qızılı" və s. Müxtəlif zoomorf, həndəsi və nəbati naxışlarla zəngin olan bu kəlağayıların hər birinin adının fəlsəfəsi, təyinatı, xalq məişətində özünəməxsus yeri olub.

Qocaman kəlağayı ustası Nizami Məmmədov ilə də söhbətimiz maraqlı oldu. Kəlağayı sənətinin tarixindən, onun incəliklərindən ürəkdolusu danışan usta, sözarası sənətkarın mənəvi-əxlaqi keyfiyyətlərinə də toxundu: "...Biz sənətkar, Basqal isə sənətkarlar yurdudur. Bu sənətə haram qatmaq olmaz. Boyaqçının gözü gərək iti olsun, rəngi bir-birindən seçə bilsin. Kəlağayının rəngi neçə il keçsə də, gərək solmasın. Bu baş verərsə, deməli boyaçı boyağında çaşıb, ya da tələm-tələsik iş görüb, gördüyü işi yarıtmayıb...".

Mənbələrdən məlum olur ki, kəlağayıçılıqda geniş istifadə olunan ağac qəliblər (damğalar) uzun illər istifadə olunur və nəsildən-nəsilə keçərək yaşayırdı. Orta ölçülü belə qəliblərin hazırlanmasına təqribən üç gün vaxt sərf edilir və biri 5 rubla satılırdı. Bundan əlavə, Basqalın kəlağayı naxış ustaları bəzi hallarda ipək parçanı da hazır şəkildə ya Şamaxıdan, ya da Şəkidən funtu 5-10 manata alırdılar. Elə qonağı olduğumuz kəlağayı sexində də masanın üzərində müxtəlif formalı, incə naxışlı çoxlu sayda qəliblər düzülüb. Onların arasında buta şəkilli, müxtəlif həndəsi və nəbati naxışlar üçün nəzərdə tutulan qəliblər daha çox diqqəti cəlb edir. Kəlağayı üzərindəki müxtəlif formalı və ölçülü naxışlar üçün nəzərdə tutan bu qəliblər yuxarıda qeyd



Azərbaycan milli ornamenti buta

olunduğu kimi, Azərbaycan dekorativ tətbiqi incəsənətində mühüm yer tutur. Onlardan biri də milli ornamentlərimizdən olan – *"Buta"nı* simvolizə edən qəliblərdir. Kəlağayıçılıq sənətində də geniş tətbiq olunan "Buta"nın forma və quruluşuna görə, "saya-buta", "əyri buta", "dilikli (və ya dişli) buta", "qıvrım buta", "qarmaqlı buta", "şabalıd-buta", "badamı buta", "dik (və ya iti uclu) buta", "qoşa buta", "qotazlı buta" və s. növləri məlumdur. Azərbaycanın ayrı-ayrı regionlarında hazırlanan butalar bir çox hallarda elə həmin regionların adları ilə də adlandırılır: "Muğan-buta", "Bakı-buta", "Xilə-buta", "Şirvan-buta" və s. Bəs görəsən buta nədir, onun bədii və mifoloji anlamı nədən ibarətdir?

Əsrlər boyu buta insanların yaddaşında magik simvolikanın unudulmuş bir elementi kimi qalmışdır. Bu mənada müasir tətbiqi incəsənətdə geniş yayılan "bala buta", "balalı buta", "evli buta", "qoşaarvadlı buta", "arvad-uşaqlı buta", "baba buta" və s. kimi təsvirlər məhz magik düşüncə məhsulundan başqa bir şey deyildir. Keçmiş zamanlarda buta bütün digər funksiyaları ilə bərabər, bəd ruhlardan və bədnəzərdən qoruyucu vasitə kimi də istifadə olunmuşdur. Təsadüfi deyil ki, Azərbaycanda evləri həmişə üzərində buta təsvirləri olan xalça və digər məişət əşyaları ilə bəzəməyə çalışmışlar. Toylarda isə buta təsvirli libasların geyilməsi bu səbəbdən vacib sayılırdı. Butanın alov təsviri (alovun dilləri) olması, özündə odu, alovu simvolizə etməsi ilə bağlı düşüncələr onun atəşpərəstlik dövrünün yadigarı



Buta naxışlı kəlağayı

olduğuna dəlalət edir. Qədim şumer dilində butanın (but və ya bo) alov mənasını ifadə etməsi də, fikrimizcə, təsadüfi deyil. Od-alov məzmunlu butalar bir çox şairlərin yaradıcılığında da əksini tapmışdır (M.P.Vaqif).



Ağac qəlib nümunələri

Yeri gəlmişkən qeyd edək ki, Milli Azərbaycan Tarixi Muzeyinin etnoqrafiya fondunda Basqalda hazırlanmış XVIII-XIX əsrlərə aid bir neçə basmanaxış ağac qəliblər saxlanılır (115, 192).

Məlum olduğu kimi, sovet sisteminin son illərində iqtisadiyyatın bütün digər sahələri kimi, Azərbaycanda ipəkçilik təsərrüfatı da xeyli zəiflədi və ötən əsrin 90-cı illərində demək olar ki, tamamilə süquta uğradı. Həmin ağır illərdə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev ölkənin iqtisadi və mədəni inkişafı sistemində xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, bərpası və yaşadılması istiqamətində də böyük proqram irəli sürdü. Həmin proqramlarda ənənəvi kəlağayıçılıq sənətinin yad təsirlərdən qorunması, təbliği və inkişaf etdirilməsi sahəsində görüləcək işlər mühüm yer tuturdu. Tezliklə "İnkişaf" Elmi Mərkəzi UNDP-nin (BMT-nin inkişaf proqramı) tərəfindən "Gender inkişafda" layihəsi çərçivəsində irəli sürülmüş ipək istehsalının bərpası və kəlağayı istehsalına başlamaq təklifi diqqəti cəlb etmişdi.

Bu təklifə ilkin olaraq səs verən Rəna İbrahimbəyova və Cəlil Tanrıverdiyev oldu. Basqalda kəlağayı istehsal edən müəssisə açmaq və bu qədim sənətə yeni həyat vermək bu dəyərli ziyalıların çoxdankı arzuları idi. Onlar bu arzularının reallaşması istiqamətində əməli fəaliyyətə 2002-ci ildə başladılar. Rəna xanımın da qeyd etdiyi kimi,

döymədikləri qapı, müraciət etmədikləri təşkilat qalmamışdı. Nəhayət onların təqdim etdikləri 100 min dollarlıq layihəyə, ilk olaraq Yaponiyanın Azərbaycandakı səfirliyi səs verdi və ipəkçiliyin bərpası üçün 30 min dollar vəsait ayırdılar. Bu məbləğ kifayət etmədiyinə görə Rəna xanım və Cəlil müəllim öz ata-baba mülklərini satıb fəal şəkildə işə başladılar. Məqsəd pul qazanmaq deyil, bu qədim xalq sənətini dirçəltmək idi.

Rəna İbrahimbəyovanın sözlərinə görə, Qəbələdə 100 ailəyə barama qurdu payladıq. Şəkidə ipək hazırlatdırıb Basqalda kəlağayı buraxmağa başladıq. Daha sonra isə Basqal qəsəbəsində "Basqal İpəkçilik Mərkəzi"ni təsis etdik. Muzey ideyası da elə bu zaman meydana gəldi. Sənətkarları, muzey işini bilən mütəxəssisləri bu işə cəlb etdik, əhalidən eksponatlar toplayıb indiki zəngin muzeyi təşkil edə bildik...


Rəna xanım İbrahimbəyova kəlağayı sənətinin sirlərindən danışır

2004-cü ildə ilk dəfə olaraq "Kəlağayı"ya dair kataloq və klip ictimaiyyətə təqdim olundu, 2005-ci ildə isə Azərbaycan tarixində ilk dəfə kəlağayı sərgisi keçirildi. Nəhayət 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev kiçik müəssisələrin istehsal etdikləri məhsullar üzrə Şamaxıda keçirilən sərgini ziyarət etmişdi. "İnkişaf" EM, "CahangirT" firmasının, Basqalda və Şəkidəki İpək mərkəzlərinin nümayəndəsi kimi C.Tanrıverdiyev nümayiş etdirilən kəlağayı barədə danışmış və görülmüş işləri əks etdirən "Bəsləsən atlas olar..." adlı kitabı cənab Prezidentə təqdim etmişdi. O zaman yaradı-

cılıq işlərinə cənab Prezident tərəfindən verilən müsbət qiymət hamını ruhlandırdı və tədqiqat işlərinin daha dərindən aparılmasına, kəlağayı istehsalının inkişaf etdirilməsinə zəmin yaratdı (41, 128-129).

Beləliklə, bu gün Basqalda fəaliyyət göstərən İpəkçilik Mərkəzində əsrlər boyu mövcud olmuş kəlağayıçılıq ənənələri, qədim ipəktoxuma və boyaqçılıq təcrübəsi bərpa edilib yaşadılmaqla bərabər, gənc nəslin bu gözəl sənət sahəsi ilə yaxından tanış olması üçün mühüm işlər görülür. Burada istehsal olunan kəlağayıların məna və məzmunu haqqında məlumat verən Rəna xanımın sözlərinə görə, hər bir kəlağayının rənginə, ornamentinə və ölçülərinə görə bir mənası, statusu və təyinatı vardır. Məsələn, ağ, çəhrayı və mavi rəngli kəlağayılar gənc qızlar, tünd göy rəngli kəlağayılar yaşlı qadınlar, yaşıl rəngli ornamentli qırmızı kəlağayılar isə nişanlı qızlar üçün nəzərdə tutulur. Bundan başqa, qadınların seçdiyi kəlağayı ilə onun sosial mənşəyini, cəmiyyətdəki statusunu, hətta xarakterini belə müəyyənləşdirmək olur. Keçmişdə insanlar rənginə, həcminə və üzərindəki rəsmlərin məzmununa görə, kəlağayının hansı bölgəyə məxsus olduğunu, harada istehsal edildiyini də bilirdilər. Basqal kəlağayıları da bütün dövrlərdə buta ornamenti ilə seçilmişdir və bu ornamentin texnologiyasının Basqalda ən azından 500 illik tarixi vardır. Basqal kəlağayılarını fərqləndirən daha bir cəhət isə onun uzun illər öz təbiiliyini, yaz təravətli rəng koloritini və gözəlliyini qoruyub saxlaya bilməsidir.

* * *

Basqalda ipəkçiliyin, boyaqçılığın keçmiş olduğu inkişaf yolunu əks etdirən, kəlağayı istehsalının zəngin ənənələrinin təbliği, qorunması və öyrənilməsinə xidmət edən *Kəlağayı Muzeyi* də dəyərli ziyalılarımızın gördüyü mühüm işlər sırasındadır. Eksponatları ilə insanı çox-çox uzaqlara aparan muzeydə ipəkçilik və kəlağayıçılıq sənətinin ən

gözəl nümunələri nümayiş olunur. Həmin eksponatlar içərisində ağac qəlib nümunələri, boyaqxana ləvazimatları, zərif saplar, o cümlədən al-qırmızı, qızılı, gümüşü, yaşıl və başqa könül oxşayan saplarla, xırda zərif muncuqlarla, daş-qaşla işlənmiş bədii tikmə, ipək parça, geyim, bəzək nümunələri və müxtəlif bitkilərdən alınmış rəng nümunələri, bərli-bəzəkli yorğanüzləri, toxucu dəzgahının hissələri, istehsal ləvazimatları, kəlağayı ustalarının fotoşəkilləri, onların qazandıqları mükafatlar və s. insanların bu qədim sənətlə bağlı biliklərinin zənginləşməsinə, gənc nəsildə ona sevgi və məhəbbətin aşılanmasına yaxından kömək edir.

Muzeyin divarları boyu asılmış gözəl və zərif kəlağayılar, kompozisiyası, əlvanlığı, rəngləri, naxış-bəzək elementlərinin müxtəlifliyi ilə bir-birindən fərqlənən eksponatlar əsasən XIX-XX əsrin əvvəllərinə aiddir. Bu sırada kəlağayı adları elə özlüyündə bir dünyadır: Yeddi rəng (ispirəy); Heyratı (Heratı); Bəstə-nigar; Gəlinlik (qıraqları yaşıl, ortası qırmızı); Noxudu; Mixəyi; Yaşıl-qara; Yemişani; Zeytuni; Ağzəmin-zanbağı; Ağ zəmin qızılı; Qızılı və s. Bu adların hər birinin fəlsəfəsi, mənası və özünə görə bir tarixçəsi var. Məsələn, vaxtilə "Heyratı" kəlağayısı Paris, London, Sankt-Peterburq, Moskva, Tiflis və digər şəhərlərdə təşkil olunmuş sərgilərdə iştirak edərək, yüksək mükafatlar almışdır. Şəkilləri Muzeyin şərəf lövhəsini bəzəyən Əliabbas Cəbrayıl oğlu, Kərbəlayı Nəsir Əbdüləziz oğlu, Məşədi Həbibulla Hacı Abbas oğlu, Hacıbağır Mirzə oğlu, Hacı Ələkbər, Hacıseyid Məhəmməd oğlu və b. kimi el sənətkarlarının adları isə çoxdan əbədiləşmişdir. Basqal kəlağayılarının adını, şöhrətini eşidən, yaxından-uzaqdan Basqala gələn hər kəs bu Muzeyə də baş çəkir və əsil sənət möcüzələrini gözlərilə görürlər.

Bir daha onu da xatırladaq ki, UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü il noyabrın 26-da keçirilən iclasında Azərbaycan kəlağayı sənəti "Kəlağayı simvolizmi və

ənənəvi sənəti" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Bununla da Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi, ölkəmizin UNESCO yanında daimi nümayəndəliyi, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının birgə həyata keçirdikləri çoxşaxəli fəaliyyət nəticəsində Komitə kəlağayı sənətinin Azərbaycan xalqının milli mənəvi dəyərlər sistemində və adət-ənənələrimizdə ən mühüm mədəniyyət nümunəsi olduğunu beynəlxalq səviyyədə təsdiq edir. Azərbaycanın mədəniyyət həyatında baş verən bu tarixi hadisə həm də Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizin qorunmasına, təbliğinə və inkişafına göstərdiyi yüksək diqqət və qayğının nəticəsidir.



UNESCO-nun baş direktoru İrina Bokova Azərbaycan kəlağayı sənətinin UNESCO-nun Qeyri-Maddi Mənəvi İrs üzrə Reprezentativ Siyahısına daxil edildiyini təsdiqləyən sənədin Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevaya təqdim edilməsi mərasimində

Xatırladaq ki, Kəlağayı faylı Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın dəstəyi ilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanmışdır.

**Dulusçuluq**

Basqalda inkişaf etmiş sənət sahələrindən biri də *dulusçuluq* olmuşdur. Qəsəbənin cənub-şərqindəki "Qalalar" adlı ərazidən digər maddi mədəniyyət nümunələri ilə bərabər, küllü miqdarda dulus məmulatı qalıqları da tapılmışdır. Onların arasında təsərrüfatda və məişətdə işlədilən müxtəlif təyinatlı qablar – küpə, bərni, badya, bardaq, qazan, tava, səhəng, sərnic, boşqab, kasa, dopu, nehrə və s. çoxluq təşkil edir.

Qab düzəltmək üçün ən münasib xammal gil olmuşdur. Arxeoloji qazıntıların nəticələri sübut edir ki, Azərbaycan ərazisi gil qabın kəşf olunduğu qədim məkanlardan biridir (e.ə. 8-10 min il əvvəl). Xüsusilə mətbəx, məişət və təsərrüfat qablarının istehsalında ən mühüm kəşf dulus çarxından istifadə edilməsidir. Qədim gil qab nümunələri üzərində aparılan tədqiqatlar göstərir ki, Şirvan ərazisində hələ Tunc dövründən üzü bəri dulus çarxından istifadə edilmiş və bu çarxda istehsal olunan qablar xüsusi qurğularda – dulus kürələrində bişirilmişdir.


Dulus qabın hazırlanması

XIX-XX əsrin əvvəllərində də Azərbaycanın dulusçuluq sənəti inkişaf etmiş bölgələrində, o cümlədən Basqalda ərzaq məhsullarının emalı, hazırlanması və saxlanması üçün müxtəlif tipli saxsı qablar hazırlanmışdır. Tədqiqatçılar

onları aşağıdakı kimi qruplaşdırırlar: çörəkbişirmə vasitələri: təndir, sac, külçəbasan, xaş dopusu, xəmir fəşiri; xörəkbişirmə vasitələri: çölmək, kübəc, piti dopusu, mətbəx küpəsi, kiranə, manqal: mətbəx qabları: küplər (bəkməz, bal, yağ üçün), bərni, qalqa, bəqqə, qağla, badya, xeyrə, həlimdan, aşsüzən, qapaq (duvaq): süfrə qabları: ləngəri, cam, piyalə, nəlbəki, qənddan, duzqabı: ağartı qabları: sərnic, goduş, pendir küpəsi, maya küpəsi, nehrə çalası (maya) dopusu; təsərrüfat küpləri: xum, ximçə, ləh, eləcə də məişət müxəlləfatı: kürsü manqalı, silvic, daxıl, dibçək, qəlyanbaşı, qaraçıraq, qıf, mey qazanı, quyubaşı; su qabları: səhəng, şəhrəng, bardaq, kuzə, qurqur, sürahı, aftafa, fəşir, parç; su kəməri üçün saxsı məmulatı: bulaq sərnici (su gözü), lülə (tüng), novça və s. (60, 94).

Arxeoloqlar əldə olunan saxsı məmulatının istər texnoloji, istərsə də bədii hazırlanma xüsusiyyətlərinə görə ümumazərbaycan səciyyə daşıdığını və onların oxşar nümunələrinə İsmayıllı rayonunun digər yaşayış məntəqələrinin ərazisində, həmçinin Gəncə, Şamaxı, Qəbələ, Beyləqan və başqa şəhərlərdə aparılan arxeoloji qazıntılarda da rast gəlindiyini qeyd edirlər. Hesab edilir ki, antik dövrün saxsı məmulatı dulus çarxı tətbiq olunmadan, yəni əllə formalaşdırılmasına baxmayaraq, görkəminə və forma kamilliyinə görə dulus çarxında formalaşdırılan qablardan heç də geri qalmırdı. Bu da hər şeydən öncə, dulus ustalarının yüksək peşəkarlığından xəbər verir (60, 87). Bununla belə, mətbəx, məişət və təsərrüfat qabları istehsalında ən mühüm kəşf heç şübhəsiz ki, dulus çarxından istifadə edilməsi olmuşdur. Ümumiyyətlə, saxsı məmulatı istehsalı bir-birini tamamlayan müxtəlif istehsal proseslərini (dulus gilinin əldə olunması, daşınması, ilkin emalı, məmulatın formalaşdırılması, naxışlanması, qurudulması, bişirilməsi və s.) əhatə edirdi.



Saxsı mətbəx və məişət qablarıı

Verilən məlumatlara görə, xırda qablardan fərqli olaraq orta və iri tutumlu qablar iki-üç mərhələdə formalaşdırılırdı. Usta əvvəlcə məmulatın üst, sonra isə alt hissəsini düzəldərək hər iki parçanı birləşdirirdi. Buna səbəb yumşaq gilin məmulatın üst hissəsinin ağırlığına tab gətirməməsi, əyilib korlanması idi. Calaqların birləşdirilməsi dulus çarxı üzərində həyata keçirilirdi (32, 51). Usta formaya saldığı qaba naxışı cızma üsulu ilə, qələm və ya dulus bıçağından istifadə etməklə vururdu. Qabların bəzədilməsində cızma, düz və dalğalı xətlər, nöqtələrlə yanaşı, qabartma və batıqlardan ibarət naxış elementlərindən də istifadə olunmuşdur. Basqalətrafı ərazilərdən əldə olunan bəzi saxsı nümunələri IX-XI əsrlər dövrünə xas olan sadə formalı şirsiz qab tiplərinə aid edilir. Məişət qablarının əksəriyyəti fraqment şəklində əldə olunsa da, bəzən onların bütöv nümunələrinə rast gəlinmişdir. Məhz həmin qab-qacaqlar Basqal əhalisinin gündəlik həyatında saxsı məmulatından geniş istifadə edildiyini göstərir. Naxış dairəvi və dalğavari xətlərdən ibarət olurdu. Yeri gəlmişkən, cızma üsulu ilə naxışvurmanın tarixi çox qədim dövrlərlə səsləşir. Bu üsulun Azərbaycanda hələ ilk Tunc dövründən geniş yayılması barədə arxeoloji materiallar da soraq verir. Bu üsuldan savayı Azərbaycan dulusçuları qədim mənşəyə malik yanma, basma, boyama, şirələmə və s. üsullarla da bəzək əməliyyatları aparmışlar (71, 42; 101, 61-62; 50, 225).

Sənətkarlar dulus ustaları hazırlanmış gil məmulatının tam və düzgün qurudulmasına xüsusi diqqət yetirmişlər. Qabın qurumasını onun rənginə baxmaqla və ya qaba barmağı ilə çırtıq vurmaqla bilərdilər; belə ki, qaba toxunarkən, cingiltili səs çıxardısa, qurumuş hesab olunurdu. Əks təqdirdə, onu daha bir neçə gün ərzində qurudardılar.

**Dəmirçilik**

Məlumdur ki, dəmir alət və əşyalar insanların təsərrüfat və məişət həyatında həmişə mühüm rol oynamışdır. Arxeoloji qazıntılar nəticəsində tapılan metal əmək alətləri, silahlar, tikinti-inşaat materialları və s. dəmirçiliyin Azərbaycan ərazisində hələ e.ə. IV-III minilliklərdə yarandığını, sonrakı dövrlərdə daha sürətlə inkişaf etdiyini göstərir (43, 7; 77, 91).

Şirvanda dəmirçilik sənətinin inkişaf etdiyi əsas mərkəz Lahıc sayılsa da, Basqalda da bu sənətin çoxlu sayda peşəkarları və daşıyıcıları olmuşdur. Basqalda "Dəmirçibazar" adlı məhəllənin olması və bu adın günümüzə qədər yaşaması da bu faktı təsdiq edir. Deyilənə görə, vaxtilə bu məhəllənin sakinləri bütünlüklə dəmirçilik sənəti üzrə ixtisaslaşmış, onların gündəlik gəlir mənbəyini məhz bu sənət sahəsi təşkil etmişdir. Burada ilk dəmirçixananı isə XIX əsrin əvvəllərində Qulu Hacı Məhərrəm oğlu yaratmışdır. O, nəinki Basqalda, hətta qonşu kəndlərdə də hörmətli və səriştəli usta kimi şöhrət qazanmışdı. Dəmirçixana ustanın yaşadığı evin yanında yerləşirdi. O, sifarişləri məhz burada qəbul edir və burada da yerinə yetirirdi. Əhali arasında onun dəmirçixanasına "Usta Qulunun dükanı" və ya "Qulunun dəmirçixanası" deyilərdi. Usta dəmirçilik sənətinin sirlərini övladları Cabbar, İbrahim və



Dəmirçi Qulu
Hacı Məhərrəm oğlu

Rzaquluya da öyrətmişdi. Onlar da atalarından qalan bu mənəvi mirasla 6-7 emalatxanada fəaliyyət göstərmiş, kətmən, oraq, bıçaq, bel, balta, dəhrə, yaba, nal və s. dəmir alətləri düzəltməklə məşğul olmuşlar. Dəmirçixana ötən əsrin 50-ci illərinə kimi fəaliyyət göstərmişdir. Bundan başqa, Basqalda Axtər Cabbar oğlu Quliyev, Əjdər Tağıyev, Nizami Tahir oğlu Məmmədov, Qadir Əkbər oğlu Səfiyev, Nadir İbrahim oğlu Quliyev və başqaları kimi, çox tanınmış dəmirçilər fəaliyyət göstərmişlər.

Tarixi-etnoqrafik materiallar göstərir ki, əhalinin məişət və təsərrüfat həyatında dəmir məmulatına tələbatı yüksək olduğundan, onlar həm yerli, həm də Rusiyanın şəhər və əyalətlərindən gətirilən xammalla öz şəxsi ehtiyaclarını ödəyirdilər. Dəmirçilər xam metaldan daha çox işlənmiş dəmiri yüksək qiymətləndirirdilər. Çünki istifadə edilmiş dəmir həm ucuz başa gəlir, həm də keyfiyyətli hesab olunurdu. Xam dəmir isə "bəzən yaxşı əridilmədiyindən qəlp çıxır və istifadəyə yaramırdı" (60, 177).



Dəmirçi emalatxanası

Dəmirçiliklə məşğul olan digər ustalar kimi, Basqal dəmirçiləri əkində, biçində, taxıl döyümündə, bağ-bostanda, maldarlıqda, minik-qoşquda istifadə edilən təsərrüfat alətləri ilə yanaşı, balta, çəkic, çapacaq, qayçı, kəlbətin, qiyməkeş, qənd çəkici, mətbəx bıçağı, tərəzi, çəki daşı, soba, soba turbası, sac, sacayağı, maşa, kürsü, kabab manqalı, şiş kimi məişət əşya və ləvazimatları, eləcə də sənətkarlıq və inşaat alətləri, dəyirman və inşaat materialı hissələri, ovçuluq, balıqçı-

lıq, şatırçılıq, dəlləklik, kömürçülük, sabunçuluq, şamçılıq və s. ilə bağlı məmulatlar düzəldirdilər. Bunu ədəbiyyat materialları və çöl-etnoqrafik məlumatları da təsdiqləyir.

Dəmirçixanalar həm istehsal emalatxanası, həm də satış dükanı rolunu oynadığından, bir növ ikili səciyyə daşımışdır. Bu cür emalatxana-dükanların quruluşunu, daxili səliqə-sahmanını və buradakı iş prosesinin təsvirini verən professor Arif Mustafayev yazır ki, "Dəmirçixana düzbucaqlı planda (4x5-6 m) tikilmiş tək otaqdan ibarət olub, onun ortasında quraşdırılmış körüklü kürə vasitəsilə iki hissəyə bölünürdü. Kürədən arxada xammal, yanacaq (ağac kömürü), təmir olunmalı köhnə-köşkül metal məmulatı, az istifadə olunan əmək alətləri, xart daşı (çarx) saxlanılırdı. Körük, həmçinin kürənin arxasında yerləşməklə, saxsı və ya mis boru (ucluq) vasitəsilə kürənin odluğuna birləşirdi. İstehsal prosesi dəmirçixananın işıqlı olan qabaq hissəsində icra olunduğundan dükanın başlıca istehsal ləvazimatı (dəmirçi kötüyü) kürənin qarşısında yerləşirdi. Xırda zindanlar, dəmir doğrayan qayçı, məngənə, bəzən isə çarx kötükdən sağda və solda qalan boş sahələrdə quraşdırılırdı. Hazır məmulat, həmçinin dükanın gözə çarpan ön hissəsində, ya yan divardan asılır, ya da onun dibinə düzülürdü..." (60, 179).



Dəmirçixanada istifadə olunan istehsal ləvazimatları

Dəmirçilik sənətinin texnoloji əsaslarından bəhs edərkən qeyd etmək lazımdır ki, bu, çox çətin və ağır zəhmət tələb edən bir sənətkarlıq sahəsi olmuşdur. Dəmir xammalını yuyub təmizlədikdən və kiçik hissələrə ayırdıqdan sonra onu emalatxananın baş tərəfində quraşdırılan kürənin içinə yığırdılar. Dəmir kürələri isə adətən, odadavamlı daşlardan və gildən silindrik formada qururdular. Kürənin al-

tında saxsı boru yerləşdirib ucuna keçi və ya hər hansı bir heyvanın dərisindən hazırlanmış körük – üfürlük keçirirdilər. Həmin borunun, yaxud körük ucluğunun ön hissəsindəki odluğa kömür və onun da üstünə dəmir parçaları yığırdılar. Körüyü fasiləsiz işlətməklə odluqda odu alovlandırırdılar. Güclü istidə qızaraq yumşalmış dəmiri döyüb istənilən formaya salardılar. İş prosesinin bu mərhələsi dəmirçilikdə olduqca vacib mərhələ hesab olunur və təsadüfi deyil ki, məhsulun yüksək keyfiyyətli alınmasını bilavasitə kömürçünün səriştəliliyi ilə bağlayırlar. Dəmirçilər arasında geniş yayılmış aşağıdakı deyim də bunu təsdiq edir:

Ustaların ustasıdır dəmirçi,
Dəmirçinin ustasıdır kömürçü.
Kimi at nallayar, kimi mıx kəsər,
Paxır qabı qəleyliyər qəleyçi.

Dəmirçilərin məişətdə, təsərrüfatda, sənətkarlıqda istifadə etdikləri yastılayıcı, kəsici, tutucu, təpəkçi alətlər də onların özləri tərəfindən hazırlanırdı. Basqalın yaşlı sakinlərinin veridiyi məlumata görə, dəmirçilikdə ən vacib olan alət kötük – zindan sayılmışdır. Çünki dəmirçiliklə bağlı bütün işlər onun üzərində yerinə yetirilirdi. Təsadüfi deyil ki, qocaman ustalar onu obrazlı şəkildə "çörək ağacı" da adlandırırdılar (53, 63-64). Vacib ləvazimatlardan digəri isə körüklü kürə idi.

Onu da qeyd edək ki, Basqal ustaları təkcə yerli əhalinin dəmir məmulata olan tələbatını ödəməmiş, bu və digər kənd və qəsəbələrdən gələn sifarişləri də yerinə yetirmişlər ki, bu da qəsəbədə dəmirçiliyin kifayət qədər inkişaf səviyyəsindən xəbər verir.

**Daşişləmə**

Basqal yaşayış yerində arxeoloqlar tərəfindən aparılan kəşfiyyat işləri zamanı müxtəlif dövrlərə aid daş məmulatı da aşkar olunmuşdur. Həmin məmulat əsasında burada daşişləmə sənətinin mövcudluğu, onun xüsusiyyətləri və əhalinin təsərrüfat və məişət həyatında oynadığı rol haq-

qında müəyyən mülahizələr söyləmək mümkündür.

Daşdan istifadənin tarixi çox qədimdir. Təsadüfü deyil ki, ibtidai icma cəmiyyətinin ən uzun bir dövrünü Daş dövrü təşkil etmiş, əsrlər boyu amansız təbiət qüvvələri ilə mübarizədə insanların ən mühüm yaşayış vasitələrindən biri daş olmuş və daşdan hazırlanmış əmək alətləri ibtidai istehsal təsərrüfatının ən mühüm vasitəsi kimi çıxış etmişdir. Çaxmaqdaşından həndəsi formada hazırlanan müxtəlif çapacaqlar, mikrolitlər, ərsinlər və s. insanların qida ehtiyatı yaratması işində mühüm rol oynamışdır. Azıx mağarasından və Azərbaycanın daş dövrü düşərgələrindən (Tağlar, Damcılı, Büzeyir, Daşsalahlı, Qobustan, Qədim duz mədənləri və s.) tapılmış və parçalamaq, kəsmək, əzmək, doğramaq və s. məqsədlər üçün istifadə edilmiş alətlər də deyilənləri təsdiq edir.

Zaman keçdikcə metal alətlər daş alətləri tədricən sıxışdırsa da, tamamilə aradan çıxara bilməmişdir. Əksinə, daşın məişətdə, təsərrüfat həyatında, inşaat sənətində, o cümlədən ibtidai incəsənətin müxtəlif sahələrində rolu artmışdır. Orta əsrlərdə şəhərsalma işlərinin genişlənməsi, ticarət və sənətkarlığın inkişafı ilə əlaqədar yaşayış evlərinin, ictimai və dini binaların (saray, divanxana, emalatxana, dükan, karvansara, bazar, hamam, xanəgah, məscid və s.), müdafiə istehkamlarının (qala, qəsr, bürc və s.) inşaatında müxtəlif peşəkar sənətkarlar – daşkəsən, daşyonan, həkkak, nəqqaş, memar və başqalarının əməyinə kəskin ehtiyac duyulmuşdur.

Azərbaycanın ayrı-ayrı bölgələrində aparılan arxeoloji qazıntılar zamanı, həmçinin çay hövzələrinin nadir bəzək daş cinsləri yataqları ilə zəngin olması ölkə sakinlərinin ta qədimdən daşdoğrama, daşyonma, cilalama, pardaxlama və əzəmətli, dəbdəbəli, sütunlu, tağlı, dairəvi və dördkünc bina tikmə üsulları ilə yaxından tanış olmasına əlverişli zəmin yaratmışdır. Elə Basqal qəsəbəsi ərazisindən də xeyli miqdarda daş məmulatı əldə olunmuşdur. Həmin məmulatların forma və xüsusiyyətlərinə əsasən, daşın buranın əhalisinin əmək və təsərrüfat məişətindəki rolu haqqında müəyyən müla-

hizələr söyləmək mümkündür. Həmin mülahizələr Azərbaycan ərazisində bu gün də çox yaxşı qalmış əzəmətli memarlıq abidələrimizin nadir yadigarları ilə də təsdiqlənir (109, 422-423).

Ağsu, Girdiman, Axox, Göyçay, Vəndam, Dəmiraparan, Çovurlu, Qoçalan, Türyan, Əlciyan və Daşagil çayları İsmayıllı rayonu ərazisində də minilliklər boyu böyük daş və çınqıl ehtiyatı yaradıb. Niyaldağ silsiləsinin və Fitdağın yaxınlıqda yerləşməsini və ərazidən iri dağ çaylarının axdığını nəzərə alsaq, Basqal camaatının da əsrlər boyu bu dağların və çaylarda sel sularının gətirdiyi daş ehtiyatlarından məişətdə – qala, ev, yol, körpü tikintisində geniş istifadə etdiklərini söyləyə bilərik. Elə qəsəbənin Qalabaşı məhəlləsində bu günə qədər qalmaqda olan qala divarlarının qalıqlarında istifadə olunmuş daşlar da çay yataqlarından, qaya və dağ silsilələrindən çoxlu insan qüvvəsi ilə daşınıb istifadə edilmişdir. Bundan başqa Basqalın "Qala yeri" adlanan ərazidə də kifayət qədər çaydaşı, əhəng daşı və digər tikinti qalıqları müşahidə edilmişdir.

Bölgədə çay vadisindən kənarda da təbii daş yataqları az deyildir. *"Daşçıxan"* adı ilə bəlli olan belə yataqlardan biri Uzunboylar abidəsi yaxınlığındadır (24, 299). Qonşu kəndlərin əhalisi buranın daş ehtiyatlarından yararlanmış, daşın emalı – kəsilməsi, yonulması və s. ilə bağlı müxtəlif texniki üsullardan xəbərdar olmuşlar. Bu, Basqal və qonşu kəndlərin ərazisindəki abidələrdən də görünür. Məsələn, XIX əsrin yadigarı olan Hacı Bədəl məscidinin ön divarı həddən artıq zərif, hamar üzlük puç daşlarla hörülmüşdür (38, 30). Basqalın tanınmış daş ustası Məşədi Allahqulu öz təkrarolunmaz əl işləri ilə qəsəbənin bir çox yaşayış evlərinin, o cümlədən Hacı Bədəl məscidinin tikilməsində böyük xidmətlər göstərmişdir.

Qədim Basqal küçələrinin başdan-basa xüsusi formalı çay daşları ilə döşənməsi də buranın əhalisinin daşdan geniş və səmərəli istifadə vərdişlərinə yiyələndiyindən xəbər verir. Basqallı məlumatçımız Əjdər Tağıyevin söylədiyinə görə, onun hər iki ayağından məhrum olmuş atası bu işin yaxşı sənətkarı olmuş, əlil arabasında gəzməsinə baxma-

yaraq, uzun illər məhz Basqalın daş küçələrinin təmiri və yenidən qurulması işi ilə məşğul olmuşdur.

Basqalın, eləcə də ətraf kəndlərin daş ustaları arasında geniş yayılmış aşağıdakı deyim bu sənət sahəsinin nə qədər çətin və məsuliyyətli olduğunu əyani şəkildə göstərir: yaxşı usta gündə 6 daş kəsə bilər, 7 daş kəsən asta artıq yaxşı usta sayılmazdı və ona ev tikmək etibar edilməzdi. Lakin daş təkcə tikinti-abadlıq işində deyil, əsrlər boyu əhalinin təsərrüfat və məişətində də müəyyən yer tutmuşdur. Azərbaycanın müxtəlif bölgələrində dəyirman daşı, kirkirə (əldəyirmanı), dam daşı (kirkino), xırman daşı, daş vəl, dibək, həvəng, əzmə, su novu, axur və s. bir sıra kəndlərdə özünün tətbiqi əhəmiyyətini uzun müddət qoruyub saxlaya bilmişdi (60, 75). Bu cür tapıntılar Basqal və Basqalətrafı ərazilərdən də aşkar edilmişdir ki, onların arasında dən daşları, həvəngdəstə, sürtgəc, çəki daşları v ə s. göstərmək olar.



Dən daşı – kirkirə

*Dən daşı* (və ya kirkirə) əllə hərəkətə gətirilən iki uzunsov daşdan ibarət olub, dən (əsasən yarma hazırlamaq üçün) üyütmək üçün istifadə olunmuşdur. Bərk və məsaməli daşlardan hazırlanan bu avadanlığın alt hissəsi nisbətən uzunsov, qayıqvarı, enli, hamar və çökək, üst – işlək hissə isə bir qədər yumru olur. Dəni bu hissənin ortasında açılmış dəlikdən alt hissənin üzərinə töküb, üst daşı hərəkətə gətirməklə üyüdürdülər. Dən daşları uzun müddət əhalinin məişətindəki əhəmiyyətini itirməmiş, bəzi bölgələrdə hətta zon zamanlara qədər istifadə olunmuşdur. Tədqiqatçılar bu cür daşların təxminən e.ə. II ci minillikdə meydana gəldiyini qeyd edirlər. Onların müxtəlif nümunələrinə Yaloylutəpə, Mingəçevir, Qalagah,

Xınıslı, Nüydü və s. arxeoloji abidələrdə də rast gəlinmişdir. Basqalda bəzi evlərdə bu gün də həmin daşlara təsadüf etmək olar.

Məişətdə geniş istifadə olunmuş və əsasən mədən daşından hazırlanmış *həvəngdəstələr* Neolit dövründən məlumdur. Həvəngdəstə ortası dərin oyulmuş iri daşdan və oyuq hissədəki dar boğazda nazik əl yeri olan daşdan ibarət olur. Arxeoloji qazıntılar zamanı bəzən *dibək* adı ilə tanınan bu cür daşlara Azərbaycanın əksər bölgələrində rast gəlinmişdir. Bundan başqa bəzi arxeoloji abidələrdə Tunc dövründən etibarən istifadə olunan müxtəlif formalı *həvəng daşı* nümunələri də tapılmışdır.

Basqalın küçə və səkilərinin qurulmasında, meydan və həyətlərin döşənməsində, su kəmərlərinin və kanalizasiya şəbəkəsinin üstünün örtülməsində də yonulmuş, formaya salınmış müxtəlif ölçülü daşlardan və daşyonma üsullarından istifadə olunurdu. Məsələn, xamı vurulmuş mədən daşı balta ilə əvvəlcə qaraçapma, sonra cümməçapma edilir, daha sonra isə təvərdişəklə döşənirdi. Ənənəvi daşişləmə sənətinin ən kamil texniki üsulu sayılan oyma üsulu özünün zərif həllini həkkaklıq sənətində tapmışdır. Həkkak başlıca olaraq qəbirüstü abidələr (başdaşı, sənduqə) və inşaatda (dekorativ bəzək ünsürlərinin qurulması), kitabə (yazı) və s. düzəldirdi. Zəmanəmizədək gəlib çatmış xatirə abidələri və kitabə nümunələri Azərbaycan daşişləmə ustalarının bədii oyma sənətinə dərindən bələd olduqlarını göstərir.

Basqal qəbiristanlığında XV-XIX əsrlərə aid olan bədii tərtibatlı məzar abidələri və daşları diqqəti cəlb edir. Daşların üzərində böyük məharətlə çəkilmiş həndəsi və nəbati ornamentlərlə yanaşı, insan, heyvan və quş təsvirlərinə də rast gəlinir. Bunlardan yalnız bəzək kimi deyil, həm də dəfn olunmuş şəxsin cinsini, həyatını, peşəsini əks etdirən təsvir kimi də istifadə olunmuşdur. Bundan əlavə məzarların üzərində bir çox simvolik mahiyyət daşıyan rəqəmlərə də rast gəlinir. Professor Məşədixanım Nemətovanın təbirincə desək. "Neçə-neçə yüzillərdən bəri daşlar üzərindəki bu kitabələr (epiqrafik yazılar) canlı tarixdir, ən dəqiq tarixi mənbələrdir, heç bir məzmun dəyişikliyinə

uğramamış etibarlı sənədlərdir" (68, 5).

Şamaxı rayonunun Xınıslı, Çıraqlı kəndləri ərazisindən əhəngdaşından düzəldilmiş və e.ə. I minillik üçün xarakterik olan müxtəlif daş heykəllər (hündürlüyü 1 m-dən 4 m.-dək) tapılmışdır. Tədqiqatçılar həmin daş heykəllərin əcdada sitayişlə əlaqədar meydana gəldiyini ehtimal edirlər (39, 38).



Daş heykəl. E.ə. I minillik

*Xeyrat abidələri* də xatirə abidələri sisteminə daxildir. Məsələn, nakam ölmüş əziz-xələf övladının xatirəsini əbədiləşdirmək məqsədilə keçmişdə xeyrat bulaqları çəkdirilir, daşdan qıstab, hovuz və novça düzəldilirdi. Abidə üzərindəki kitabədə bulağın ithaf olunduğu şəxs haqqında qısa məlumat həkk olunurdu. Qıstabdan dağətəyi və dağ kəndlərində bulaq suyunu bir yerə yığan su anbarı kimi də istifadə olunurdu. Basqalda da belə bulaqlar çoxdur. Onlar kiminsə xatirəsini əbədiləşdirmək məqsədilə olmasa da, xeyriyyəçilər tərəfindən, yaxud da qəsəbə sakinlərinin birgə əməyi ilə əhalinin içməli suya olan tələbatını ödəmək üçün yaradılmışdır.

Qeyd edək ki, daşla bağlı inam və etiqadlar xalq arasında geniş yayılmışdır və bunlar da "daş ayini" məfhumu ilə səciyyələndirilir. Bu inam və etiqadların kökündə isə daşın fövqəltəbii gücünə, qüdrətinə olan inam dayanır. Məsələn, Azərbaycanın bir çox bölgələrində *"Yağmur daşı"* deyilən daş, insanların yağışı çağırma ayinləri zamanı geniş istifadə olunurdu. Bir sıra bölgələrimizdə qeydə alınan meteorit parçaları "səmadan düşmüş daş" kimi sitayiş obyektinə çevrilmişdir. Xalq arasında müalicəvi xüsusiyyətlərə malik olan *"Süleyman daşı", "Ocaq daşı", "Su daşı", "Dalaq daşı", "Mədə daşı", "Çiçək daşı"* və s.

qeyri-adi xüsusiyyətlərə malik daşlar da məlumdur. Babadağ ziyarətgahı, o cümlədən bu ziyarətgahdan götürülmüş daşlar da müqəddəs sayılır. *"Baba daşı"* adlanan daşları insan bədəninin bir hissəsi hesab edirlər. Guya onlar göydə ildırım çaxanda yerə tökülür və ona sahib olanları bütün bəlalardan qoruyur.

Basqallılar arasında da daş inamı, daşa tapınma ayini günümüzə qədər qorunub saxlanılmışdır. İnsan öldükdən sonra "ruhu daşa keçir" deyirlər. Ölərkən uzun müddət can çəkənin əlinə daş qoyardılar ki, rahat ölsün. Ölünü yola salarkən dalınca daş atardılar ki, bu evdən bir də ölü çıxmasın. Kimsə qarğış edəndə "Dalınca qara daş", "Başına daş düşsün" deyərlər. Kiməsə alqış söyləyəndə, sağlamlıq diləyəndə, ürək sözlərini "Dərdin dağlara, daşlara" kimi ifadə edərlər. İnanclara görə, bu dünyada hər kəsin bir daşı var. Bu inanc "Mənim daşım ağırdır", "Daşım düşüb filankəsin başına" kimi ifadələrdə əksini tapmışdır. Bir də ki, ata-babalarımız "Yük əyiləndə, daş qürbətə gedər", "Gəzən ayağa daş dəyər", "Dəyirmanın alt daşı ağır olar" söyləmişlər.

Beləliklə, deyilənlərdən belə bir nəticə hasil olur ki, Basqal qəsəbəsi toxuculuq, xüsusilə də kəlağayı toxuculuğu mərkəzi kimi şöhrət qazansa da, burada digər sənət və peşə sahələri də fəaliyyət göstərmiş, əsasən yerli əhalinin mədəni-məişət ehtiyaclarının ödənilməsinə xidmət etmişdir. Bu gün sözügedən həmin sənət sahələrinin mövcud olmamasına baxmayaraq, müxtəlif mənbələrdən və informatorlardan əldə etdiyimiz faktiki materiallar Basqal tarixinin və etnoqrafiyasının – buranın əhalisinin gündəlik həyat tərzinin, bütövlükdə məişətinin öyrənilməsi üçün mühüm mənbə kimi çıxış edir. Həmin materiallar həmçinin Azərbaycanda istehsal tarixini və onun ayrı-ayrı mərhələlərinin xüsusiyyətlərini öyrənmək baxımından da olduqca faydalıdır.

### Dabbağlıq

Keçmişdə Basqalda mövcud olmuş sənət sahələrindən biri də *dabbağlıq – gön-dəri emalı* idi. Baxmayaraq ki, bu sənət sahəsinin sıx şəkildə bağlı olduğu maldarlıq təsərrüfatı Basqalda heç vaxt aparıcı sahə olmamışdır. Mənbələrə istinad edən professor Camal Mustafayev qeyd edir ki, XVIII əsrdə Şamaxı xanlığının iri sənətkarlıq mərkəzləri olan Lahıcda 20, Basqalda 6, yerdə qalan kəndlərdə isə birlikdə 18 dabbaq fəaliyyət göstərmişdir (64, 105). Tarix elmləri doktoru Fəzail Ağamalının tədqiqatlarından da məlum olur ki, XVIII-XIX əsrlərdə Basqalda gön-dəri emalı ilə məşğul olan 8 dabbağxana fəaliyyət göstərmişdir ki, bunlarda da 40-dan çox sənətkar çalışmış və burada hər il 1000 ədəd müxtəlif ölçülü dəri istehsal edilmişdir (3, 90).

Dabbaqlar müxtəlif ev heyvanlarının (qoyun, keçi, qatır, öküz, inək, at) dərisindən həm xam, həm də aşılanmış halda istifadə edirdilər. Dəri sarağan yarpağı, bəlgə, sumaq yarpağı, əhəng, cır nar, naşatır, ağ zağ, qara zağ, mis ovuntusu, habelə dəniz duzu, quyruq yağı və s. kimi aşılayıcı xassəyə malik bitki və mineral maddələrlə aşılanırdı. Dəriyə yumşaqlıq vermək üçün isə "vəlgə" adlanan bitkini un halına salıb həll edir və aşılanmış dərini həmin məhlula qoyurdular. Üç gün ərzində hər gün məhlul təmizləndikdən sonra dəri tələb olunan vəziyyətə çatdırılırdı. Toplanılan etnoqrafik məlumatlar və ədəbiyyat materialları göstərir ki, döyülüb un halına salınmış sarağan gönün, sağrının, sumaq qoyun və keçi dərisinin, əhəng mal gönünün, qoyun və keçi dərisinin, cır nar isə camış gönünün aşılanmasında istifadə olunurdu (60, 227-228). İş prosesində çən, mis tiyan, anbar, həsir, sıyırğac, bıçaq, oxlov, qaşov, çənəsəng, iynə, sap, süpürgə, yağ ləməsi, ağac mıxça və s. kimi istehsal ləvazimatları işlədilirdi. Çənlər əsasən palıd və ya qoz ağacının kötüyündən yonulur və onlar böyük-kiçikliyinə görə bir-birindən fərqlənirdi. Böyük çənlərə 35-40, kiçik çənlərə isə 15-20 qoyun dərisi yığılırdı. Mis tiyan boya hazırlamaq, anbar sarağan-bəlgə saxlamaq, həsir isə sağrını səpmək üçün istifadə olunurdu. Digər istehsal alətlərinə gəlincə, onlar iş prosesi zamanı

tələbata uyğun olaraq tətbiq edilirdi.

Dəri aşılama prosesinin son əməliyyatı "mal"ın duzlanması idi. Bu əməliyyat başa çatdıqdan sonra duzlanmış gönləri qurutmaq üçün isti vaxtlarda onları kölgədə, soyuqlar düşdükdə isə açıq havada yerə sərirdilər. "Günün altına sərilmiş mal bir qədər təpiyəndən sonra arabir üzünə duzlu su çilənirdi. Duzlu su malın qalın yerinə az, nazik hissələrinə çox çiləndiyindən, gönün hər yeri eyni qaydada quruyurdu" (60, 233). Məlumatçıların sözlərinə görə, qurumuş qara gönü yumşaltmaq üçün onun astar üzünü tiyanda əridilmiş yağ vasitəsilə yağlayırdılar. Ağ gön isə zəy-duz məhlulunun qatışığı ilə aşılandığından yumşaq olur və onu yağlamağa ehtiyac qalmırdı. "Mal"ın boyanmasında isə palıd və badam ağacının qabığından, həmçinin "zağ" adı ilə məlum olan dəmir kuporosundan istifadə edirdilər.



Dabbağlıq emalatxanası

Çöl-etnoqrafik və ədəbiyyat materiallarından aydın olur ki, gön-dəri emalı proseslərinin çoxu su ilə bağlı olduğundan, dabbağxanalar da bir qayda olaraq axar su mənbələrinin yaxınlığında yerləşirdi. Bu cəhət də öz növbəsində dağlıq və dağətəyi ərazilərdə bu sənət sahəsinin mövsümi səciyyə daşımasını şərtləndirirdi. Belə bölgələrdə dabbağxanalarda iş havalar istiləşəndə, yəni yazın əvvəllərində başlanıb, payız soyuqları düşənə qədər davam edirdi. Qışda isə sular donduğundan, dabbaqlar da fəaliyyətini dayandırırdılar. Işini dayandırmış dabbağxana sahibləri növbəti iş mövsümü başlayana, yəni yaza qədər xammal tədarükü ilə məşğul olur və hazır məmulatların satışını həyata keçirirdilər. Bununla bağlı yazıçı Əbülhəsən Ələkbərzadənin bəhs olunan əsərindəki epizod da yerinə düşür. Həmin epizoddan aydın olur ki, Çayqırağı məhəlləsində toxucu

sahibkarların rəngsazxanaları ilə bərabər, dabbağ karxanaları da mövcud olmuş və bu məhəllənin insanları böyük çənləri su ilə doldurmaq, bunların altını yandırmaq və digər işlərdə çalışmaqla çörək pulu qazanırmışlar (33, 38).

Bu fakt XIX əsrə aid mənbələrlə də təsdiqlənir. Məsələn, XIX əsr dabbağxanalarının təsvirini verən K.Xatisov yazırdı ki, "Dabbağxanalar, adətən yaşayış evlərinin yaxınlığındakı damlarda yerləşirdi. Bəzən isə onlar üçün çay və arx kənarında xüsusi bina inşa edilirdi və hər dabbağxanada sahibkardan başqa 3-4 işçi və 1-2 şagird fəaliyyət göstərirdi. İşçilərin aylıq maaşı 5-10 manata bərabər idi. Gönün istehsalı ilə əsasən yayın əvvəllərindən payızın axırlarına qədər məşğul olurdular" (122, 352).

Dəridən məişət ehtiyacları ilə bağlı müxtəlif ləvazimatlar (çarıq, ayaqqabı, kürk, kəmər, papaq, qamçı, şallaq, yəhər, yüyən və müxtəlif at ləvazimatları, döl, tuluq, körük və s.), həmçinin ərzaq məhsullarının – buğda, duz, süd, pendir, kəsmik və s. saxlanılması üçün motal, dağarcıq və s. düzəldirdilər. İstehsal edilən məmulatın çox hissəsi yerli tələbatın ödənilməsinə yönəldilir, müəyyən hissəsi isə qonşu ölkələrə, o cümlədən Rusiyaya ixrac edilirdi (64, 105). Dabbağlıq zaman-zaman digər sənət və ev peşəsi sahələrinin-pinəçiliyin, çustçuluğun, dərziliyin, sərraclığın, papaqçılığın inkişafına da əhəmiyyətli təsir göstərmişdir.

XIX-XX əsrin əvvəllərində Azərbaycanın digər şəhərlərində olduğu kimi, Basqalda da dabbağxanalar iltizama verilirdi. İltizamçılar hər iri buynuzlu mal-qara dərisinin emalına görə 5 qəpik, keçi dərisinin emalına görə isə 1,5 qəpik pul toplayırdılar (3, 90). Basqalda Zibeyir Zeynalov, Adil Zeynalov və Sahib Rəcəbov kimi işinin ustası olan məşhur dabbaqlar olmuşdur.

El arasında, dildə-ağızda dabbağxana ilə bağlı bir çox deyimlər, ifadələr yayılmışdır ki, onların da hər birinin arxasında çox maraqlı əhvalatlar durur. Məsələn, bir adamın keçmişinə, hər cür gizli işlərinə yaxşı bələd olan, iç üzünü bilən adam haqqında "Mən onun dabbaqda gönünə bələdəm", – deyirlər.

**Ağacişləmə**

Basqalətrafı ərazilərin zəngin və bol meşə materialı tarixən burada sözügedən sənətkarlıq sahəsinin inkişafı üçün əlverişli şərait yaratmaqla bərabər, ağacişləmə sənətinin mahir bilicilərinin yetişməsinə də səbəb olmuşdur. Basqalın ağac ustaları amud, alma, zoğal, tut, alça, qoz, əzgil, fındıq və s. ağac növlərinin materialından müxtəlif mətbəx ləvazimatları (qaşıq, ələk, xəlbir, boşqab, çömçə, oxlov, təknə, mücrü, tabaq, sandıq, yuxayayan və s.), təsərrüfat alətləri (mala, xış, kürək, yaba, bel, şana və s.), qoşqu və nəqliyyat vasitələri (araba, xizək, kirşə), toxuculuq alətləri (daraq, cəhrə, şərbaf dəzgahları), ev əşyaları (taxt, beşik, nənni, miz, çarpayı) və s. hazırlamaqda çox mahir olmuşlar.

Ağacişləmə sənətkarlığında ilkin mərhələ emal üçün yararlı olan ağacın seçilib kəsilməsi və daşınması olmuşdur. Bu əməliyyat peşəkar ustanın başçılığı ilə həyata keçirilirdi. Usta müvafiq ağac növünü manşırladıqdan sonra köməkçilərinə (baltaçılara) onu kəsməyi göstəriş verirdi. Ağacın qol-budaqları elə oradaca arıtlanır və material lazımi yerə daşınırdı. Bu zaman ərazinin relyef quruluşundan asılı olaraq at və ya öküzün köməyi ilə sürütmə üsulundan, yaxud da qoşqu nəqliyyatından (araba) istifadə olunurdu (44, 14).



Ağac mətbəx dəsti

Basqal sakinlərindən aldığımız məlumata görə, kəsiləcək ağac seçilərkən ustalar təcrübəli insanların empirik bilik və təcrübəsindən faydalanır və ilk növbədə ağacın meşənin hansı – güney və ya quzey hissəsində bitməsi faktı nəzərə alınırdı. Meşənin güneyində bitən ağaclar daha yüksək qiymətləndirilirdi. Hesab olunurdu ki, belə ağaclar kifayət qədər günəş şüalarını qəbul etdiklərindən sağlam və möhkəm olurlar. Diqqət yetirilən məsələlərdən digəri onun hansı mövsümdə kəsilməsi idi. Peşəkar sənət ustalarının dediyinə görə, ağac kəsimi üçün ən münasib dövr payızın ortaların-

dan yazın ilk çağına qədərki dövr sayılırdı. Çünki bu müddətdə xalq arasında deyildiyi kimi, "ağaca su yeriyir", inkişafı dayanırdı. Bundan başqa, ağ və qara qabıqlı ağacların günün hansı vaxtında kəsilməsinə də önəm verilirdi. Belə ki, qara rəngli ağaclar, o cümlədən palıd, qarağac, yemişan, dəmirağacı və s. ay qaranlığında, fıstıq, qovaq, söyüd, vələs, çinar ağac materialları isə ay işığında kəsilərdi (21, 145-146). İnamlara görə, bu vaxtlar kəsilən ağacları qurd vurmazdı. "Ay daldalandı, palıdı kəsmək olar" xalq məsəli də buradan qaynaqlanmışdır.



Ağac mətbəx dəsti

Ağacişləmə sənətinin sirlərinə bələd olan ustalar düzəldəcəkləri məmulat üçün hansı ağac növünün daha münasib olduğunu da yaxşı bilirdilər. Məsələn, şana, kürk, bel sapı fıstıq və nil ağaclarından, təknə, tabaq, hövsər qoz, qızılağac və qovaqdan, araba təkərləri və kotanın çarxları dəndə ağacından, vəl qarağac və palıddan, çömçə, qaşıq kimi məişət əşyaları cır armud, yemişan və fıstıqdan düzəldilirdi. Elə tədqiqatçılar da özəyi quru olan ağaclardan hazırlanan araba hissələrinin daha möhkəm olduğunu qeyd edirlər (54, 67).

Ağacişləmə sənətində tətbiq olunan əmək alətləri istifadə məqsədlərinə görə kəsici alətlərdən, mişarlayıcı alətlərdən, yonucu alətlərdən, sıyırıcı alətlərdən, deşici alətlərdən, oyucu alətlərdən, sıxıcı alətlərdən, tutucu alətlərdən, ölçmə və nişanlama alətlərindən və s.-dən ibarətdir (56, 133). Bu sırada su qüvvəsi ilə hərəkətə gətirilən dəzgah da mühüm yer tuturdu ki, onun texniki xarakteristikası barədə XIX əsr müəllifi N.Abelov məlumat vermişdir. Onun yazdığına görə, Şamaxı qəzasının dağ çaylarının suyu ilə hərəkətə gətirilən torna dəzgahları vardır ki, bunlar vasitəsilə təknə, tabaq və çanaq düzəldilir. Bu əşyaları hazırlayan ustalara "çanaqçı" deyirdilər (2, 177).

Məlumdur ki, qədim zamanlardan etibarən inşaat işlərində – evlərin bünövrə və divarlarının, arakəsmə, döşəmə və pilləkənlərinin qurulmasında ağac materialdan geniş istifadə edilmişdir. Onların hazırlanması ilə məşğul olan ağac ustaları *dülgər* adlanırdı. Bundan başqa, dülgərlər nəqliyyat vasitələrində, ev məişətinin müxtəlif sahələrində işlənən zəruri avadanlıqların, təsərrüfat və əmək alətlərinin hazırlaması ilə də məşğul olurdular. Dülgərlik məmulatı əsasən, suyadavamlı yapışqanla, civi və yarıb keçirmə (calaq) üsulu ilə birləşdirilirdi. Qapı, darvaza, pəncərə, yığma taxta evlər, toxuma dəzgahlar və s. isə *xarrat* əməyinin məhsullarıdır. Xarratlar həmçinin, eyvan və pilləkən sürahiləri, çarpayı, miz, kürsü ayaqları, mətbəx ləvazimatı və s. hazırlayırdılar. Zaman-zaman Azərbaycanın digər bölgələrində olduğu kimi, Basqalda da bu sənət sahələri üzrə səriştəli ustalar fəaliyyət göstərmişlər. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki. Basqal ağacişləmə ustalarının başlıca məqsədi şəxsi tələbatlarının ödənilməsi idi. Bununla belə, onların (xüsusilə də dülgər, xarrat və b.) qəsəbədəki bir çox ictimai tikililərin ərsəyə gəlməsində də xidmətləri məlumdur. Belə ustalardan biri də tərrah Əşraf Qafarov olmuşdur ki, onun gördüyü işlər basqallılar tərəfindən indi də hörmətlə yad olunur.


Ağac mətbəx dəsti

**Kömürbasma**

Sənətkarlıq, təsərrüfat və ev məişəti ilə sıx bağlı olan peşə sahələrindən biri də *ağac kömürü* istehsalı və ya xalq arasında deyildiyi kimi, *kömürbasmadır*. Azərbaycanda ağac kömürü istehsalının çox qədim tarixi vardır. Ölkəmizin ərazisinin meşə sahələri ilə zəngin olması tarixən burada kömürbasmanın inkişafına rəvac vermişdir. Bu haqda orta əsr mənbələrində də məlumatlara rast gəlinir. Bundan əlavə, elə bir abidə yoxdur ki, arxeoloji qazıntılar

zamanı orada ağac kömürü qalıqları aşkar edilməsin. Yeri gəlmişkən, indinin özündə də bir çox dağlıq və dağətəyi rayonlarda, xüsusilə İsmayıllıda müəyyən adamlar bir peşə sahəsi olaraq kömürbasma ilə məşğuldurlar.

Basqal qəsəbəsi sakinləri də vaxtilə kömürbasma, odunsatma, bağçılıq və s.-lə məşğul olmuşdur (85, 7). Kömür istehsalı çox vaxt satış məqsədi daşımış və əsas etibarilə Bakı bazarlarına gətirilmişdir. İndinin özündə də *"Kömürçü meydanı"* adlanan məhəllədə (bu məhəllə hələ də yaddaşlarda "Kömürçü meydanı" və yaxud "Kömürçü bazarı" kimi yaşamaqdadır), həmçinin Qəbələ, Şəki və digər bölgələrdə təşkil edilən həftə bazarlarında İsmayıllı kömürü satılır.



Kömürbasma

Arxeoloji qazıntılardan və informatorların məlumatlarında məlum olur ki, ağac kömürünün əsas tətbiqi sahələrindən biri metaləritmə olmuşdur. Belə ki, dəmirçilik emalatxanalarında əsasən ağac kömürü işlədilirdi. Bu, yeganə enerji və istilik mənbəyi idi. Arxeoloji qazıntıların nəticələrindən məlum olur ki, hələ e.ə. II minillikdə ölkəmizin qədim sakinləri filizi əridib mis ala bilirmişlər. Bunun üçün "sobaların içərisinə növbə ilə ağac kömürü və xırdalanmış mis filizi, yaxud mis tozu doldurur, od vurduqdan sonra sobaya körük vasitəsilə əlavə hava verməklə metalı əridirdilər" (42, 68). Mənbələrdən aydın olur ki, filizin əridilməsi üçün hər dəfə təqribən 9 pud kömür işlədilirdi. Lakin kömürün və filizin daşınması əlavə problemlər yaratdığından, metaləritmə kürələrinin daha çox xammal ehtiyatlarına yaxın ərazilərdə yerləşdirilməsinə üstünlük verirdilər (25, 258).

Ağac kömürü istehsalı prosesi əslində kəsiləcək ağacın seçilməsindən başlanırdı. El adətlərinə görə, hər ağacı kəsməzdilər, hər ağacın odunundan da kömür alınmazdı. Meşəçilər arasında geniş yayılan "odun nildir, vələs küldür, palıd güldür" deyimi də təsadüfən yaranmamışdır. Bu səbəbdən ağac ustaları nəsildən-nəslə keçən zəngin əməli təcrübə əsasında oduncağın keyfiyyətinə ciddi əhəmiyyət verirlər. Bir qayda olaraq, qocalmış, ayaq üstə qurumuş, yıxılmış, yaxud illərlə arada qalmış ağacları kəsirdilər. Yaşlı sakinlərin dediyinə görə, sağlam ağacları kəsmək, ondan odun materialı hazırlamaq, yandırmaq günah sayılır. Qurumuş, yıxılmış ağacın qol-budağı balta ilə budanıb arıtlanandan sonra, arabalara yığılaraq sürütmə, yaxud da qoşqu nəqliyyatı (at, ulaq, öküz arabaları) vasitəsilə münasib yerə daşınır. Burada ağaclar xüsusi qayda ilə doğranıb yarmaçalar şəklinə salınırdı. Ağacların doğranması və xırdalanması işi xeyli fiziki qüvvə tələb edildiyindən, çox vaxt bu işlər köməkli görülürdü.



Hazır ağac kömürü

Kömürbasma prosesi aşağıdakı qaydada aparılırdı: meşənin münasib yerində kiçik xırman formasında dairəvi meydança yeri düzəldilir, sonra müxtəlif ölçüdə (0,5 - 1 m və s. ola bilər) doğranmış odun daşınıb hazır vəziyyətdə qoyulurdu. Odunun belə kəsilməsi tonqalda boş yerin qalmaması və asan yığılması məqsədi daşıyırdı. Düzəldilmiş meydançanın ortasında əvvəlcədən hazırlanmış "molla ağacı" adlanan bir ağac basdırırdılar. Ağacın ətrafında tonqalın tez yanması üçün üst-üstə (toxuma formasında)

quru odun qalanırdı. Bundan sonra doğranan bütün yaş odun "molla ağacı"nın ətrafına dikinə formasında bir-birinin yanına düzülür. Odunun qalanmasının hündürlüyü basmanın həcmindən asılı olur. Basmanın hündürlüyü "molla ağacı"nın dibindən götürülməklə 1-1,5 və 2 m ola bilərdi. Basma xarici görünüş etibarilə kəsik konusu xatırladır. Qalama əməliyyatı qurtardıqdan sonra basmanın üstü əvvəl közlə, sonra torpaqla, əgər həmin sahədə basma təkrar olunarsa, onda əvvəlki basmadan qalan kömür xəkəsi (ovuntusu) və torpaqla örtülürdü (kömürbasma sözü də buradan götürülmüşdür).

Sonuncu növ basma daha keyfiyyətli kömür verirdi. Bacmanın kənarında müəyyən məsafələrlə kiçik ölçüdə deşiklər qoyulur. Yandırma əməliyyatına başlayarkən ortadakı "molla ağacı" çıxarılır və həmin yerə quru odunun arasına od tökülür. Quru odunun yanması sürətləndikdə "molla ağacı" çıxarılan deşik tam bağlanırdı. "Molla ağacı"nın yeri bir növ hava ilə tüstü çəkən boru rolunu oynayır. Beləliklə, basma kiçik deşiklərdən gələn hava vasitəsilə sakit yanmağa başlayır. Qıraqlarda qoyulmuş deşiklərdən alov görünürsə, həmin deşiklər mütləq bağlanmalıdır ki, odun tədriclə (vamla) yansın. Əks təqdirdə od özü üçün kiçik bir deşik açardısa, bu, kömürün yanıb külə dönməsinə səbəb olur.

Sənətkarların dediyinə görə, ancaq yüksək keyfiyyətli kömürlə dəmirçi ocaqlarında lazımi hərarəti almaq mümkün idi. Belə kömür isə palıd, vələs, arçan, şabalıd və s. möhkəm ağacların oduncağından hazırlanırdı. Buna görə də sənətkarlar karxanalar üçün kömürü peşəkar kömürçülərdən alırdılar. Böyük basmalardan 70 at yükündən çox kömür götürmək mümkündür. Basmanın yanma müddəti onun böyüklüyündən asılıdır. Bəzən bir basmanın başa çatması 9-10 günə qədər davam edirdi. Basmanın yanıb qurtarması tüstünün kəsilməsi ilə, onun tam soyuması isə üstünə çıxardıqda kömür xırpıltısı səsi verməsilə müəyyən olunurdu. Bütün bunlar basmaçıdan böyük diqqət və

təcrübə tələb edir. Kömür hazır edildikdən sonra basma söndürülürdü. Basmanın söndürülməsinin özü də kömürçüdən xüsusi ustalıq və peşəkarlıq tələb edir.



Manqalda ağac kömürü

Ağac kömür evlərin isidilməsində də geniş istifadə olunurdu. Belə ki, keçmişdə evlərin demək olar ki, böyük əksəriyyəti kürsü ilə qızdırıldığından xeyli miqdarda kömür tədarükü tələb olunurdu. Bu məqsədlə bütün evlərdə, xüsusilə də, kömürbasma peşəsi ilə məşğul olanların həyatində kömürü müxtəlif səciyyəli təsərrüfat tikililəri ilə yanaşı, kömürün yağışdan, qardan, rütubətdən qorunması üçün nəzərdə tutulan *"kömürdamı"*, yaxud *"kömürdanlıq"* adlanan tikili də olurdu. Adətən bu tikili kürsü qoyulmuş otağın yaxınlığında, çox vaxt evə bitişik şəkildə inşa edilirdi. Bundan başqa, ağac kömürü ocaq üzərində yemək bişirilməsində, samovar qaynadılmasında və manqal yeməklərinin (əsasən də kababların) hazırlanmasında geniş istifadə olunmuş və olunmaqdadır. Ağac kömüründə qaynadılmış samovar çayının dadıtamı isə bambaşqadır.

Onu da qeyd edək ki, bu gün Basqalda kömürbasma sənəti unudulmuşdusa da, İsmayıllı rayonu hələ də ölkəmizin mühüm ağac kömürü istehsalı mərkəzlərindən sayılır. "İsmayıllı kömürü" adı ilə satılan ağac kömürünün müştəriləri daha çoxdur. Bakıda və Azərbaycanın digər bölgələrində fəaliyyət göstərən ictimai iaşə obyektlərinin çoxu "İsmayıllı kömürü"ndən istifadə edirlər.

Beləliklə, Basqal sənətkarlığının etnoqrafik tədqiqi belə bir nəticəyə gəlməyə imkan verir ki, bəhs olunan sənət sahələri buranın əhalisinin sosial-iqtisadi həyatını təşkil etməklə bərabər, onların həyat tərzinin də əsasını təşkil etmişdir. Bütün orta əsrlər boyu inkişaf etmiş bu sənət-peşə sahələri texniki tərəqqinin yüksək səviyyəyə çatdığı XIX və XX əsrlərdə də mövcudluğunu qoruyub saxlaya bilmiş, lakin bu zaman insanların məişət ehtiyaclarını ödəməklə bərabər, onların estetik zövqünün təmin olunması kimi, daha bir vacib funksiya yerinə yetməkdədir. Bu baxımdan milli mədəniyyətlərin qaynayıb qarışdığı müasir dövrümüzdə ulu keçmişimizin yadigarı kimi, ənənəvi sənət sahələrinin bərpası və inkişaf etdirilməsinə çox cidd ehtiyac hiss olunur.

# IV fəsil

# AİLƏ:
# ADƏT-ƏNƏNƏLƏR,
# MƏRASİMLƏR VƏ  ETİKET

Ailə tarixi inkişaf prosesinin məhsulu olub, birdən-birə yox, tədricən meydana çıxmış mühüm sosial hadisədir. Elmi tədqiqatlar Azərbaycan ərazisində ailənin təşəkkülü tarixini Eneolit dövrünün sonlarına aid olduğunu göstərir. Ailə – hüquqi nikah münasibətləri əsasında qurulan, qan qohumluğu əsasında formalaşan, qarşılıqlı cavabdehlik, məsuliyyət vəköməklik kimi öhdəliklər üzərində möhkəmlənən kiçik sosial qrup və ya birlikdir. Ailə üzvləri – ər-arvad, valideyn-uşaq, qardaş-bacı arasındakı münasibətlər sistemi ailənin sosial-mənəvi əsaslarını və funksiyalarını müəyyənləşdirir. Tarixin sonrakı mərhələlərində isə ailənin mahiyyəti və funksiyaları genişlənərək, eyni zamanda özünəməxsus əxlaqi və mənəvi dəyərlərin, adət-ənənə və mərasimlərin icra olunduğu bir özəyə çevrilmişdir. Heç şübhəsiz ki, Azərbaycan ailəsi də qədim zamanlardan bəri bəşəriyyət üçün səciyyəvi olan bu əsaslar üzərində qurulmuşdur (11, 297). Bu gün Azərbaycan ailəsi və ailədaxili münasibətləri inkişaf edərək etibarlı dayaqlara malik bir sosial təsisat - İnstitut halına gəlmişdir.

Məlum olduğu kimi, uzun illər nikah münasibətlərinin tənzimlənməsi şəriət qaydaları əsasında həyata keçirilmiş, ərlə arvadın hüquq və vəzifələri müəyyənləşdirilmiş, onların mülkiyyət və valideynlik hüquqları nizama salınmışdır. XX əsrin əvvəllərindən etibarən, xüsusilə də Sovet hakimiyyəti illərində bu işlə VVAQ idarələri məşğul olmağa başlamışdır. Buna baxmayaraq, vətəndaşların böyük əksəriyyəti bu günə qədər şəriət nikahından tamamilə imtina etməmiş, müvafiq dövlət orqanları tərəfindən nikah müqaviləsi ilə bərabər, kəbin də kəsdirirlər.

Məlumat üçün qeyd edək ki, ibtidai icma cəmiyyətində mövcud olmuş qrup nikahının ardınca, nikaha girmənin *poliqamiya* (çoxarvadlılıq və ya çoxərlilik), *poliqiniya* (bir ər və bir neçə arvad), *poliandriya* (bir arvad və bir neçə ər), *monoqamiya* (tək arvadlılıq və

tək ərlilik) və s. formaları və qaydaları mövcud olmuşdur. Sonuncu dünyanın əksər sivil xalqlarında, o cümlədən azərbaycanlılarda ən geniş yayılmış nikahagirmə formasıdır. Azərbaycanda, o cümlədən Basqalda nadir hallarda, həyati zərurət yarandıqda monoqamiya ikiarvadlılığa, yəni poliqamiyaya çevrilir.

Bununla bərabər, yaxın keçmişə qədər basqallılar arasında *endoqam nikahlar* – bir tayfadan olan qohum ailələr arasında bağlanan nikahlar geniş yayılmışdı. Bu sırada *kuzen nikahların* xüsusi çəkisi daha böyük idi. Qan qohumluğu, əmioğlu ilə əmiqızı, dayıoğlu ilə bibiqızı, xalaoğlu ilə xalaqızı arasında bağlanan nikahlar kuzen nikahlar adlanır. Etnoqraf alimlər bu adəti daha çox iqtisadi və mülkiyyət münasibətləri ilə, daha da konkretləşdirsək, ailənin varidatının kənara çıxmaması məqsədilə bağlandığını qeyd edirlər. Lakin son zamanlar kuzen nikahların sayının kəskin aşağı düşməsi müşahidə olunur ki, bu da ilk növbədə bəzi tibbi göstərişlərlə əlaqədardır. Həmçinin bir vaxtlar Basqalda nikahagirmənin *göbəkkəsmə* (oğlan və qız uşağının göbəyi kəsildiyi vaxtdan bir-birinə nişanlanması) adətinə də rast gəlinirdi. Bu adət həm qohum, həm də qohum olmayan ailələr arasında həyata keçirilirdi və kökləri etibarilə çox qədimlərə gedib çıxır. Müasir dövrdə isə *ekzoqam* – yəni başqa nəsildən, eldən, soydan olan oğlan və qızlar arasında bağlanan nikahlar daha geniş yayılmışdır. Həmin adət *deyikli, adaxlı* və s. adlarla digər türk-müsəlman xalqlarında da məlumdur.



Basqallı Hacı Məhəmmədtağı ailəsi ilə

Hər bir azərbaycanlı ailəsində olduğu kimi, Basqalda da ailə-nikah münasibətləri hüquqi göstərişlərlə bərabər,

əxlaqa, tərbiyəyə, ədəb-ərkana, əsrlər boyu cilalanmış adət-ənənəyə və s. söykənir. Tarixən təşəkkül tapmış və həyatın sınaqlarından uğurla çıxmış ər-arvad, valideyn-övlad münasibətlərini tənzimləyən qaydalar bu günün özündə də göz bəbəyi kimi qorunmaqla, demək olar ki, öz məzmun keyfiyyətlərini itirməmişdir. Hansı ki, orada hər kəsin öz öhdəlikləri və vəzifələri vardır. Başqa sözlə desək, ailəni, evi-ocağı müqəddəs sayan atalarımız, babalarımız onu möhkəm, sarsılmaz dayaqlar üzərində qurmağa çalışıblar. Elə bu möhkəmliyin nəticəsi idi ki, keçmişdə boşanmalar çox az olmuşdur. "Mən papaq deyiləm ki, başdan-başa qoyulum" əqidəsi ilə tərbiyələnən analarımız, nənələrimiz kişini evin sütunu sanmış və "Kişisiz evin çırağı ölgün olar" – demişlər. Odur ki, ailələr iki gəncin bir-birini görüb bəyənməsi, qarşılıqlı sevgisi, valideynlərin razılığı, xeyir-duası və Allahın izni əsasında qurulubdur, bu yerlərdə. Yəni ailə Allahın insanlara bəxş etdiyi ən böyük lütflərdən biridir. Ailədə qadının qadın, kişinin isə kişi yeri olmuşdur. Necə deyərlər, kişi papağı qeyrətdirsə, qadın örpəyi ismət, güzəşt, barışıq rəmzi sayılır. Evə gəlin gələn qız da qısa müddətdə qaynana-qayınatası, qayın-baldızları ilə dil tapır, qaynayıb-qarışır və bu ailənin bir parçasına çevrilir. O, hamı yatandan sonra yatır və hamıdan tez durub bir çox ev işlərini görüb qurtarır. Xüsusilə, yaşlı, qoca olan evlərdə ev işlərinin əsas ağırlığı məhz gəlinin üzərinə düşür.

Basqal ailələrində baba və nənənin xüsusi yeri və mövqeyi diqqət çəkən məqamlardandır. Onların nüfuzu və hörməti həm ailə daxilində, həm də ailədən kənarda, ümumiyyətlə, bütün vacib məsələlərin həllində əsas olmuşdur. Eşitdiyimizə və gördüyümüzə əsaslanaraq deyə bilərik ki, hazırda da Basqalda yaşı səksəni ötmüş nənələr var ki, hələ də özü kimi yaşlanmış həyat yoldaşının ehtiramını saxlayır, içəri girəndə ayağa qalxır, yer göstərir, yanına yastıq, mütəkkə qoyur ki, bardaş qurub rahat otursun. Bu müdriklərin ailə tarixçəsini

vərəqlədikdə isə görürük ki, onlar bir-birini görmədən və sevmədən evləniblər. Bəlkə də ilk əvvəllər sözləri düz gəlməyib, amma sonralar mehribanlaşıblar, isinişiblər, həmişə qarşılıqlı hörmət olub aralarında.

Bütün ailələrdə olduğu kimi, Basqal ailələrində də ən hörmətli və nüfuzlu şəxs ata-ana hesab edilir. Elə buna görə də uşaqlara, gənclərə öyüd-nəsihət verərkən "Yuxarıda Allah, aşağıda ata-anadır", "Ən böyük dövlət ata və ananın sağlığında hörmətini saxlamaq, öləndən sonra isə ruhlarını şad etməkdir" – deyirlər buralarda. Həzrəti Məhəmməd (Ə) hədislərinin birində buyurduğu kimi: "Ata-ananıza ehtiram edin ki, övladlarınız da sizə hörmət qoysunlar".

Təcrübə göstərir ki, ailənin sağlamlığı, möhkəmliyi onun başçısından – kişidən də çox asılıdır. Səbirli, sözü ilə əməli bütöv və kəsərli kişinin ailəsi dedi-qodusuz, münaqişəsiz yaşayır. Bu mənada Basqal ailəsində ata bütün məsələlərdə həlledici söz sahibi sayılır. Ailənin gündəlik tələbatının ödənilməsi, təsərrüfat və məişət problemlərinin həlli və s. onun üzərindədir. Odur ki, ata da bu məsuliyyəti dərk edir, ilk növbədə ailəsinin, sonra da yaşadığı elin-obanın etimadını doğrultmağa çalışır: çünki "Ailədə hörmət edilən kişi el içində də hörmət-izzət sahibi olar" – deyirlər Basqalda.

Qadınlar kişilər oturan masanın arxasında oturmazlar. Qadının kişi söhbətlərinə qarışması isə xoş hal sayılmır. Bu, çoxdan, lap qədimdən atanın-babanın iradəsi ilə ailənin əxlaq nizamnaməsi ilə yazılmış bir qanundur. Bundan əlavə, Basqalda balacalı-böyüklü hamının gözlədiyi bir qayda var: ailənin heç bir tədbiri atanın razılığı və iştirakı olmadan həyata keçirilmir. Yəni, basqallı ailəsində ata böyüklüyü, ata zabitəsi hər zaman hiss olunur. Ümumən Şərq, eyni zamanda Azərbaycan ailə sistemində atanın tutduğu mübarək mövqe, onun müsbət mənada fetişləşdirilməsinə gətirib çıxarmışdı. Ata evə gələrkən ailə üzvlərinin hamısı ayağa durur, ehtiramla ona yaxınlaşır. O, oturmayınca adətən, heç kəs oturmur. Süfrə başında bir qayda olaraq, xörək əvvəl ataya,

sonra böyük oğula, daha sonra kiçiklərə verilir. Atadan qabaq süfrəyə əl uzatmaq, söhbətə başlamaq hörmətsizlik sayılır. Ata süfrə başında dua oxuduqdan, "bismillah" dedikdən sonra uşaqlar əllərini süfrəyə uzada bilərlər. Süfrə başından duranda da deyirlər: "Süfrəmiz həmişə açıq, çörəkli-bərəkətli olsun". Azərbaycanın digər bölgələrində olduğu kimi, Basqalda da ata-bala arasında olan hörmət pərdəsi heç vaxt aradan götürülmür.



Basqalın ağsaqqal ziyalısı
Miryavər Hüseynov

Basqal ağsaqqallarının bu məsələdə öz mövqeləri, dəlil-sübutları var. Onlardan biri bizimlə söhbətində qeyd etdi ki, a bala, Allah da, Peyğəmbər də buyurmuşlar ki, əvvəl valideynlərini tanı, böyük-kiçik yeri bil, sonra bizi. Onlar kiçiyə qayğı göstərməyən, böyüyə hörmət qoymayan "bizdən deyil" ifadəsi ilə insanlara xəbərdarlıq etmişlər. Basqallıların da mayası böyük-kiçik münasibətləri ilə yoğrulub. Burada hər kəs öz yerini gözəl bilir.

Belə bir yanaşma eyni dərəcədə anaya da aiddir. Məlumdur ki, azərbaycanlı ailəsində lap qədim dövrlərdən başlayaraq qadına həmişə böyük hörmət bəslənmiş, onun ləyaqətini, şəxsiyyətini yüksək tutmuşlar. El-obanın qadınları ataya, qardaşa, ərə, oğula arxa-dayaq olmuş, öz qoçaqlığı, zirəkliyi ilə kişilərdən heç də geri qalmamışlar. Bu baxımdan xalqımızın uzaq keçmişinin, şərəfli tarixinin güzgüsü olan "Kitabi-Dədə Qorqud" nümunəsi, akademik Tofiq Hacıyevin sözləri ilə desək, bizim "ana kitabımızdır". Dastanın boylarından məlum olur ki, oğuzlarda qadın cəmiyyətin fəal üzvü olmuş, oğuz igidləri isə qadın mənliyini,

qadın şərəfini qorumuş, ana haqqını yüksək tutmuşlar (46, 32).

Elə basqallılarda da ana evin dirəyi, ailənin özəyi, ərin sirdaşı, ömür-gün yoldaşıdır. Burada anaya, qadına münasibət tarixən bambaşqa olub. Ailədəki sağlam mühit, uşaqların düzgün tərbiyəsi, mehribançılıq, qarşılıqlı anlaşma evin qadınından – anadan asılıdır. Ailə üçün yaxşı ana, ər üçün yaxşı həyat yoldaşı ömür uzadır. Nahaq yerə demirlər ki, "yaxşı arvadlı ev cənnətdir". Basqal qadınları həmişə işgüzar və zəhmət sevən olublar. Ev təsərrüfatının ağırlığı demək olar ki, bütünlüklə anaların üzərinə düşür. Onlar səhərdən axşama qədər qolu çirməkli çalışır, əlləşir, silib-süpürür. Ev-eşiyin səliqə-sahmanında, ailə üzvlərinin, qonaq-qaranın qarşısına açılan bol nemətli süfrələrdə də qadın-ana əməyi özünü göstərir.



Basqallı nənələr toy hazırlığında

Ailədə övladlar da anaya, ataya böyük hörmətlə yanaşır, nəsihətlərinə qulaq asır, onların sözünü çevirmir, üzünə ağ olmurlar. Basqallı təbiətinə bütün bunlar yaddır, böyük günah və qəbahət sayılır. Miryavər Hüseynov deyir ki, buralarda belə bir xalq misalı var: oğul ananın borcundan çıxmaq üçün onu öz çiyinlərində yeddi dəfə Məkkəyə aparıb gətirməlidir. Əlbəttə, bu olası şey deyil. Müdrik xalq bununla demək istəyir ki, ananın borcundan çıxmaq mümkün deyil. Ona görə ki, ana ömrü boyu övlada yanandır. Ananın ömrü nə qədər uzun olursa, övladlarının da əziyyətini bir o qədər çox çəkir. Övlad da anaya bir o qədər borclu qalır.

Bəlkə də elə bu cür təlim-tərbiyənin, sağlam ailə mühitinin nəticə-

sidir ki, təkcə valideyn-övlad münasibətləri deyil, qardaşlıq və qardaş-bacı münasibətləri də səmimiyyətə, qarşılıqlı hörmətə, qayğı və diqqətə, mehribançılığa söykənir. Bacılar qardaşlarının köməyinə güvənir, özlərinin arxası, köməyi hesab edərək, onların varlığı ilə fərəhlənirlər. Böyük qardaşla kiçik qardaş arasında da böyük-kiçik yeri həmişə gözlənilir. Bundan başqa Basqalda uşaqlara valideynləri ilə yanaşı, yaşca böyüklərə hörmət bəsləmək sifətləri də aşılanır.

Basqalda oğlan uşaqlarını kiçik yaşlarından əməyə, halal zəhmətə alışdırmaq adət şəklini alıb. Burada mövcud olan qaydaya görə uşaqlar məsciddən gələn sübh azanının səsi ilə ayağa qalxmalı, həyət-bacaya əl gəzdirməli və analarına kömək etməli idilər. Bu cəhətdən basqallılar uşaqlarından çox razı idilər. Basqallılara xas olan cəldlik, istəklik, yorulmadan hər bir işi axıra çatdırmaq qabiliyyəti var. Bu tərəflərdə cavanların yerişinə-duruşuna da göz qoyurlar; gərək ağır oturub batman gələsən. Yəni yaxşı oğul atanın sərvətinə, şöhrətinə deyil, aldığı tərbiyəyə arxalanmalıdır.

Xalqımızın minilləri adlayıb gələn ailə, ocaq qanunları var: evdə bir neçə oğul varsa, evləndikdən sonra böyüklər ata-anadan ayrılıb, özlərinə yeni yuva qurur, kiçik oğul isə ata ocağında qalır. Basqalda belə ailələr çox olub və elə indi də var. Yazıçı-publisist Tahir Cəfərli ata-baba yurdu olan bu qəsəbədə bir vaxtlar görüb-götürdüklərini qələmə alaraq belə yazır: "Babam Kəblə Cəfər deyərdi ki, biz uşaqları böyütmüşük ki, hər işimizi onlara həvalə edək. Biz qocaldıqda işimizi onlar görməlidirlər. Biz isə kənardan tamaşa etməli, daha işlərinə qarışmamalıyıq. Ağsaqqallara görə, ata oğula çox nəsihət verərsə hörmətdən düşər. Şərait yaratmalısan ki, özləri nə etmək lazım olduğunu düşünsünlər. Bir də ağsaqqal deyərdi ki, "nökər nədi, bekar nədi, aç qapını, ört qapını". Oğula nə qədər əziyyət versən, bir o qədər bərkiyər. Heç vaxt korluq çəkməz, zəhmətin dadını bilər" (28, 40).

Ailə-məişət münasibətlərinin ən mühüm cəhətlərindən biri də *adqoyma mərasimləri* ilə bağlıdır. Basqallılar təzə doğulmuş uşağa ad seçmək, ad vermək məsələsinə həmişə çox ciddi yanaşırlar. Verilən

məlumatlara görə, keçmişdə bu münasibətlə keçirilən mərasim uşaq doğulandan 40 gün sonra, həm də müsəlman ənənəsi əsasında keçirilərdi. Adqoyma mərasimində qohum-əqrəba, dost-tanış, məhəllə ağsaqqalları iştirak edirdi. Ada böyük inam bəslənildiyinə, adın çox şeyi həll etdiyinə mövcud olan düşüncədən idi ki, körpəyə hər adam ad qoya bilməzdi. Bu işi elin ağsaqqalı, hörmətli adamlar, müsəlman ənənəsində isə mollalar yerinə yetirərdi. Öncə evin ağsaqqalları dəstəmaz alar, namaz qılar, namazdan sonra körpə üçün müqəddəs "Quran" açılar, istixarə edilər, daha sonra evin, nəslin ağsaqqalı, yaxud molla peyğəmbərlərin, xəlifələrin, imamların və onların övladlarının adlarını uşağın qulağına oxuyardı. Bəzən də elə olurdu ki, bəzi valideynlər öz övladlarına ata-analarının, baba və nənələrinin adlarını verirlər. Bu münasibətlə ağsaqqal uşağın üzərinə əyilərək, yaxud qulağına tələsmədən həmin adları pıçıldayır, sonra da "adını mən verdim, yaşını (və ya qismətini) Allah versin" – deyirdilər. Böyük-kiçik, valideyn-övlad arasında da bu hörmət pərdəsi həmişə gözlənilirdi.

Basqalda ənənəvi adqoyma adətləri bu gün də unudulmayıb. Şəriətə ciddi əməl olunduğu kimi, hər bir valideyn öz övladlarını xoşbəxt, bəxtəvər görmək arzusu ilə onlara müasir adlar seçməyə çalışırlar: Anar, Elçin, Aytən, Aytac, Nərgiz, İlham, Mehriban, Maral, İlkin, Elgün, Bənövşə, Elcan, Araz və s. Eyni zamanda son onilliklərdə zərərli ateizm erasından İslam dininə qayıdışla əlaqədar, uşaqlara verilən adlar arasında Məryəm, Abdulla, Mələk, Əli, Həsən, Hüseyn, Zəhra, Zeynəb, Ömər və s. adlara da tez-tez rast gəlinir.

Basqallılar ululardan qalma özünəməxsus həyat tərzini, ədəb-ərkan qaydalarını, inanclarını, adət və ənənələrini bu gün də qoruyub saxlayırlar. Allaha inamla yaşayan bu yurdun insanları çətinliklərdən, sərt sınaqlardan zərərsiz, itkisiz çıxmaq üçün haqq yolundan çıxmır, tez-tez "Allah təvəkkül edənləri dost tutur", – sözlərini təkrar edir, "Əgər hər kəs işlərini Allahın öhdəsinə buraxarsa, Allah onun bütün ehtiyaclarını və ruzusunu güman gəlməyən yerdən ona yetirər" – deyir və bununla da əməli-salehliyi, mənəvi təmizliyi, paklığı hər şey-

dən üstün tutduqlarını və buna inandıqlarını nümayiş etdirirlər. Dua edəndə, xoş arzu və diləklərini bildirəndə "Allah ruzunuzu başınızdan töksün", – söyləyirlər. Bu, ürəkdən gələn, həqiqi sevgidən və məhəbbətdən doğan, insanın insana münasibətini göstərən alqışların yalnız bir neçəsidir.

**Ağsaqqallıq institutu**

Məlum olduğu kimi, tarixən elimizin, obamızın mənəvi dəyərlər sistemində ağsaqqallıq institutu adlanan sosial təsisat mühüm yer tutmuşdur. Çox qədim tarixə malik bu təsisatlar bu günün özündə də gənc nəslin milli-mənəvi və əxlaqi dəyərlər üzərində tərbiyə olunub böyüməsində mühüm rol oynayır. Basqalda bütün bunlar indinin özündə də öz əvvəlki nüfuzunu və hörmətini qoruyub saxlaya bilmişdir. Bu baxımdan ağsaqqallıq institutu haqqında xüsusi danışmaq lazım gəlir. Keçmişdə olduğu kimi, indi də burada hər nəslin, məhəllənin sözü keçəni, sayılanı, dağdan ağır nurani-pirani, müdrik ağsaqqalı, ağbirçəyi var. Baş verən bütün hadisələrdə ağsaqqallar bir yerə yığışır, müzakirə edir, çıxış yolu axtarır və öz məsləhətlərini verirlər. İndi də ağsaqqal sözü, ağbirçək nəsihəti yazılmamış bir qanundur. Toy eyləyənlər, oğul evləndirənlər, qız köçürənlər ağsaqqalın yanına məsləhətə gəlirlər. Çətinə, dara düşənlər ağsaqqala müraciət edir, çıxış yolu diləyir, lazım gəldikdə kiminsə qapısına minnətə aparırlar. Gənclər də onların ehtiramını saxlayır, həmişə, hər yerdə bu müdrik insanlardan nə isə eşitmək, nə isə öyrənmək istəyirlər. Ağsaqqal, yaşlı bir adam görəndə uşaqlar, cavanlar özlərini yığışdırır, kənara çəkilib, hörmət və ehtiramlarını ifadə edirlər. Bunlar əsrlərdən gələn əxlaqi adət-ənənədir. Bu qaydanı heç bir basqallı pozmazdı. Böyük-kiçik hörməti itən yerdə xeyir-bərəkət də itər, – deyirlər.



Basqal ağsaqqalları

Elə Basqal ağsaqqalları da şəriətə ciddi əməl etdikləri kimi, adət-ənənəyə də sadiqdirlər. Onları əhatə edən cəmiyyətin tarixən formalaşdırdığı çərçivədən kənara çıxmırlar. Qürurlu olduqlarından heç kəsin şərəfinə toxunacaq söz işlətməzlər. Bir-birinə münasibəti, özlərini aparmaqları da bir örnək, bir məktəbdir: cavanların, uşaqların yanında zarafat etməz, özlərini ağır aparırlar. İşdi-şayəd, gənclərdən kimsə günah işlədəndə, onlardan birinin iki-üç kəlmə qətiyyətli sözü bəs edər ki, həmin gənc öz payını götürsün və nəticə çıxarsın: "Bala, adımızı batırma! Sən ki, ağıllı balasan!" – deyə gəncin könlünü alardı. Odur ki, hərdən adama elə gəlir ki, "Var-dövlətsiz evə get, ağsaqqalsız evə getmə" kəlamı sanki elə basqallılar üçün deyilib. Çünki etnoqrafik müşahidələrimiz göstərir ki, Basqalda ağsaqqalın, ağbirçəyin hər sözünü eşidər, sözlərinin qabağında söz deməz, onların xeyir-duaları olmadan bir işə başlamazlar. Qəsəbənin söz sahibi olan tədbirli, təcrübəli ağsaqqallarından Məşədi Seyid Rəsul ağa, Məşədi Həsənəli Məşədi ağa oğlu, Hacıbağır oğlu Məşədi Ağəli, Hacı Nağı, Mirbağır ağa, Əlisina Əzizov, Ağarəzi xan Qasımxanlı, Hacıbağır oğlu Məşədi Məhəmməd, Məşədi Ağababa, Xarabiyanlı Baba, Məşədi Məmmədtağı, Heydərəmi və b. əhali arasında hörmətə, nüfuza malik şəxslər kimi tanınıblar.



Basqallı Məşədi
Ağababa Ələkbər oğlu

Ağsaqqalın bircə işarəsi ilə qanlılıq (qan

intiqamı – red.) aradan götürülür, münaqişələrə son qoyulur, mübahisələr kəsilir, küsülülər barışır, ağır günahlar bağışlanırdı. Günahı bağışlamaq ən böyük savabdır – deyilib. "Yamanlığa yaxşılıq ər kişinin işi" sayılıb bu yerlərdə. Ağsaqqal dünyagörmüş müdrikdir, düz yol göstərəndir. Onlar adamları haqqı tanımağa, halallığa, düzlüyə çağırıb. "Ağsaqqal sözü Tanrı hökmüdür", – söyləyiblər. Bir də deyiblər ki: "Evin yaraşığı ağsaqqaldır", "Ağsaqqal olmayan yerdə əmin-amanlıq olmaz", "Ağsaqqalı, ağbirçəyi olmayan ev xeyir-bərəkət tapmaz". Basqalda tez-tez belə də deyirlər: "Var-dövlətsiz evə get, ağsaqqalsız evə getmə".



Basqallı Rəfiqə nənə

Bu gün də Basqalda gümrah, sağlam, qərinələr yola salmış neçə-neçə ağsaqqal, ağbirçək yaşayır. Hazırcavab qocalar demək istədiklərini az sözlə elə sərrast ifadə edirlər ki, heyran qalırsan. Onlar ağıllı məsləhətlər verərək Basqalın xeyir və şər işlərində əllərindən gələni edirlər. Yeri gəlmişkən, basqallı cavanlar da yaşa dolduqca özlərini bu adətlərə və davranışlara uyğunlaşdırmağa çalışırlar. Ağsaqqallar, seçilmiş insanlar bir yerə toplaşdıqda cavanlar ora gəlməz, onların söhbətlərinə qarışmazlar. Bu hörmətsizlik sayılır.

* * *

Basqallılar öz sənətlərini, peşələrini sevən, işində intizamlı və diqqətlidirlər. Çalışqan və işgüzardırlar. Haram işə, haram tikəyə tamah salmazlar. Onların varı-dövləti bir təmiz adlarıdır, bir də zəhməti... Həmişə halal zəhmətlə dolanmış, heç vaxt heç kimə əyilməmiş, öz

sənətlərini qorumuş və inkişaf etdirmişlər. Qollarının gücü ilə şan-şöhrət tapmış, halal zəhmətləri sayəsində xoş güzəran, firavan həyat sürmüş, yeri gəldikcə başqalarını da dolandırmışlar. Tahir Cəfəri yazır: "Babam söyləyərmiş ki, Basqalda kasıb-kusub yoxdur, tənbəl var. Basqallı 1-2 dəzgahda işləsə, dolanacaq, işləməsə yox. Bir sözlə, işlədin çörəyin var, kasıb deyilsən, işləmədin kasıbsan. Basqallı dəzgah arxasında işlədikdə özünün böyüklüyünü, güclülüyünü, heç kimdən asılı olmadığını göstərəcək. Bu həyat tərzi həmişə belə olub və vərdiş halını alıb. Bunu heç nə və heç kim poza biməzdi".

Bu yerlərdə belə bir adət də var: harasa – səfərə getmiş adam qayıdarkən, əliboş qayıtmamalı, əli boxçalı, mer-meyvəli, hədiyyəli gəlməliydi. Gələn də ki, nə qədər desən. Qonşunun uğuruna sevinmək Basqalda köhnə adətdir. Hamı gözaydınlığına gəlir. El ağsaqqalları da ailə üzvlərinə gözaydınlığı vermək üçün toplaşır. Ailə şənliyi el şənliyinə çevrilir:

Əzizim ellər gələr,
Çay daşar, sellər gələr,
Bir elin harayına,
O biri ellər gələr.

**Gözəl olur bu yurdun toy-büsatı...**

Azərbaycan ailə-məişət münasibətləri sisteminin mühüm bir hissəsini heç şübhəsiz ki, toy mərasimi təşkil edir. Oğlanla qızın nikah hüququnun tənzimlənməsi ilə əlaqədar keçirilən çoxmərhələli və mürəkkəb bir mərasim olan "toy xalq məişət ənənələrinin ən kütləvisi və məşhurudur. Toy adi evlənmə mərasimi çərçivəsindən çıxaraq, xüsusilə kənd yerlərində ictimai-mədəni bir əyləncəyə çevrilir" (1, 120).

Zaman-zaman zənginləşərək, hər bir elementinin əsaslı yozumu

olan toy mərasimlərində bütün Azərbaycan üçün ümumi olan qanunauyğunluqlarla yanaşı, ayrı-ayrı bölgələrimizin təbii-coğrafi şəraitindən, təsərrüfat məişətinin xüsusiyyətlərindən, etnik özünəməxsusluqlardan və s.-dən irəli gələn lokal əlamətlər olduğundan, böyük maraq doğurur. Bu baxımdan Basqal toyları haqqında da xüsusi danışmaq lazım gəlir.

Azərbaycanın hər yerində olduğu kimi, Basqalda da toyların istər keçmişdə, istərsə də indi *toyaqədərki*, *toy* və *toydan sonrakı* müddəti əhatə edən üç əsas mərhələsi, bu mərhələlərin hər birinin ardıcıl olaraq keçirilən mərasimləri (qızgörmə, qızbəyənmə, elçilik, nişan, paltarkəsdi, xınayaxdı, gəlinapardı, duvaqqapma, üzəçıxma) və hər bir mərasimin də tədricən adət şəklini almış qayda-qanunları var. Toyaqədərki mərhələnin ilk mühüm hadisəsi *qızbəyənmə* adlanır. Bu zaman oğlunu evləndirmək istəyən tərəf hiss etdirmədən gəlinləri olacaq qızın özü və onun ailəsi haqqında məlumat toplayır, ona uzaqdan göz qoyur, səliqəliyi, işgüzarlığı, evdarlığı barədə öyrənir, nəslini-nəcabətini araşdırır. Valideynlər təkcə oğlanlarının kiminlə evlənməsi məsələsindən narahat olmur, eyni zamanda qızlarının hansı oğlana gedəcəyindən, hansı tayfaya, hansı nəslə, ailəyə düşəcəklərini də düşünür. Bu barədə öz yaxınları, doğmaları ilə çox ciddi şəkildə götür-qoy edir, başqa sözlə desək, yüz ölçüb, bir biçir, uzun müddət düşünüb-daşınırlar. Yəni, əgər belə demək mümkünsə, keçmişdə oğlan və qız əslində görmədən-sevmədən evlənir və bu məsələdə həlledici söz gənclərin özünə deyil, onların valideynlərinə məxsus olurdu. Ata-ananın razılığı və xeyir-duası olmadan bu iş baş tutmazdı. Həmçinin, ağsaqqal sözünə, qohum-əqrəba, dost-tanış məsləhətinə də ehtiyac böyük olurdu. Buna baxmayaraq, statistik rəqəmlər göstərir ki, o dövrdə boşanmaların sayı çox az idi və yaxud nadir hallarda baş verirdi. El ağsaqqallarının sözlərinə görə, görmədən-bilmədən evlənənləri bir-birinə sonradan sevdirən ilk növbədə valideynlərin düzgün seçimi, qarşılıqlı hörmət, məhəbbət və ən başlıcası tərbiyə idi. Elə buna görə də ailə möhkəm, büllur kimi saf olurdu.

Qızı seçib bəyəndikdən sonra oğlan evi ilə qız evi arasında bəzi məsələlərlə bağlı şifahi razılıq əldə edilir, kiçik nişanın aparılacağı gün müəyyənləşdirilir. Bundan sonra ümumi qayda üzrə qız üçün el arasında *"kiçik nişan"* adlanan (bəzi yerlərdə ona "bəlgə" də deyirlər) nişan aparılır. Hər iki tərəfdən ən yaxın qohum-əqrəbanın iştirak etdiyi bu mərasim üçün bəzədilmiş və üzərinə ipək saçaqlı şal, yaxud da qırmızı kəlağayı örtülmüş xonçalara nişan üzüyü, allı-güllü kəlağayı, kəllə qənd, şirniyyat və s. qoyulur. Nişan mərasimində qızın barmağına üzük taxılır (nişan üzüyü), məclisə şirin çay, şərbət və şirniyyat verilir, şənlik, çal-çağır başlayır. Mərasimdə süfrəyə yalnız şirin şeylərin verilməsi xalq inancları ilə bağlı bir məsələdir və deyilənə görə, bununla ailə həyatı qurmağa hazırlaşan cavanlara şirin həyat, xoşbəxt ömür və yaşayış arzuları ifadə olunur. Bu hal şifahi xalq yaradıcılığı nümunələrində, şeirdə-poeziyada da əksini tapmışdır:

Bizdə olan gözəllər,
Bağ-bağçanı bəzərlər,
Nişan günü süfrəyə,
Şirni, şərbət düzərlər.

Beləliklə, kiçik nişanla tərəflər arasında qohumluq əlaqələrinin təməli qoyulur və nişanlanmış oğlanla qız toy mərasiminədək adaxlı sayılır. Yüzilliklər boyu qız ismətinin nişanəsi, saflıq və təmizlik timsalı kimi tanınan baş örtüyü – kəlağayı qızın artıq nişanlandığını bildirirdi. Ata-baba qaydasına görə, bundan sonra nişanlı qız evdən çıxanda bu kəlağayını hökmən başına salmalıydı.

Nişan mərasimindən sonra nişanlı qızın geyim tərzində müəyyən dəyişikliklər nəzərə çarpmağa başlayırdı ki, bu da ətrafdakıların diqqətindən yayınmırdı. Artıq o, bir qədər fərqli geyinməyə başlayırdı: başına kəlağayı örtür, oğlan evindən gətirilmiş zinət əşyalarını, o cümlədən nişan üzüyünü barmağında gəzdirir, üzünün müəyyən hissəsini bağlayır və s. Yəni sanki adaxlı-nişanlı olduğunu nümayiş

etdirirdi. Nişanlı oğlanın geyim tərzində isə elə bir dəyişiklik olmazdı. O daha çox öz hərəkətlərinə və davranışlarına diqqət yetirir, hər hansı bir nöqsana, qüsura yol verməməyə çalışırdı. Onu da qeyd edək ki, adətə görə, rəsmi nişanın baş tutmasına baxmayaraq oğlan toy gününə qədər qız evinin həyətinə ayaq basmazdı. O, yalnız toy günü gəlinin arxasınca gəldikdə bunu edə bilərdi.

Beləliklə, qız evində valideynlər cehiz hazırlığına başlayar, cehizlik xalça-palaz, zər-zibalı yorğan-döşək, ev və mətbəx ləvazimatlarının alınıb toplanması işlərini görərdilər. Bu işdə qohum və qonşular da köməklik göstərirdilər (bu adət el arasında "iməci" adlanır). Bir neçə ay sonra isə oğlan evindən qırmızı parça ilə bəzədilmiş xonçalarda və boxçalarda *"böyük nişan"* gətirilirdi. Burada nişan üzüyü ilə bərabər, kəlağayı, bəxt güzgüsü, hazır libaslar, yaxud bir dəst paltarlıq parça və zinət əşyaları, şirniyyatlar və s. olurdu. Bir sözlə, ayaqqabıdan başqa demək olar ki, hər şey gətirilirdi. Xalq inanclarında ayaqqabı "darlıq" mənasını ifadə etdiyindən, onu böyük nişanda deyil, ara günlərin birində gəlinin görüşünə gələrkən gətirirlərdi. Bundan başqa, nişan mərasiminin bütün ərzaq ehtiyatı da çox vaxt oğlan evi tərəfindən çəkilirdi. Ət, yağ, un, düyü, göy-göyərti, mer-meyvə, bir sözlə, soğandan (soğan acılıq nişanəsi hesab edildiyindən onu gətirmirlər) başqa hər şey bir və ya bir neçə gün qabaq təntənəli şəkildə qız evinə təhvil verilirdi.

Çal-çağır, şən musiqi və rəqslərlə müşayiət olunan yemək məclisi başa çatdıqdan və süfrə yığışdırıldıqdan sonra qızı məclisin yuxarı başında əyləşdirir, qabağına güzgü qoyur və şam yandırırdılar. Bərli-bəzəkli xonçaları da gəlinin dövrəsinə düzürlərdi. Nəmər verildikdən sonra oğlanın bacısı gətirilən şeyləri bir-bir nümayiş etdirməyə başlayırdı. Oturanlar da bir ağızdan "Allah mübarək eləsin" söyləyirdilər. Sonra nişanda gətirilmiş ətirlərdən biri ilə hamı ətirlənir və bir daha xeyir-dua verib dağılışırdılar. Nişanla toy arasındakı müddətdə bütün bayramlarda oğlan evindən qız evinə *bayramlıq* göndərilir, noğullu-badamlı xonçalar yan-yana düzülürdü. Xonçaların içərisinə pal-paltar,

şal parça, zinət əşyaları və s.-lə bərabər, *"Gəlinlik"* adlanan kəlağayı da qoyulurdu.



Basqal toyu

Böyük nişandan sonra oğlan evi ilə qız evi arasında gələcək toyla bağlı digər məsələlər də müəyyənləşdirilir, toyun vaxtı, qız tərəfə ödəniləcək və *toyxərci* adlanan vəsaitin məbləği ilə bağlı razılıq əldə olunurdu. Tədqiqatçılar müəyyən məbləğ pul, yaxud mal ilə ifadə olunan həmin məbləğin alınması adətini ailə üçün yetkin yaşa çatmış qızın böyüdülməsi və sonra da işçi qüvvəsi kimi itirilməsi, eyni zamanda onun cehizinin hazırlanması əvəzinə tələb edilən haqq kimi qeyd etmişlər (51, 222-223). Yurdumuzun ayrı-ayrı bölgələrində bu haqq müxtəlif adlarla adlandırılır. Yeri gəlmişkən, hazırda şəhərlərdə bu adət unudulmuş, bəzi kəndlərdə isə ümumi toyxərci ilə qarışmışdır.

Bir məsələni də xatırlatmaq istəyirik ki, Basqal camaatı işgüzar, əməksevər, əksəriyyəti ipək sənətkarlığı və digər sənət sahələri ilə məşğul olduqlarından, keçmişdə onların arasında toyxərcinin ödənilməsi ilə bağlı demək olar ki, problem yaranmırdı. Lakin tək-tək rast gəlinən kasıb ailələr üçün toy etmək – oğul evləndirib, qız köçürmək doğrudan da çətinlik törədirdi. Bu zaman basqallıların ulu babalarından əxz etdikləri yazılmamış qanunlar işə düşürdü. Yaşlı sakinlərin sözlərinə görə, keçmişdə toy edən ailə kasıb olduqda, toyxərcini ödəməyə imkanı çatmadıqda, el ağsaqqallarının iştirakı ilə camaat

yığışıb həmin xərci öz üzərinə götürür, aralarında bölüb, ev sahibinə verirdilər. Bu, təmənnasız kömək idi və bunu edərkən heç bir əvəz güdülmürdü. Hətta toy mağarının qurulması üçün lazım olan qab-qacaq, mağarın daxilinin bəzədilməsində istifadə edilən xalça-palaz da qonum-qonşu tərəfindən gətirilirdi. Cavanlar yığışıb mağarı qurar, içərisini bəzəyib lazım olan vəziyyətə gətirərdilər. Xatırladaq ki, el gücü ilə həyata keçirilən bu xeyirxah adətə, bu yardım formasına el arasında *"mürvət toyu"* (mürvət – ərəb sözü olub, mərhəmət, insaniyyət mənasını verir) deyilirdi.

El-oba adətinə görə, istər keçmişdə, istərsə də indi Azərbaycanda xeyir işlər – nişan, toy şənlikləri Novruzdan başlayıb payız fəslinin sonuna qədər davam edir. Bir sözlə, qış girənəcən toylar toylara calanır. Toy mərasiminin keçirilməsi üçün evin həyətində və ya yaxınlığında toy meydanı – çadır, mağar (bəzi yerlərdə buna toyxana da deyilir) qurulur. Mağarın yan tərəfləri və üstü örtülür, yerliyi və divarları xalça-palazla bəzənir, yuxarı başda çalğıçılar üçün xüsusi yer ayrılır. Elə burada üstü şirniyyatlarla bəzənib, güzgü qoyulmuş ayrıca bir masa və bəylik taxtı qurulur. Yaxın keçmişə qədər, adətən, 3 gün, 3 gecə davam edən toyların hər günün də özünəməxsus qaydaları, mərasimi adətləri vardı. Qız evindəki "qız toyu" *paltarkəsdi, xınayaxdı, gəlinapardı mərasimləri*, oğlan evində isə *"ixtilat toyu"*, *"oğlan toyu", "gəlinapardı*" və daha sonra *"üzəçıxdı"* mərasimləri ilə müşayiət olunurdu.

Qız toyunda, adından da göründüyü kimi, əsasən qadınlar və qızlar iştirak edirdilər. Toyun sərpayısı da, bu və digər işləri görənlər də, çox zaman çalğıçılar da qadınlardan ibarət olurdu. XX əsrin əvvəllərində görkəmli aktyor, rejissor və pedaqoq Hüseynqulu Sarabski bu barədə yazırdı: "... Qızların paltarları ipəkdən olardı. Amma çox sadə geyinərdilər. Boyunlarında, başlarında və barmaqlarında qızıl zinət və süs olmazdı. Saçlarını iki qaşlarının arasından tağ ayırardılar və hörüb arxalarına atardılar. Başlarında kəlağayı olardı. Gəlinlərin və kübar arvadların çətiri, bala birçəyi, həmaili, cütqabağısı, ağ qızılı olardı. Bir az yaşlı qa-

dınlar abı, qəhvəyi, göy və bu kimi tünd rəngli xaralardan paltar geyib, başlarına da *dügürd*[*] kəlağayısından çalma salardılar" (79, 109).

Qız evində keçirilən toy şənliklərinin son və ən təmtəraqlı mərasimi x*ınayaxdı* adlanır. Keçmişdə xınayaxdı mərasimi qız evində başlayıb, bir gün sonra el hamamında tamamlanırdı. İndi bu mərasim təkcə toy günlərində deyil, bəzən toya bir neçə gün qalmış oğlan evinin qadınları ilə birlikdə keçirilir. Bu məqsədlə oğlan evində üzərinə al qırmızı Basqal xarası və yaxud zərli örtük salınmış, içərisində xınayaxdı cehizi (ləçəklər, yaylıq, taxta tabaq, sabun və s.), gəlin xı-





Xınayaxdı

nası, kiçik kəlləqənd, noğul-nabat, püstə-badam, çay və iki bəzəkli şam olan xonçanı 12-13 yaşlı bir yeniyetmənin başına qoyub qız evinə yola salardılar. Həmin gecə ərə gedən qızın başına, əl və ayaqlarına xına qoyardılar. Mərasimdə iştirak edən qız-gəlinlər də əllərinə xına yaxıb "mübarək olsun", – deyir və xoşbəxtlik arzulayırlar. Burada gəlinin şəninə "Xına yaxın əlinə, xəbər getsin obasına-elinə", – kimi mahnılar oxuyur, oynayır, zarafatlaşır və müxtəlif əyləncələr yerinə yetirirdilər. Mərasimə, adətən, qadın xanəndə və çalğıçılar dəvət olunur.

[*] İkiqat toxunmuş böyük kəlağayı

Oğlan toyları daha gur və izdihamlı keçirilirdi. Toydan bir gün əvvəl oğlan evində "məsləhət gecəsi" keçirilirdi. Yaxınların, qohum-əqrəbanın və qonşuların iştirakı ilə keçən bu gecədə süfrə açır, toyla bağlı məsləhətləşir, görüləcək işlər müzakirə olunur, sərpayı və digər işlərə baxacaq adamları müəyyənləşdirirdilər. Bununla bağlı bəzi mərasimlər keçirilir, iməciliklər təşkil olunurdu. Belə ki, səhər obaşdan təndir və ocaqlar qalanır, qız-gəlinlər və qohum-qonşu qadınlar xeyir-dua verib işə başlayırdılar: toy adına təndir çörəyi bişirilir, ocaq üstə sac qoyub yuxa salınırdı. Nişanlı qızın da iştirak etdiyi belə iməciliklər zamanı gün ərzində toy üçün lazım olan bütün çörək-yuxa bişirilib hazırlanırdı. Toy mövsümlərində yaxşı aşpazların sifarişləri də çox olduğundan, onların vədəsini toydan xeyli əvvəl alırdılar. Aşpaza kəndin cavanları kömək edir, heç bir xahiş-minnət gözləmədən əldə-ayaqda olan işləri könüllü olaraq görürdülər.

Toyqabağı lüləkabab, pip dolması, küftə, qiyməplov, qiyməcığırtma və s. bişirmək üçün lazım olan ətin hazırlanması – döyülməsi məqsədilə keçirilən mərasim xüsusilə maraqlı olurdu. Bunun üçün lazım olan ətdöymə alətləri ilə (qiymekeş) birlikdə toy yerinə gələn qonşu qadınlar və qızlar dövrələmə bardaş qurub oturur, qarşılarındakı ət taxtası üzərində əti döyməyə başlayırdılar. İş prosesi onların şirin söhbətləri, solo və xorla oxunan toy mahnılarının ifası, zarafatlaşma və deyib-gülməklə müşayiət olunurdu.



Toy çörəyi

Ayrı-ayrı bölgələrdə *"ətməkyapdı"*, *"toyyuxası"*, *"çörəkyapdı"*, *"fətirüstü"*, *"yuxagünü"* və başqa adlarla adlandırılan iməciliklər bəzən də çal-çağır və musiqi ilə müşayiət olunardı. Sinəsi sazlı-sözlü ağbirçək nənələr növbə ilə bayatı söyləyərək, bir növ deyişər və mərasimə əlavə rəng qatardılar:

Ay el-oba tez gəlin,
Toy çörəyi yapılır.
Yeni gəlin çörəyi,
Bəy çörəyi yapılır.

və yaxud

Ulduz gəlin, ay gəlin.
Olmaz sənə tay gəlin
Qardaşının toyudur,
Nazik yuxa yay, gəlin (22, 103).



Toy hazırlıqları

El-oba adətinə görə, mərasimə dəvət olunan qadınlar bişmiş çörəkdən bir tikə kəsib "Allah mübarək eləsin, əmin-amanlıq, bolluq gətirsin" – deyə xeyir-dua verirdilər. Basqalda mövcud olan başqa bir adətə görə, ev sahibi də iməcidə iştirak edənlərin hər birinə *"fətirüstü"* deyilən xələt və ya *"heyratı"* kəlağayısı hədiyyə edir, yaxud da önlük bağışlayırdı. Sonra bişmiş çörəkdən oğlan və qız anasına təqdim olunurdu. Toy günü gəlin gedən qızın anası həmin çörəklərdən birini qızın qoltuğuna verib, onu "Həmişə bolluqda yaşayasan, a bala. Allah süfrəni bol eləsin", – kimi alqışlarla yola salırdı.

Keçmişdə Basqal toylarında spirtli içkilər olmazdı. Əvəzində toy süfrələrindən Basqal bulaqlarının buz kimi suyu, çay, şərbət, ayran və başqa sərinləşdirici içkilər əksik edilməzdi. Lakin təəssüflər olsun ki, son vaxtlar toylar, şənlik və məclislərdə spirtli içki verilir. Bəzi hallarda

sərxoşluq ucbatından məclis öz gözəlliyini itirir. Toylarımıza kütləvi içki məclisi, eyş-işrət yeri kimi baxmaq olmaz. O yerdə ki, ailənin, səadət və xoşbəxtliyin əsası qoyulur, o yerdə hər şey yaxşı qurulmalıdır, səliqəli, gözəl olmalıdır (17, 51).

Toyun axırıncı günü *gəlin gətirdi* mərasimi baş tutardı. Keçmiş zamanlarda bundan bir gün əvvəl təntənəli *"Gəlin hamamı"* mərasimi olardı. Oğlan evinin qadınları əllərinə hamam boxçaları, güzgü, bir satıl şərbət götürüb bir-birinə "oğlunun, qızının gəlinlik hamamına gedək, inşallah", – deyərək çalğı ilə qız evinə yollanardılar. Burada gəlin qızı geyindirib, başına sifarişlə hazırlanmış "heyratı" kəlağayı salardılar. Təqribən səhər saat 10-11 radələrində qız sağdış-soldışının əhatəsində və xınayaxdı mərasimində əllərinə xına qoyulmuş qonaqlarla birlikdə piyada el hamamına üz tuturdular. Burada camadar tərəfindən gəlinin başı yuyulmaqla qurumuş xınadan təmizlənirdi. Kimi *"qırxqıfıl"* adlanan cam, yaxud piyalə ilə gəlinin üst-başına su tökür, kimi ona kisə-sabun çəkir və digər xidmət göstərirdilər. Qız-gəlin hamamda çimənə və nişanlı qıza xüsusi xidmət göstərilənə kimi, çalğıçılar hamamın qarşısındakı meydanda oynaq havalar çalıb-şənlənirdilər. Yaşlı qadınlar subay qızlara diqqətlə tamaşa edərək bəyəndiklərini oğlanları üçün "gözaltı" edərdilər. Qız yuyunub hamamın





Toy hazırlıqları

*"sərbinə"* deyilən soyunub-geyinən yerində pərdə arxasında geyinib-kecinər, başına kəlağayı salınardı. Hamamdan çıxdıqda başına noğul-şirni, xırda pul töküb xeyir-dua verərdilər.

Gəlin qız ata evinin həyətinə daxil olarkən, anası və yaxud başqa bir qohum qadın bədnəzərdən uzaq olsun deyə, başına üzərlik dolandırıb yanan manqala atar və qızı onun tüstüsünə verərdi. Bundan sonra "ayağın yüngül olsun", "yaxşı günə çıxasan" kimi sözlərlə qızın ayağı altında buynuzlu qoç, başı üstə isə çörək kəsirdilər. Qız anası hamamdan gələnlərə ziyafət verərdi. Ər evinə isə gəlini adəti üzrə at üstündə aparırdılar. Çünki xalq inanclarında at murad sayılır. Yəni at üstündə yeni evə-yurda köçən gənc öz arzusuna-muradına çatsın. Beləliklə, bir say-seçmə atı bəzəyib, onun yalını, quyruğunu, sinəsini xına ilə boyayar, boynuna qırmızı parça və ya kəlağayı bağlayar, zınqırovlar asardılar. Atın yüyənini birinə verər, qabaqda ağsaqqallar, dallarınca çalğıçılar, onların da ardınca qohum-əqrəba yola düşərdilər. Gəlin ata qoşulmuş faytonla gətirildikdə isə atla bərabər faytonu da xalça-palazla başdan-başa bəzəyərdilər. Gəlin Basqaldan olanda toy karvanı qız evinə qədər olan yolu çal-çağırla piyada gedər, lakin maraqlı olsun deyə, bəzən kəndin içində bir neçə dəfə dövrə vurardılar. Cavanların əllərində xüsusi hazırlanmış məşəllər olardı. Yolboyu əllərində məşəl olan cavanlar müxtəlif teatrlaşdırılmış səhnələr göstərər, bir neçə yerdə dayanıb çalıb-oynayar, sonra yenə davam edərdilər.



Gəlinin ata ocağından yola salınması

Oğlan evi gələnəcən qız evində də müəyyən işlər görülürdü. Burada da çal-çağır, deyib-gülmək, yemək-içmək olur, gəlinin rəfiqələri və qonşu qızlar xüsusi bir otaqda onun bəzədilməsi ilə məşğul olurdular: saçına, qaşına siyah-sürmə vurar, qulaqlarına sırğasını, barmaqlarına üzüklərini, qoluna bilərziyini taxar, sonra başını-üzünü bəzəyərək oxuyurdular:

Kəlağayı gül-buta,
Yel vura, üzdən ata,
Gün o gün olsun görüm,
Qızım murazına çata!

Qız evinə yetişdikdən sonra adətə uyğun olaraq, oğlan evindən gətirilmiş kəllə qəndi parçalayıb qonaqlara paylayırdılar. Qənd şirinliyi ilə yanaşı, özünün ağ rəngi, saflığı ilə ağ günü təmsil etdiyinə görə bu ayinin də öz mənası, mahiyyəti vardı. İnamlara görə, evlənənlər onu yalnız ilk övladları dünyaya gələndən sonra dada bilərdilər. Qız toyu şənliklərində – *"Gəlinapardı"*da "belbağlama" ayini zamanı bəyin kiçik qardaşı, yaxud oğlan tərəfdən bir yeniyetmə otağa daxil olub, əlindəki qırmızı kəlağayını gəlinin belinə bağlaya-bağlaya:

Anam, bacım, qız gəlin,
Əli-ayağı düz gəlin,
Yeddi oğul istərəm,
Bircə dənə qız gəlin –

sözlərini oxuyaraq, elin-obanın xeyir-duasını çatdırardı. Adətə görə, gəlin qızın belini kəlağayı ilə bağladıqda uclarını düyünləyər, gəlinin "yeddi oğlu və iki qızı" olması arzusunun ifadəsi kimi kəlağayının özünə də doqquz düyün vurulardı.

Ata evindən çıxdıqda gəlin ocağın ətrafında dövrə vurar, boya-başa çatdığı bu evlə bir növ vidalaşardı. Daha sonra onun başına xeyir-bərəkət, ruzi əlaməti olaraq çörək qoyar, halallıq verər, gələcək həyatında uğurlar arzulayardılar. Anası ardınca bulaq suyu (el-obada

buna "uğur suyu" deyirlər) atardı ki, "Tanrı köməyi olsun, yolu uğurlu olsun". Bir də gəlin ər evinə özü ilə bir qabda təmiz su aparardı. Bu ayinlərin əsasını suyun həyat, dirilik, aydınlıq, təmizləyici xüsusiyyətləri təşkil edir (16, 186-188).

Bundan sonra musiqi sədaları altında gəlini ata mindirir, ipini asta-asta çəkib hərəkət edərdilər. Bu məqamda göy üzü fişənglərə qərq olardı. Oğlan evinə qədər bir neçə yerdə toy karvanının qarşısını kəsib nəmər də tələb edirlər ki, bu da toyun ən yaddaqalan məqamlarından olurdu. Tələb olunan nəməri dərhal verərdilər, ona görə ki, yolun bağlı olması uğursuzluq əlaməti, bədxah qüvvələrin əməli kimi başa düşüldüyündən, onun tez bir zamanda açılmasını istəyirdilər. Yeri gəlmişkən bu adətə demək olar ki, Azərbaycanın hər yerində rast gəlinir.

Gəlin gətirdi mərasimi zamanı cavanlar qız evinə gedən yolda at yarışına çıxardılar. Buna *bəy cıdırı* da deyərdilər. Bu əyləncə-yarışın qalibinə bəy anası tərəfindən toy xonçası təqdim olunar, atının boynuna isə qırmızı kəlağayı salınardı. *Güləş, Dirədöymə, Ənzəli, Papaqaldıqaç* və s. kimi oyun və əyləncələr də yerinə yetirilərdi. *Yaylıq qaçırtdı* oyunu da toy mərasimlərinin ayrılmaz bir parçası idi. Məzmunca bu oyun atüstü oyunlara yaxındır. Oyun, elə adından da göründüyü kimi, ən çox toy-düyünlərdə, böyük el bayramlarında keçirilərdi. Əlində al qırmızı yaylıq tutmuş atlı, qız evindən oğlan evinə sarı çapar, ayrı bir dəstə isə ona çatıb yaylığı ondan almağa çalışardı. Kim yaylığı qapıb oğlan evinə birinci çatdırardısa, ona xələt verilərdi. El şənliklərində *pəhlavan xonçasını* qazanmaqdan ötrü də yarışlar təşkil olunardı. Qara zurnanın və zərb alətlərinin sədaları altında gənc pəhləvanlar öz məharətlərini göstərər, güclərini sınayardılar. Mərasim iştirakçılarının alqışları ilə qalibə verilən xonça-xələtin içərisində mütləq kəlağayı da olurdu.

Bəy evinə yaxınlaşanda isə atəşfəşanlıq yaşanırdı. Musiqi sədaları altında həyətə daxil olduqdan sonra ağsaqqallar gəlinə bir daha xeyir-

dua verər və bəy atası onun başına xırda pullar səpərdi ki, bu da kiçik yaşlı uşaqların sevincinə səbəb olardı. Sonra boynuna qırmızı parça bağlanmış, alnına xına yaxılmış ağ qoçu gəlinin ayağı altında kəsərdilər. Bu zaman oğlan anası barmağını qurbanlığın qanına batırıb əvvəl bəyin, sonra gəlinin alnına xal qoyardı.

Təzə gəlin otağın astanasından keçərkən, içəri tərəfdə qoyulmuş bir saxsı qabın (boşqabın) üstünə sağ ayağını basıb, onu sındırmalı idi. Camaatın gözləri qarşısında icra olunan bu ayini görkəmli yazıçı Y.V.Çəmənzəminli belə izah etmişdir: "Əgər bu ocağa, ərimə vəfasızlıq etsəm, onda ayağımın altındakı qab kimi parçalanım" (29, 379-387). Adamlar bir-bir qız və oğlan valideynlərinə yaxınlaşıb gözaydınlığı verər, "Allah xoşbəxt eləsin", – deyərdilər. Başqa bir el adətinə görə, ər evinə qədəm basan gəlinin başına noğul-şəkər səpilir, oğlan anası ona bir güleyşə nar hədiyyə edir və deyirdi: "Bunu elə soymalısan ki, bircə dənəsi yerə düşməsin". Bu adətin özü kimi açması da maraqlıdır: gəlin təzə yurdunda dünyaya bircəsi də xəsarətə məruz qalmayan övladlar dünyaya gətirməli və onları sapsağlam böyütməlidir.

Basqal ağsaqqallarının sözlərinə görə, keçmişdə toy edən bu və digər nəslin adamları çalışırdılar ki, toy süfrəsində bolluq olsun, toya gələnlər korluq hiss etməsinlər: toyun pis keçməsi o nəsilə başucalıq gətirməzdi. Odur ki, toy ərəfəsində bütün nəslin ağsaqqalları yığılır, hər tayfa öz üzərinə bir məsuliyyət götürür, kimin imkanı nəyə çatırsa, onu ortaya çıxarır. Əgər ağsaqqal toya gəlməzdisə, bütün nəsli gəlməzdi.

Basqalın toy mərasimləri qara zurnanın, sazın, qoşa nağaranın, yastı balabanın sədaları, tarın, kamançanın həzin naləsinin müşaiyəti ilə keçirdi. Bir qayda olaraq, toydan qabaq zurnaçılar dəstəsi toy evinin damına, yaxud yaxınlıqdakı hər hansı hündür bir yerə çıxaraq zil səslə müxtəlif el havalarını ifa edərdilər ki, bu da bir növ toyun başlanmasından xəbər verirdi.

Basqal toylarında xalq musiqisinə – mahnı, muğam və təsniflərə

daha çox üstünlük verilirdi. "Uzundərə" çalınır, ahıllar, ağbirçəklər meydana girib musiqinin ahənginə uyğun durna qatarı kimi süzə-süzə qollarını ağır-ağır qaldırıb oynayırdılar. Qəsəbənin cavanları da "Yallı"ya, "Tərəkəmə"yə, "Qoçəli"yə, "Basqalı"ya o ki var oynayar və bir növ məharətlərini göstərərdilər. Şabaş da ki, öz yerində. Deyirlər ki, keçmişdə Basqal toylarında bəy oynayanda başına qızıl səpmək hallarına da rast gəlinirdi.

Onu da qeyd edək ki, bir vaxtlar bu yerlərin toy-düyün və el şənlikləri Aşıq Şamilsiz keçməzdi. Xalq mahnıları və dastanları, oyun havaları onun sazı və sözü ilə başqa bir təəssürat, əhval-ruhiyyə yaradırdı. Əli, Mirzə, Sahab, Səmid qardaşlarından ibarət balabançılar və xanəndələr dəstəsi də çox məşhur idi. Müharibədən əvvəl, habelə müharibə illərində bu tanınmış ailə ansamblı nəinki Basqalda, Şirvan mahalında, həmçinin Gəncədə, Tiflisdə və başqa yerlərdə də məclislər aparmışdılar. Kalvalı Aşıq Əlinin, muğam ustası Mansur Əliyevin musiqi dəstələri də Basqal toylarının yaraşığı, bəzəyi idi. Şirvanın, Muğanın elə bir aşığı, saz-söz ustası, xanəndəsi olmayıb ki, Basqal toylarına gəlməsin. Aşıq Şakirlə Aşıq Pənahın isə öz yeri, öz çəkisi olub buralarda. Bəzən eyni bir toya bu ustad sənətkarların hər ikisi dəvət olunurdu ki, bu zaman da həmin toy əsil tamaşaya çevrilirdi.



Milli geyimli qızlar toyda

Yeri gəlmişkən elə burada iki maraqlı faktı xatırlatmaq istərdik. Bunlardan biri "Basqalı" rəqs havası, digəri isə "Bala Nərgiz" mahnısı ilə əlaqədardır və bunların hər birinin maraqlı tarixçisi varır. Belə ki, məlumatçılarımızın sözlərinə görə, "Basqalı" rəqs havası Basqaldakı

toyların birində Azərbaycanın tanınmış qarmon ustası Aftandil İsrafilov tərəfindən mərcdə uduzduğu basqallı Müseyib dayının şərəfinə bəstələnmiş və tezliklə hamı tərəfindən sevilən bir musiqiyə çevrilmişdir. Ritmik və vüqarlı hərəkətlər düzümündə ifa olunan bu hava üstündə gözəlləmə və yaxud insana xoş ovqat bəxş edən qoşmalar oxunur.

“Bala Nərgiz” mahnısı isə Tahir Cəfərlinin yazdığına görə, ustad aşığımız Aşıq Şakir tərəfindən Cəfərlilər nəslinin nümayəndəsi, onun anası Nərgiz xanımın şərəfinə yazılmışdır. Nərgiz xanım uşaqkən, Aşıq Şakir Cəfərlilərin qonağı olur və bu zaman balaca Nərgizin şəninə belə bir mahnını yazmaq qərarına gəlir. O zamandan mahnı nəinki, Basqalda, demək olar ki, Azərbaycanın bütün bölgələrində toyların bəzəyinə çevrilir.

Beləliklə, çal-çağırlı, sazlı-sözlü toyun sonuncu günü “Bəy hamamı” mərasimi keçirilərdi. Yaxın keçmişə qədər bu mərasimlər Basqalda ayinlərinin rəngarəngliyi və təmtərağı ilə seçilərdi. Bəy öz sağdış, soldış və ən yaxın dostları ilə bərabər, musiqiçilərin müşayiəti ilə hamama varid olardı. Hamamçı oğlan anası tərəfindən tutulmuş hamam boxçasını, qız evindən bəy üçün xüsusi olaraq gətirilmiş və üzərinə zərli kəlağayı salınmış hamam boxçasını qəbul edir, onları hamamın “sərbinə” səkisinin üstünə sərirdilər. Qız evindən gətirilmiş xonçalardakı meyvə və şirniyyat da ortaya qoyulurdu.

Hamamın qapısı ağzında zurnaçılar çalır və buraya gələnlərin bir qismi oynayıb-əylənərək bəy hamamının bitməsini gözləyirdi. Bəy oğlan da hamamda tay-tuşları ilə bərabər yuyunur və bu zaman sağdış-soldışı ona hər cür xidmət göstərirdi. El hamamına gələnlərin hamısı geyinib hamamdan çıxanda, zurnaçılar yenə çalmağa başlayır və bəy cah-cəlalla evinə aparılırdı. Burada bəy oğlanın anası, bacısı və qohumları bəyin qabağında rəqs edir, oğlan anası isə oğlunun “evindən ruzi əksik olmasın, qazanıb gətirdikləri bərəkətli olsun”, – deyə, çörəyi oğlunun başının üstündə ikiyə bölür, başına üzərrik dolandırırdı.

Onu da xatırladaq ki, toy hamamı ilə bağlı xalq arasında bir çox nəğmələr yaranıb yayılmışdır. Ümumazərbaycan toylarında ifa edilən aşağıdakı mahnının yazılı ədəbiyyatda özünə yer alması heç də təsadüfi deyil:

Ay bu evlər, uzun evlər,
Göndərin hamama, göndərin,
Oğlanı hamama göndərin.
Ay içində olsun toylar,
Göndərin hamama, göndərin,
Oğlanı hamama göndərin.

Hamam mərasimi başa çatdıqdan sonra, bəy oğlan başının dəstəsi ilə oranı tərk edib yenə də musiqi sədaları altında, çal-çağırla ata evinə gətirilirdi. Burada dostları, sağdış-soldışı onu toyun sonuncu, bəlkə də ən həyəcanlı və maraqlı mərasiminə – "Bəy tərifinə" hazırlaşdırırlar. Beləliklə, axşam saatlarında bəy öz sağdış-soldışı ilə bərabər toy mağarına dəvət edilir və "Vağzalı"nın müşayiəti ilə mağarın yuxarı başında qurulmuş bəzəkli kürsünün arxasında – bəylik taxtında əyləşdirilirdi. Meydan xanəndə və aşığa verilirdi. Qısa "giriş"dən sonra bəyin tərifi başlayır, bir-bir bütün qohum, tanış, dostlar yada salınır, bəyə və gəlinə ən yaxşı arzular izhar edilirdi. Kimin adı çəkilərdisə, irəli çıxıb xələt verir, bəyi təbrik edirdi. Verilən xələtlər içində bu diyarın rəmzi – kəlağayı daha çox olurdu. Bunun da bir neçə səbəbi vardı: əvvala kəlağayı yumşaqdı, insanlar onu bəyin boynuna salmaqla bir növ ona həyat yoldaşı ilə gələcək rəftarında yumşaqlıq arzu edirlər. İkincisi də kəlağayı incədi. İpək də uzunömürlü olan parçadı. Bununla da cavan ailəyə ipək uzunömürlülüyü diləyirdi el, camaat. Çox vaxt bəy də boynunda qalaqlanan kəlağayılardan dəstələyib sağdışnan soldışının boynuna atar və sanki elin bəyə olan xoş diləklərini dostlarıyla bölərdi. Bütün bunlardan sonra isə yenidən *"Vağzalı"* çalınır və

bəy öz sağdış-soldışı ilə ahəstə-ahəstə mağarı tərk edirdi. Beləliklə, "Bəytərifi" başa çatdıqdan sonra qonaqlar bir-bir ev sahibinə yaxınlaşıb bir daha təbrik edir, "Xoşbəxt olsunlar", "Yarıyanlardan olsunlar" və s. alqışlarla görüşüb dağılışırdılar.

Bütün bu məsələlər yoluna qoyulduqdan sonra toy sahibi məclisi idarə edən xanəndəyə, çalğıçılara, yengəyə, toybəyiyə və onların köməkçilərinə minnətdarlıq əlaməti olaraq xara parça və kəlağayı hədiyyə edərdi ki, bu adət də el-obada *"düşərlik"* adlanırdı. Bundan əlavə, Basqal adətinə görə, toy sahibi bir neçə gün ərzində zəhmət çəkib toyu idarə edən, təmənnasız olaraq qonaqlara qulluq göstərən, toy uzunu əldə-ayaqda olub müxtəlif işləri icra edən adamları yenidən süfrə arxasına toplayır, onlarla bərabər yemək yeyir, hamıya öz minnətdarlığını, sonsuz təşəkkürlərini çatdırır, bu minnətdarlığın əlaməti kimi hər kəsə xələt – ipək şərflər və "heyratı" kəlağayısı bağışlardı.

Bundan sonra toyun sayca üçüncü – sonuncu mərhələsi başlanırdı. Bu mərhələnin əsas hadisəsi "üzəçıxdı" mərasimidir. Yəni toydan bir neçə gün, bəzən də bir həftə, on gün sonra bəylə gəlin gəlinin ata evinə qonaq çağırılır. Bu zaman həm qız, həm də oğlan tərəfdən ən yaxın qohumlar məclisə dəvət edilirdi.

Oğlan evində gəlin-qayınata münasibətləri də etnoqrafik baxımdan çox maraqlıdır. Belə ki, evlilikdən bir müddət sonra gəlin qayınatadan gizlənər, onunla danışmaz, bəzi hallarda hətta yaşmanardı. Lakin müəyyən müddət keçdikdən sonra, Azərbaycanın hər yerində olduğu kimi, Basqalda da keçmişdə qayınata gəlinə bir hədiyyə verdikdən, yaxud da, yaxşı nəsə vəd etdikdən sonra gəlin yaşmağını açar, onunla danışar və beləliklə də bir növ ailənin bir üzvü olduğunu təsdiqləmiş olardı.

Müasir dövrdə bütün Azərbaycanda olduğu kimi, Basqal toylarının da struktur və məzmun keyfiyyətlərində müəyyən dəyişikliklər müşahidə olunmaqdadır. Hazırda toylar üç gün, üç gecə və ya yeddi gün

yeddi gecə deyil, cəmi bir gün davam edir. Özü də bir çox hallarda toylar şadlıq saraylarında keçirilir ki, burada da ənənəvi toyların bir çox adət-ənənələri istər-istəməz ixtisara düşür. Buna baxmayaraq, xalqımızın ailə-məişət mərasimlərinin xüsusiyyətlərini, onun yaşayış tərzini, dünyagörüşünü, həmçinin etnik xüsusiyyətlərinin tarixi-etnoqrafik baxımdan araşdırılmasına böyük ehtiyac var. Bu problemin bölgələr üzrə araşdırılması isə, toylarımızın ümumi cəhətləri ilə bərabər, bir çox lokal – yerli şəraitdən irəli gələn məsələlər də ortaya çıxır ki, bu baxımdan Basqal toyları da istisna deyildir.

## Qonaq və qonaqpərvərlik

Azərbaycan qonaqpərvərliyi barədə mənbə və ədəbiyyatda, xüsusilə də Azərbaycanda olmuş səyyahların yol qeydlərində, coğrafiyaşünasların, tarixçilərin əsərlərində geniş söhbət açılır. Şifahi xalq ədəbiyyatımızın ilk orta əsrlərə aid möhtəşəm abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanında qadınlarımızın qonaqpərvərliyi, evə qonaq gəldikdə özünü aparmaq qabiliyyəti, ər kimi hərəkət edərək hər şeyi yoluna qoya bilmək bacarığı və başqa keyfiyyətləri barədə çoxlu sayda nümunələr vardır. Azərbaycan qonaqpərvərliyi barədə müxtəlif məqsədlərlə ölkəmizə təşrif buyurmuş əcnəbilərin təəssüratlarında da geniş təmsil olunur.

Azərbaycanlılar qonağı müqəddəs sayır və xoş niyyətlə, təmiz qəlblə yurdumuza pənah gətirənləri gülər üzlə, duz-çörəklə, şərbətlə qarşılayır, adına heyvan kəsir, süfrəsinin başında oturdur, onlara ən tamlı xörəklər ərməğan ediblər. Ümumiyyətlə, məişətimizi və mənəviyyatımızı gözəlləşdirən, onu daha da zənginləşdirən qonaqpərvərlik adəti üç mərhələni əhatə edir: qonağın qarşılanması, saxlanması və yola salınması. Bu mərhələlərin də hər birinin öz xüsusiyyətləri, yazılmamış qayda-qanunları, el-oba insanlarının dədə-babadan əxz edərək yaşatdıqları adət-ənənələri olmuşdur. Basqal da bu cəhətdən

istisnalıq təşkil etmir və yuxarıda qonaqpərvərliyə aid verdiyimiz nümunələr tarixən Basqal əhalisi üçün də səciyyəvi olmuşdur.

Beləliklə, Azərbaycanın hər yerində olduğu kimi, Basqal camaatının da qonaq-qarası heç vaxt əskik olmayıb. "Qonaq tanrı amanında", "Qonaq-qaralı ev həmişə ruzulu olar", "Qanaqsız ev bərəkət tanımaz", "Qanağa da qurban, gəldiyi yollara da", "Qonaqsız ev susuz dəyirmandı", "Qonaq sevənin süfrəsi boş olmaz", "Qonaq gəlməmişdən qabaq, onun ruzusu gəlir", "Gəlmək qonaqdan, yola salmaq ev yiyəsindən" – deyirlər bu yerlərdə. Təsadüfi deyil ki, yuxarıda da qeyd etdiyimiz kimi, keçmişdə Basqalda tikiləcək evlərin layihəsində qonaq üçün də bir otaq planlaşdırılırdı ki, elə "qonaq otağı" da adlandırılırdı. Hər an "qonaq gələ bilər", – deyə həmin otağı təmiz saxlayır, buranın yar-yaraşığına, səliqə-sahmanına diqqət yetirir və orada bütün rahatlığı təmin edirdilər. Bayıra ayrıca qapısı olan bu otağı ən gözəl xalılarla döşəyirlər. Bu otaqdan yalnız qonaq gələndə istifadə olunurdu. Deyilənə görə, keçmişdə qız-gəlinlərimiz xalça-palaz toxuyanda, nənələrimiz, analarımız yorğan-döşək sırıyanda, yastıq düzəldəndə ilk növbədə qonaq otağını nəzərlərində canlandırıblar.

Artıq qeyd etdiyimiz kimi, təbiətinə və təbii gözəlliklərinə görə Basqal həmişə gözəl istirahət, xoş ovqat yeri, sağlamlıq məskəni kimi uzaq keçmişdən məşhur olmuşdur. Ona görə də müxtəlif vaxtlarda buraya əslən basqallı olanlarla bərabər, ölkəmizin müxtəlif bölgələrindən, yaxın-uzaq ellərdən çox qonaqlar Basqala təşrif buyurmuşlar. Bulaq üstündə, min bir rayihəli çəmənlikdə, sazlı-sözlü məclislər qurulub, samovarlar pıqqıldayıb, heyvanlar kəsilib, qazanlar asılıb, dadlı-ləzzətli xörəklər – erkək pörtləməsi, quzu kababı hazırlanıb, təamların ətri həyat-bacanı başına götürüb. Bu baxımdan vaxtilə basqallı Məşədi Həsənəlinin evində təşkil edilmiş qonaqlıq məclisi barədə Miryavər müəllimin "Basqal əcdadlarımızın əks-sədasıdır" kitabında əksini tapmış xatiratlar çox maraqlı olduğundan, qısaldılmış şəkildə oxuculara təqdim etməyimiz yerinə düşərdi:

"Basqallı Məşədi Həsənəli Azərbaycanın üzunömürlülərindən biri olmaq etibarilə çox maraqlı bir insan idi. Qeyri-adi yaddaşını, çevik-

iyini, sağlam hafizəsini itirməyən bu qoca mənim xahişim ilə XIX srin böyük şairi və maarifçisi Seyid Əzim Şirvaninin, Azərbaycan xalq musiqisinin bilicisi, musiqiçilərin, şairlərin hamisi Mahmud ağanın, xanəndə Mirzə Məmmədhəsənin, tarzən Topal Məhəmmədqulunun çalğıçı dəstəsilə qonaq olmaqlarından, onların şərəfinə özünün səfalı "Pahpağı" bağında nəzm yarışması, muğamla müşayiət olunan çal-çağır məclisi qurulmasından şirin xatirələr söyləmişdi. O, Seyid Əzim Şirvaninin bir çox şeirini, bir neçə həcvini əzbər bilirdi...

Bir gün 6-7 atlı Xarabiyan məhəlləsinin düzən tərəfində göründü. Uşaqlar yüyürüb gəldilər ki, atlılar səni (Məşədi Həsənəlini – red.) çağıırır. Yaxınlaşan kimi seyid Əzim ağanı, Mahmud ağanı və xanəndə Mirzə Məhəmmədhəsəni və Topal Məhəmmədqulunu tanıdım. Bu onların bizim bağımıza ikinci, Basqala isə dördüncü gəlişi idi. Ən qabaqda Seyid Əzim Şirvaninin səkil kəhər atı dayanmışdı. Hamısı atdan düşüb mənimlə köhnə tanış, dost kimi görüşdülər. Şair bağçamızda bir neçə saatlığa dincəlməyə icazə istədi. Mən bu təşrifə, bu etimada şad olduğumu bildirib qardaşlarımı çağırdım və hörmətli qonaqları qəbul etməkdə mənə yardımçı olmaqlarını tapşırdım. Onlara baş əyib gülər üzlə dedim: – Ağa, bağçamız, üstəlik ev-eşiyimiz də, canım da sizə peşkəşdir.

Nökərlər rəngbərəng xalçaları bağımızdakı nararmudu ağacının altındakı kölgəliyə salana kimi qonaqlar bir qədər yuxarıda – Bədəl bulağında yuyunmaqla, zarafat edib gülüşməklə məşğul oldular. Mən əl-ayağa düşdüm, ürəkdən qulluq göstərmək istədim, Mahmud ağa qoymadı. Onlar tamam-kamal hazırlıqlı gəlmişdilər. Evdən iki samovar gətirdim.

Mahmud ağanın Sarıtorpaq məhəlləsindən (Şamaxıda – red.) olan Əlisəftər və Ağasəlim adlı aşpazları (onlar əmioğlu idilər) lap od kimi işləyirdilər. Ağasəlim erkəyi kəsib tədarükü görənə qədər xidmətçilər çay süfrəsi düzəltdilər...

Basqal və basqallılar hörmətli qonaqları böyük mehmannəvazlıqla qarşılamaqla bərabər, özlərinin yüksək mədəniyyətini, mərifətlərini də nümayiş etdirirdilər. Belə ki, nahardan sonra biz qonaqlara əlavə

yastıq – nimdər gətirdik. Musiqi məclisi başladı, nə başladı! Əvvəlcə Topal Məhəmmədqulu tarda "Zabul" çaldı. Tarı elə çalırdı ki, elə bil xanəndə kimi dil açıb oxuyurdu. Bizə elə gəlirdi ki, səslər tardan deyil, tarzənin ürəyinin dərinliklərindən gəlir. Sonra Məhəmmədhəsən Mahmud ağanın təklifi ilə "Çahargah" muğamını oxumağa başladı. Mirzə "Çahargah" muğamını Seyid Əzim Şirvaninin

Guş qıl, ey ki, bilirsən özünü vaqifi-kar,
Agah ol, gör ki, nədir haleyi-ney, nəğmeyi-tar –

misraları ilə başlanan məşhur müxəmməsi ilə oxudu. Yanıqlı xallar, şirin gəzişmələr təkcə məclisdəkiləri yox, bu şirin nəvaya yığışıb kənardan qulaq asmağa gələnləri də valeh etmişdi. Muğamın hissələri arasında bir-birindən oynaq və cazibədar təsniflərin oxunması Mahmud ağaya, Seyid Əzim Şirvaniyə xüsusi ləzzət verirdi. Onlar xanəndədən "Heyratı" oxumağı xahiş etdilər.

Seyid Əzim ağa Mirzə Məhəmmədhəsənin sənətkarlığına məftun idi. Deyirlər ki, bir gün bahar fəslində Seyid Əzim Şamaxı bağlarını gəzərkən gözəl bir səsin təğənni etdiyini eşidir. Şair ayaq saxlayıb dinləyir, oxuyanın Məhəmmədhəsən olduğunu bilib bədahətən deyir:

Əqlimi əlimdən nə gülü-yasəmən aldı,
Nə sünbülü-reyhan, nə bağü-çəmən aldı.
Davud məgər zində olub dəhrdə, seyyid,
Arami-dilimi sövti-Məhəmmədhəsən aldı.

Mirzə Məhəmmədhəsənin böyük məharətlə oxuduğu "Şüştər", "Hümayun", "Rast", xüsusilə "Mənsuriyyə" muğamları Cabbar Qaryağdıoğlunun və başqa xanəndələrin hüsn-rəğbətini qazanmışdı...".

Ötən əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olmuş Məhəmməd Hadi də dəfələrlə basqallıların qonağı olmuşdur. Basqalın adət-ənənələri, mətbəx mədəniyyəti, qonaqpərvərliyi ilə yaxından tanış olan şair, buranın təbii-coğrafi və iqlim şəraitini də yüksək qiymətləndirmiş, Şamaxı ilə çox bənzərliklərinin olduğunu qeyd edərək demişdir: – Şamaxı, Şamaxıdı. Basqal da

kiçik Şamaxıdı. Məşhur el nəğməkarı Bülbül isə əsrarəngiz Basqal torpağını "Kiçik Şuşa" adlandırmışdır.

Hüseynqulu Sarabski 1921-ci ildə bir qrup sənət adamı ilə Basqala gəlmiş, bu yurdun da həvəskar aktyorlarını bir araya gətirərək, onlara dəyərli tövsiyələrini, teatr ifaçılığı, qrim, dekorasiya ilə bağlı bir çox məsləhətlərini vermişdir. H.Sarabski burada yerli həvəskar aktyorların ifasında Üzeyir Hacıbəylinin "Arşın mal alan" komediyasının məşqlərində iştirak etmişdir. Həmin aktyorlardan Cəbrayıl müəllimi, Əlisina Əzizovu və başqalarını basqallılar indi də ehtiramla yad edirlər. Xatırladaq ki, illər sonra bu aktyor truppası bütün bölgədə məşhurlaşmış və dəfələrlə müxtəlif müsabiqələrin qalibi olmuşlar.

Azərbaycanın görkəmli şairlərdən biri, məşhur qəzəlxan Əliağa Vahidin Basqalda olması, Basqalın şəninə şeirlər, qəzəllər yazması haqqında da məlumatlar vardır. Bu yurdun tanınmış ziyalılarından biri, tədqiqatçı Tahir Cəfərli həmin şeirlərdən bir neçəsini qələmə almışdır:

Neynəyirəm bu cənnəti?
Cənnət qabağımda mənim.
Hər tərəfim abı-kövsər –
Dadı damağımda mənim.

Məşədi çox yaxşı bilir
Heyranıyam bu dağların,
"Qələmlikdir" bir tamaşa,
Sultanıdır bu dağların.
Şakirə də fərəh verir
Şır-şır axan bu dağların.

Neynəyirəm bu cənnəti?
Cənnət qabağımda mənim.
Hər tərəfim abı-kövsər –
Dadı damağımda mənim...

Ə.Vahidlə Ağahüseynin meyxanaları, Aşıq Pənahla Aşıq Şakirin deyişmələri basqallılarda xoş təəssürat yaradırdı. Bu insanlarla bağlı xoş

xatirələr indinin özünə qədər Basqal elində böyük ehtiramla yad edilir.

Basqal ağsaqqallarının sözünə görə bu hadisələr basqallılar üçün yeni deyildi. Çünki istər orta əsrlərdə, istərsə də sonra Azərbaycan musiqisinin – muğamın, aşıq sənətinin inkişafında Şirvanın böyük payı olub. Elə bu günün özündə də Şirvan muğam və aşıq məktəbləri, bu məktəblərin yetişdirdiyi böyük sənətkarlar milli musiqi sənətimizin inkişafına öz töhfələrini verməkdə davam edirlər. Bu cəhətdən Basqal da istisnalıq təşkil etmir. Belə ki, çox da uzaq olmayan keçmişdə Basqalda Əli, Sahab və Mirzə Babayev qardaşlarından ibarət musiqiçilər dəstəsi çox məşhur idi. Bu kollektivi təkcə Şirvanda deyil, Gəncədə, Tiflisdə və başqa şəhərlərdə də yaxşı tanıyırdılar. Əzi balabanda, Mirzə qoşanağarada, Qüdrət Abdulov nağarada, Səyyarə İsgəndərova qavalda çox mahir idilər. Onlar nəinki toy-düyünlərin, eləcə də o zamanlar keçirilən bütün ictimai-mədəni tədbirlərin yaraşığı olmuşlar.

Yeri gəlmişkən qeyd edək ki, Basqalın qonaqlı-qaralı növrağı sonrakı dövrlərdə də davam etmişdir. Azərbaycan xalqının tanınmış ziyalıları – şair və yazıçıları, sənət, dövlət adamları, alimləri və başqaları ölkəmizin bu dilbər guşəsinə tez-tez baş çəkir, burada dincəlir, buranın halal insanlarının süfrəsinə qonaq olurdular. Onların arasında Səməd Vurğun, Əbülhəsən, Süleyman Rüstəm, Adil Babayev, Xan Şuşinski, Allahyar Cavanşirov, Şövkət Ələkbərova, Sara Qədimova, Tükəzban İsmayılova, Aşıq Şakir, Aşıq Pənah, Rauf Adıgözəlov kimi tanınmış ədəbiyyat və incəsənət xadimləri, Tofiq İsmayılov, Həsən Əliyev, Soltan Mehdiyev, Maqsud və Mais Cavadovlar, Qədir Sultanov, Kazım və Zeynal İsmayılovlar, Manaf Süleymanov və onlarla elm, maarif və dövlət xadimləri də olmuşdur.

Bir faktı da xatırladaq ki, ötən əsrin əvvəllərində Şamaxıda baş vermiş məlum dəhşətli, dağıdıcı zəlzələdən sonra minlərlə insan, yüzlərlə ailə evsiz-eşiksiz qalmışdı. Azərbaycanın digər kənd və qəsəbələrinin sakinləri kimi, basqallılar da həmin insanları öz ev-eşiklərində yerləşdirmiş, həyətlərində sahə ayırmış, onlara öz doğmaları kimi həyan olmuş, kasıbları üçün isə hətta ev də tikdirmişdilər.

Lakin bu eldə-obada da qonağın gəlişi toy-bayrama çevrildiyi hal-

da, yola salınması həyəcanlı, bir qədər də kədərli olub. Qonaq piyada olardısa, ona yəhərli-yüyənli bir at ayırar və qəsəbə sakinlərindən biri həmin atla onu lazımi yerə qədər aparardı. Ona uğur diləyər, yolu aydın olsun, – deyə apxasınca "qırxaçar" camından su atar, yol üçün azuqə qoyar, hədiyyələr verər və "yenə gözləyirik" – deyərdilər. Yeri gəlmişkən qeyd edək ki, Basqaldan gedən qonaqlar üçün ən qiymətli hədiyyə heç şübhəsiz ki, ipək parça və kəlağayı olardı.

Çox sevindirici haldır ki, dövrün, zamanın dəyişməsinə, milli mənəvi dəyərlərin "qloballaşma" adlanan bir burulğanın təsirlərinə məruz qalmasına baxmayaraq, digər bölgələrimizdə olduğu kimi, Basqalda da bu gün nəsildən-nəsilə keçən qonaqpərvərlik adəti yaşamaqda davam edir, zənginləşir və xalqımızın yüksək mənəvi göstəricisi kimi göz bəbəyi kimi qorunub saxlanılır.

Yeri gəlmişkən qeyd edək ki, Basqal qonaqpərvərliyi ilə bağlı bu yurdun ağsaqqalları ilə apardığımız söhbətlər zamanı çox maraqlı məqamlar ortaya çıxdı. Onlardan biri də "çörək kəsdi" adəti haqqında eşitdiklərimiz oldu. Bu barədə danışan 1922-ci il təvəllüdlü Əjdər Tağıyev söylədi ki, basqallılar süfrələrinin halal çörəyi ilə fəxr edən, qonaqla kəsilən çörəyi yüksək əxlaqi meyar, düzlük, paklıq rəmzi sayıb, həmişə ona sadiq olmağa çalışıblar. Onlar "Duz-çörək – düz çörək" deyərək, istəyiblər ki, halal çörək kəsilən yerdə yalan, xəyanət və riyakarlıq olmasın. Evə qonaq gələndə ilk əvvəl süfrəyə duz-çörək qoyular və "bismillah" deyib, çörəyin qırağından kəsər, duza batırıb ağıza aparar və "Allah evinizi duz-şörəkli etsin", – söyləyiblər.

Basqalın el ağsaqqallarından biri, tanınmış xeyriyyəçi Heydər əminin bununla bağlı söylədikləri çox ibrətamizdir: "... Yaxın adamı sevməyə nə var? Hünər odur ki, uzağı da sevəsən. Sənə "dostum" deyəni qonaq etməyə nə var? Hünər odur ki, sənə "düşmən" deyəni dosta çevirib, evinə qonaq çağırasan, onunla tikə kəsəsən... Qonağı sevərlər, qonağı əzizləyərlər, çünki insanın özü də bu dünyada "beşgünlük" qonaqdır. Bir də çalışın bir adamla dostluq edəndə süfrə başında, çörəyin şahidliyi ilə əhdi-peyman bağlayasınız. Çörək qardaşlığını heç bir qüvvə poza bilməz. Çünki çox çətin illərdə mən

özüm də bu dostluğun ətəyindən yapışmışam, ona pənah gətirmişəm. Bir vaxt qapıma gələn qonşumu taxılsız, əliboş uşaqlarının yanına qaytarsaydım, bu böyük ailədən əsər-əlamət qalmazdı...".

Basqal ağbirçəklərinin, qərinələr yola salmış nənələrin qonaqla, qonaqpərvərliklə bağlı məlum olan sınamaları, müxtəlif hadisələrin yozumları ilə bağlı söylədikləri də çox maraqlıdır. Belə ki, həmin nənələr xəmirə bulaşmış əllərində xəmirin çırtladığını görəndə tez əl-ayağa düşər, "ay qız, ay gəlin, hazırlaşın evə qonaq gələcək" – demişlər. Qapı ağzında ayaqqabıların bir-birinin üstünə düşməsi, sağ gözün səyriməsi, yaxud da qapıda qəcələnin (sağsağan –red.) ötməsi qonağın gəlişinə işarə kimi yozulmuş və dərhal evdə gözlənilən həmin qonağın qarşılanması üçün hazırlıqlara başlamışlar.

Beləliklə, Azərbaycan, o sıradan Basqal qonaqpərvərliyi milli-mənəvi dəyərlərimizin ən gözəl və ən dəyərli nümunələrindən biri kimi ortaya çıxır. Həmin dəyərləri yaşadan, bir-birinə ötürə-ötürə günümüzədək gətirib çatdıran nəsillər arasındakı bu mənəvi varislik isə fikrimizcə, daha dəyərli, daha qiymətlidir. Bu ənənəni qorumaq, onu yad təsirlərdən mühafizə etmək və gələcək nəsillərə çatdırmaq vəzifəsi isə bizim və hər kəsin borcudur.

**Xeyriyyəçilik**

Xeyriyyəçilik, yardım, dar gündə, çətin məqamda bir-birilə əl tutmaq kimi xalqımıza məxsus yüksək humanist keyfiyyətlər Basqalda da özünü göstərir. Kimsəsizlərə, əlillərə, ehtiyacı olan qonum-qonşuya əl tutmaq, qocaların kövrək qəlbini ovundurmaq, diqqət və ehtiram göstərmək, yaxşı işlər görmək xoş ənənə olaraq hələ də davam edir. Bütün bunlar çoxdan, lap qədimdən elin-obanın bir əxlaq qaydasıdır. Elə bu gün də hər səhər obaşdan hərə öz qapısını süpürür, sulayır, səliqə-sahman yaradır, küçələrdə abadlıq işləri aparır, yolların, suaxarların, bulaqların ətrafı təmizlənir, uçuq-sökük təmir olunur, əhənglənib ağardılır. Bir sözlə basqallılar doğma qəsəbənin abadlığı, mədəniyyəti üçün çox çalışırlar. Qəsəbədə bəlkə də heç yerdə rast gəlinməyən belə bir maraqlı

adət də diqqəti cəlb edir: Keçmişdə evə su gətirmək lazım olanda, yaşlı qadınlar boş su qablarını çöl qapısının yanına qoyar, yoldan keçən kişilər isə bu qabları aparıb su ilə doldurar və gətirib yerinə qoyardılar. Deyilənə görə, indi də belədir. Yəni indi də xeyirdə-şərdə, ehtiyacı olanlara təmənnasız yardım göstərib, dar ayaqda bir-birinə həyan olurlar. Dosta, yara, yoldaşa çətin gündə arxa durub, sınıq qəlbləri ovundururlar (27, 22-24).

Basqalda adlı-sanlı, imanlı, inamlı, xeyirxah, seyid, hacı, məşhədi ailələri çox olub. Hacı Ağabağır Basqalda nəcib, saf, əməli uca xeyriyyəçi kimi tanınır. Halal çörəyi, halal zəhməti hesabına qazanılan bərəkəti hər şeydən üstün tutub. Həyatda büdrəyən günləri də olub, ancaq ev yıxmayıb, mərdimazarlıq etməyib, əksinə həmişə əl tutub, xeyirxahlığa can atıb. Qəsəbə məscidi üçün çox işlər görüb. Gecələr məscidin həyəti, küçə, Bazar meydanı, İsa körpüsünün üzəri Ağanın qurduğu elektrik lampaları ilə gur işıq nuruna qərq olub. Dəfələrlə evində imam ehsanı verib, bayramlarda neçə evi şirin hədiyyəsi, payı ilə sevindirib. Hacı kənarda yaşayan basqallılarla əlaqə saxlayır, təbliğ edirdi ki, gedin Basqala, orada ata-baba ocağında yurdunuzu abadlaşdırın.

Qoşabulaq məhəlləsi, İsa körpüsündən sola burulan abad yol diqqəti cəlb edir. Vaxtilə bu yol bərbad vəziyyətdə idi. Dağılıb, itib-batıb gedirdi. Camaat gedib gələnəcən əzab çəkirdi. “El adının, el güzəranının nişanı yoldan bəlli olar” əqidəsinə sadiq olan Hacı Ağabağır qabağa düşür. Qoşabulaq məhəlləsinə gedən 300 metrlikdən çox küçəni üç ay ərzində öz xərcilə hamar daşlarla döşətdirir, abadlıq işləri gördürür. Bu işdə ona həmyerliləri maddi kömək etmək, əl tutmaq istəyiblər. Lakin Hacı bu işi yalnız öz halal pulu ilə başa çatdırıb. Küçəyə, usta və fəhlələrin yanına kətil gətirər, iş günü qurtarana kimi samovar buxarlanar, işləyənlərin qayğısına qalardı. Bu gün camaat evinə, işinə getdikcə onu minnətdarlıqla yad edir, rəhmət oxuyurlar.

Basqalın toy-düyünündə, xeyir-şərində qonum-qonşunun bir-birinə köməyi adi, lakin vacib iş sayılırdı. Elliklə, hamı heç bir fərq qoymadan biri-digərindən yardımını əsirgəməzdi. Hər işə əl atılırdı. Gəlin köçən qızın cer-cehizi bir də nəzərdən keçirilir, əyər-əksik sahmanlanır, lazım gəlsə hətta xalça-palazın toxunmasına da kömək göstərilirdi. Biş-düş isə köməksiz mümkün olan şey deyildi, xüsusilə toy məclislərində. Bu el yardımı sözsüz ki, digər məclislərdə də köməksiz başa gəlmirdi. Şəriətə uyğun məclislərdə, mərhumun yola salınmasında iştirak edən Basqal əhli ev sahibinin narahatçılığına yol verməz, hər bir işi görərdilər.

Miryavər Hüseynov deyir ki, gənc yaşlarından xeyriyyəçi kimi tanınan, el-obaya dayaq durmaq, ona yararlanmaqdan zövq alan Vahid Bağırov böyüyüb boya-başa çatdığı Basqal qəsəbəsində yadda qalan vacib işlər görməklə öz həmyerlilərinin dua-sənasını, hörmətini qazanmışdı. Hacı Bədəl məscidinin təmirinə etdiyi kömək, "O tay" qəbiristanlığına, həmçinin evlərinin yanındakı küçəyə çəkdiyi buz kimi sərin su, hər il məhərrəm və səfər aylarında ehtiyacı olanlara ehsan etdiyi ərzaq məhsulları və bir çox əməllər onun geniş qəlbindən xəbər verir.

Basqalda xeyriyyəçi kimi İsa müəllimi də yaxşı tanıyırlar. O, ailəsi ilə birlikdə bu torpağa neçə il əvvəl Naxçıvan MR Şərur rayonunun Danzik (hazırda Danyeri) kəndindən köçüb gəlmişdir. Səxavəti, xeyirxahlığı ilə Şirvan mahalının əhalisi arasında məşhurlaşıb, ehtiram və məhəbbət qazanıb. O bilirdi ki, körpü də, yol da abadlıqdan, güzəran xoşluğundan soraq verir. "Abad yurd yolundan bəlli olar" və yaxud "Yolunu gördüm – elini gördüm" məsəli də o səbəbdən yaranıb. Yol, körpü dosta, düşmənə baxmır, hamını birləşdirir, çayın o tayı ilə bu tayı arasında əlaqə yaradır. O, Bakı-Qəbələ yolundan Basqala tərəf ayrılan 4 km-lik yolun salınmasında, Basqal çayı üzərində körpünün inşa edilməsində böyük zəhmət çəkmişdir. Hazırda Basqala giriş də onun adı ilə bağlı İsa körpüsündən başlayır.

Hacı Bağır oğlu Məşədi Məhəmməd Basqal camaatının yaddaşında əsl qeyrət və xeyirxahlıq mücəssəməsi kimi yaşayır. O, təbiət etibarilə səxavətli, xeyirxah, alicənab bir adam olubdur; hamıya yardım əlini uzadar, kimsəsizlərə kömək edər, minnət qoymadan qonum-qonşuya, ona müraciət edənlərə əl tutardı. Məşədi Məhəmməd müqəddəs bayram günlərində xüms və zəkat verməkdən əlavə, bütün yoxsul həmyerlilərinə, habelə, yaxın kəndlərdən tanıdığı imkansız adamlara bayram sovqatı və təzə paltar göndərərdi. Bu azad fikirli xeyriyyəçi 37-ci ilin tuthatut vaxtında "kulak" adı ilə qırmızı terrorun qurbanı oldu.

Beləliklə, bütün bu məsələlər basqallıların milli xarakterinin, psixologiyasının, bir fərd, yaxud da toplum olaraq özünəməxsus davranış noramalarının formalaşmasına öz təsirini göstərmişdir. Bir cümlə ilə ifadə etməli olsaq deyə bilərik ki, Azərbaycan xalqına məxsus olan ən gözəl xüsusiyyətlər bu torpağın insanlarının timsalında cəmlənmiş və onları fərqləndirən əsas cəhət isə nəsildən-nəsilə ötürülən həmin xüsusiyyətləri qoruyub saxlamaqları və onlarla yaşamaqlarıdır. Nədən ibarətdir onlar? İlk növbədə qeyd edək ki, basqallılar öz keçmişinə, tarixinə, milli adət-ənənələrinə bağlılığı ilə seçilirlər. Bu gün, yəni qloballaşma proseslərinin bütün həyat sahələrini əhatə etdiyi, cəmiyyətin sürətlə dəyişdiyi, yeniləşdiyi, milli-mənəvi dəyərlərin Qərb dəyərləri ilə çuğlaşmağa başladığı bir dövrdə basqallılar istər ailədə, istərsə də ictimai məişətdə ənənəviliyi və varisliyi qoruyub saxlamaqda və yaşatmaqda davam edirlər. Lakin bu heç də o demək deyil ki, onlar yeniliyi, müasirliyi sevmir və yaxud ondan uzaq düşüblər. Əksinə, Basqal elə son yüz ildə mədəniyyətimizə, elmimizə, təhsilimizə verdiyi tövhələri, yetişdirdiyi alimləri, şair və yazıçıları, musiqi xadimləri, filosofları olan insanları ilə yalnız fəxr edə bilər.

Ötən günləri yada salan Basqalın yaşlı sakinlərindən biri gileylənərək dedi ki, yeni evlər tikilir, həyətlər hər tərəfdən daş hasarlara alınır. O zamanlarda daş hasarlar yox idi. Kol-kosdan, quru ağac bu-

daqlarından kəsib həyətə çəpər çəkirdilər. Qonşu həyətləri bir-birindən yalnız bu həyətlər ayırırdı. Amma onlar qonşular arasında soyuqluq yarada bilmirdi. Axı ağac canlıdır, insanları bir-birinə yaxınlaşdırır. Qonşu-qonşunu görür, səhərlər salamlaşır və axşamlar sağollaşırdılar. Hələ bağın bəhərindən, evdə bişirilən təamlardan çəpər üstündən bir-birinə qonşu payı da verirdilər. O qonşuluq, o mehribançılıq görəsən niyə aradan çıxıb?!

Ümumiyyətlə, ümumazərbaycan miqyasında məlum olan bu deyimlər, eləcə də təxminən bu sıraya daxil digər adət-ənənələr, ayin və mərasimlər Basqalda qabarıqlığı ilə diqqəti cəlb edir. Basqallıların mərdliyi, qorxmazlığı haqqında da çoxlu söhbətlər vardır. Millətimizə yabançı olan hakimiyyətlərin zamanında belə, basqallılar heç kimdən asılı olmadan rahat və firavan həyat sürməyə çalışıblar.

Beləliklə, keçmişimizdən süzülüb gələn mənəvi-əxlaqi və dini dəyərlər, ənənəyə və adətlərimizə söykənən təlim-tərbiyə üsulları və davranış normaları istər basqallı ailəsində, istərsə də qəsəbənin ictimai həyatında bütün qabarıqlığı ilə özünü göstərir. Buranın insanlarının da müxtəlif dövrlərdə yaranmış xeyirxah əməlləri, söz sənəti inciləri xalqın mədəniyyət abidəsi kimi maddi dəyərlərimizdən heç də az qorunmur. Onların qorunması, öyrənilməsi və zaman keçdikcə gənc nəslə aşılanması bu gün də hər bir basqallını düşündürməkdədir ki, bu da çox müsbət haldır.

## Açıq səma altında Muzey, yaxud Etnoqrafik Model-kənd

## (Nəticə əvəzi)

Beləliklə, ulu Vətənimizin qədim yurd yerlərindən biri olan Basqalın tarixi-etnoqrafik tədqiqi bizə bir sıra mühüm nəticələrə gəlməyə imkan verir ki, həmin nəticələr də gələcəkdə digər tarixi və kənd qəsəbələrimizin də elmi araşdırılması üçün maddi və mənəvi stimul ola bilər. Həmin nəticələr bunlardır:

Birincisi, bununla elmi araşdırmaların ölkəşünaslıq və diyarşünaslıq istiqamətinin vacibliyi ortaya qoyulur;

İkincisi, diqqəti milli sərvətimiz olan maddi-mənəvi irsimizin həm ölkə daxilində, həm də beynəlxalq miqyasda tanıdılmasına şərait yaradır;

Üçüncüsü, gənc nəslin ayrı-ayrı yurd yerlərimizlə tanışlığına, onların vətənpərvərlik, tariximizə, keçmişimizə hörmət və məhəbbət ruhunda yetişməsinə kömək edir;

Nəhayət, dördüncüsü, bu cür elmi tədqiqat işləri müasir dövrdə ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan islahatların daha uğurla həyata keçirilməsinə, ayrı-ayrı bölgələrimizin, kənd və qəsəbələrimizin həmin islahatların müəyyən bir subyektinə çevrilməsinə və milli gəlirlərin formalaşmasına, bununla da ölkəyə gəlir gətirə bilən arxeoloji və etnoqrafik turizmin inkişafına yardımçı ola bilər. Çünki, artıq turizm həyat tərzinin və mədəniyyətinin mühüm atributlarından birinə çevrilmişdir. Yuxarıda qeyd olunduğu kimi, Ulu öndər Heydər Əliyev tərəfindən 2002-ci il avqustun 27-də təsdiq olunmuş "Azərbaycan Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nda və digər hüquqi-normativ aktlarda nəzərdə tutulmuş müddəalara uyğun olaraq turizm sahəsində dövlət siyasətinin həyata keçirilməsi, ölkənin sosial-iqtisadi inkişafını təmin edən vasitələrdən

biri kimi turizm resurslarından səmərəli istifadə olunması və digər məsələlərin irəli sürülməsi də bu işin vacibliyindən irəli gəlir. Eyni zamanda Avropa və Asiyanın qovşağında yerləşən və böyük potensiala malik olan respublikamızda turizmi iqtisadiyyatımızın gəlirli sahəsinə çevirmək üçün hər cür şərait vardır. Hazırda ölkə ərazisində neçə-neçə təbiət və tarix-mədəniyyət qoruqları fəaliyyət göstərir. 7 mindən artıq tarix və mədəniyyət abidəsi qorunub saxlanılır. UNESKO tərəfindən qeydiyyata alınmış İçərişəhər, Qobustan, Qız qalası, Şəki xan sarayı, Möminə xatın türbəsi kimi maddi irs nümunələrimiz, Novruz bayramı, Lahıc misgərliyi, Çövkən oyunu, Azərbaycan kəlağayısı bütün dünyada məşhurdur. Rəngarəng və zəngin təbii ehtiyatlar, iqlim şəraiti, nadir tarixi-memarlıq abidələri, süfrə və mətbəx mədəniyyəti, qonaqpərvərlik, nəhəng elmi-texniki və mədəni potensialımız və s. bütün il boyu xaricdən turist qəbulu üçün imkan yaradır.

Respublikamızda turizmin inkişafının davamlı xarakter alması, turizm infrastrukturunun yaradılması, onun maddi-texniki bazasının təkmilləşdirilməsi yeni iş yerlərinin yaradılmasına, yoxsulluğun azaldılmasına, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına, kiçik və orta sahibkarlığın inkişafına təkan verir. Bundan başqa, son illər ölkəmiz beynəlxalq turizm sərgi və simpoziumlarında da fəal iştirak edir. Beynəlxalq təşkilatların bəzi tədbirləri isə Azərbaycanda keçirilir. Elə buna görə də ölkə başçısı Prezident İlham Əliyev tərəfindən 2011-ci il Azərbaycanda "Turizm ili" elan edilmişdi.



Lahıcda ikimərtəbəli "Evim otel" mehmanxanası

Turizm resurslarının zənginliyinə görə İsmayıllı rayonu ölkəmizin ən səfalı güşələrindən biri hesab olunur. Zəngin florası ilə seçilən rayon ərazisinin ümumi sahəsi 70 min hektara çatan meşələrlə örtülmüşdür. Bura həm də nadir tarixi, mədəni və təbiət abidələri diyarıdır. Bu cəhətdən Şirvanın və müasir İsmayıllı rayonunun qədim yaşayış yerlərindən olan Basqal xüsusilə fərqlənir. Bu qəsəbə əsrlər boyu nəinki Azərbaycanın, bütün Qafqazın ənənəvi toxuculuq sənətinin, o cümlədən, karxana şərbaflığının əsas mərkəzlərindən olmuşdur. Basqalın ipək parçaları, kəlağayısı Orta Asiyada, Dağıstanda, Gürcüstanda, İranda, Türkiyədə və bir çox Avropa ölkələrində yüksək qiymətləndirilmişdir. Basqal ustalarının zövqlə hazırladıqları ipək parçalar, nəfis kəlağayı nümunələri çeşidli naxışları, tərtibatının gözəlliyi və zənginliyi ilə sözün tam mənasında təkrarolunmaz sənət əsərləridir.

Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Basqalda turizmin inkişaf etdirilməsi üçün lazım olan hər bir şərait mövcuddur. Bunu şərtləndirən ən mühüm amil isə qəsəbənin ölkənin paytaxtından intensiv turist axını olan Şimal-Qərb bölgəsinə gedən magistral yolun üstündə yerləşməsidir.

Basqalın zəngin flora və faunası, təbii gözəllikləri, silsilə dağlar ilə əhatə olunması, qalın meşələrə və sərin bulaqlara malik olması da buranı yerli və xarici turistlərin sevimli məkanına çevirə bilər. Belə ki, qəsəbənin Bazar meydanından Sayad dağına, Fit dağına və ətraf ərazilərə gözəl bir mənzərə açılır. Qəsəbəni iki hissəyə ayıran Basqal çayı, Əmrəki təpəliyindən açılan füsunkar gözəllik, dağətəyi meşə massivi, dağ yamaclarına səpələnmiş kənd mənzərələri, seyrangahları, orta əsr şəhərlərini xatırladan görkəmi, daş küçələri, məhəllələri və landşaft abidələri istər yerli, istərsə də xarici turistləri cəlb etmək üçün gözəl təbiət qoynudur.

Bundan başqa, bura həm də açıq səma altında bir unikal tarix və mədəniyyət qoruğudur. Basqalın plan-məkan quruluşu, memarlıq

özəllikləri və s. etnoqrafik baxımdan çox maraqlıdır. Belə ki, qəsəbə ərazisində tarixin müxtəlif dövrlərinə aid çoxlu sayda tarixi, arxeoloji, memarlıq və təbiət abidələri (Qalalar yaşayış yeri, Niyal qalası, Şeyx Məhəmməd və Hacı Bədəl məscidləri, hamam, qədim qəbiristanlıq, kürəbənd su və kanalizasiya şəbəkəsi), qədim tikililər, yollar və yaşayış evləri (Hacı Bağır mülki, Məşədi Məhəmmədin karxanası, Muğdatın, Baba dayının, Bal Əfəndinin, Söhbət kişinin və Bəşir kişinin evləri), sənətkarlıq məhəllələri, bulaqlar (Bədəl bulağı, Qoşabulaq, Xarabiyan bulağı, Hacı Cəbi bulağı, Micqohun bulağı, Dambulu bulağı. Pahpahqı bulağı, Hüseyn bulağı, Qartapıl bulağı, Əmrəki bulağı, Bədo bulağı) və dörd yüzdən artıq yaşı olan çinar ağacı və s. vardır. Kükürdlü müalicəvi suyu olan Bədo bulağı da Basqal yaxınlığındadır. Yerli sakinlər bu bulaq haqqında belə deyirlər: "Bədonun şəfalı suyundan içən adamın ömrü uzun olar". Bədo bulağı "Bədo-Basqal turizm zonası"nda – magistral yolun üstündə yerləşdiyindən, xüsusilə yay aylarında turistlərin təbiətin qoynunda, seyrangahlarda istirahəti üçün çox əlverişlidir. Bir az aralıdakı "Yeddi bulaq" bölgəsi də turizm cənnəti hesab edilir.

Basqalın ətraf kəndləri (Xankəndi, Sulut, Mücü, Kəlfərəc, Tağlabiyan və s.) də öz təbii gözəllikləri və tarixi abidələri ilə böyük maraq doğurur. Turizmin inkişafı ilə əlaqədar bu kəndlərin də sosial siması əsaslı şəkildə dəyişməkdədir. Yeri gəlmişkən onu da qeyd edək ki, hazırda Basqalın yolu da təzələnib, qaydaya salınıb. Rahat və təhlükəsiz yolu var. Həmin istiqamətdə uzanan yolların Basqaldan keçməsi bu qəsəbənin üstünlüyüdür. Buradan kəndlərə doğru



Hacıhətəmli qəsəbəsində turist kompleksi

iki əsas turist marşrutu məlumdur: birincisi Xankəndindəki "Qırxotaq əfsanəsi" mədəni turizm marşrutu, digəri isə "Fit dağı əfsanəsi" ekoloji marşrutu. Bundan başqa, Sulut kəndi yaxınlığında yerləşən tarixi "Buzxana"nı ziyarət edib Fit dağından keçməklə Lahıc qəsəbəsinə doğru səfər etmək də mümkündür.

Bakının İçərişəhərini xatırladan Basqalın səliqəli, təmiz küçələrinə, darısqal dalanlarına heyranlıqla tamaşa etməmək mümkün deyildir. Vaxtilə "Bazar meydanı" adlanmış meydan qəsəbənin mərkəzidir. Bura əsrlər boyu bölgədə ən iri ticarət mərkəzi kimi fəaliyyət göstərmiş və burada 50-dən artıq dükan fəaliyyət göstərmişdir. İndi artıq çayın o tayına adlamış inzibati binalar, dini və məişət tikililəri də bir zamanlar bu meydanın ətrafında olmuşdur.



"Qaya" turist kompleksi

Basqal mətbəxi Azərbaycanın qədim süfrə və yemək mədəniyyətini birləşdirməklə yanaşı, özünün yemək və içkiləri ilə də məşhurdur. Belə ki, Basqalın pip dolması, qovurması, halvası, əriştəsi, tutdan düzəldilən doşabı, baldan və müxtəlif meyvələrdən hazırlanmış şərbəti və içkiləri adnan tanınır.

Əsrlər boyu bu diyarın iqtisadiyyatının əsasını təşkil etmiş kəlağayıçılıq sənəti ənənələri Basqalda indi də davam etdirilir. Burada ənənəvi üsullarla kəlağayı istehsalı ilə məşğul olan Mərkəz və kəlağayıçılığın inkişaf yolunu əks etdirən Muzey fəaliyyət göstərir. Muzeydə zəngin xalq sənətinin dəyərli incilərdən olan kəlağayı nümunələri, bədii parça və tikmə növləri və s. nümayiş etdirilir. Yəni, ənənəvi kəla-

ğayı istehsalını canlı olaraq görmək, seyr etmək istəyənlər məhz Basqala üz tuta bilərlər.

Bütün bunlara rəğmən onu da nəzərə almaq lazımdır ki, Basqalda turizmi inkişaf etdirmək, onu müasir standartlara uyğunlaşdırmaq üçün bir çox infrastruktur layihələrin həyata keçirilməsinə, mədəni-kütləvi və təbliğat xarakterli işlərin reallaşdırılmasına ehtiyac vardır. Belə ki, qəsəbənin geniş mədəni irs və turizm potensialının müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun şəkildə təqdim edilməsi üçün tarix və mədəniyyət abidələri üzərində əsaslı konservasiya və rekonstruksiya işlərinin aparılması olduqca vacibdir. Eyni zamanda, muzey və kitabxana-informasiya fəaliyyətinin gücləndirilməsi, qeyri-maddi mədəni irsin (adət-ənənələr, folklor, təsviri və xalq tətbiqi sənətləri) qorunması və təbliğinə də ehtiyac vardır. Basqalda turizm və sənətkarlıq məhsullarının satış-sərgilərinin təşkil olunması, turizm marketinqinin aparılması, qoruğun infrastrukturunun təkmilləşdirilməsi, Turizm İnformasiya Mərkəzinin yaradılması və s. bu kimi təşkilati işlərin görülməsi də qarşıya qoyulan məqsədə nail olmaqda mühüm rol oynaya bilər.



Turistlər Basqal kəlağayı muzeyində

Qəsəbənin bazar meydanındakı yarımçıq binaların tikintisi başa çatdırılmalı, hər bir ev, küçə, döngə, məhəllə mövcud memarlıq üslubunda, eyni zamanda, etnoqrafik model-kəndin tələblərinə uyğun - orijinallıq saxlanılmaqla bərpa olunmalıdır. Binaların fasadlarında və

yollarda qədim memarlıq ənənələrinin qorunması şərtilə bərpa və yenidənqurma işlərinin aparılması, mehmanxana-kottec şəbəkəsinin yaradılmasına da ciddi ehtiyac duyulur.

Nəhayət, yuxarıda qeyd olunduğu kimi, Basqal arxeoloji abidələrlə zəngin olsa da, həmin abidələr hələ ki, tədqiq olunmamışdır. Lakin burada aparılmış kəşfiyyat xarakterli araşdırmalara və yerüstü maddi mədəniyyət nümunələrinə əsasən deyə bilərik ki, bəlkə də tariximizin neçə-neçə açılmamış səhifələri, gizlinləri torpağın altında yatıb qalmaqdadır. Bunu nəzərə alıb Basqalda geniş miqyaslı arxeoloji qazıntıların aparılması da qarşıda duran vacib məsələ kimi ortaya çıxır. Bu, həm elmi nöqteyi-nəzərdən, həm də son illər bütün dünyada gəlir gətirən bir sahəyə çevrilməkdə olan arxeoloji turizmi inkişaf etdirmək baxımından ölkəmizə böyük fayda verə bilər.

# İSTİFADƏ OLUNAN MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Abdulla B. Azərbaycan mərasim folkloru. Bakı: 2005
2. Adışirinov K . Qədim türk-oğuz yurdu Oxud. Bakı: 2006
3. Ağamalı F. XVIII əsrin II yarısı – XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti. Bakı: 1999
4. ARDA, f. 1061, siy. 1, iş 40. vər.8
5. ARDA, f. 1061, siy. 1, iş 85. vər.1-3
6. ARDA, f. 1061, siy. 2, iş 85, vər.14
7. ASE (Azərbaycan Sovet Ensiklopediyası), 10 cilddə, III c. Bakı: 1979
8. ASE. 10 cilddə, IX c. Bakı: 1986
9. Aşurbəyli S. Şirvanşahlar dövləti (VI-XVI əsrlər). Bakı: 1977
10. Azərbaycan DTA. f. 24. iş 84. vər. 273-274
11. Azərbaycan etnoqrafiyası, 3 cilddə, c. I, Bakı: 2007
12. Azərbaycan etnoqrafiyası, 3 cilddə, c. II. Bakı: 2007
13. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: 1989
14. Azərbaycan tarixi, 3 cilddə, I c. Bakı: 1964,
15. Azərbaycan tarixi. 7 cilddə. III c. Bakı: 1990
16. Babayev T. El ocaq başına yığışar (tarixi-etnoqrafik etüdlər). Bakı: 1998
17. Babayev T. Ömrümüzə nur calansın. Bakı: 2000

17a. Babayev T. Qoy həmişə çörək olsun. Bakı: 2013

18. Bayramov R. Azərbaycanın tarixi yaşayış məkanlarının (kiçik tarixi şəhər və kəndlərin) qorunmasına dair // "Antik və orta əsr şəhərləri: arxeoloji irsi, tarixi və memarlığı" beynəlxalq elmi konfransın materialları. Bakı: 2012
19. Bayramova N. Şamaxı xanlığı. Bakı: 2009
20. Bünyadova Ş. Orta əsr Azərbaycan ailəsi. Bakı: 2012
21. Cavadov Q. Azərbaycanda ağacişləmə sənəti haqqında // AEM, III buraxılış. Bakı: 1977
22. Cavadov Q. Azərbaycanda el köməyi adətləri. Bakı: 1993
23. Cəbiyev Q. Ağsu şəhəri orta əsrlərdə (tarixi-arxeoloji araşdırma). Bakı: 2010
24. Cəbiyev Q. Bura vətəndir (İsmayıllı abidələri haqqında tarixi-arxeoloji-etnoqrafik oçerk), Bakı: 2003
25. Cəbiyev Q. Girdiman tarixi (IV-IX əsrlər). Bakı: 2010
26. Cəbiyeva T. İsmayıllı lətifələri. Bakı: 2007
27. Cəfərli T. Bir əsr, bir nəsil. I kitab. Bakı: 2011
28. Cəfərli T. Bir əsr, bir nəsil. II kitab. Bakı: 2013
29. Çəmənzəminli Y. Romanlar. Bakı: 1965
30. Çəmənzəminli Y.V. Seçilmiş əsərləri. III c. Bakı: 1977
31. Əbdülrəhimov R. Orta əsr Azərbaycan şəhərlərinin inşasında istifadə edilən konstruksiya və materiallar // "Antik və orta əsr Azərbaycan şəhərləri: arxeoloji irsi, tarixi və memarlığı" beynəlxalq elmi konfransının materialları. Bakı: 2012
32. Əhmədov Q. Bu günə necə gəlib çatmışıq. Bakı: 1989
33. Ələkbərzadə Ə. Dünya qopur (roman). Bakı: 1984
34. Əliyev F. XVIII əsrin I yarısında Azərbaycanda ticarət. Bakı: 1964
35. Əliyeva G. Azərbaycanın bədii parça və tikmələri (XIX-XX əsrlər). Bakı: 1990

36. Gülmalıyev M. XVIII əsrin son rübü – XX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu. Bakı: 1989
37. Həbibullayev O. Kültəpədə arxeoloji qazıntılarının ilk nəticələri // Azərbaycan Tarixi Muzeyinin əsərləri. II c. 1957
38. Hüseynov M. Basqal əcdadlarımızın əks sədasıdır. Bakı: 2002
39. Xəlilov C. Xınıslı daş heykəlləri // Azərbaycan SSR EA Məruzələri. XVI c., 1960, №11
40. Xəlilov C.Ə. Qərbi Azərbaycanın Tunc dövrü və Dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Bakı: 1959
41. İbrahimbəyova R, Tariverdiyev C, Tariverdi Z.M. Kəlağayı // Azərbaycan xalçaları. №15, 2015
42. İbrahimov F. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti (IX-XIII əsrlər). Bakı: 1988
43. İbrahimov F. Bakıda metalişləmə tarixi. Bakı: 1995
44. İbrahimov S. İ. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda ağacişləmə sənəti. Bakı: 2001
45. Kalankatuklu M. Albaniya tarixi; Mxitar Qoş. Alban salnaməsi. Bakı: 1993
46. Kitabi-Dədə Qorqud. Bakı: 1962
47. Qarayev E. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində. Bakı: 2005
48. Qasımov A. Şirvan bölgəsində aşkar edilmiş bəzi kitabələr // Arxeologiya və Etnoqrafiya. Bakı: 2003, I c.
49. Qasımova S. İsmayıllı-etnolinqivistik yaddaş // Elm və həyat. Bakı: 2001
50. Qazıyev S. Mingəçevirdə arxeoloji yadigarlar // Azərbaycanın Maddi Mədəniyyəti (AMM), I c. Bakı: 1949

51. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nikah (XIX-XX əsrin əvvəlləri), I hissə. Bakı: 1994
52. Qədirzadə Q. Naxçıvan: Nuh baba və türk atadan gələn yol. Naxçıvan: 2011
53. Quliyev H., Tağızadə N. Metal və xalq sənətkarlığı. Bakı: 1968.
54. Quliyev Ş., Kərimov T. Azərbaycanın ənənəvi nəqliyyat vasitələrindən // Azərbaycan SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası). 1979, №4, s. 67
55. Mahmudov Y. Azərbaycan diplomatiyası. Bakı: 1986
56. Mahmudov Y. Səyyahlar Azərbaycana gəlir. Bakı: 1977
57. Məmmədova F. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı: 1993
58. Məmmədova İ. Azərbaycanda qarşılıqlı yardım formaları. Bakı: 2011
59. Məşədixanım N. Azərbaycanda pirlər. Bakı: 2010
60. Mustafayev A. Azərbaycanda sənətkarlıq. Bakı: 2001
61. Mustafayev A. Azərbaycanda şərbaflıq sənəti. Bakı: 1991
62. Mustafayev A. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı: 2009
63. Mustafayev A. Şirvanın maddi mədəniyyəti. Bakı: 1977
64. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: 2002
65. Mustafayev C. XVIII əsrin ikinci yarısı, XIX əsrin əvvəllərində Azərbaycanda kənd sənətkarlığı tarixindən (toxuculuq və xalçaçılıq) //AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. 1992, №3-4
66. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda boyaqçılıq işi //

Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. 2004. №2
67. Müseyibov M. Azərbaycanın fiziki coğrafiyası (ümumi hissə). Bakı: 1998
68. Nemətova M. Əsrlərin daş yaddaşı. Bakı: 1987
69. Nəsirli M. Yaşayış evinin mənşəyinə dair // Azərbaycan Etnoqrafik Məcmuəsi (AEM), III bur. Bakı: 1977
70. Nurməhəmmədov M.N. Girdiman abidələri. Bakı: 2014
71. Orucov A. Orta əsrlərdə Azərbaycanda dulusçuluq. Bakı: 1989
72. Osmanov F. Basqal-Niyal, Kürdüvan-Xankəndi ətrafında arxeoloji kəşfiyyat. Saleh Qazıyevin anadan olmasının 100 illiyinə həsr edilmiş sessiyanın materialları. Bakı: 1994
73. Osmanov F. İsmayıllı rayonunun arxeoloji abidələri haqqında // Azərbaycanın maddi mədəniyyəti, c. VI. Bakı: 1965
74. Osmanov F. İsmayıllı rayonunun bəzi orta əsr abidələri haqqında // Azərbaycan Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. 1972, №3
75. Osmanov F. Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV əsrlər – b.e. III əsrləri). Bakı: 1982
76. Osmanov F. Qəbələdə bağçılığın inkişafına dair // Azərbaycan SSR EA məruzələri. XVIII, №2, 1962-ci il
77. Osmanov F. Osmanov L. Şirvanda antik dövr dəmirçilik və dəmir əmək alətləri // Milli Azərbaycan Tarixi Muzeyinin əsərləri. 2004
78. Osmanov F. Sulut orta əsr yaşayış yeri və Xirəki istehkamı haqqında // Milli Azərbaycan Tarixi Muzeyi. Bakı: 2003
79. Sarabski H. Köhnə Bakı. Bakı: 1958
80. Şahbazov T. Azərbaycanda islamaqədərki inamlar (tarixi-etnoqrafik tədqiqat). Bakı: 2008

81. Şərifli M. IX əsrin ikinci yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı: 1978
82. Vəlixanlı N. IX-XII əsr ərəb-coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı: 1974
83. Vəliyev F. Azərbaycanda ev tikintisi ilə bağlı xalq adətləri (XIX-XX yüzilliyin əvvəlləri // Tarix və onun problemləri. 2004, №3
84. Yurdumuzun poeziya çələngi. Toplu (Tərtibçi və ön sözün müəllifi Lətifə Mirzəyeva). Bakı: 2006
85. Абелов Н. Экономический быть государственных крестьян Геогчайского и Шемахинского уездов Бакинской губернии // Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. 2-е изд., т. VI, ч. 1-2. Тифлис: 1893
86. Абибуллаев О. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: 1982
87. Агамалиева С. Гончарство Азербайджана (историко-этнографическое исследование). Баку: 1987
88. Алекперов А. Исследования по археологии и этнографии Азербайджана. Баку: 1960
89. Ализаде А. Социально-экономическая и политическая история Азербайджана в XIII—XIV вв. Баку: 1956
90. Английские путешественники в Московском государстве в XVI. Москва: 1938
91. Асланов Г., Ваидов Р., Ионе Г. Древний Мингечаур (эпоха энеолита и бронзы). Баку: 1962
92. Ахмедов С. Проблемы кустарной промышленности Азербайджана // Экономический вестник Азербайджана. 1926. №5-6

93. Бабаев И. Великий шелковый путь и Азербайджан // Великий шелковый путь и Азербайджан. Вчера, сегодня, завтра. Сб. статей, посвященной Международной Конференции по развитию транспортного коридора Европа-Кавказ-Азия. Баку: 1998
94. Безменов В. Извлечение из Сборника сведений о древностях и достопримечательностях Ширвана, составленного на персидском языке ширванским поэтом Хаджи-Сеид-Азимом бин Сеид Мухаммед // ИКОИА, т. 1, вып. 11, 1884
95. Верещагин В. Путешествие по Закавказью в 1864-1865 гг. // Всемирный путешественник. Т. VII. Москва: 1870
96. Газета «Кавказ», 1882, №310
97. Гроссгейм А. Растительные ресурсы Кавказа. Москва: 1946
98. Джабиев Г. Некоторые средневековые памятники Ширвана. AEİA (1985). Баку: 1986
99. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т. 1. Кн. 2. Санкт-Петербург: 1871
100. Журнал для чтения. Кн. 2. Москва: 1864
101. Исмаилов Г.С. Орнаментация керамики древнего поселение Баба-Дервиш и его взаимосвязи с энеолитическими памятниками Закавказья // Археологические исследовании в Азербайджане. Баку: 1965
102. История, география и этнография Дагестана. Москва: 1958
103. К вопросу о водоснабжении ремесленного квартала Байлакана // Материальная культура Азербайджана, т.VII. Баку: 1973
104. Кустарная промышленность национальных республик. Москва-Ленинград: 1926

105. Латышев В. Известия древних писателей греческих и латинских о Скифии и Кавказе. Санкт-Петербург: 1890. Т. 1
106. Легкобытов В Провинция Ширван // Обозрение российских владений за Кавказом. Санкт-Петербург: 1836. Ч. 1-3
107. Лерх И. Извлечения из дневника путешествия доктора Иоганна Якоба Лерха (первое путешествия, пер. с немец. языка Абезгуза) // AMEA TİEA, 1, siyahı 2, iş 486
108. Минорский В. история Ширвана и Дербенда X-XI веков. Москва: 1969
109. Нуриев А. Ремесло Кавказской Албании (III-VIII вв.). Баку: 2009
110. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях, ч. IV. Санкт-Петербург: 1836
111. Олеарий А. Описание путешествия в Московию и через Московию в Персию и обратно. Санкт-Петербург: 1906
112. Османов Ф.Л. Античное поселение у деревни Курдиван // Археологические и этнографические изыскание в Азербайджане (1976). Баку: 1979
113. Пахомов Е. Монетные клады Азербайджана и других республик и краев Кавказа. Баку: 1966
114. Путешествие Ивана Шильтбергера по Европе, Азии и Африке, с 1394 года по 1427 год //Записки императорского Новороссийского университета. Том 1. 1867
115. Рустамбекова А. Орнаментика Азербайджанской набойки в XIX – нач. XX вв. Milli Azərbaycan Tarixi Muzeyi – 2003.
116. Соболев Н. Очерки по истории украшений тканей. Москва-Ленинград: 1935

117. Сумбатзаде А. Сельское хозяйство Азербайджана в XIX в. Баку: 1958
118. Сумбатзаде А. Промышленность Азербайджана в XIX веке. Баку: 1964
119. Тревер К.И. Очерки по истории и культуре Кавказской Албании. IV в. до н.э. – VII в. н.э. Москва-Ленинград: 1959
120. Форстер Г. Путешествие из Бенгалии в Великобританию (пер. с франц. С.Ашурбейли). AMEA TİEA, fond 1, siyahı 1
121. Хамдуллах Казвини. Нузхат ал-кулуб (Материалы по Азербайджану). Пер. с английского З.М.Буниятова. Баку: 1983
122. Хатисов К. Кустарные промыслы Закавказского края // Отчеты и исследования по кустарному промышленности России. Т. 2. Санкт-Петербург: 1894
123. Шавров Н. Пчеловодство в Закавказье // газета "Кавказ". (№ 145)
124. Эфендиев И. Истории медицины в Азербайджане с древнейших времен до XIX века. Баку: 1969

# İXTİSARLAR

| | |
|---|---|
| ADPU | Azərbaycan Dövlət Pedaqoji Universiteti |
| AEİA | Arxeologiya və Etnoqrafiya İnstitutunun Arxivi |
| AEM | Azərbaycan Etnoqrafik Məcmuəsi |
| AMEA | Azərbaycan Milli Elmlər Akademiyası |
| ARDA | Azərbaycan Respublikası Dövlət Arxivi |
| ASC | Açıq Səhmdar Cəmiyyəti |
| ASE | Azərbaycan Sovet Ensiklopediyası |
| DTA | Azərbaycan Respublikası Dövlət Tarix Arxivi |
| QHT | Qeyri Hökumət Təşkilatı |
| TİEA | Tarix İnstitutunun Elmi Arxivi |
| UNESCO | BMT-nin təhsil, elm və mədəniyyət üzrə xüsusi təşkilatı (United Nations Educational, Scientific and Cultural Organization) |

**MÜNDƏRİCAT**

**QƏDİM DİYAR HAQQINDA YENİ ƏSƏR** ........................................ 5

**GİRİŞ** ........................................ 15

**I fəsil. İSMAYILLI: COĞRAFİ, TARİXİ-ARXEOLOJİ VƏ İQTİSADİ OÇERK** ........................................ 25

Təbii-coğrafi şərait ........................................ 27

Tarixi-arxeoloji abidələr ........................................ 33

Müasir İsmayıllı: iqtisadi və mədəni həyat ........................................ 47

**II fəsil. QƏDİM YURD YERİ: BASQAL** ........................................ 57

Yaşayış evləri ........................................ 71

Həyətlər ........................................ 89

Məhəllələr ........................................ 92

Kürəbənd su və kanalizasiya şəbəkəsi ........................................ 98

Bazar meydanı ........................................ 100

Yeməklər və içkilər ........................................ 105

Geyimlər ........................................ 126

ABİDƏLƏR VƏ MEMARLIQ İNCİLƏRİ ........................................ 134

Düzən qəbiristanlığı ........................................ 135

Şeyx Məhəmməd məscidi ........................................................ 139
Hacı Bədəl məscidi ........................................................ 142
Seyid Ümmülbanu türbəsi ........................................................ 145
Pirlər ........................................................ 147
Basqal hamamı ........................................................ 150
Çinar ağacı ........................................................ 155
Bulaqlar ........................................................ 156
Bayramlar. Novruz bayramı ........................................................ 161
Qurban bayramı ........................................................ 171
Orucluq bayramı ........................................................ 174
Xalq təbabəti ........................................................ 176
Xalqın söz xəzinəsi ........................................................ 180
Məktəb və maarifin tarixindən ........................................................ 184

**III fəsil. TƏSƏRRÜFAT HƏYATI VƏ SƏNƏTKARLIQ** ........................ 191
Bağçılıq ........................................................ 193
Arıçılıq ........................................................ 198
Sənətkarlıq ........................................................ 204
İpəkçilik ........................................................ 207
Bədii tikmə ........................................................ 220
Kəlağayıçılıq ........................................................ 222
Boyaqçılıq ........................................................ 234
Kəlağayı boyaqçılığı ........................................................ 239
Dulusçuluq ........................................................ 253
Dəmirçilik ........................................................ 256

Daşişləmə ........ 259
Dabbağlıq ........ 266
Ağacişləmə ........ 269
Kömürbasma ........ 271

**IV fəsil. AİLƏ: ADƏT-ƏNƏNƏLƏR, MƏRASİMLƏR, ETİKET** ........ 277
Ağsaqqallıq institutu ........ 286
Gözəl olur bu yurdun toy-büsatı ........ 289
Qonaq və qonaqpərvərlik ........ 307
Xeyriyyəçilik ........ 314

**Açıq səma altında Muzey, yaxud Etnoqrafik Model-kənd (NƏTİCƏ əvəzi)** ........ 319

**İstifadə olunmuş mənbələr və ədəbiyyat** ........ 327

**İxtisarlar** ........ 337

**Babayev Tofiq Ağababa oğlu**
**Şahbazov Tahir Seyidəli oğlu**

# BASQAL

*Tarixi-etnoqrafik tədqiqat*

Bakı – 2017

Kompüter dizaynı – **Elmar Məhərrəmov**

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

*Nəşriyyat redaktoru* – **Əliş Mirzallı**

*Texniki redaktor* – **Mətanət Qaraxanlı**

Çapa imzalanıb: 27.09.2017.
Format: 70x100 1/16. Qarnitur: Times.
Ofset çap. Ofset kağızı. Həcmi: 21,5 ç.v.
Tiraj: 250. Sifariş № 10.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFIYA MƏRKƏZI

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44; (055) 715 63 99
*e-mail:* *mutarjim@mail.ru*
www.mutercim.az